Rafiq Yusifoğlu

# Dəniz, sən və mən



84(5Aze)-5
Y 94

RAFİQ YUSİFOĞLU

# DƏNİZ, SƏN VƏ MƏN

F. Köçərli adına
Azərbaycan Dövlət Uşaq
KİTABXANASI
İNV. № 49434

Bakı - 2009

*Redaktoru Zahid Xəlil*

Rafiq Yusifoğlu. Dəniz, sən və mən. Şeirlər. Bakı, 2009, 384 səh.

*Azərbaycan Respublikasının Əməkdar mədəniyyət işçisi, "Qızıl qələm", "Vətən", "Araz", "İlin ən yaxşı kitabı" və s. ədəbi mükafatlarını laureatı, görkəmli şair, ədəbiyyatşünas, filologiya elmləri doktoru, professor Rafiq Yusifoğlu çoxlu şeir, nəsr, publisistika, tərcümə kitablarının, ali və orta məktəblər üçün bir neçə dərsliyin, monoqrafiyanın müəllifidir. Şairin "Dəniz, sən və mən" kitabına onun son illərdə yazdığı şeirlər toplanmışdır. Müəllif yeni kitabına "Təzə sevdalara doğru" toplusunda dərc edilmiş şeirlərini də daxil etmişdir.*

**© Rafiq Yusifoğlu**

$\text{©}\ \frac{194721651809}{1957(\partial)21609} - 2009$

# NAĞIL DÜNYASI

## EY ULU YARADANIM

Çox şükür kəreminə,
Ey ulu Yaradanım!
Gücüm çatarmı mənim
Sevgili yarı danım?

Sən gözümüzdə işıq,
Köksümüzdə nəfəssən.
Ürəyimizdə sevgi,
Arzu, dilək, həvəssən...

Sən bizim çörəyimiz,
Havamız, suyumuzsan.
Bizi yoxdan var edən
Əslimiz, soyumuzsan...

Kainatı yaratdın
Bir dəfə deməklə ol!
Qəlbimizdəki sevgi –
Dərgahına gedən yol...

Bizimçün yaratdığın
Dənizlər, çaylar gözəl.
Dərələrdə çeşmələr,
Zirvələrdə qar gözəl.

Çeçələ barmağında
Fırladırsan günəşi.
Yeri, göyü isidir
Ürəyinin atəşi...

Kainatda, həyatda
Bir əbədi hərəkət...
Təbəssümün ələyir
Yerə xeyir-bərəkət...

Yaratdığın hər cücü,
Hər böcək bir aləmdi.
Bitirdiyin hər bitki,
Hər çiçək bir aləmdi.

Yazın, yayın, payızın,
Bəmbəyaz qışın gözəl...
Göylərdə süzüb uçan
Buludun, quşun gözəl...

Səmadakı ulduzlar
Sayı bilinməz ordu.
Yağdırdığın yağışlar
Bəzəyir yeri-yurdu...

Yaratdığın meşələr,
Yamaclar gözlər bizi.
Əsir-yesir eləyib
İlahi gözlər bizi...

Günəşə, aya baxıb,
Heyrətdən lal oluruq.
Möcüzələr önündə
Dönüb xəyal oluruq.

Taleyi əlindədi
Hər xalqın, hər millətin.
Şəfəqlər – təbəssümün,
Qasırğalar – hiddətin...

Bizə doğru yol göstər,
Xoşbəxt olsun elimiz!
Yarəb, qoyma üzülsün
Ətəyindən əlimiz!

Ulu Tanrım, amandır,
Rəhmin gəlsin bəndənə.
Sevdalı qəlbimizi
Salma günah bəndinə...



Pak elə ruhumuzu
Yağdırdığın yağışla!
Bizim günahımızı
Sevgimizə bağışla!

Yerdə, göydə nə varsa
Sənə gətirir pənah.
Dilimizi bəzəyir
La ilahə illəllah!
La ilahə illəllah!

**07.09.2008**

## BAĞIŞLA, ALLAHIM

O qızı görəndə titrədi ürək,
Gözlərim önündə ildırım çaxdı...
Bəndələrin işi günah eləmək,
Allahınsa işı bağışlamaqdı, –
Bağışla, Allahım, məni bağışla!

Saf-çürük edirsən xalisi, qəlpi,
Bu ülvi sevginin yuvası qəlbi...
Özün bəxş etdiyin sevdalı qəlbi
Özün sınayırsan nazlı baxışla, –
Bağışla, Allahım, məni bağışla!

Yenə məcnun könül gəzir dağları,
Sayan var köksümdən qopan ahları...
Bizim etdiyimiz bu günahları
Yumaq olacaqmı qarla, yağışla? –
Bağışla, Allahım, bizi bağışla!

Ocaqda işaran közü bağışla,
Yaşla silələnən gözü bağışla,
Dilimdə titrəyən sözü bağışla,
Bizi bağışla!...
Bizi bağışla!...

**01.06.2008**

## HƏYATIMI SEVGİ NURU BƏZƏYİR

Sevda ilə dolu ömür köçümü
Əzəl gündən verdin mənə pay, Allah!
Bəxtəvərlik doldurubdur içimi,
Nə xoşbəxtəm bu dünyada, ay Allah!

Xəmirimə sevgi nuru qatmısan,
Nə iş olsa, mən görürəm həvəslə.
Ürəyimdə eşq ocağı çatmısan,
Üz-üzəyəm hər an qaynar nəfəslə...

Elə bil ki, dəyişmişəm, başqayam,
Təbəssümün əhvalımı düzəldir.
Dağlarının ayağına baş qoyan
Dənizlərin dalğaları gözəldir.

Nə yaxşı ki, nəfəs kimi gərəyəm
Sidq ürəklə məndən sevgi umana.
Dağlarında dağa dönür ürəyim,
Dənizində köksüm dönür ümmana...

Bu taleyi verdin mənə pay, Allah,
Sevən qəlbim gülüstana bənzəyir.
Şükür sənin kərəminə, ay Allah,
Həyatımı sevgi nuru bəzəyir...

10.01.2009

## TANRIYA XOŞ GEDƏR

Tanrıya xoş gedər
su versən susuz qalan
bir ağaca.
Tanrıya xoş gedər
çörək versən bir aca...
Tanrıya xoş gedər
bir ağlayanın göz yaşlarını
təbəssümünlə dərsən...



Tanrıya xoş gedər
möhtac olan insanlara
sevgi payı versən...

13.09.2007

***

*"Yuxumda Sizi görürdüm. Kimsə mənə deyirdi ki, Siz hamıya Allahın gözüylə baxırsınız, ona görə hamını sevirsiniz. Bu nikbinlik, dərinlik ordandır... - Bu, yuxu deyilmiş...*

*Bir mesajdan*

Qəlbi təmiz olanların
Səsini Tanrı eşidir.
Mən kiməm sevəm, seviləm? –
Məhəbbət Tanrı işidir...

De, necə unudum səni? –
Eşqin məni salıb bəndə.
Tanrı verən məhəbbəti
Boğmağa qadirmi bəndə?!

08.06.2008

## ANA TORPAQ

Ana torpaq, bizsiz qaldın,
Sənsiz gözümüz qaralıb...
Sənin özün qapqarasan,
Bizim üzümüz qaradı...

2007

## İÇƏRİŞƏHƏR

İçərişəhər,
İçərişəhər,
Burax məni
içəri, şəhər!
Qoyardımmı babaların
Yaratdığı dünya sına?
Keçib Qala qapısından,
Girdim nağıl dünyasına...

Qəlbimdə min arzu getdim
Şirvanşahlar sarayına.
Babaların ruhu gəldi
Ürəyimin harayına...

Dolaşıq, ensiz küçələr
Keçmişə uzanan yoldu.
Girdim Xalça muzeyinə,
Qəlbim iftixarla doldu...

Xalılardan, gəbələrdən
Doymur həsrətli baxışlar.
Adamı məftun eləyir
Zərif ilmələr, naxışlar...

Tar dinir, kaman mələyir,
Görən bu səs hardan gəlir?
Muğam evindən yüksələn
Səda uzaqlardan gəlir...

Elə bil ki, Qız qalası
Düşünür, xəyala dalıb.
Bir nəhəng gəmi tək üzüb,
Bu sahildə lövbər salıb...

İçərişəhər, İçərişəhər,
Əcdadımın obasısan.
Bizim gözəl Bakımızın
Qədim, ulu babasısan...

Baxdıqca gözlərim gülür,
Hər evin, hücrən tamaşa.
Möcüzəli bir muzeysən
Sən özün də başdan-başa...

**31.01.2009**



## BAKI

Sən Xəzər sahilində
Ulu, qədim şəhərsən.
Bütün Azərbaycana
Nur çiləyən səhərsən.

Sən odlar diyarının
Paytaxtısan, Bakısan.
Sən bütün şəhərlərin
Müqəddəsi, pakısan.

Sənə yaman yaraşır
Xoşbəxt anlar, toy-düyün...
Elə bil qol-boyundu
Qoynunda keçmiş – bu gün...

Uzaqlara boylanır
Həmişə qız qalası.
Çiçəklərin, güllərin
Heç vaxt deyil solası.

Hər ağacın, hər kolun
Gecələr işıq verir.
Təzə körpülər, evlər
Sənə yaraşıq verir.

Qəlbinin atəşi var
Açan güldə, çiçəkdə.
Bir əlin keçmişdədir,
Bir əlin gələcəkdə...

**01.02.2009**

***

Kiminin bəxtinə
həmişəyaşıl qalmaq,
kiminin bəxtinə
vaxtsız saralmaq,
vaxtsız solmaq düşür.

Bir budaqda
dünyaya göz açsalar da,
kiminin qismətinə
çiçək olmaq,
kiminin qismətinə
yarpaq olmaq düşür...

2008

## YAĞIŞ ALTINDA DÜŞÜNCƏLƏR

Dalğalar coşur, kükrəyir,
Hüdudu var tufanın da.
Dəniz toya getməlidi
Dəli könlümün yanında...

İçimdə fırtına qopub,
Başımda ildırım çaxır.
Üstümə ələnir leysan,
Sel-su topuğumdan axır...

Mənim nələr çəkdiyimi
Heç kəs, heç kəs duya bilməz.
İçimdəki ağrıları
Bu yağış da yuya bilməz...

22.02.2009

***

İşıq arzulayan toxum
Meydan oxuyar qabığa.
Günəşə dal çevirənin
Kölgəsi düşər qabağa.

Sevən sevdiyinə sarı
Ayağı yalınca gedər.
Üzü günəşə qaçanın
Kölgəsi dalınca gedər...

06.03.2009



***

Bu necə dünyadı,
adamın yaşamağa da
qalmayıb həvəsi.
Koroğlunun heykəli üçün
nəzərdə tutulan yerdə
yanacaqdoldurma
məntəqəsi tikdirib
keçəl Həmzənin nəvəsi...

11.03.2009

## MƏNİM VƏFALI YARIM

Hər səhər yollarımı
Gözləyənim var mənim.
Ürəyimdə yurd salıb
Əbədi bahar mənim...

Yuxudan duran kimi
Görüşünə qaçıram.
Dönmüşəm qağayıya,
Dövrəsində uçuram...

Yollarıma dikilən
Mavi gözlər yol çəkir.
Alır məni qoynuna,
Hirsimə sığal çəkir...

Görüşünə getməsəm,
Gözləri qalar yolda.
Xəyanət eləməyib,
O, mənə bircə yol da!

Hər gülü qoxlamadım,
Hər çiçəyi dərmədim.
Hələ ondan vəfalı
Bir sevgili görmədim...

Gah pələngə bənzəyir,
Gah quzuya dönür o.
Ancaq hər vaxt sevgiylə,
Məhəbbətlə dinir o...

Mən ondan öyrənmişəm
Vəfanı, sədaqəti.
Taleyim çox görməsin
Mənə bu məhəbbəti...

Onu gördüyüm gündən
İçimdə eşq közərdi...
Mənim vəfalı yarım
Mavi gözlü Xəzərdi...

**24.11.2008**

## BƏYAZ NAĞIL

Gözlərim sevgiylə dörd yana baxır, –
Sanki həsrət imiş torpaq sığala.
İlin ilk günüdür, qəşəng qar yağır,
Dünyamız bənzəyir bəyaz nağıla...

Köksümdən boylanır dərin bir həsrət,
Nələrə dəyməzmiş könül sazlığı?!
Qəlbimizdə olan sevgi, məhəbbət
Bir az da artırır bu bəyazlığı...

Bizə gəl-gəl deyir yeni qərinə, –
Çoxdan adlasa da ömür yarıdan.
Gələn yeni ilin qədəmlərinə
Dümağ qar ələyir ulu Yaradan...

Yoxdur bir qorxumuz nə qədər yağsa,
Sevgiylə qarşıla gələn qışı da.
Eşqimiz önündə üzümüz ağsa,
Ağ günlər gözləyir bizi qarşıda...

**01.01.2009. Bakı**



# SEVGİ DUYĞULARI

## DƏNİZ, SƏN VƏ MƏN

Nurlu səhər arzusu qəlbini deşir, –
Həyəcandan dənizin atlanır doşü...
Gözləyirik yolunu doğan günəşin
Dəniz, sən və mən...

Gözlərimiz önündə gözəl tamaşa,
Ürəyimiz çevrilib qanadlı quşa.
Xoşbəxt anlar yaşadıq verib baş-başa,
Dəniz, sən və mən...

Qollarımın üstündə mürgülə, uyu!
Unutma bu anları sən ömrün boyu...
Üç qəlbdə bir can kimi olduq qol-boyun
Dəniz, sən və mən...

Məhəbbət qəlbimizin oldu hakimi,
Sığalladın başımı sən ana kimi...
Birlikdə yaşayaydıq son ana kimi
Dəniz, sən və mən...

**26.05.2008**

## DƏNİZ SAHİLİNDƏ

Nəğmə oxuyurdu ləpələr bizə, –
Qisməti bu imiş kövrək olanın...
Gözündə bu dünya gözəlləşərmiş
Köksündə sevdalı ürək olanın...

Bəxtəvər olarmış insan sevəndə,
Adamın gülərmiş sevgidən üzü.
Sahildə gəzirdik, ürəyimizdə
Coşub kükrəyirdi sevgi dənizi...

Ayrılsaq, gözümüz nəmli qalacaq,
Tanrım, bu sevgini çox görmə bizə!
Hicran əzabını qov uzaqlara,
Kövrək qəlbimizi sevgiylə bəzə!...

21.05.2008

## NİYƏ MƏNƏ KÖNÜL VERDİN

*"Yaşamaq işığa doğru can atmaq deməkdir. Mənim məşəlim Sizin əlinizdədir, ömrüm. Sizsizlik arzular xaosu, həsrətiniz xəyallar və əzablar dəfinəsidir, ruhum..."*

*Bir mesajdan*

Günəş arzulayan könlün
Düşüb dumana, çiskinə...
Sənin sevdalı qəlbini
Həsrət qoyubdur pis günə.

Sevənlər iztirab çəkir, –
Bu dərdin varmı əlacı?
Sübhədək aya baxırsan,
Gözlərindən yuxu qaçıb...

Sənin həsrət kitabının
Nə cildi var, nə varağı...
Sevgi əzab verir... Ancaq
Ondan şirin nə var axı?!

Niyə könül verdin axı
Saçlarında dən olana?
...Ah-uf eləmək yaraşmaz
Sevgilisi mən olana...

**19.05.2008**



## HEÇ NƏ BAĞIŞLAYA BİLMƏDİM SƏNƏ

*"Zirvə həsrətim mənim... Hayandasa, hansı andasa məni udacaq uçurumuna vuruldum. Məni bu müharibə yaşadır, onu dayandırmayın, ruhum..."*

*Bir mesajdan*

Gözümü görəndə sevdalı qəlbin
Yaralı quş kimi ötmək istəyir.
Sevgim çağrılmamış qonağa dönüb,
Könlünə sahiblik etmək istəyir...

Sən tək deyilsən ki, eşqə düşənin
Ürəyi titrəyir, gözü nəm olur.
Məhəbbət insanı tilsimə salır,
Sevginin bəzəyi həzin qəm olur...

Bilmirəm nə üçün fırtına qopur,
Üz-üzə gələndə həyəcan artır?
Baş aça bilmirəm, niyə qəlbimiz
Sevinclə yoğrulan qəmə can atır?!

Bizim taleyimiz necə olacaq
Bu eşqin başında şimşəklər çaxsa?! –
Qov onu, qəlbinə yaxın buraxma,
Güvə tək içini yeyəcək yoxsa...

Sənin yaz ətirli sevgin, əzizim,
Məni həsrət qoyub ömrün qışına...
Bağışla, günahım böyükdür mənim,
Gərək çıxmayaydım sənin qarşına...

Əllərin darıxıb əlimdən ötrü,
Ürəyin çırpınır, deyirsən: -Tez gəl!
Heç nə bağışlaya bilmədim sənə
Sevgi əzabından, həsrətdən özgə...

**20.05.2008**

## TƏZƏ DUYĞULAR

*Ruhum! Sayəndə həyatı bambaşqa rəngdə görürəm. Çox xoşbəxtəm...*

*Bir mesajdan*

Gözündə büsbütün dəyişib aləm,
Eşqim qəlbinə nur nəqş eləyibdir.
Tale gözünə yaş, baxışına qəm,
Ürəyinə sevgi bəxş eləyibdir...

Təzə qönçə tutub sevgi çiçəyin,
Mənimsə ömrümə səpələnib qar...
Üz-üzə gələndə əsir ürəyin,
Köksündən boylanır təzə duyğular...

Qayğısız günlərin çəkib köçünü,
İnci axtaranlar üzər dərində...
Ah-ufla doldurub sevgi içini,
İntizar bərq vurur kirpiklərində...

Ürəyin eşq ilə gəlsə də dilə,
Gözlərin yol çəkir, əlin soyuqdu...
Bu qədər ah-uflar içində belə
Xoşbəxt olmağından xəbərin yoxdu...

Tanrı hüzurunda açılıb dilin,
Sirrini, sözünü göyə deyirsən.
Sahibi olmusan sevdiyin əlin, –
Daha sən xoşbəxtlik nəyə deyirsən?!...

**22.05.2008**



## GÖZLƏRİN GÖZÜMÜ ƏSİR EYLƏYİB...

*"Nə haqla sevgimizin ömrünü şimşəyə bənzədirsiniz? Hisslərimi kiçildərək təhqir etdiyinizin fərqindəmisiniz?"*

*Bir mesajdan*

Sözlərin qəlbimə təsir eyləyib,
Bulud tək dolsam da, yağa bilmirəm.
Gözlərin gözümü əsir eyləyib,
Daha özgələrə baxa bilmirəm.

Qınama uzaqda çaxan şimşəyi,
Mizrab tir-tir əsdi, od simə düşdü...
Gözündən boylanan həzin gileyi
Görəndə gözlərim tilsimə düşdü...

Nağılın sonunda düşər üç alma,
Əsər xəzan yeli, gələr qar, boran.
Sevdalı qəlbimə biganə olma,
İtirə bilərsən sən onu hər an...

Ayrılsaq, inləyər qəlbimin simi,
Qanlı-qanlı baxma sən öz ovçuna.
Ürəyim bir payız yarpağı kimi
Qopub düşə bilər sənin ovcuna...

Kədər buludları çəkdi köçünü,
Qəlbimin həmdəmi qərib göylərdi...
Sevgi yağışları yudu içimi,
Çat-çat ürəyimdə həsrət göyərdi...

**24.05.2008**

F. Köçərli adına
Azərbaycan Dövlət Uşaq
KİTABXANASI
İNV. № 49434

## MƏNİ GÖZLƏYİRSƏN YUXULARINDA...

*"Yuxularım – sevgilimlə görüş yerim... Məni çox gözlətmə, ruhum, darıxmışam. Yuxularımda gözləyirəm sizi..."*

*Bir mesajdan*

Gerçəyə bənzəyir yuxuların da,
Nələr, nələr keçir sənin könlündən?
Məni gözləyirsən yuxularında, –
Daha nə gəlir ki, sənin əlindən?!

Həsrət alovunda ürəyin bişir,
Çevrilib şimşəyə hərdən çaxırsan.
Gözünü yumanda dünya dəyişir,
Hicran əzabından hayıf çıxırsan...

Boynuna salıram gecə qolumu,
Hər kəsə bir tale yazıbdır qədər.
Bağlaya bilməyir kimsə yolumu,
Qonağın oluram səhərə qədər...

Qara buludları doğrayan şimşək
Aydın səmalarda bir də görünməz.
Həsrət alovunda nə qədər bişək? –
Nə vaxt çin olacaq yuxuların bəs?!

**25.05.2008**

***

Gözlərim qərq olub
gözlərinin dərinliyində.
Dodaqlarım çat-çat olub,
dodaqlarının şirinliyindən...

**27.05.2008**



## ELƏ-BELƏ YAŞAMADIM DÜNYADA

*"Bacarsam, indicə yanınıza gələrəm. Dost kimi, elə-belə. Sıxaram əlinizi, gecəni beləcə əyləşib seyr edərəm büsbütün valeh olduğum insanlıq mücəssiməsini..."*

*Bir mesajdan*

Mənim sevgi dəyirmanım dünyada
Neçə-neçə vəfasızı üyütdü...
Elə-belə yaşamadım həyatda,
Qəlbimdəki sevgi məni böyütdü...

Gözüm qaldı gözəllərin xalında,
Dəli sevda ağ elədi üzümü.
Arzuların, diləklərin yolunda
Oda vurdum, közə vurdum özümü...

Dözümümə heyran qaldı dünya da,
Gözlərimə duman çökdü, bayıldım.
Elə-belə yaşamadım dünyada,
İlan kimi qabıq qoydum, soyuldum...

Ümid verdim taleyindən küsənə,
Sevgi oldu imanım da, dinim də.
Qulaq asıb ürəyimin səsinə
Əyilmədim bir kimsənin önündə...

Mən başıma gələnləri danışsam,
Bilərdin ki, nədir dözüm, dəyanət.
Elə-belə sevgilərə alışsam,
Ölə bilər içimdəki məhəbbət...

Fırtınalar oynamazmı canında? –
Gözlərimə hünərin var otur bax!
Ömrüm-günüm, axı mənim yanımda
Mümkündümü elə-belə oturmaq?!

Ulu Tanrım sevgi qatıb xəmrimə,
Salıb mənim saçlarıma sevgi dən.
Gəlirsənsə, şimşək tək gəl ömrümə,
Xoşum gəlmir elə-belə sevgidən...

28.05.2008

***

"...Yalvarıram dənizə getməyin,
soyuqdur, xəstələnə bilərsiniz.
Yarı canım sizin yanınızdadır."

*Bir mesajdan*

Məni qoruyardın imkanın olsa
Soyuq küləklərdən, qardan, yağışdan.
Məni qoryardın imkanın olsa
Gözümə dikilən neçə baxışdan...

İçimdə hər səhər açan çiçəyin
Vaxtsız solmasına qıyma, amandır.
Mənim də sözümə baxmır ürəyim,
Ona qadağalar qoyma, amandır...

Bəxtəvər olmuşam sevgi sarıdan,
Qəlbimin istisi hamıya çatıb.
Köksümün başında ulu Yaradan
İlk gündən bir sevgi ocağı çatıb...

Soyuq baxışlardan üşüyürəm mən,
Xəyanət görəndə göynəyir içim.
Sevginin önündə baş əyirəm mən,
Hər şeyə hazırsan sən mənim üçün...

Sevdalı ürəyin batmasın qəmə,
Qolumu sarıya bilməyəcəksən.
Azadlıq verməsən sevən qəlbimə,
Sən məni qoruya bilməyəcəksən.



Məni qısqanırsan bu dalğalara,
Qıyma ki, ilhamım sönə, əzizim.
Əgər məhəl qoysam qadağalara
Könül verərdimmi sənə, əzizim?!

Üzümü qarsanda qaynar nəfəsin,
Qorxuram şimşək tək çaxa bilməyəm.
Gücüm yox içimdən boylanan səsin
Əmrindən, sözündən çıxa bilməyə...

30.05.2008

## YENƏ GÖZ-GÖZƏYİK

Bir tük də yayınmaz iti gözümdən,
Gəl eşq göylərində bərabər uçaq.
Mənim kül altında qalan közümdən
İsti nəfəsinlə çatdın bir ocaq...

Yenə şölə saçdı od dilim-dilim,
Küləklər apardı qara tüstümü...
Ömrümün ixtiyar çağında, gülüm,
Qəfil qasırğa tək aldın üstümü...

Önümdə qırmızı işıqlar sönüb,
Baxışın səmimi, sözün səmimi.
Arzular bəmbəyaz yelkənə dönüb,
Uzağa səsləyir sevgi gəmimi...

Köksünü yandırır qaynar nəfəsim,
Bizə qibtə edir günəşin özü.
Geriyə dönməyə yoxdu həvəsim,
Öndə uçurumlar gözləyir bizi...

Qucmaq istəyirəm laciverd göyü, –
Bilmirəm içimdə bu nə həvəsdi?!...
Qarşıda nələr var vecimə deyil,
İndi göz-gözəyik, – bu mənə bəsdi...

**01.06.2008**

## DÖNMƏ YOLUNDAN

*"Yol üstündəydim, yarıyoldan qayıtdım. Çünki getsəm, ürəyimi apara bilməyəcəkdim. Geri döndüm, nə dəyişib? İndi də ürəyimlə bacara bilmirəm..."*

*Bir mesajdan*

Dönmə yolundan, dönmə, əzizim,
Sən üzü ağ çıx dardan, çətindən!
Başı havalı şairdən ötrü
İmtina etmə səadətindən...

Dönmə yolundan, dönmə, əzizim,
Həsrət dönsə də, iti qılınca, –
Göz yaşlarımı selə döndərib,
Su çiləsəm də sənin dalınca...

Dönmə yolundan, dönmə, əzizim,
Hər şeyin sonu yaxşı olacaq...
Dönmə yolundan, dönmə, əzizim,
Gözləyir səni bir isti ocaq...

Dözə bilmərəm hər an yol çəkən
Qəmli gözlərin baxışlarına...
Dözə bilmərəm bir nakam eşqin
Ürək göynədən qarğışlarına...

Geri qayıtma, doğru yoldasan,
Sən ayaqları yalınca yüyür...
Məhəl də qoyma yoldan ötənə,
Səadətinin dalınca yüyür...

**03.06.2008**



## SONU AYRILIQDI BU MƏHƏBBƏTİN

Bu eşqin yolları qatı dumandır,
Qoyma ki, xəzana çevrilsin bahar...
Qayıtma yolundan, yavrum, amandır,
Həsrətlə yolunu gözləyənin var...

Ləngitmə ömrünə yol gələn toyu,
Amandır eləmə sən yarı yoldan!
Zillət çəkəcəksən həyatın boyu,
Geriyə qayıtma sən yarı yoldan!!!...

Bu dəli sevdaya kim haqq verər, kim? –
Bizi bağışlamaz qar, qış yiyəsi...
Alqışçın yoğrulub sevdalı qəlbim,
Olmaq istəmirəm qarğış yiyəsi...

Yoluna nur saçan odu, atəşi,
Bir batan sədaya, ünə dəyişmə!
Ömrünə təzəcə doğan günəşi
Qüruba əyilən günə dəyişmə!

Səni aldatmasın bənövşə ətri,
Baxıb gözlərimə hey köks ötürmə...
Bir şimşək ömürlü sevgidən ötrü
Qoyma səadətin dönsün yetimə...

Haray var, tufan var sənin səsində,
Sonu ayrılıqdı bu məhəbbətin.
Bir ötən sevginin xərabəsində
Təzə yuva qurmaq çətindir, çətin...

**03.06.2008**

***

Səni yolundan
eləmək istəmirəm,
İçimdəki tufansa
yatmır...
Ancaq...
bu gecikmiş səadətdən
imtina eləməyə də
gücüm çatmır...

04.06.2008

## DODAQLARIM ÇƏTİN YALAN SÖYLƏYƏ

Hələ belə sevməmişdim heç kimi,
Şükür, verdi taleyim bu fürsəti!
Duymursanmı sənə olan eşqimi,
Görmürsənmi gözümdəki həsrəti?

Qəlbin əsir, ah çəkirsən arabir, –
Şimşəklərmi şəfəq saçan gözündə?
Mənim titrək dodaqlarım arabir
Közə dönür yanağında, üzündə...

Ömrüm-günüm, məni peşman eləmə,
Qoyma dönüm qərib, tənha leyləyə.
Etibarım olmasa da dilimə,
Dodaqlarım çətin yalan söyləyə...

Gözlərimə dikiləndə baxışlar,
Niyə qara gözlərinə qəm çökür?
Bəbəklərin silələnib yağışla,
Kirpiklərin havadan da nəm çəkir...



Qısqanclıqla ürəyimi üzmə çox,
Üşütməsin səni soyuq, səni nəm.
İçindəki həyəcana lüzüm yox,
Dodaqlarım söyləmirmi səninəm?!

4-5.06.2008

## HARDAN GƏLDİN

İçimdə söz çağlasa da,
çarəm yoxdu, susuram...
Mənim sevgi çəmənzarım
bağlayanda sırsıra,
Baş qoymağa hazır ikən
Tanrının ayağına,
Təzə-təzə qar yağarkən
eşqin uca dağına,
Baxışların müjdə verdi
bir gecikmiş bahardan,
Hardan gəldin axı mənim
taleyimə, sən hardan?!
Tanrı bəxşiş göndəribdir
hər dərd-səri şairə,
Niyə axı könül verdin
bir sərsəri şairə?!
Gözlərimi görən gündən
qəlbin düşdü həvəsə,
Məndən başqa adam yoxmu
oxşayasan, sevəsən?!
Sən təptəzə bir çiçəksən,
mən saralmış yarpağam,
Bu gün-sabah yel əsəndə
düşəcəyəm torpağa...
Ayrılıqdan söz düşəndə
gözündə yaş qaynayır,
Kirpiklərinin ucunda
ildırımlar oynayır...
Eşqin uca dağlarına

tənha necə çıxasan?
Niyə məni tapırdın ki,
itirməkdən qorxasan?!
Yarıyolda qalanları
öndəkilər soruşmaz,
Yarı yolda qoyub getmək
axı mənə yaraşmaz!...

08.06.2008

## SƏNLİ XATİRƏLƏR

Sahildəyəm, ürəyimdə
Həsrət odu sayrışır...
Pıçıldaşan ağ ləpələr
Səni məndən soruşur...

Tək qalmışam, sevən qəlbim
Göynəyir göyüm-göyüm...
Elə bil rəngi dəyişib,
Dənizin, yerin, göyün...

İçimdəki sevgi odu
Közərir aram-aram...
Mənə laqeyd olan kəsi
Heç zaman aramaram...

Qəlbimi nura qərq edən
Məhəbbətin gücümü?!
Xatirələr təbəssümlə
Bəzəsə də içimi,

Ürəyim yarpaq tək əsir,
Götürmüşəm qələmi.
Sənli xatirələr belə
Səni əvəz eləmir...



Tənhalıqdan qəlbim əsir
Bilmirəm yer, göy nədir?
Ayrılığın közə dönüb,
Ürəyimi göynədir...

12.06.2008

## SARI KƏPƏNƏYİM

Sarı kəpənəyim, sarı kəpənəyim,
Heyrətindən donmusan...
Ürəyimi çiçək bilib,
Düz sinəmə qonmusan...

Qanadların yelpik kimi
Həsrətimi közərdir...
Sarı kəpənəyim, sarı kəpənəyim,
Dünya necə gözəldir!...

13.06.2008

## SƏNSİZLİK

İsti ocaq axtarır
Uçan durna qatarı.
Yurduna qayıdacaq
Haçan durna qatarı?

Yoxsan, tənha qalmışam,
Ölmürəm sənsiz niyə?
Necə dözəcəyəm bəs
Əbədi sənsizliyə?!

Ağac neyləsin yarpaq
Tərk edirsə budağı?
Tir-tir əsən ürəyim
Olub payız yarpağı.

Şimşək çaxır gözümdə,
Dözmürəm sənsizliyə.
Baş açmıram özümdən,
Ölmürəm sənsiz niyə?!

13.06.2008

***

Deyəsən heç əzab vermir ayrılıq ona, –
Niyə gəlmir?
Mən nə qədər tənha gəzəcəm?
Dözəmmirəm üç-dörd günün ayrılığına,
Bəs əbədi ayrılığa necə dözəcəm?!

13.06.2008

***

Bəlkə titrək əllərin
bir daha dəyməyəcək
əllərimə? –
Neynirəm axı
sənsiz keçən ayları,
illəri mən?!
bəlkə həsrətli qolların
bir daha dolanmayacaq
boynuma?
Neynirəm axı sönən ocağı? –
Külümlə oynama!
Bəlkə sevdalı baxışların
bir daha dikilməyəcək
gözlərimə? –
Neynirəm axı
gözlərimə baxmayan
gözləri mən?!
Bəlkə qaynar nəfəsin
bir daha qarsmayacaq
üzümü?!
Bəlkə bir daha
bəxtəvərlər bəxtəvəri



sanmayacam özümü?!
Üstümüzə doğru gəlir
qara bir kölgə...
-Sevginiz çıraq olsun!
-Bir daha görüşməyəcəyik
bəlkə?
-İraq olsun!

13.06.2008

## SƏN DAĞA ÇIXIB GƏZİRSƏN

*"Telefonum şəbəkə xaricindədi. Sizə sms yazmaq üçün dağa çıxmışam. Bura çox gözəldi..."*

*Bir mesajdan*

Uca dağlara qalxanda
Gözünə nələr görünür?
Dönüb dörd yana baxanda
Güllər təzə-tər görünür...

Mən dərənin dibindəyəm,
Sənsə əlçatmaz, ucasan...
Bəxtəvərə çevrilmisən,
Qanadın yoxdur uçasan...

Durna tək hazırlaşırsan
Uzaq, uzaq bir səfərə...
Mənimsə ümidim yoxdu
Açılan nurlu səhərə...

Hicrana necə dözürsən? –
Sənsiz necə sağ gəzirəm?
Sən dağa çıxıb gəzirsən,
Mən köksümdə dağ gəzirəm...

14.06.2008

## ÖYRƏŞ MƏNSİZ YAŞAMAĞA,ƏZİZİM

Tanrı mənim ürəyimi yaradıb,
Kədər yükü daşımağa, əzizim.
İstəmirəm sənin qəlbin dərd çəkə,
Öyrəş mənsiz yaşamağa, əzizim...

Unutmaqçün nəfəsimin ətrini
Bənövşələr sənə kömək olacaq.
Məni yaddan çıxarmaqçün o dağlar,
O meşələr sənə kömək olacaq...

Su içəndə bulaqların gözündən
Gözlərimin rəngi yaddan çıxacaq.
Barışanda səni sevən adamla,
Bu məhəbbət cəngi yaddan çıxacaq...

Kimi görsə həyəcanla döyünən –
Qəlbi vuran bir şairə qoşulma!
Sənin könlün xoşbəxtlikçün yaranıb,
Qəlbi viran bir şairə qoşulma!

Bir az məndən ayrı gəzib dolaşsan,
Ürəyində həsrət odu sönəcək.
Öz yolundan sapan dəli ürəyin
Yenə də öz orbitinə dönəcək...

Bir qadir əl yapışacaq əlindən,
Su səpəcək közlərimin üstünə...
Sənin sevgi gülzarında gec, ya tez
İz düşəcək izlərimin üstünə...

Tanrı mənim ürəyimi yaradıb,
Kədər yükü daşımağa, əzizim.
İstəmirəm sənin qəlbin dərd çəkə,
Öyrəş mənsiz yaşamağa, əzizim...

**15.06.2008**



***

*"Sizdən öncə də tək idim, indi də tək qaldım. Peşman olmasam da, heç xoşbəxt də deyiləm. Yarıyolda atıldım..."*
*Bir mesajdan*

Çarə varmı gün əyilsə batmağa? –
Əl edərlər çıxıb gedən qatara.
Heç gələrmi əlim səni atmağa? –
Qədəminə ürəyimi ataram...

Kömür edib məni eşqin şimşəyi, –
Bir sevdalı təbəssümdən od alar...
Ayrılıqdan zara gələn ürəyim
İstəmir ki, bir də onu atalar...

Od yanmasa, tüstü çıxmaz bacadan,
Dərd gölündə üzürmüşsən elə bil.
Qopmaq üçün bir sərsəri qocadan
Sən bəhanə gəzirmişsən elə bil...

Sına bilər, gülüm, bənddi qəlb himə,
Mənim kimi sevə bilər kim səni?
Gəl şər atma bu divanə qəlbimə,
Bu vaxtacan atmayıb bir kimsəni!

Çarə varmı gün əyilsə batmağa? –
Əl edərlər çıxıb gedən qatara.
Heç gələrmi əlim səni atmağa? –
Qədəminə ürəyimi ataram...

**15.06.2008**

***

İçimdə buludlar gəldi baş-başa,
Qəfil şimşək kimi çaxdı məhəbbət.
Yenə sevgi oxum tuş gəldi daşa,
Nifrət zirvəsinə qalxdı məhəbbət.

Ruhumu güvə tək yeyir xəfif qəm,
Özüm boğuluram mən öz tüstümə.
Daha sahilə də gedə bilmirəm,
Həsrətin dəniz tək gəlir üstümə...

**18.06.2008**

***

Sənin aldığın
nəfəs də şeirdi,
Dodağından qopan
səs də şeirdi...
Üzündəki təbəssüm,
baxış – şeirdi.
Gözlərindən yağan
yağış – şeirdi. –
Mən bu şeiri
kağıza köçürürəm sadəcə...
Ona görə də üz-üzə gələndə
sinəmdən bir ah qopur gizlicə...

**19.06.2008**

***

Sönməyə məhkumdur ən gur çıraq da,
Onun kədərinə olaq şərik biz.
Bəlkə də dayanıb həsrət marıqda,
Bəlkə də son dəfə görüşürük biz...

Verə bilməyəcək yerimi heç kim, –
Qara gözlərinə zülmət çökəcək...
Bilirəm, axırı yoxdu bu eşqin,
Bilirəm, qəlbimiz zillət çəkəcək...

İçimdən boylanır dəniz havası,
Ürəyim köksümdə boğula bilər.
Gizli qurduğumuz sevgi yuvası
Bir kobud kəlməylə dağıla bilər.

Kösövüm közərir hey için-için,
Yol çəkən gözlərin yuxusu yoxdu.
Odla oynamağı sevənlər üçün
Külə dönməyin də qorxusu yoxdu...

**19.06.2008**



***

Mənim qəlbim qan ağlayır,
Gülən sənin üzün olsun!
Sındırdığın şair qəlbi
Qoy sənin cehizin olsun!

**20.06.2008**

***

Tək adam neylər qoşuna? –
Qəlbim tuş gəldi qurşuna...
Ağlın qayıtdı başına, –
Gerçək eşqin yalan oldu.

Səhralıqda çiçək bitməz,
Viranədə bülbül ötməz,
Məlhəm də köməyə yetməz,
Daha mənə olan oldu...

Bu yaşda kimi arayım?
Haraya çatar harayım?
Uçdu xoşbəxtlik sarayım,
Arzularım talan oldu...

**20.06.2008**

***

Füzuli babam dərd əlindən
dağa çıxardı,
mən dənizə getdim...
Köksümdə açılan
həsrət çiçəklərini
üzə-üzə getdim...
Başıma uçdu
xəyalən qurduğum
xoşbəxtlik sarayı,
Dəniz də ovundura bilmədi
köksümdən püskürən
hönkürtünü, harayı...

**20.06.2008**

***

Sən məni hər ay ara!
Gedirsən hər ay hara?
Yaramı qan apardı,
Çatacaq haray hara?!

**20.06.2008**

***

Gözlərini görəndə
tüstü çıxdı başımdan. –
Gördüyüm qəribə yuxunu
yoza bilmədim…
Telefon nömrəni pozdum
telefonumun yaddaşından,
Dodaqlarının izini
dodaqlarımdan
poza bilmədim…
Nəfəsinin istisi
ciyərlərimi zəbt eləyib,
Həsrətli baxışların
gözlərimə hopub.
Səni itirməkdən
elə qorxuram ki,
içimdə fırtına qopub…
İstəyirəm dəli kimi
haray çəkim, bağırım…
Bilmirəm necə olacaq
mənim axırım?!
Həsrətdən üşüyən ürəyimi
bircə il də qoymadın
ürəyində qışlamağa…
Daha taqətim
qalmayıb, əzizim,
hər şeyi yenidən
başlamağa…

**20.06.2008**



***

Təpəmdən tüstü qalxır,
Həsrət oduyla alovlanıram.
Niyə insanlar sevənləri
duymurlar? –
Sən orda yanırsan,
Mən burda yanıram,
Bizi iki kösöv kimi
baş-başa verib
yanmağa da
qoymurlar…

**21.06.2008**

***

Duman tək üstümə çökmə, əzizim,
İçimə qaranlıq hopsa, neylərsən?
Məni çox sınağa çəkmə, əzizim,
Ürəyim yarpaq tək qopsa, neylərsən?

Neylərsən köksünün odu sönənə? –
Qəlbə həsrət çatı, saça dən düşür.
Arxayın oldun ki, daha səninəm, –
Bizim olan şeylər dəyərdən düşür…

Niyə qurban verdin məhəbbətini? –
Ayrılıq dağları kəsdi aranı.
Qədrini bilmədin səadətinin,
Unutdun: bir hökmü olur hər anın…

Bu qədər axmasın gözünün yaşı,
Biz kimik? – Yenə də yalvar Allaha!
Xırda qayğılara qarışdı başın,
Sevgi qatarına gecikdin daha…

**21.06.2008**

## ŞEH VƏ ÇİÇƏK

*"Siz şehsiniz, mən çiçək. Şeh çiçəyin göz yaşıdır. Sizi arzularımda axtarıb, göz yaşlarımda tapıram."*

Bir mesajdan

Yaz gülü sınağa çəkdi
Ömrümün qışında məni.
Arzularında axtarıb,
Tapdı göz yaşında məni.

Özümə acığım tutub, –
Niyə gülü qönçə dərdim?
Mən ona xoşbəxtlik deyil,
Bolluca göz yaşı verdim.

O gözlərə baxanda mən
İçimdə sevgi dil açır.
O yaşın hər damlasında
Həyat nuru şəfəq saçır...

O çiçəyin bəbəyində
Bərq vuran sübh şehinə bax!
Onu bir cavanın eşqi
Əvvəl-axır qurudacaq...

O şeh səni qorxutmasın,
Günəşə lap yaxındasan...
Mənim ömrümə az qalıb,
Sən ömrün sübh çağındasan...

**21-22.06.2008**

***

Bir gecikən məhəbbətin
Oduna tonqal çatmışıq.
Niyə naşükür oluruq,
Biz xoşbəxtliyi dadmışıq...



Bir sevdalı təbəssüm də
Ürəyi istidə bilər.
Ömrün bir xoşbəxt anı da
Bir ömrə bəs edə bilər...

**22.06.2008**

***

*"Qəm buluduyam, göyə çəkildim. Buz yağışına dönüb özümü pəncərənə çırpıram. Hirsim soyumur ki, soyumur...*

*Bir mesajdan*

Hər gözün bir tòpa bulud,
Ürəyin bir yanar ocaq...
Qısqanclıq bir şimşək kimi
O buludu doğrayacaq...

Üzmə ürəyini, yavrum,
Sevinc körpə, qəm uludu.
Yağacaq sevgi leysanı,
Göyü tutub qəm buludu.

Bəxtəvərə döndərəcək
Qəlbimi sevdalı baxış.
Mənim çat-çat ürəyimə
Həyat verəcək o yağış...

**23.06.2008**

***

Ömrüm boyu dağ seli tək
Kükrəmək xoşuma gəlib.
Tükənməkdən çəkinmişəm, –
Qorxduğum başıma gəlib?!

Tufan uman ürəyində
Mən fırtına yaratmadım.
Bitib-tükəndi qüdrətim,
Heyf, səni yarıtmadım...

Başıma dağlar, dərələr,
Torpaq da, göy də fırlanır.
Ələyim çoxdan ələnib,
Xəlbirim göydə fırlanır...

Elə bilirdin içimdə
Ətirli çiçəyim qalıb.
Bir vaxt ayılıb gördün ki,
Vecsizəm, cəciyim qalıb...

Məni vaxtında ayıltdın, –
Dəyməzmiş huşa getməyə...
Təpərim yoxmuş səninlə
Sonacan qoşa getməyə...

Aldın məndən umduğunu,
Daha bitib tükənmişəm.
Nəyə görə könül verdin
Axı bitib-tükənmişə?!

İncməyə haqqım yoxdu, –
İşgəncə vermə özünə.
Sevgi qapısı açılmaz
Hər bəxtəvərin üzünə...

Umacaqlı ürəyimin
Verəcəm haqq-hesabını.
Əlim gələrmi döyməyə
Üzümə bağlı qapını?!

Ancaq özü sökə bilər
Qəlb evimi tikən kişi...
Əbəs yerə qısqanırsan
Sən bitmişi, tükənmişi...

**24.06.2008**



***

Niyə özünü yorursan? –
Dan yerinə dönməz qürub.
Sənin sevdalı gözlərin
Ürəyimdə yuva qurub...

Mənə kim inanar axı
Sevdiyimi əgər dansam?!
Ciyərimdə təzə hava,
Damarımda təzə qansan...

Baxışların qələm çəkdi
Həyatımın sükutuna.
Dodaqlarımı bənzətdin
Sevgimizin tabutuna...

Adi ömür yaşamaqdan
Elə bil ki, usanmısan.
Çaşıb qalmışam heyrətdən,
Mələkmisən, insanmısan?!

**26.06.2008**

**ZARAFAT**

*Qızdırmadan gözümü aça da bilmirəm ki, şairimə sms yazım. Bütün gecəni adınızı sayıqlamışam.*

*Bir mesajdan*

Yatağından qız, durma!
Çox pis şeydi qızdırma...
Məni sevən qəlbini
Heç vaxt zorla susdurma...

**2008**

## İLK SEVGİ ÇİÇƏYİ

*İlk eşqini ömrü boyu unutmayan qadınlara*

İlk sevgi ürəkdə çətin ki, ölə,
Sənin də qəlbini incidir hələ...
Ömrünün ağbirçək çağında belə
Sevgi çiçəklərin qönçədir hələ...

Ayazda üşüyən nanə olsan da,
Sevirsən qəlbini yaxan həsrəti...
Birçəyi ağaran nənə olsan da,
Unuda bilmirsən ilk məhəbbəti...

Köksünü ağrıya çox gərib sevgi,
Yaxın buraxmısan o qəlbə kimi?!
Həsrətə bələnmiş bir qərib sevgi
Qəlbində böyüyür bir qəlpə kimi...

Üzündə yurd salıb həzin bir kədər,
Nələr düşünürsən xəyala dalıb?!
Sənin ürəyində bu vaxta qədər
İlk sevgi çiçəyi təzə-tər qalıb...

Heyransan sevdanın qadir gücünə,
Yol çəkən gözlərin dönüb çeşməyə...
Sığınıb o eşqin hicra küncünə,
Qoymursan ömrünü adiləşməyə...

**2007**

***

Daha gecənin yarısı,
Sübh tezdən
telefonumun işığı yanmır,
Sevgi dünyama
qaranlıq çöküb...
Mənim içimdə



bir tel qırılıb elə bil.
Telefonum səsini
içinə çəkib...
Yuxusu qaçan gözlərim
səhərə qədər keşik çəkir
aya, ulduza.
Bilmirəm nə olub
Yatanda
"Gecən xeyirə qalsın!"
Duranda
"Sabahın xeyir!"
deyən qıza?!
Arabir şirin-şirin
xəyallara dalıram, –
Bir sevgi dumanı kimi
üstümə çökmüsən....
İndi mən səninlə
nəfəs alıram,
Sənsə nəfəsini
içinə çəkmisən...
Niyə soyuqsan? –
Həsrət sazağını əritməyə
közün qalmayıbmı?
Niyə susursan? –
Daha mənə deyiləsi
sözün qalmayıbmı?

**28.06.2008**

***

"Xəstəyəm" deyən bir qıza

Gəl çəkim sığal,
O saat sağal...
Sonra öp məni,
Pıçılda: -Sağ ol!

***

*"Səsin ruhumun himni, dodaqların sevgimin tabutudur"...*

*Bir mesajdan*

Nəfəsim –
saçlarında şehə dönür.
Həsrətim –
gözlərində şehə dönür...
Məni öpməkdən
nə yorulursan, nə usanırsan.
Dodaqlarımı –
sevginin tabutu,
Səsimi –
ruhunun himni sanırsan...
"Ruhunun himni" altında
ömrünə səadət
gəlməsini arzulayırsan?
Dodaqlarımda doğulan sevginin
dodaqlarımda
ölməsini arzulayırsan?!

**28.06.2008**

***

Aldatmasın səni
Solmaqda olan
çiçəyin ətri.
Alovlan, sönmə!
Mənim kimi bir
sərsəri şairdən ötrü
Öz yolundan dönmə...

**30.06.2008**

***

Ömür karvanını
geriyə döndərmək olmaz, –
naəlacam...
İndicə...
köksümdə tir-tir əsən ürəyim



xəzan yellərinə qoşulacaq...
Elə bil ki,
mən quruyan bir ağacam,
budağımda titrəyən yarpaq
gözümdən süzülən
son gilə yaş olacaq...

**30.06.2008**

***

Ay bahar yarpağı!
Niyə payıza
könül verirdin axı?!
Həsrət sarılığı çökəcək
sənin də bəbəklərinə...
Qoşulmaqdan başqa
çarən qalmayacaq
xəzan küləklərinə...

**30.06.2008**

## NƏ TEZ BU SEVGİNİN XƏZANI GƏLDİ

*"Ağacda titrəyən son yarpaq hər an payızın qurbanına çevrilə bilər. Özümü o son yarpağa bənzədirəm, həsrətinizi payıza. O yarpaq payız ömrünü yaşamağa məcburdurmu?*

*Bir mesajdan*

Sən "sonuncu yarpaq", mən "qəddar payız", –
Ürəyin həsrətdən cəzanə gəldi...
Əbədi bahardan söhbət açan qız,
Nə tez bu sevginin xəzanı gəldi?

Daha əvvəlki tək həzin deyilsən,
Daha baxışların dönmür şimşəyə...
O saralan yarpaq – özün deyilsən,
Sevgindi, – hazırdı qopub düşməyə...

Neynirsən şirəsi çıxan cəciyi?
Təzə sevdaylamı göynəyir için?! –
Payıza qoşulan bahar çiçəyi,
Bəhanə gəzirsən ayrılmaq üçün...

Sevgimi dəfn etdin dodaqlarında,
Köksündə işarır təzə bir ocaq.
Ömür ağacının budaqlarında
Hələ neçə yarpaq sıralanacaq...

Kapitan neyləsin batan gəmiyə? –
Qorxuram kiməsə ürək açmağa...
Daha mən quruyan ağac kimiyəm,
Gümanım qalmayıb çiçək açmağa...

**30.06.2008**

***

Mən sevdiyim məndən qaçır,
Məni sevir sevmədiyim...
Ürək dəlinin biridi,
Ona necə sevmə deyim?!

**01.07.2008**

***

Sən ürəyimin
içindəsən,
Məni sevənlərin
çoxu isə
qalıb qıraqda...
Ürəyimi bir an da olsa
sahibsiz qoyma, –
nə qədər gözəl dayanıb
marıqda...

**02.07.2008**



***

-Həsrət dağ çəkir
ürəyimizə,
Od tutub yanır
köksümün başı...
Nə verəcəkdir
bu sevgi bizə?
-Həsrət, göz yaşı...

**04.07.2008**

***

Mənə "ruhum" deyirdin, –
Ruhun bədəndən
uçdumu?
Mənə "əzizim" deyirdin, –
Əzizin dünyadan
köçdümü?
Mənə "canım" deyirdin, –
Canın eşq oduna
yandımı?
Mənə "ürəyim" deyirdin, –
Ürəyin dayandımı?
Mənə "həyatım" deyirdin, –
Həyatın sonamı yetdi? –
Beləcə... bir sevginin
son anı yetdi...
Başın xırda
qayğılara qarışıb, –
Daha məni
dəlicəsinə sevən
qız-qadın yoxdu...
Bir vaxt ayılacaqsan ki,
"ruhun", "əzizin", "canın",
"ürəyin", "həyatın" yoxdu...

**05.07.2008**

## NİYƏ ÇIXDIN QARŞIMA

Nəyə görə deyirsən ki,
Mənə layiq deyilsən? –
Hərdəmxəyal bir şairə
Niyə saldın meyil sən?

Əl uzadıb icazəsiz
Çiçək dərə bilmərəm.
Eşq yolunda sənin kimi
Qurban verə bilmərəm...

Kaş bir dəstə gül olaydım,
Bərq vuraydım yaxanda...
Səndən ülvi, səndən kövrək
Qız varmı bu cahanda?!

Sevda dolu ürəyinin
Qadasını alım mən.
Qəlbindəki ülvi eşqə
Necə layiq olum mən?!

Səni səndən ayırmışam,
Niyə çıxdım qarşına?
Dəyərəmmi gözlərinin
Bircə gilə yaşına?!

**05.07.2008**

## HƏR GÜN GÖZLƏYƏCƏM YOLUNU SƏNİN

Ayrılıq köksümdə yanar dağ oldu,
İnlədi, sızladı, dindi ürəyim...
Mənim sevgi yuvam niyə dağıldı? –
Yenə qəmxanəyə döndü ürəyim...



Qarşıda açılıb həsrətli qollar,
Gözlərin önündən duman, çən keçir...
Səni uzaqlara aparan yollar
Viranə könlümün içindən keçir...

Hicra guşələrə səfərim qalıb, –
Özüm də bilirəm yaxşı yoldayam...
Nə qayıt deməyə təpərim qalıb,
Nə də dilim dönür "yaxşı yol" deyəm...

Əriyib gedəcək boran da, qar da,
Qəlbin kaman kimi dinəndə sənin.
Mənim məhəbbətim qərib diyarda
Qəribmi olacaq sinəndə sənin?!

Uzanan yollarda qalanda gözün,
Necə saxlayacam canı bədəndə?!
Uzaq bir diyarda dolanda gözün,
Sel-su aparacaq məni vətəndə...

Ömrünü, gününü bəzəyən sevgim
Ayrılıq önündə köksünü gərib.
Bir parça vətənə bənzəyən sevgim
Səni qoymayacaq olasan qərib...

Nələr çəkdiyimi bilməyəcəksən,
Boynumda sanacam qolunu sənin...
Duysam da bir daha gəlməyəcəksən,
Hər gün gözləyəcəm yolunu sənin...

**05.07.2008**

***

Heyf, taleyində altun qəfəs var,
Heyf, saçlarını hörmürəm sənin...
Yəqin ciyərində ayrı nəfəs var –
Daha yuxuna da girmirəm sənin...

**06.07.2008**

***

Şiltik-şiltik olub daha
Həsrətin əlində yaxam...
Məni "yoxlaya-yoxlaya"
Bir də görəcəksən yoxam...

07.07.2008

***

Qəlbimdəki həsrət çiçəklərini
çətin ki, illərin,
ayların sazağı,
başqa bir sevginin işığı
soldura bilsin...
İçimdəki boşluq elə dərindi ki,
inanmıram ayrı bir sevgi
o boşluğu doldura bilsin...

2008

***

Gözü şehlə siləlenib,
Yolumu gülüm gözləyir.
Hamımızı əvvəl-axır
Qəfil bir ölüm gözləyir...

2008

***

Mən bir quru budaq idim,
Qəlbimə sevgi düşəndən
puçurlamışam.
Sənin qulaqlarına
indiyədək heç kəsin
deyə bilmədiyi,
indən belə heç kəsin
deyə bilməyəcəyi
sözlər pıçıldamışam...
Sən mənim bir parçamsan,
yarımsan.
Sən mənim
sevgili yarımsan...

2008



***

Eşq əzabı dərman imiş
Qəlbi safa, ruhu aca.
Çevrilmişəm bəxtəvərə,
Qanadlarım yoxdur uçam...

İçimdəki sevgi gülü
Çox şükür, solmayıb mənim.
Dünya necə gözəl imiş,
Xəbərim olmayıb mənim...

Qəlbinə eşq düşən insan,
Tanrım, necə bəxtəvərdi!...
Çiçəyin üstünə qonan
Arı necə bəxtəvərdi!...

Cilvələnən eşq gölümə
Heç kəs bu cür daş atmayıb.
İndiyəcən heç kəs mənə
Bu hissləri yaşatmayıb...

15.07.2008

***

Qınaq yeri olmamaqçın gizlicə sev ki,
Deməsinlər həyatında qəza eləyib.
Qəlbimizi işıq ilə dolduran sevgi
Nəyə görə dilimizi qısa eləyib?!

2008

***

Ürəyim tutulub dərdə, azara,
Qurtula bilmirəm dumandan, çəndən.
Ancaq haqqım yoxdu giley-güzara, –
Əsirgəməmisən heç nəyi məndən...

Sevda göylərimdə ay ola bildin,
Bəs niyə belə tez söndün bu yolda?!
Yaxşı ki, vaxtında ayıla bildin,
Yaxşı ki, vaxtında döndün bu yoldan...

Alçaqlıq gözləmə nəfsi ucadan,
Əzib ayağımı neçə yol daşı.
Ömrünə beş-on gün qalan qocadan
Sənə ola bilməz ömür yoldaşı...

Sonu kül olmaqdı köz taleyinin
Hər deyilən sözə baxma, əzizim.
Özün ağası ol öz taleyinin,
Qəlbinin sözündən çıxma, əzizim...

Yaxşı ki, seçirsən xalisi, qəlpi,
Gülü qönçə ikən dərmək günahdı.
Böyük sevgilərçin doğulan qəlbi
Hər yoldan ötənə vermək günahdı...

**22.07.2008**

***

Onsuz da ömrüm boyu
sevgi əzabı çəkmişəm,
Onsuz da əlim həmişə
ürəyimin üstündədi...
Məni ötən sevgilərdən
soyudub,
sonra çıxıb getməkdə
qəsdin nədi?

**22.07.2008**

## HARA BAXIRAMSA, SƏNİ GÖRÜRƏM

Yer tapa bilmirəm burda özümə,
Üstümə yeriyən çəni görürəm.
İnana bilmirəm daha gözümə,
Hara baxıramsa, səni görürəm...

Sevgi ürəyimin olub bəzəyi,
Sanki nəfəsindi sərin dağ mehi.
Sənin gözündəki yaşa bənzəyir
Çiçəyin gözündə gülən sübh şehi...



Əriyir yol çəkən gözlərin kini,
Ürəyim baxmır ki, sözümə mənim.
Qara böyürtkənlər gözlərin kimi
Baxıb gülümsəyir üzümə mənim.

Yağış elə bil ki, xalı toxuyur,
Göylərdə alışır qızıl fişənglər.
Sevgin tək dünyaya meydan oxuyur
Qara buludları biçən şimşəklər...

Üşüyən güllərin ləçəyində nəm,
Arzular dil açır içimdə mənim...
Hara baxıramsa, səni görürəm,
Səhralar gül açır içimdə mənim...

**06.08.2008**

***

Danlamağa haqqım yoxdu
Ömrümə nur ələyəni.
Heç Leyli Məcnundan ötrü
Etməyib sən eləyəni...

Bağışlamaram özümü
İncə qəlbinə toxunsam.
Sən günəş kimi uzaqsan,
Sən günəş kimi yaxınsan...

Bilmirəm hayana üzüm
Minib eşqin qayığına?
Sən elə ucadasan ki,
Əlim çatmaz ayağına...

Dözəmmirəm ayrılığa,
Nə gündüzüm var, nə gecəm.
Hər bir şeyim ola-ola
Duyuram ki, sənsiz heçəm...

**09.08.2008**

***

Həyadan qızaran üzün
Elə bil may laləsidi.
O qıvrcıq tellərə bax,
Sanki dağ şəlaləsidi.

Könül yaxan baxışların
Qığılcımı cana düşür.
Burulmuş saçlar görəndə
Qəlbim burulğana düşür...

Üzün ay tək şəfəq saçır,
Şəvə saçlar burum-burum.
Bu gözəlliyin önündə
Nə qədər boynumu burum?

**11.08.2008**

***

Bu səhradı, çəmən deyil,
İşlər həmən-həmən deyil.
Sirrim içimi göynədir, –
Nə sən soruş, nə mən deyim...

***

Ayrılığı çən bilirəm,
Qoynunu vətən bilirəm.
Bu sevginin ləzzətini
Sən bilirsən, mən bilirəm...

***

Dərdimdən ölənlərə bax,
Sevgimə gülənlərə bax.
Bu yaşda eşqə düşmüşəm, –
Başıma gələnlərə bax!

***

Saça düşdü dən, hardasan?
Gözə endi çən, hardasan?
Deyirlər axtaran tapar –
Ömür bitdi, sən hardasan?

**11-14.08.2008**



***

Sənin səsin
mənim ömrümü bəzəyir.
Sənin səsin balığa,
mənim zənglərim isə
tilova bənzəyir...
İnadkar balıqçı
sahildə dayanıb, –
Öz yerini
dəyişmir ki, dəyişmir...
Nə qədər tilov atırsa,
o sehrli balıq
qarmağa düşmür ki,
düşmür...

**11.08.2008**

***

Sevgidə lazımmı sınaq? –
Eşq yolunda çətin sınaq.
Yad budağa niyə qonaq? –
Ev sahibi olmaz qonaq.
İndidən məni danlama,
Əvvəl sınaq, sonra qınaq...

**11.08.2008**

***

Neçə əsrlərdi ki,
Məcnun olub
çöllərə düşmüşük.
Neçə əsrlərdi ki,
ağızlara, dillərə düşmüşük.
Bütün dövrlərin
Leylilərinə
Bütün dövrlərin
Məcnunlarından salamlar!
Neçə əsrlərdi ki,
bizi göz açmağa qoymur
İbn-Səlamlar...

**11.08.2008**

## ELƏ BİLİRSƏN Kİ...

Elə bilirsən ki, səninəm daha, –
Kimsə ala bilməz əlindən məni.
Yalvar, dua elə uca Allaha,
Qurtarsın bu həsrət selindən məni...

Daşamı çevrildi kövrək hisslərin? –
Laqeydlik sevgimə kəsilib qənim.
Sel kimi gəlirdi "sms"lərin,
İndi yadına da düşmürəm sənin,
Günahım nə imiş görəsən mənim?

Hicran yağışları yağıb üstümə,
Ayrılıq selləri axıb yollara.
Sən məni, sən məni itirəcəksən,
Əlləri qoynunda baxıb yollara
Elə hey köksünü ötürəcəksən...

Bir könül xoşluğu min ömrə dəyər,
Kim idi eləyən yolundan səni?
Sevgi yollarında büdrəsən əgər,
Tutan olacaqmı qolundan sənin?

Ağlama, bu yolu ürəyin seçib, –
Əlim gəzməyəcək daha saçında.
Bir gün görəcəksən iş-işdən keçib,
Tənha qalacaqsan yol ayrıcında...

Hopubsa içinə laqeydlik tozu,
Qəlbində bərq vuran güllər solacaq.
Sonra aramızda bitən kol-kosu
Qırıb yol açmağın çətin olacaq...

Əzab çəkəcəksən ömrün uzunu,
Sənin taleyinə düşən pay – belə...
Yuya bilməyəcək hicran tozunu
Qara gözlərindən axan çay belə...



Bəlkə bu dünyaya bir də gələcəm? –
Arzu çiçəklərim solmayıb hələ.
Elə düşünmə ki, sənsiz öləcəm, –
Mənsiz ölənlər də olmayıb hələ...

**14.08.2008**

***

Mənə qovuşmaqdan ötrü
alışıb yanırdın –
İndi ürəyimi
hicran oduna
yaxırsan.
Səsimi
ruhunun himni sanırdın –
İndi o səsdən
ilan ulduzdan
qorxan kimi
qorxursan...

**16.08.2008**

## XİLASEDİCİ

Xilasedici
sulara baş vuranda
özünə uğurlar dilədi.
Xilas etdiyi qızın
gözlərini görəndə
təbəssüm çiçək açdı
sevgidən üzündə...
Xilasedici
o insanı xilas elədi,
ancaq özü qərq oldu
sevgi dənizində...

**16.08.2008**

## TUFANDAN QABAQ

Ola bilməsən də
həyatımın qadını,
Mənimlə birlikdə olanda
duymusan
xoşbəxtliyin dadını...
İkimiz də
bəxtəvərlər bəxtəvərinə
dönmüşük, –
Bir cüt odun kimi
baş-başa alışıb,
bir cüt kösöv kimi
baş-başa sönmüşük...
Səni uzaqlara aparacaq
namərd yollara baxıram. –
Məni ovundurmaq üçün
söylənilən hər söz,
hər kəlmə ürəyimə toxunur...
Səni itirməkdən
yamanca qorxuram,
sükutun isə bir az da artırır
bu qorxunu...

**16.08.2008**

***

Həmişə mənim ömrümü
sevgilər bəzəyib. –
Ancaq onlar
payızdan o biri bahara
adlaya bilməyən
yarpaqlara bənzəyib...
Bu sevgilərin
nə zəmanəti olub,
nə də bir sənədi...
Dönmə bu sevgi yolundan,
ümidim bircə sənədi...

**16.08.2008**



***

Bilmirəm sən niyə xəta eləyib,
Hay verdin qəlbimin çılğın səsinə?
Özünü sevgiyə fəda eləyib,
Ucaldın mələklər mərtəbəsinə...

Dalğalar, tufanlar neylər bu eşqə? –
Hər ağzı göyçəyin sözünə baxma...
Əgər yol açıbsa göylər bu eşqə,
Yerdə nə deyirlər desinlər, qorxma...

Xəfif bir təbəssüm qonub üzünə, –
Zərrəcə qorxmursan sən qocalıqdan.
Çox cılız görünür hər şey gözünə
Aşağı baxanda o ucalıqdan...

**17-19.08.2008**

***

Arxanca boylanaraq sənə uğur dilədim,
Diz çöküb hüzurunda ağlaya bilmədim mən.
Sevdalı ürəyini asanca fəth elədim,
Heyf, onu əlimdə saxlaya bilmədim mən...

Daha yaralı könlüm hicranlardan usanmış, –
Ümid etdiyim təkcə sənin məhəbbətindi...
Qadının ürəyini fəth eləmək asanmış,
Qadının ürəyinə sahib olmaq çətindi...

Güman eləyirəm ki, arzum açacaq çiçək,
Məndən əsirgəməsən öz qəlbinin qorunu.
Ürəyimdən keçir ki, ömrümün sonunadək
Bu eşqin ağuşunda şaxtalardan qorunum...

Ürəyimdən keçir ki, eşqin şirin barından
Dada bilim həmişə, könlünün yarı olum...
Ürəyimdən keçir ki, ləçək dodaqlarından
Ömrümün sonunadək bal çəkən arı olum...

**18.08.2008**

***

Gözüm tora düşüb qara xalında,
Ayrılıq yelləri əsir, – gəlmədin...
Çox sağ ol, əzizim, sevgi yolunda
Sən məndən heç nəyi əsirgəmədin...

Çox sağ ol, əzizim, sədaqətinlə
Azaltdın könlümdə dərdi, zilləti.
Sən öz saf, müqəddəs məhəbbətinlə
Əritdin içimdə olan zülməti...

18.08.2008

***

İsindin köksümün qaynar oduna,
Deyəsən, düşmürəm daha yadına.
Gözümün ucuyla dönüb baxmaram,
Mənə laqeyd olan qıza, qadına...

19.08.2008

***

Yazırsan ki,
dənizə gedəndə
məni xatırlayıb ağlamısan...
Yəqin ölən sevgimizin
yasını saxlamısan...
Unudulan adamı xatırlayarlar, –
Sən demə
mən də unudulubmuşam...
Elə bil suyu sovulmuş
dəyirmanam,
yuvası yenidən dağıdılmış
quşam...
Bilirdim ki,
sənin təmiz,
kövrək duyğularına
qan udduracaqlar.
Ancaq bilməzdim ki,
məni belə tez unutduracaqlar...



Zorla kiminsə yaddaşında
qalmaq diləyim yoxdu.
Məni belə tez unudana
verilləsi ürəyim yoxdu...

21.08.2008

***

Sənə Nabrandan
gətirdiyim daşları
sənə vermədim,
qaytarıb yenidən
dənizə atdım.
Elə bil sevdalı ürəyim də
o daşlarla birlikdə
dənizdə batdı...

21.08.2008

***

Bəlkə qismətimizi
Tale yazıb kömürlə?
Bir dənə "əlvida" yaz,
Vidalaşım ömürlə...

Deyəsən, bu ayrılıq
Alın yazım olacaq.
Sənin toyun olan gün
Mənim yasım olacaq...

21.08.2008

***

Xəbərin yox bu dastanı
bitirməyimdən,
Xəbərin yox nələr, nələr
itirməyimdən!...

Səni məndən uzaq saldı
şirin yuxular,
Gülüm, gərək ağlamasın
özü yıxılan!

Bu sevgi də məni yerə
bağlayammadı,
Bu sevgi də məni yoldan
saxlayammadı...

Nə yaxşı ki, gəl-gəl deyən
yollar var hələ,
Mənim üçün gen açılan
qolar var hələ...

28.08.2008

***

Bizim sevgimiz
can üstdədi,
Bizim sevgimiz
ölümə məhkum edilmiş
xəstədi...
Xoşbəxt anlardan,
xoşbəxt dəqiqələrdən
danışırıq, –
Təsəlliverici sözləri
dərmana döndərib,
beş-on gün onun ömrünü
uzatmağa çalışırıq...

29.08.2008

***

Bu sevginin sonu yoxdu –
Neyləmək fikrindəsən
sən indi?
Məni dəlicəsinə sevənlərin
hamısı ağıllanıb,
İndi növbə səníndi...

29.08.2008



***

Səninlə görüşməyin
bircə yolu var:
Telefon. –
Onu da söndürmüsən.
Mənim sevdalı dünyamı
cəhənnəmə döndərmisən...
Özün bilirsən ki,
bu işdə tələsmək olmaz;
Külək kimi hara gəldi
əsmək olmaz;
Ancaq sevginin önünü
heç nə ilə, heç nə ilə
kəsmək olmaz...

29.08.2008

## BU PAYIZIN İLK YAĞIŞI

Bu payızın ilk yağışı
Ömrümüzə düşən izdi.
Bu payızın ilk yağışı
Solan güldən xəbərsizdi...

Səsimi eşidən kimi
Sevdalı gözlərin güldü.
Gözlərimin qabağına
Mehriban gözlərin gəldi.

Yarpaqlara xal düşən tək
Güvə düşüb umuduma...
Yenə sevdalı gözlərin
Dönüb payız buluduna.

Ürəyim düşüb pis günə,
Ayrılıq mənə güc etdi.
Bu payızın ilk yağışı
İçimdə həsrət cücərtdi...

25.09.2008

***

Elə tələsirəm ki,
Səni görməkdən ötrü. –
Məni məst eləyəcək
Nərgiz, bənövşə ətri...

Gözlərim həsrət dolu
Gözlərinə baxacaq.
Kirpiklərin ucunda
İldırımlar çaxacaq...

Yanağın nəfəsimdən
Od alıb közərəcək.
Baxışlarım köksündən
Bir cüt qönçə dərəcək...

Yenə sevdalı qəlbim
Danışacaq, dinəcək,
Əllərim əllərində
Bəxtəvərə dönəcək...

01.10.2008

***

Sarı donlu gözəlim,
Dönmüsən sarı simə.
Qəlbim mizrab tək əsir,
Al onu, sarı simə!

Bir şehli çiçəkmisən?
Gözlərin yol çəkməsin...
Səni candan sevən var,
Qəlbinə qəm çökməsin...

Olmuşuq eşqə əsir,
Aramızda yoxdu sirr...
Başımızın üstündə
Həsrət yelləri əsir...



Sevgilisi saralar
Donu sarı olanın.
İnləməyə haqqı yox,
Mən tək yarı olanın!

Unutma ki, gülüm, sən
Təkcə mənim gülümsən...
Sənə kədər yaraşmır,
Üzümə bax, gülümsə...

**04.10.2008**

***

Dayanıb intizarla
yolunu gözləyirəm,
ürəyim həsrətdən
inləyir için-için...
İki saatın əzabına
dözmək nə şeydi ki,
səni ömrü boyu
gözləyən üçün...

**09.10.2008**

***

Kim bilir
nələr, nələr olacaq
bir dəqiqədən,
bir andan sonra?
Necə sevgi mahnısı
çalacaqsan
qəlbimin simlərini
qırandan sonra?

**09.10.2008**

***

Bir ürək göynədən həsrət
Baxır o gözün içindən.
Təzə bir ocaq boylanır
Mürgülü közün içindən.

Həsrətin qəlbimə köçdü,
Ürəyimdən nələr keçdi?
Gözüm təkcə səni seçdi
O qədər qızın içindən...

Donmuşdum buz gölü kimi,
Havalandım dəli kimi,
Eşqin novruzgülü kimi
Sıyrıldı buzun içindən.

Elə ki eşq gülü soldu,
Qara bulud kimi doldun.
Sən danışdın, xoşbəxt oldum,
Söz çəkdim sözün içindən...

**10.10.2008**

***

Əgər kimdəsə
yoxsa mənlik,
Burda bir iş
varmı mənlik?

***

Əgər deyilsə
əbədi sevgi
Sizlik,
Məni öldürəcək
əbədi sevgisizlik...

**12.10.2008**

***

Əzizim, qəlbimi sanma oyuncaq,
Məhəbbət harasa səsləyir bizi.
Sevgidə geriyə yol yoxdur, ancaq
Öndə ayrılıqlar gözləyir bizi...

**12.10.2008**



***

Sevgilisi üçün çiçək dərənin
Gözünün önündə dünya yaz olar.
Yolumda bu boyda qurban verənin
Gündə qadasını alsam, az olar...

**12.10.2008**

## İNDƏN BELƏ

Həsrət qəlbim bu nəğməni sənə yazdırdı,
Baxışından, duruşundan doymaram daha.
Sən ki mənə bu tezlikdə ürək qızdırdın,
Ürəyini soyumağa qoymaram daha...

Xəyalımdan keçənləri o qız eşidə, –
Yenə şəvə saçlarını tökə üzünə.
Qoymaram ki, ürəyini hicran üşüdə,
Qıymaram ki, qəm buludu çökə üzünə...

Titrək əllər xoşbəxt idi mənim ovcumda, –
Onlar hicran badəsini daşa çalacaq.
Tale bizi görüşdürdü yol ayrıcında,
İndən belə yollarımız qoşa olacaq...

**14.10.2008**

## GÖYLƏRİN YEDDİNCİ QATINDAYAM MƏN

Səni ovutmağa çalışıram mən,
Ovcuma əlinin istisi axır.
Bir alov boylanır bəbəklərindən,
Başından bir həsrət tüstüsü qalxır...

Dodağın çatlayıb şirinliyindən,
Köksünün altından səhər boylanır.
Qara gözlərinin dərinliyindən
Ağrıya bələnmiş kədər boylanır...

Vüqarın başında bir tacdır sənin,
Qəlbin ağlasa da hey için-için...
Qamətin sığala möhtacdır sənin,
Əllərin darıxıb əllərim üçün...

Sözlərim xoşuna gələ-gəlməyə? –
Dünyada hər dərdin bir əlacı var.
Qəlbinin bir isti, həzin kəlməyə,
Saçının tumara ehtiyacı var...

Hər adam bilərmi eşqin dadını?
Qanadı olmayan quşu duyarmı?
Sənin içindəki həsrət odunu
Qəlbi buza dönən naşı duyarmı?

Qırıb ürəyini kimsə, əzizim, –
Hamı duymur axı gülün ətrini.
Ürəyi kor olan kimsə, əzizim,
Ülvi gözəlliyin bilməz qədrini...

Bu dərdə tab etmək deyildir asan,
Ancaq qəlb kimsəyə başını əyməz.
Sənin ürəyini duymayan insan,
Sənin gözlərinin yaşına dəyməz...

Yəqin ki, hələ də yadındayam mən,
Təmiz məhəbbətin hopub qanıma.
Göylərin yeddinci qatındayam mən,
Yerdə nə işin var, qalx, gəl yanıma!...

**14.10.2008**

***

Arzular içində boğulub sənin, –
Duyulur inləyən könlünün səsi.
Qəlbin əzablarla yoğrulub sənin,
Gözlərin olubdur qəm pəncərəsi...



Sevdalı qəlbimin nuruna bələn,
Qoymaram köksünün alovu sönə.
İynə ulduzundan süzülüb gələn
Bir sevgi nuru da bəs edər sənə...

Günəş mavi göydə üzən bir gəmi,
Şəfəqlər yun kimi didər buludu.
Gözlərin gözümə dikilən kimi
İçimdən çəkilir kədər buludu...

Görəndə yol çəkən nəmli gözləri
Məhəbbət karvanım dayandı bəlkə?!
İçində uyuyan sevgi közləri
Mənim nəfəsimlə oyandı bəlkə?!

Bəlkə silə bildim könül pasını,
Ağlayan qəlbini kiridə bildim?!
Bəlkə ürəyinin sırsırasını
Qaynar nəfəsimlə əridə bildim?!

**16.10.2008**

***

*"Sən gedəndən bu şəhərdən*
*Ötməz oldu bülbüllər.*
*Doğmadı, günəşim batdı*
*Açmaz oldu güllər..."*

**Bir türk mahnısından**

Çıxıb getdi uzaqlara sevgilin,
Öz əkdiyin dərd gülünü dər indi...
Peşman qəlbin göyüm-göyüm göynəyir,
İçindəki yara necə dərindi!

Vətənində çevrilmisən qəribə,
Bu görkəmin ürəyimə toxunur...
Onsuz doğmur sənin sevgi günəşin,
Güllər açmır, bülbül nəğmə oxumur...

İndi duyub anladım ki, əzizim,
Mənə sevgin səni yoldan eləyib.
Məhəbbətim dönüb qarlı bir qışa,
Yollarına hicran buzu ələyib...

Belə getsə, o insanın yanına
Qaçacaqsan ayaqları yalınca...
Qurd keçinin nəyin yeyib, quşa dön,
Qanad çal, uç sevgilinin dalınca!...

Çıxıb getsən o sevginin iziylə,
Şəfəqlənər, qədəminə ay düşər...
Bədbəxt olsan, qınayaram özümü,
Xoşbəxt olsan, bundan mənə pay düşər...

**16.10.2008**

***

Arzuların alt-üst oldu, –
Niyə mən çıxdım qarşına?
Gör nələr gətirir, gülüm,
Sevgi insanın başına?!

Əgər məni sevmisənsə,
Söylə, burda nə günahım?
Ömrümdən çıxıb getsəydin
Göylərə qalxardı ahım...

Gözlərində yaş qalmadı,
Bu ağrıya dözmək olmaz...
Məhəbbət Tanrı payıdı,
Ona ağız büzmək olmaz.

Əgər Allah qəlbimizi
Sevgiylə salıbsa bəndə,
Onun önünü kəsməyə
Necə qadir olar bəndə?!

**16.10.2008**



***

Deyirdim: - Bu eşqin gəldi sonumu? –
Boğurdum içimdən gələn səsləri.
Döydü qapısını telefonumun
Sənin sevgi dolu "sms"lərin...

Başımda eşqin tək qızıl tacım var,
Mürgülü könlünü öpüb, ayıltdım.
Duydun ki, sevgimə ehtiyacın var,
Qayıtdın, əzizim, yenə qayıtdın...

Gördünmü içimə axan yaşları? –
Qəlbin təslim oldu eşq havasına.
Perikən sevgimin qaranquşları
Şükür, dönüb gəldi öz yuvasına...

**18.10.2008**

***

Qara bulud kimi
dolmusan –
Göz yaşların
yanaqlarında
intizar çələngi hörür...
Cırtdan kimi yol ayrıcında
qalmısan;
bir yandan işıq gəlir,
bir yanda itlər hürür...
Bilmirsən
hayana gedəsən?
Bilmirsən kimin
hayına gedəsən?
Çox şükür bu qismətə,
çox şükür bu məhəbbətə –
mən naşükür
bəndə deyiləm...
Qəlbini duyan insan
sorağındasan –

Bəlkə heç axtardığın
mən də deyiləm?!
Yetim quzu kimi
boynunu burma,
Hər ağzı göyçəyin sözü ilə
oturub-durma...
Onsuz da əlimizdən
heç nə gəlmir,
Onsuz da qismətimiz
alnımıza yazılıdı...
Qulaq as
qəlbinin səsinə, əzizim,
Taleyin o səsdən asılıdı...

**19.10.2008**

## TUFANLAR ÖNÜNDƏ

İçimdə bir qırıq sim ağlayacaq,
Qəlbim hönkürəcək bir kaman kimi. –
Sən getsən, dinləyib kim ağlayacaq
Mənim həsrət dolu nəğmələrimi?

Üstümdən əsəndə qara bir külək,
Kim üşüyən qəlbi bələyəcəkdir?
Sən getsən, köksümdə yaralı ürək
Yetim quzu kimi mələyəcəkdir...

Yerə zülmət çökər ürək küsəndə –
Duyan qəlb qisməti deyil hər kəsin.
Hicran əzabından qəlbin əsəndə,
Xalalar səninçün təzə ər gəzib...

Nə qədər arzunu veriblər yelə? –
Gözündən nə qədər yağış sellənib?
Bir ötən sevginin xəzanı ilə
Sevgi çeşməmizin gözü lillənib...



Gedəni yolundan saxlamaq olmaz,
Eşqim bəbəyində nur oldu bəlkə?
Çeşmənin önünü bağlamaq olmaz,
Çağlayıb, çağlayıb duruldu bəlkə?

Kaş ki, bu sevgimiz gəlməyə gözə,
Hər gün ağlamayaq biz için-için...
Dayaq olmalıyıq bir-birimizə,
Tufanlar önündə dayanmaq üçün...

**19.10.2008**

***

Bilmirsən yer nədir,
Bilmirsən göy nədir! –
Onunla əbədi ayrılığın
içini göyüm-göyüm
göynədir... –
Əzizim, bu əzablar,
bu ah-uf hədərdi,
hədər...
Nişanlı ola-ola
məni sevərdinmi
ilk eşqin kamil olsaydı
əgər?
Xoşbəxt olardım
məni də itirəndə
gözlərin qara bulud kimi
dolsaydı...
Ondan ayrılanda
bu qədər göynəyərdinmi
mənə sevgin kamil olsaydı?!
Az ağla, az sızla,
az köksünü ötür!
Səadət, xoşbəxtlik
addım-addım,
qədəm-qədəm

izləyir səni...
Dünya nə onunla,
nə də mənimlə bitir...
Öndə təzə-təzə görüşlər,
təzə-təzə sevgilər
gözləyir səni...

**20.10.2008**

***

Axı kim sənin
qəlbinin arzularını
mənim kimi
duya biləcək?
Axı kim
sənin əllərini
mənim kimi öpüb,
gözlərinin üstünə
qoya biləcək?
Kim gündə neçə kərə
nəmli gözlərinin qadasını
ala biləcək?
Kim sənin gözlərindən
boylanan həsrəti
görə biləcək?
Kim sənin
titrək dodaqlarından
"sevirəm" kəlməsini
dərə biləcək?
Kim sənin bircə harayınla
dünyanın o başına
gələ biləcək?
Kim sənin
sevginin yolunda
mənim kimi
ölə biləcək?!



***

Bu sevgi
qəribə bir sevgidi...
Bu sevgi –
bizi qoynunda
qərq edəcək,
Bu sevgi –
bir sahilsiz dənizdi...
Bu sevgi
bundan artıq bir şey
vəd eləməsə də,
bir ömrə yetəcək qədər
güclüdü, təmizdi...

***

Gecələr məni anmadan
yata biləcəksənmi?
Ürəyinin arzularına
mənsiz çata biləcəksənmi?
Mənimlə keçirdiyin
anların sevincini
bütün ömrün boyu özgə ilə
dada biləcəksənmi?!...

**21.10.2008**

***

Şeirlərimi oxuyanda
gözlərin payız buluduna
dönür. –
Onların parıltısı önündə
ulduzlar belə
öləziyir, sönür...
Belə getsə,
mənim həsrət dolu
nəğmələrim
sənin gözlərində
yaş qoymayacaq. –
O çağlayan sellər

içimdəki bütün
sevgi saraylarını
yuyub aparacaq,
daş üstündə
daş qoymayacaq...

22.10.2008

***

Gözlərinin yaşı
qurumur ki, qurumur.
Bulanıq sular
durulmur ki, durulmur.
Bir ölən sevgiyə
bu qədər yas saxlamağın,
gecə-gündüz
ah-uf eləyib ağlamağın
İçimdəki sevgi güllərini
yandıran sazağa
bənzəyir.
Ancaq həsrətin
saralmış payız
yarpaqları kimi
mənim sevgi dünyamı
bəzəyir...

***

Sevmək günah deyil,
səni qınamıram; –
mənə ürəyindəki sevgilərin
fərqini demisən...
Ancaq sənin ölən məhəbbətə
bu qədər yas saxlamağın
mənim hisslərimi təhqir edir,
sevdalı qəlbimi yaralayır –
Bunun fərqindəmisən?!

23.10.2008



***

İndi ürəyin
qəlbimin səsinə
səs verə bilir.
İndi gözlərin
ömrün boyu
sevmədiyin payızın
gözəlliyini görə bilir...
Səni xoşbəxt eləyəcək
ömrünə doğan yeni səhər...
Əzizim, gör nələr,
nələr itirmisən
bu vaxta qədər?!

23.10.2008

***

Sənin sevgi dünyanda
aləm bir-birinə qarışıb:
İldırımlar...
Leysan...
Gürşad...
Məhəbbət müharibəsində
özümü sənə təslim edirəm; –
Ya öldür,
ya yaşat!...

23.10.2008

***

Səni bir nəfər alıb
Antaliyaya,
digəri Kiyevə
aparmaq istədi.
Ayağını öz yurdundan,
öz elindən qoparmaq istədi...
Sən isə gözləri yaşlı-yaşlı
xəyala daldın,
ürəyinin səsinə qulaq asıb
Azərbaycanda qaldın...

Səni xoşbəxt edə bilməz
nə Qandalya,
nə Küyev.
Vətəndə qismətinə
düşəni sev!

***

Sən adi bir qız olsaydın,
Sevdiyin insan da
adi olardı.
Ancaq belədə
xoşbəxtliyin özü yox,
quruca adı olardı,
həyatının nə duzu,
nə dadı olardı...

**24.10.2008**

***

Ömür boyu özünə
Qəlbim simsar axtarıb.
Yol çəkən baxışlarım
Sevgili yar axtarıb...

Hər an səyyar xəyalım
Olub əsən meh, gəzib...
Çiçəklərin gözündə
Şəfəq saçan şeh gəzib...

Mənim sevgi dünyamda
Əvəz edər kim səni? –
Gözlərini görəndən
Gözüm gəzmir kimsəni...

**25.10.2008**

***

Gözümüzün önündə
Neçə gözəl mənzərə.
Ağacları bələyib
Payız qızıla, zərə...



Yel əsdikcə yarpaqlar
Dinir sarı sim kimi...
Sən var ikən, gözəlim,
Gözüm arasın kimi?

Sevirəm təbiəti
Özüm kimi duyanı.
Sevgi gözəlləşdirib
Gözümüzdə dünyanı...

**26.10.2008**

***

Sevdalı gözlərin
məni görəndə
həmişə sevincdən dolacaq. –
Sevgin ürəyimdə,
adın dilimdədi.
Kimsə bilməz
sabah nələr olacaq,
bu gün əllərin əlimdədi...
Bu gün durmuşuq
göz-gözə,
nəfəs-nəfəsə.
Bu gün hicranı
yaralı bir şir kimi
salmışıq qəfəsə...
Bu gün dünyanın
xoşbəxtiyik,
sevgi sevincləri
yazılıb alnımıza...
Ancaq bir gün
o qəfəsin qapısı açılsa,
vay bizim halımıza!...

**28.10.2008**

***

Mənim eşqim
içindəki boşluğu
doldurmağa
qadir deyilmiş...
Qəlbindəki
həsrət çiçəklərini
soldurmağa
qadir deyilmiş...
Köhnə nömrəli telefonunu
gecələr açıq qoyursan ki,
bəlkə perikən sevgin
qayıdıb gələ bilə...
Ancaq unutma ki, belədə
Sənə olan təzə sevgi də
ölə bilər...
Ürəyin dözəcəkmi bu ağrılara
bəbəklərində yenidən
həsrət ulduzları sayrışsa?
Özünü bağışlaya biləcəksənmi
şivən şivənə qarışsa?!

**28.10.2008**

## HƏSRƏT GÜLLƏRİ – SEVGİ XƏZANI

Gözlərinə
xəzan sarılığı çökər
kim ki eşqin yollarında
büdrədi.
Həsrət yelləri
səni itirməkdən
qorxan ürəyimi
payız yarpağı kimi
titrədir...
Ayrılığın köksümə



çalın-çarpaz
dağ çəkib.
Yol çəkən gözlərimə
payız sarılığı
çöküb..
Qınamağa haqqım yoxdu
Mənə bu taleyi yazanı.
Həyatımın bəzəyinə çevrilib
sevgi xəzanı...

**31.10.2008**

***

Həsrətin elə bil ki,
on iki bal gücündədi. –
Nə vaxtdandı ayrı düşmüşəm
bənövşə qoxulu nəfəsindən,
qəlbimi nurlandıran
sevdalı səsindən...
Telefonun şəbəkə xidməti
xaricindədi,
bəs özün necə
kənar düşməmisən ki,
sevgimin əhatə dairəsindən?

**01.11.2008**

## YENƏMİ?

Yenəmi başında
şimşəklər oynayır?
Yenəmi gözündən
bulaqlar qaynayır?
Yenəmi havada
var hicran qoxusu?
Yenəmi gözünün
qaçacaq yuxusu?
Yenəmi bir sarı,
titrəyən yarpaq tək

Aparmaq istəyir
səni bir boz külək?
Yenəmi qəlbimdə
fırtına qopacaq?
Həsrətin köksümdə
çoxmu at çapacaq?!
Gözümə qaranlıq
çökəcək yenəmi?
Sənsiz yox mənimçün
heç nəyin önəmi...

03.11.2008

***

Bu gecə
xəyalların qanadında
uzaq bir diyara
uçmusan.
Hansı bir ümidləsə
telefonunun
köhnə nömrəsini
açmısan...
Qayıdacağını
arzuladığın insanın
zənginimi gözləyirsən?
Kasıbı yuxuya verib,
zənginimi gözləyirsən?
Belə getsə,
çətin ki həsrət sazağından
qoruya bilək
təzəcə çiçəkləyən
bu sevgini biz...
Allahdan başqa
nə bir dostumuz varmış,
nə də bir sevgilimiz...

05.11.2008



***

Könül hər gözələ uymasın gərək, –
Zor ilə məhəbbət qazanmaq olmaz.
Məgər bilmirdinmi, ürək, ay ürək,
Özgə ocağına qızınmaq olmaz?!

Sənin saçlarında yuva qurub qış, –
Şaxta son gülü də biçib gedəcək.
Məgər bilmirdinmi körpə qaranquş
Bahar sevdasıyla uçub gedəcək?!

Başımda çaxsa da min odlu şimşək,
Dəli sevdalardan ürək yorulmaz.
Bir körpə sərçəcik tapaydın gərək,
Durnadan, leyləkdən sən yar olmaz...

Vurub ürəyinə həsrət naxışlar,
Elə doğmasan ki, sən dərd-ələmə!...
Uçub gedəsiydi köçəri quşlar,
Bunları özünə sən dərd eləmə!...

Axı bələd idin hicran dadına, –
Qəlbin sarı sim tək dindi, əzizim...
Əgər minməsəydin özgə atına,
Piyada qalmazdın indi, əzizim...

06.11.2008

***

Dodağım hazırdı şeh qurutmağa,
Əllərim tələsir gül dərmək üçün...
Tanrı yolun üstə çıxarıb məni
Yaralı qəlbini güldürmək üçün...

***

Aramıza aylardan,
illərdən sərhəd düşüb,
Şükür, qismətimizə
bu cür məhəbbət düşüb...

Səsinə səs verən var, –
təki onu harayla!
Sevgimizin oduyla
ərisin illər, aylar...

Təki qəlbimizdəki
sevgi odu sönməsin,
təki bu xoşbəxtliyin
üzü bizdən dönməsin...

Ürəyimizə düşən
bu eşq Tanrı nurudu.
O, ay kimi işıqlı,
bulaq kimi durudu...

Bizi ömrümüz boyu
izləyəcək o işıq.
Viranə könlümüzü
bəzəyəcək o işıq...

**07.11.2008**

***

Bizi görüşdürdü
ulu yaradan,
Dönüb bəxtəvərə
sevdalı ürək.
Sabah nə olacaq,
bir kimsə bilməz,
Bu gün səninləyəm, –
xoşbəxtəm demək...

***

Qıyma ki, ürəyim sına,
Sən öz sevdiyini sına...



## SEVDALI ÖMÜR

Sən eşqin göylərində
şimşək kimi çaxa bilsən,
bir dəstə çiçəklə
yolumun üstünə çıxa bilsən,
təbiətə
sevgimizin gözüylə
baxa bilsən,
görəcəksən ki,
dünya necə gözəldi...
Yamyaşıl payız otlarının
üstündə bərq vuran
qızılı xəzəldi...
Sən təşnə ürəyimə
yağış kimi yağa bilsən,
selə dönüb
köksümün üstündən
axa bilsən,
həyata
sevgimizin gözüylə
baxa bilsən,
görəcəksən ki,
necə güclüsən,
qüdrətlisən.
Öz sevginlə
qazanacaqsan
bu gücü,
bu qüdrəti sən...
Sən təbiətə sevgimizin
gözü ilə bax!
Unutma ki,
Tanrı qismətidi
sevdalı bir
ömür yaşamaq...

**08.11.2008**

## SƏNİN PIÇILTIN

"Bir parlaq ulduza, bir qəmər aya,
Bir ömür yaşadan bir içim suya,
Bir zaman yolumu gözləyən toya
Səni sevdiyimi pıçıldamışdım"...

Bir mesajdan

Pıçıltın
bizi yaradanın
qulağına çatdı. –
Köksümüzdə
bir sevgi ocağı çatdı...
O sevgi –
qəlbimizin zülmətini əritdi,
O sevgi –
könlümüzün günəşidir...
Ürək nə ata-ana sözünə baxır,
nə xala-bibi sözünü dinləyir, –
ürək yalnız Tanrının sözünü,
Tanrının səsini eşidir...
Allahın bəxşişi kimi
qəbul elədik
qəlbimizə düşən
məhəbbəti biz...
Sənin yolunu gözləyən toya
toy tutdu
ülvi məhəbbətimiz...
Sənin pıçıltın
saxta bir məhəbbəti
alt-üst elədi,
sənin pıçıltın
gözəl bir sevgi nəğməsi
bəstələdi...
O nəğmənin



sədasının altında
başı daşdan-daşa dəyən
bir insan uşağa dönüb.
O nəğmə
damarlarımızda qana,
ciyərlərimizdə nəfəsə,
gözlərimizdə işığa dönüb...

**09.11.2008**

## DAMLALAR

*"Sevgidən qopan ahım buludlara çatdı. Buludlarsa günahımı yumaq üçün yağış yolladı. Damlalar göz yaşlarımı görüb utandı. Damlalar bilsəydi...*

*Bir mesajdan*

Bilirdin ki,
həsrətdən inləyən ürəyim
çat-çatdı...
Sevgidən qopan ahın
buludlara çatdı...
Buludlar sənin günahını
yumaq üçün
yağış göndərdi.
Sevgi yağışları
içimi gülüstana döndərdi...
Yağış yaralı köksümdə
əlvan bir çələng toxudu.
Yağış sevgi mahnısı oxudu...
Sən uzaqdan baxanda
qərib-qərib,
təşnə ürəyimə
dadandı damlalar...
Birdən sənin
göz yaşlarını görüb,
utandı damlalar...

**09.11.2008**

## SƏN MƏNDƏN AYRILANDA

Sən məndən ayrılanda
İçinə zülmət çökür…
İşığa həris qəlbin
Üşüyür, zillət çəkir…

Bircə an əskik olmur
Qəm buludu üzündən.
Yağış payı istəyir
Qara bulud gözündən…

Çəkib getmək istəmir
Köçünü qəm karvanı.
Tapdaq yeri eləyir
İçini qəm karvanı…

Sən məndən ayrılanda
Qara gözlərin dolur.
Sən məndən ayrılanda
Dünyanın rəngi solur…

Təbəssümlü üzünü
Görüb kor olsun düşmən.
Xoşbəxtlik gəzirsənsə,
Sən məndən ayrı düşmə!

**11.11.2008**

***

Qorxuram ki,
sənin soyuqluğuna
tab gətirməyib,
aramızdakı yol çökə…
Sonra ömrümüz boyu
nəmli gözlərimiz
yol çəkə…

**12.11.2008**



***

Bu məhəbbət
ömrümü bəzəyir,
ancaq o
mənim içimdə basdırılan
minaya bənzəyir.
Onun qorxusu yoxdu
qardan, yağışdan…
Ancaq əvvəl-axır partlayacaq
bircə soyuq baxışdan…

**12.11.2008**

***

"Dəvəçiylə dost olanın
darvazası gen gərək". –
Bunu heç zaman
unutmayasan
sən gərək…

**12.11.2008**

***

Sənin sevdiyin insan
dünyanın ən həssası,
ən kövrəyi,
ən dəlisidi…
Sənin sevdiyin insan
düzlük, səmimiyyət
hərisidi…
Onun içindəki
uyuyan vulkanı oyadacaq
bircə soyuq baxış,
bircə yalana
bükülmüş söz…
Döz, əzizim,
sevirsənsə, döz…

**12.11.2008**

***

Bu da sənin taleyindi –
Bir dəlini sevmisən.
Onun ilanı yuvasından çıxaran
dilini sevmisən.
Köksündə çağlayan
həsrət selini sevmisən…
Könlümə dəyəni
heç zaman bağışlamamışam,
Həmişə üzümə bağlanan
qapı sınıb…
Ancaq hələ döyən olmayıb
qəlbimin qırxıncı qapısını…
İndi sən o qapı ilə
üz-üzəsən,
Sehrli bir dünya ilə
göz-gözəsən…
Həmişə həsrətin
əlləri titrəyib,
o qapı sahibinin
yaxasında…
Ancaq mən
heç özüm də bilmirəm
səni nələr gözləyir
o qapının arxasında?!

12.11.2008

***

Ürək heç kəsin
sözünə baxmır,
Üzü dönəndə
ən əziz adamın belə
üzünə baxmır…
Sönübsə içindəki
sevgi odu,
günahkar sən deyilsən,
günahkar odu…

12.11.2008



***

Yenə qəm buluduna
dönmüsən –
Yollarıma yağış çiləyir
nəmli baxışların.
İçimdəki sevgi çiçəklərinə
həyat verir
o buludun yağışları…

13.11.2008

***

Həsrət dilimə kilid vurub,
Ancaq o qədər
sözüm var ki, sənə!…
Məgər mən ölmüşəm ki,
sənin könül sarayının
işıqları sönə?!

13.11.2008

***

Mənə sevgi müharibəsi
elan eləmisən,
Qəlbimi həsrət nuruna
bələmisən…
Bu sevgi elə bil
şirin bir yuxudur…
Ancaq məni
sevgi müharibəsi yox,
atəşkəs qorxudur! –
Niyə susursan?!

13.11.2008

***

İçinə dinclik, rahatlıq
çökməyəcək
kükrəyən dalğalar,
tufanlar yatmayınca…
Həsrətin əli

yaxandan əl çəkməyəcək
sevdiyin kəsin əli
yaxana çatmayınca...

13.11.2008

***

Yuxudaydım,
sandım kimsə
ürəyimdə ocaq çatıb.
Ayıldım ki,
Ay üzünü
Köksümə söykəyib,
yatıb...
Bəxtəvərəm,
ay üzlümün
İşığı hopub içimə.
Bu dünyanın qaranlığı
Daha mənim nə vecimə!...

15-16.11.2008

***

Həsrətindən qəlbim yara-yaradı,
Dodağımda çiçəkləyib yar adı.
Şükür, onun kəraminə min şükür,
Tanrı səni mənim üçün yaradıb...

16.11.2008

***

Dalıb dərin düşüncələrə,
Çatılıb sevgilimin
qara qaşları.
Çox şükür,
öz yuvasına qayıdıb,
perikən sevgimin
qaranquşları...

16.11.2008



***

Onsuz da sözümə baxmır,
Nə söyləyim mən könülə? –
O, vurulanda vurulur
Bir könüldən min könülə...

Ancaq ürəyim inciyər
Özgə qəlbdə izə dönsən.
O, heç kimi bağışlamır,
Bircə dəfə üzü dönsə...

16.11.2008

***

Niyə yoxdu bir səs-soraq?
İndi səni kimdən soraq?

16.11.2008

***

Təbəssümün
həsrətimə qənimdi,
Sən mənimsən,
demək dünya mənimdi...

17.11.2008

***

*"Yalvarıram, məni tənha qoymayın. Sizsizliyə dözməz bu ürək..."*

*Bir mesajdan*

Bu məhəbbətin sonu kaş hicranla bitməyə –
Arxayın ol, çətin ki, yada uyub gedəm mən...
Bircə şeydən qorxuram, – ömür vəfa etməyə,
Səni yolayrıcında tənha qoyub gedəm mən...

17.11.2008

***

Səndən bir xəbər yoxdu,
Dünyanın rəngi solub.
Mənim telefonumun
Qara gözləri dolub...

Qorxuram ki, ot bitə
Onun səs cığırında.
Qəlbim sevgisiz qala
Ömrümün axırında...

"Orda özgə yaşasın?" –
Ürək şəhər deyil ki...
Zənginlə açılmayan
Səhər səhər deyil ki...

18.11.2008

***

Sənə doğru getmişəm
Köksümdə neçə yara.
Ayları yara-yara,
İlləri yara-yara...

Elə ki, təbəssümün
Yaşıl işıq yandırıb,
İçimdəki ağrılar
Ürəyimdən yan durub.

Sevgi yaralarımın
Məlhəminə dönmüsən.
Qəlbimin sükutunda
Nəğmə kimi dinmisən...

Axtardığım sənmisən,
Aradığım sənmisən?
Mənim ömür yoluma
Göylərdənmi enmisən?

18.11.2008

***

Ürəyimdən keçənləri bilməsən,
Ürəyimə mən sitəmlər edəcəm...
Əgər mənim görüşümə gəlməsən,
Baş götürüb bu dünyadan gedəcəm...

18.11.2008



***

Sevgilim yanımda yoxsa
Axı necə dil-dil ötüm?!
Dəniz onsuz qəribsəyib,
Qəlbim onsuz qalıb yetim.

Ağrısa da,
Sənin üçün
Səadət diləyir ürək...
Anasından ayrı düşən
Quzu tək mələyir ürək...

19.11.2008

***

Üstümüzdən əsir həsrət yelləri,
Yar yarını yaman gündə sınayar.
Bir şüşəyə bənzəri var ürəyin,
Qorxuram ki, daşa dəyib sına, yar!

Bu şəhərdən uzaqlara getmisən,
Ürəyimi sən viranə etmisən,
Tikan olub bəbəyimdə bitmisən,
Yetəcəkmi bu sınaqlar sona, yar?

Aylar ötdü, isinmədim istinə,
Əvəzində kor olmuşam tüstünə.
Su səpirsən qaynar közün üstünə,
Qorxmursanmı sevgi odu sönə, yar?

Axar sular durulmadı, əzizim?
Eşq köksündə nur olmadı, əzizim?
Məndən sənə yar olmadı, əzizim,
Qoy taleyin özü olsun sənə yar!...

20.11.2008

***

Ağrıların, əzabların
Əllərində qalıb yaxam.
Niyə səs-sorağın gəlmir,

Daha sənin üçün yoxam?
Yoxsan...
Yoxsa???!!!...

20.11.2008

***

Öləzisə bu sevginin közləri,
Üstümüzü bircə anda qış alar.
Qəlbin elə kövrəkdi ki, əzizim,
Bulud kimi tez-tez dolar, boşalar...

Məhəbbətlə seyr edəndə dənizi,
Qəlbin əsir, könlün qübar bağlayır.
Ürəyindən nələr keçir, əzizim? –
Bəbəyində selər-sular çağlayır...

Qəm bərq vurur gözlərinin yaşında,
Mənim üçün bir sehrli dünyasan.
Yaz ətri var ömrün qarlı qışında, –
Səni sevən ürəyimi dünya san!

Payız gəldi, neçə yuva boş qalıb,
Xəzəllərə yazılacaq həsrətim...
Nə qədər ki, gözlərində yaş qalıb, –
Kirpiyindən asılacaq həsrətim...

20-22.11.2008

***

Başını söykəyərək
Mənim isti sinəmə,
Söyləyirsən ki, daha
İnanmırsan sənə mən.

Elə bil ki, başımda
Odlu şimşəklər çaxır –
Sənə inanmasaydım,
Necə sevərdim axı?!

22.11.2008



***

Qarşıda bizi
sevdalı günlər
gözləyir deyə
Görüş vaxtını
uzadırsan.
Ona necə
cavab verəcəksən
Bir gün həsrət üsyan edib
üzə dursa?!
Mənim ömür karvanım
üzü qışa gedir,
Səninsə həyatında
yazdı, bunu unutma!
Səni qarşıda
uzun bir ömür gözləyir,
Mənimsə vaxtım
azdı, bunu unutma!...

22.11.2008

## ÜRƏYİMİN SAHİBİ

İçimdə bir boşluq var,
Üstümdə qara kölgə.
Ürəyimin sahibi
Sən deyilmişsən bəlkə?!

Ürəyimin sahibi
Mənsiz gözünü yummaz.
Ürəyimin sahibi
Özgədən sevgi ummaz..

Ürəyimin sahibi
Məndən heç nə gizləməz.
Həsrətlə uzaqlara
Boylanaraq gözləməz...

Bəndələrə məhəbbət
Bir ötəri həvəsdi.
Ürəyimin sahibi
Ciyərimdə nəfəsdi...

Yolumu nurlandıran
O sevginin közüdü.
Ürəyimin sahibi
Ulu Tanrı özüdü...

***

Ömrüm-günüm, dünyada
Heç sənin bir tayın var?
İlahi məhəbbətdə
Sənin də öz payın var...

Sevdalı gözlərinlə
Məni saldın bəndə sən.
Bəlkə də yer üzündə
Sevdiyim son bəndəsən...

Ancaq hər şəfəq saçan
Eşq günəşi deyilmiş.
Ürəyə sahib olmaq
Bəndə işi deyilmiş...

**24.11.2008**

***

*"Kim bilir, beş-altı ildən sonra bizi nələr gözləyir?"*
*Bir mesajdan*

"Beş-altı ildən sonra söhbəti"
beş-altı il ömrümü kəsdi...
İçimdə acı bir
rüzgar əsdi.
Xoşbəxt olmaq
sənin haqqındı –
Başqa bir söz deməyə
üzüm qalmadı.



Darıxma, yavrum,
Bəlkə heç beş-altı il
gözləməyə
lüzum qalmadı...
Səni öndə dadmadığın
həzzlər gözləyir,
mən isə o səadəti
dadmışam.
Səni qarşıda
ağ günlər səsləyir,
Mən isə indən belə
yaşamaya da bilərəm,
çünki sevgilimə çatmışam...

**25.11.2008**

***

Sən xoşbəxtliyə
layiqsən –
Ürəyin həssasdı,
kövrəkdi...
Beş-altı ildən sonra
hay-hayı gedib,
vay-vayı qalan bir qoca
nəyinə gərəkdi?
İstəyirəm ki,
sevgim ürəklərə
nur ələyə,
İstəmirəm ki,
sevgim kimisə
yolundan eləyə...
Hələ əsl sahibini
tapmayan əllərin
nə yaman soyuqdu?
Kiminsə səadətini
kiminsə beş-altı il
ləngitməyə
haqqı yoxdu...

**25.11.2008**

***

Mənim içimdə
ayrı bir "mən" var,
Mənim içimdəki
"mən"in gözlərində
əbədi bir qəm var...
Mənim içimdəki "mən"ə
əlləri əlimdə ola-ola
kimisə düşünən yox,
həsrətimə qənim olan
sevgili gərəkdi.
Mənim içimdəki "mən"ə
ərini aldadıb,
gizlicə görüşümə qaçan
gəlin yox,
təpədən dırnağacan
mənim olan sevgili gərəkdi...

**26.11.2008**

***

Yenə cilvələndi sevgi dənizi, –
Hansı bir istəklə qabardı döşün?
Dedin: -Beş-on ildən sonra, əzizim,
Bizi nə gözləyir, bir özün düşün?!

Elə bil qırıldı qəlbimin simi –
Baxıram balıqçı qayıqlarına...
Tanrı işığıyla dolu qəlbimi
Atdınmı kiminsə ayaqlarına?!

Sevdalı ürəyim üsyana qalxıb,
Az qalır köksümdən sıyrılıb uça.
Gəldi xəyalıma arxanca baxıb,
Hərdən köks ötürən bir miskin qoca...

...Mənə o günləri göstərmə, Tanrım,
Qıyma ki, kükrəyən ilhamım sönə.
Qoy kökdən düşməsin bu könül tarım,
Sənə güvənirəm, İlahi, sənə...



Sən göstər ən doğru yolu qəlbimə,
İçimdə qızılı şimşəklər çaxsın.
Qıyma ki, sevdayla dolu qəlbimə
Kimsə yuxarıdan aşağı baxsın!

...Hansı bir diləklə dindirdin məni?
Qorxdunmu şairin qocalığından?
Niyə dərələrə endirdin məni
Bir təmiz sevginin ucalığından?!

**26.11.2008**

***

İztirab – qəlbimi yeyən xəfif qəm,
İçimdə çovğunlar, tufanlar gəzir.
Deyirsən: – Mən səni başa düşmürəm, –
Bəs niyə sevirdin bir dilbilməzi?

Qara gözlərindən doya bilməyən
Nə çarə axtarsın indi başına?
Sənin ürəyini duya bilməyən
Dəyməz gözlərinin axan yaşına...

Yanğım var bu payız sərinliyində,
İçimə od-alov salan kimdi bəs?
Nəmli gözlərinin dərinliyində
Uyuyan həsrəti görən kimdi bəs?

Ürəyin əlçatmaz, ünyetməz ada –
Bunu dərk eləmək asan deyilmiş.
Qəlbindən keçəni duymayan adam
Sənin axtardığın insan deyilmiş...

Bilmirəm bu necə düşmənçilikdi? –
Qalmışam sülh ilə hərb arasında!
Qəlbim həssaslıqdan çilik-çiçlikdi,
Həsrətin uyuyur hər parasında...

**28.11.2008**

## DARIXMALI GÜNLƏR

Yarpaq taleyinin sonu xəzəldi, –
Baxıram kül altdan boylanan közə.
Dünya yaşamalı, dünya gözəldi, –
Bizi qovuşdurub bir-birimizə...

Həsrəti qızılı, saçı bəmbəyaz
Olsam da, ürəyi baharam hələ.
Bu gözəl dünyada darıxmaq olmaz –
Bu gözəl dünyada mən varam hələ...

Zirvələr üstündə şığıyır qartal,
Bir də belə fürsət düşərmi ələ?!
Bu gözəl dünyadan zövq al, ləzzət al,
Darıxmalı günlər öndədir hələ...

29.11.2008

***

Həsrət alovunda göynəsə için,
Hərdən sevgilini salarsan yada...
Bircə can sözünü dinləmək üçün
Dirilib gələrəm mən o dünyadan...

29.11.2008

***

Ah çəkirsən, gülmür üzün, nədəndir
Qəm sayrışır bir cüt qara gözündə?
Nə gecən var, nə gündüzün, nədəndir
Yuva salıb kədər sənin üzündə?

Mənim qəlbim küssə, bir də barışmır,
O, düşməndir xəyanətə, yalana.
Ömrüm-günüm, ah-uf etmək yaraşmır
Mənim kimi sevgilisi olana...

29.11.2008



***

Əgər ürəyində
sevgi qalıbsa,
Gəl bu yoldan
yarımçıq dönməyək.
Gəl ürəyimiz
danışmayanda,
özümüz də dinməyək...
Boş-boş şeylərə görə
xətrinə dəyməyək
bir-birimizin,
İlahi sevginin ucalığından
enməyək...

29.11.2008

## QIRXINCI OTAĞIN SAKİNİ

Qırxıncı otağın sakini
Sevgilisindən heç nəyi
əsirgəməz,
sevgilisindən heç nəyi
gizləməz.
Qırxıncı otağın sakini
Otuz doqquzuncu otaqda
qonaq gözləməz...
Qırxıncı otağın sakini
Sevgilisinin yanına
ayaqyalın, başıaçıq
qaçmağı bacarmalıdı.
Qırxıncı otağın sakini
məhəbbətin gücündən
qanad açıb,
uçmağı bacarmalıdı...
Qırxıncı otağın sakini
heç kəsə bənzəməməli,

nadir olmalıdı.
Qırxıncı otağın sakini
sevgilisinin bircə harayıyla
dünyanın o başına getməyə
qadir olmalıdı...
Qırxıncı otağın sakini
Əzrayıl kimi dərdin,
aləmin köksünə
çökməyi bacarmalıdı.
Qırxıncı otağın sakini
keçmişə, gələcəyə
qələm çəkməyi bacarmalıdı...
Ürək yanmasa,
gözlər bahar buludu kimi
dola bilməz axı!
Gözləri otuz doqquzuncu
otaqda qalan
qırxıncı otağın sakini
ola bilməz axı!

**29.11.2008**

***

Sən mənim qəlbimin
qırxıncı otağına girməyə
can atırdın,
axır ki,
arzuna çatdın...
Elə buna görə də
qırx yerdən
yaralanan ürəyin
para-paradı,
çat-çatdı...
Bir mənəm ki,
təkbaşına dözürdüm
qırxıncı otağın məşəqqətinə –
İndi də sən özünü



salmısan çətinə...
İndiyəcən mən
körpə bir fidana
qıymırdım,
Ona görə də səni
bu qapıya yaxın
qoymurdum..
Neyləmək? –
Daha iş-işdən keçib...
Bu otağı
öz qəlbin seçib...
Gördünmü,
qırxıncı otaqda baş verənlər
nə şoudu, nə tamaşadı?!
Orda tənha bir insan
öz dərdiylə, kədəriylə
baş-başadı...
Hər söz xətrinə dəyir, –
Sən də mənim kimi
qəlbi şüşəsən...
Ancaq
ömrünün qürub çağında
qəlbinin qırxıncı
otağının sakinini
itirməkdən qorxan
insanın həyəcanlarını
necə başa düşəsən?
Yaş qaynayır gözündə,
söz dustaq olub
dilində, dodağında.
Ancaq görək
yaşamaq istəyəcəksənmi
qəlbimin məşəqqətlə dolu
qırxıncı otağında?!

**30.11.2008**

***

İçimdən qəm karvanı
keçmişdi,
Qara bulud kimi
dolmuşdum...
Əgər mesajında
göz yaşlarıyla islanmış
"əzizim" kəlməsini
görməsəydim,
Çoxdan məhv olmuşdum...
Axır ki, hirsimi
soyuda bildim,
İçimdəki ağrıları,
həyəcanları
uyuda bildim.
Suda boğulan
saman çöpündən
yapışan kimi
mən də o sözdən yapışıb,
öz sevgi dünyama
qayıda bildim...

**30.11.2008**

***

Kim nə deyir desin,
Riya, hiylə
məndən uzaqdı...
Qəlbimin yanında,
Sevgimin yanında
həmişə alnım açıq,
həmişə üzüm ağdı...

**30.11.2008**

***

Sənin qəlbinə dəyən
sözlər yazır deyə,
istəyirəm qələmimi
əbədi istirahətə



göndərəm...
İstəyirəm qəlbimi
duyğular qəbristanına
döndərəm...
Ancaq sənə olan sevgimi
vəsf etməkdən doymuram.
O "qəbir"lərin üstündə
töküləcək göz yaşlarına
qıymıram...

**30.11.2008**

***

Necə dözüm, əzizim,
Bu ağrıya, zillətə?
Səndən səs-soraq yoxdu,
Qəlbim dönüb zülmətə.
Buludlar arasından
Günəş kimi, yarım, çıx!
Bu məhəbbət dastanı
Qoyma qalsın yarımçıq...

**02.12.2008**

***

Soyuqluğun
bağlayıb yolları
qar kimi.
Sənin ürəyinə
dəyən dilimi
ağzımda dustaq
eləmişəm...
Bilirəm ki,
gəlməyəcəksən,
Ancaq budaqlarında
son yarpaqlar titrəyən
qoca çinar kimi
görüş yerində
bitmişəm...

**02.12.2008**

***

Kiminin bəxtinə
həmişəyaşıl qalmaq,
kiminin bəxtinə
vaxtsız saralmaq,
vaxtsız solmaq düşür.
Bir budaqda dünyaya
göz açsalar da,
birinin qismətinə
çiçək olmaq,
birinin qismətinə
yarpaq olmaq düşür...

2008

***

Sahilində dinclik tapır yalqızlar, –
Könlüm bənzər fırtınalı dənizə...
Yalan olub bütün gəlinlər, qızlar,
Yerə, göyə qısqanırsan məni sən.

Bilirsən ki, ömrü azdı yalanın,
Qısqanmağa əsas varmı əlində?
Sənin kimi sevgilisi olanın
Gözü qalmaz ayrı qızda, gəlində...

10.12.2008

***

Bəbəklərin silələnib yağışla,
Həssas, kövrək ürəyinə qəm çöküb.
Sənə layiq deyiləmsə, bağışla, –
Ver dərdinin yarısını mən çəkimi!

Sənsiz solar ruhum, bətim-bənizim,
Qoyma qəlbim alovlara qalana.
Ah-uf etmək yaraşarmı, əzizim,
Mənim kimi sevgilisi olana?!

10.12.2008



***

Gözün havadan nəm çəkir,
Bəbəklərinə qəm çöküb.
Qəlbin yuxa, dərdin böyük, –
Yarısını ver mən çəkim!

Vurulmusan nədən mənə?
Köksün olub vətən mənə.
İçimdə sevgi nuru var,
Neyləyər duman, çən mənə?

Özgələrə uymayacam,
Bu sevgidən doymayacam.
Son nəfəsim qalanacan
Səni tənha qoymayacam...

12.12.2008

***

Qəlbindəki sevgi çiçəkləri
solana kimi mənimsən.
Gözlərində son gilə yaş
qalana kimi mənimsən.
Qarşıda bizi
sevdalı sabahlar gözləyir,
sevgi elmini
yaxşıca mənimsə!...

13.12.2008

***

Mən səni görmək üçün
şəhərin bu başından
o başına gəldim;
Əyləşib qəlbim kimi
sınıq bir maşına
gəldim...
Mən istəyirdim ki,
həyatımın qalan hər anını
sənə həsr edim.

Sənsə oxumağa
təzə kitab seçdiyindən,
oxumağa gəlmədin
gözlərimdəki həsrəti...

13.12.2008

***

Köksün yaralıdı sevgi dağından,
Yenə bulud kimi dolmusan, gülüm.
İtirdiyin çoxmu qazandığından? –
Deyəsən peşiman olmusan, gülüm!

Sözləri köksünü eləyib talan, –
Onun sehr dolu dilini sevdin...
Nə üçün ürəyi viranə qalan
Bir qəlbi sevdalı dəlini sevdin?

Mahnı umurdunmu qırılmış simdən? –
Nələr gözləyirdin qəlbi talandan?
Gör kimin xətrinə əl çəkdin kimdən?
Gör kimin xətrinə qaldın yolundan?

Qəlbini bələyib bu eşq həsrətə, –
Qorxursan sən onun xəyanətindən.
Əmin deyildinsə bu məhəbbətə,
Nə üçün əl çəkdin səadətindən?

Səndəmi qəlbimə olmuşdun sürgün? –
Bunu hiss etməkdən ağırı yoxdu...
Mənsiz qalacaqsan nə vaxtsa bir gün,
Onsuz da bu eşqin axırı yoxdu...

15.12.2008

***

Ciyərimdə nəfəsinin,
əllərinin, tellərinin
qoxusu... –
Deyəsən dünyanın dadı –
sevgidi...
Ürəyimdə



əbədi bir həyəcan,
qısqanclıq,
səni itirmək qorxusu... –
Bu qorxunun adı –
sevgidi...

15.12.2008

***

Biz bir-birimizə
dayağıq,
arxayıq.
Qəlbimizdə
hər yoldan ötənin
yeri yoxdu...
Sevgimizin qulağında
hərəmiz bir sırğayıq –
Təklikdə o sırğaların
heç birinin
dəyəri yoxdu...

15.12.2008

***

Qızına bilmədin eşqin közünə,
Titrəyən əllərin niyə soyuqdu?
Açardım onu da sənin üzünə –
Qəlbin qırx birinci qapısı yoxdu...

15.12.2008

***

Ən bəxtəvər anımızda
Arabir köks ötürmüsən.
Hərdən gileylənmisən ki,
Nələr, nələr itirmisən?!...

Titrəmişəm hər görəndə
Gözlərinin dolduğunu.
Anlamırsan deyəsən heç
Kimə sahib olduğunu...

Ötən günləri ananda
Göz yaşın sel kimi axır.
Qazandığının yanında
İtirdiyin nədir axı?!

Hamı ürəyin quludu, –
Qınamıram bir kimsəni...
Qəlbinə xəyanət etsən,
Qınayacaq bir gün səni...

Yer altında olsam belə,
Haraylasan, gələcəyəm.
Gedənin dalınca baxma,
Üzünü tut gələcəyə...

Görən hansı bəxtəvəri
Murada yetirəcəksən?
Ötənləri unutmasan,
Məni də itirəcəksən...

Gedənlərə yas saxlama,
Əvvəl-axır güləcəksən...
İtkinin nə olduğunu
Hələ sonra biləcəksən...

**19.12.2008**

***

Tanrı sevgi işığını
Qəmli gözümə qaytardı.
Perikən həyat eşqini
Yenə özümə qaytardı.

Eşqin qarlı yollarını
Döndərdi üzü bahara.
Qəlbimizdəki təzə eşq
Aparır bizi bahara.



Sən demə könül tarıma
Təzə bir avaz gəlirmiş.
Sanırdım ömrün qışıdı, –
Qışdan sonra yaz gəlirmiş...

Bəsdi sazaqda əsdiyim,
Yüyürürəm yara sarı.
Sıyrılıb hicran qışından
Gedirəm bahara sarı...

**23.12.2008**

## QƏM KÖLGƏSİ

Hicran, həsrət alovunda
Yaralı ürəyim bişdi.
Mənim xoşbəxt anlarıma
Yenə qəm kölgəsi düşdü...

Bir inci kimi bərq vurdu
Qəm kirpiyimin ucunda.
Duydum: tək qala bilərəm
Hər an bir yol ayrıcında...

Bunları özüm demirəm,
Mənə dil verən ürəkdi...
Ucadan uca deyilsə,
Sevgi nəyimə gərəkdi?!

**24.12.2008**

***

Yad mizrab dəyməyib
könül sazıma,
Qəlbim istəmirsə,
mən kimə baxım.
Qəmli anlarında
sənə lazımam,
Xoşbəxt günlərində
mən kiməm axı?!

**26.12.2008**

***

Tez-tez
qadanı alaram, – demə ,
O yaş deyil
yaşım axı?!
Sənə qurban olaram, – demə,
Sənsiz neynirəm
yaşamağı?!

***

Hər sözünə can deyərdim,
Eşq oduna yan deyərdim.
Mənsiz yaşaya bilsəydin,
Özümü qurban deyərdim...

26.12.2008

***

Qoruya bilməsəm mən öz eşqimi,
Bu dərd bircə anda bükər qəddimi.
Bala itirməkdən qorxan quş kimi
Hərdən qıy çəkməyim qəbahətdimi?!

Hərdən keçirsəm də bu hissləri mən,
Tapşıra bilmərəm qurda quzunu.
Nə öz ürəyimə, nə hisslərimə,
Xəyanət etmədim ömrüm uzunu...

Qısqanclıq köksümdə etsə də qiyam, –
Bir gün səngiyəcək gözün gülərsə...
Demirəm: sev, sevmə! –Nəyəmsə buyam,
Seçim özünündü, özün bilərsən...

26.12.2008

***

Mənim həssaslığım
sənin gününü
qara eləyib...
Mənim həssaslığım
sənin kövrək qəlbini



para-para eləyib...
Sən rahat olasan deyə
itirmək istəyirəm
həssaslığımı,
qovmaq istəyirəm
içindəki dumanı, çəni...
Ancaq bilmirəm
həssas olmasaydım
sevərdinmi məni?!...

26.12.2008

***

Deyəsən qorxudubdur
Quzunu qurd hiddəti.
Səni necə qınayım? –
Ağırdı qurd xisləti...

Uyma nəvazişinə, –
Qaniçən olur qurdlar...
Hələ ki imkanın var,
Qaç öz canını qurtar...

İki od arasında
Qalıbdı can avara...
Sənə qoyun lazımdı,
Mən isə canavaram...

26.12.2008

***

Mən elə bilirdim ki,
Biz ayrılmaz bir canıq.
Sevgilim məndən ötrü
Əsirgəməz bir canı...

Yaxşı ki, xatırlatdı:
Vaxt itirmişik hədər.
Biz bu qədər yaxınkən,
Uzaqmışıq nə qədər?!

Aramızda upuzun
İllər, aylar dururmuş...
Körpüləri dağılmış
Coşqun çaylar dururmuş...

Məndən uzaq qaçmağın
Səbəbi oldu bəlli. –
Ona layiq deyilmiş
Qəlbi viran bir dəli...

Acı sözlər deməyə
Sanki o müntəzirmiş.
Uzaqlıq duyduğundan
Məndən uzaq gəzirmiş...

Niyə təhqir olundu
Mənim saf məhəbbətim?
Nə olardı görəsən
Olsaydı qəbahətim?!

Ucalardan ucadır
İnsan eşqi, əməli...
Bağışlaya bilməyən
Sevməyirmiş deməli...

Bacarmaram diz çöküb,
Yalvaram ki, sev, gülüm!
Məni sevməyən kəsə
Necə deyim sevgilim?!

26.12.2008

***

Dünyanın sirlərlə
dolu olduğuna
inandığım gündən
sirdaşım oldu şeir...
Hicranın qapqara zülmətində
azdığım zaman
içimə işıq kimi doldu şeir...

2008



***

İstəyirdim səsindən
sevgi duyulsun,
ancaq içində
közərdi nifrət.
Niyə sənin qısqanclığın
sevgi sayılsın,
mənim qısqanclığım
sevgisizlik,
hiddət?

26.12.2008

***

Hər an qəlbimizdə qorxu, səksəkə,
Küsüb barışmağın varmı hesabı?
Bəxtəvər olmuşuq dərd çəkə-çəkə,
Necə şirin imiş sevgi əzabı?!

Səngimək bilməyir hiddət dənizi,
Hər sözü salırıq ürəyimizə.
Yaxşı tanımaqçın bir-birimizi
Gəlir "fırtınalar" köməyimizə...

Çətin ki, özgəyə könül verəm mən,
Sevdalı ömrümdə baharsan, gülüm.
Bilirsən heç necə bəxtəvərəm mən? –
Çünki həyatımda sən varsan, gülüm!

27.12.2008

***

Qəlbin bu qədər
sevdalı ikən
bilmirəm o soyuqluq
nədən idi? –
Çox şükür,
indi hər şey yaxşıdı,
çox şükür,
yenə sənə sevdalı
nəğmələr yazıram...

Sənin ürəyin
mənim sevgimin vətənidi, –
onu qorumaqdan ötrü
şəhid olmağa belə hazıram...

30.12.2008

***

Yorulmuşdum
harda gəldi
gecələməkdən;
Bezmişdim
sevdalı qəlbimə
güc eləməkdən...
Çox sağ ol,
sənin sayəndə
ayağa dura bildim.
Özümə bir ipisti
sevgi yuvası
qura bildim...

31.12.2008

***

Tanrı səni göndərib
küskün könlümü
məhəbbətlə dindirməyə...
Tanrı səni göndərib
viranə qəlbimi
gülüstana döndərməyə...

03.01.2009

## ƏN GÖZƏL MAHNI

Sənə zəng eləyəndə
səslənir
telefonuna yüklədiyin
mahnılar.
Heç dünyada



sənin səsindən gözəl
mahnı var?!
Heç nə, heç nə
sənin səsin kimi
mənim ruhuma
nur ələyə bilməz.
Dünyanın heç bir mahnısı
sənin səsini
əvəz eləyə bilməz...
O səsdə
məni sevən
bir insanın qəlbinin
döyüntüləri var.
O səs –
həzin bir nəğmə,
şirin bir röyadır...
O səs –
gecələr mənə layla çalır,
sübh tezdən
yuxudan oyadır...

03.01.2009

***

Söz vermisən ki,
həmişə yanımda
olacaqsan,
ayrılığın axırına
daş atacaqsan...
Söz vermisən ki,
sevginin bütün gözəlliklərini
mənə yaşadacaqsan...
Ürəyindən keçənləri
məndən başqa
kimsə duymasın, əzizim.
Tanrı arzularını
gözündə qoymasın, əzizim...

09.01.2009

***

Bu dünyanı çox dolandım,
Sənə bərabər qız yoxdu.
Heç birinin gözlərində
Şəfəq saçan ulduz yoxdu...

Nəfəsindən qaynar nəfəs,
Köksündən odlu köz yoxdu.
Məni məhəbbətlə süzən
Elə ilahi göz yoxdu...

09.01.2009

**QƏM BULUDU**

Aramızda əsir həsrət küləyi,
Niyə tutaş kirpiklərin nəm olur?
Mənim sevgi sevincimin bələyi
Gözlərində yuva salan qəm olur...

Heç bilmirsən aldadırsan sən kimi?-
Çıxammazsan ürəyinin sözündən.
İçindəki həsrət odu səngimir,
Ara-sıra qəm boylanır gözündən.

Küsəyəndi, sevgilini ara bir! –
Eşq odundan kənar çəkmə özünü.
Ən bəxtəvər anımızda arabir
Niyə qara bulud alır üzünü?!

Ötənləri, keçənləri sən unut,
Az qalır ki, ürək tufan qopara.
Qorxuram ki, qəfil gələn o bulud
Selə dönüb sevgimizi apara...

11.01.2009



***

Onun qamətini
buludlar qucsun,
Gedənin yolunu
bağlayammaram.
Ürəyi hayana
istəyir uçsun,
Mən quşu qəfəsdə
saxlayammaram...

14.01.2009

***

Sevgidə uduzan bir insan,
Özünü öyərmi bir daha?
Üzümə bağlanan qapını
Əllərim döyərmi bir daha?!

14.01.2009

***

Qəlbimə damıb ki,
Sən məni
tərk eləyəcəksən.
Mənsiz qalanda
mənim kimliyimi
dərk eləyəcəksən...

16.01.2009

***

Ürəyimi boş qoyanda
Mən huşumu itirirəm.
Sən köksümə baş qoyanda
Mən başımı itirirəm...

18.01.2009

***

Bu eşqin önündə
Həmişə baş əyim gərək. –
Duyana
bir damla göz yaşı da

dərin olurmuş...
Sağ ol mənə bəxş etdiyin
anlara görə, –
Əsl sevginin əzabı da
şirin olurmuş...

18.01.2009

***

Uzanıb havada qaldı əllərim, –
Qoymadın köksünün nurunu görəm.
Dərmək istədiyim sevgi gülləri
Hansı bəxtəvərçün qorunur görən?!

Saxladın bir ölən eşqin yasını,
Belə tez saralıb-solmaq ağırdı. –
Kiminsə məhəbbət arabasının
Ehtiyat təkəri olmaq ağırdı.

Sevgidə sədəqə deyil gərəyim,
Onsuz da ürəyim yanar ocaqdır.
Qismətim belədi, mənim ürəyim
Qərib sevgilərə sığınacaqdır.

Başımdan götürdün eşqin tacını. –
Güldən şirə çəkən arı özgənin.
Əkib-becərdiyim eşq ağacının
Çiçəyi mənimmiş, barı özgənin?!

18.01.2009

***

Şam tək əriyirsən sən için-için, –
Ürəyin səsini dinləmək armı?
Köksünə baş qoyub ağlamaq üçün
Söylə, məndən başqa bir kimsə varmı?

Öpər qədəmini güllər yağışın,
Heç kəs rəngi solan çiçəyi dərməz.
Heç kəs kirpiyindən asılan yaşın
İçində bərq vuran həsrəti görməz...



Qarşında açılan qollar üşüyür,
Əlinçin darıxıb əlim, hardasan?
Aramızda qalan yollar üşüyür,
Tez gəl, darıxıram, gülüm, hardasan?

Mənim tək kim bilər sənin qədrini? –
Tufanlar yolumu bağlaya bilməz.
Sənin köksündəki gülün ətrini
Heç kəs mənim kimi qoxlaya bilməz...

18.01.2009

## ELƏ QISQANCSAN Kİ...

Sənin gözlərində qoca dünyanın
Ən əziz, sevimli adamı mənəm.
Üşüyən qəlbimin sənsən həyanı,
Qısqanma bu qədər adamı mənə.

Tale mənim üçün göndərib səni,
Gözlərin bəxtimin aynası olub.
Sevgim bəxtəvərə döndərib səni,
Sevgin həyatımın mənası olub.

Üzmə ürəyini xəyala dalıb,
Sən mənə dayaqsan, arxasan, gülüm.
İnci deyiləm ki, əlindən salıb,
Məni itirməkdən qorxasan, gülüm?!

Barsızlar sevərmi barı olanı?
Ağıllı yay günü qar soraqlamaz.
Sənin tək sevimli yarı olanın
Gözləri kənarda yar soraqlamaz.

Gözümdən boylanan həzin kədəri
Sevdalı köksündə nur eləyirsən.
Elə qısqancsan ki, məndən ötəri
Dünyanın özünü kor eləyərsən...

22.01.2009

## DƏNİZİN ÜSTÜNDƏN YOLLAR GÖRÜNÜR...

Deyəsən ürəyin sözünə baxmır,
Daha gözlərin də gözümə baxmır...
Dənizin üstündən yollar görünür,
Həsrətlə açılan qollar görünür...

Çəkir ürəyimi dara gözlərin,
Bir sehrli güləm, dərmirsən məni.
Yenə də yol çəkir qara gözlərin,
Əlimdən tutsan da görmürsən məni.

Az qalır boğulam mən öz tüstümə, –
Dikilib gözlərin yenə uzağa...
Ayrılıq yelləri əsir üstümə,
Düşüb məhəbbətim qara, sazağa...

Sənə gəl-gəl deyir həsrətli qollar,
Kim qopara bilər könlümdən səni?
Həsrətlə baxdığın o namərd yollar
Deyəsən alacaq əlimdən səni...

Sevgi qoşunları keçib içindən,
Ürəyim hönkürüb ağlaya bilmir.
Daha şeirlərim düşüb gücündən,
Səni uzaq yoldan saxlaya bilmir...

Bəxtəvər olmuşdum ömrün qışında,
Köksümdə susana yazığım gəlir.
Baxdığın yolların düz o başında
Ah çəkən insana yazığım gəlir...

Yad əllər uzanır könül tarıma, –
Onun üstündəki hər sim üşüyür.
Düşüb baxışının cığırlarına
Harasa gedirsən, – qəlbim üşüyür...



Qınama murada çatıb gedəni, –
Tutulub sağalmaz dərdə ürəyim.
Məni yarı yolda atıb gedəni
Qəbul etməyəcək bir də ürəyim...

Görürəm, ürəyin sözünə baxmır,
Gözlərin utanır, gözümə baxmır...
Dənizin üstündən yollar görünür,
Önündə açılan qollar görünür...

**24.01.2009**

***

Gözlərimdən ayırmırdın gözünü,
Xoşbəxt idin, niyə qanın qaraldı?
Yenə qəfil bulud tutdu üzünü,
Üstümüzü sanki çovğun, qar aldı...

Hardan əsdi axı həsrət küləyi? –
Sevgilimə yaxın dura bilmədim.
İçin-için qan ağlayan ürəyi
Ha çalışdım, ovundura bilmədim...

Harda qaldı baxışının atəşi? –
Soyuqluğun ürəyimdən buz asar.
İçimizdə yanırdı eşq günəşi,
Aramıza niyə düşdü buz hasar?!

**27.01.2009**

## İÇİNDƏ GİZLƏNƏN ADAM

Gözlərin baxır uzağa,
Söylə, kimi gözləyirsən?
Qəlbinin dərinliyində
Məndən bir ad gizləyirsən.

İçin-için qovrulursan,
Gecə-gündüz alışırsan.
Yuxunda da sayıqlayıb,
Sən o adla danışırsan.

Eşqin boranlı yolunda
Gözlərinə zülmət çökür.
O ad sənin ürəyinə
Gecə-gündüz keşik çəkir.

Qalmısan yol ayrıcında,
Kövrək ürəyin bir şüşə...
O ad qoymur ki, qəlbinə
Özgə bir ad yaxın düşə...

Ömrün sonuna gedəcək
Ürəyinlə qoşa o ad.
Qıymırsan ki, özgə dilə
Düşüb ucuzlaşa o ad.

Öyrəncəkliyəm içimdə
Kədər yükü daşımağa.
Haqqım yoxdu ürəyində
O adla bir yaşamağa.

O ad səninlə olacaq
Bəlkə də son ana kimi.
O ad sənin ürəyində
Basdırılıb mina kimi...

Hazıram könlünü hər an
Oxşayıb əzizləməyə.
Gücüm yetərmi qəlbini
Minadan təmizləməyə?!

Sənin bir günahın yoxdu, -
Haqqım çatarmı qınağa?
O qəlb özgə yuvasıdı,
Mən çağrılmamış qonağam.

Səadət halal haqqındı,
Qoy bu mənə ağır gəlsin.
O yuvanın sahibini
Çağır gəlsin, çağır gəlsin!



Çıxar məni at qəlbindən,
Ömrünə qar ələməyim.
Ürəyindəki yazığın
Yerini dar eləməyim...

Qəlbin qurtarsın zillətdən,
Gözlərində yaş qurusun.
Ürəyini əzablardan
Qoy Tanrı özü qorusun!...

**30.01.2009**

***

Məhəbbət Tanrı nurudu –
canıma, qanıma hopub,
Sevən könlüm ömrüm boyu
öyrəşməyib mat olmağa.
Gözlərində yaş qaynayır,
içimdə fırtına qopub,
Mənim qəlbim layiq deyil
ayaqlara atılmağa...

Zərif bir insan qəlbinə
mən yük olmaq istəmirəm, -
Ürəyində neçə ildi
yuva salıb, yarım, sevgi?
Bir kimsənin sevgisinə
şərik olmaq istəmirəm,
Eşq-məhəbbət təşnəsinə
neyləyəcək yarım sevgi?!

Könlün istəyirsə əgər
ömrünə nur ələyərəm, -
Qəlbim hər yoldan ötənə
qaynayıb-qarışan deyil.
Mən özüm üzüyolayam,
nə istəsən eləyərəm,
Ürəyimi küsdürmə ha,
o küssə, barışan deyil...

**30.01.2009**

***

Niyə qəfil üzün döndü,
Ürəyin haray qopardı?
Mənim sevgi sevincimi
Göz yaşın yuyub apardı...

***

Ölәzidi sevgimizin közləri,
Məhəbbətin şux qaməti əyildi.
Özgə üçün yaş tökürdü gözlərin, –
Bu rəftara qəlbim layiq deyildi...

Dəli könlüm sevməyəydi səni kaş,
Ürəyimdə həsrət puçur-puçurdu...
Selə dönüb gözlərindən axan yaş
Mənim sevgi sarayımı uçurdu...

31.01.2009

## SEVGİMİN SON NÖQTƏLƏRİ

Sənə sevgiylə yazılan
Bir şeir oxudun mənə.
Özümü sındırmasam da
Yamanca toxundu mənə...

Gözündə nə sehr varsa,
Həsrəti daşı göynədir.
Yaralı qəlbim titrədi,
Bağrımın başı göynədi...

Sevdalı bəbəklərinə
Onun gözləriylə baxdım.
Bütün varlığım titrədi,
Gözümdə ildırım çaxdı...

Bu ağrıya, bu həsrətə
Axı necə mən dayanım?!
Bəlkə qısqandırırsan ki,
Sən yanan tək mən də yanım?!



Sən kiminsə günəşisən,
Mənim qara buludumsan.
Son qətrəyədək verərdim
Göz yaşımı, - bulud umsa...

Özümü xoşbəxt sanardım
Məhəbbətim dərin olsa,
Sevgimin son nöqtələri
O qara gözlərin olsa...

01.02.2009

***

Bu da qəlbimin
qırxıncı qapısı –
Hünərin çatırsa,
içəri buyur!
Elə bilmə ki,
qəlbimdə ayrı bir
sevgi uyuyur...
Niyə gözlərindən
giley boylanır?
Niyə söz titrəyir
dodağında?
Özümdən özgə
kim ola bilərdi axı
Qəlbimin qırxıncı
otağında?

03.02.2009

***

Sahibi gəlib çıxdı
dilinin, dodağının,
Könlündəki məhəbbət
bir gör nə gücündəymiş! –
Ürəyimin sehrli
qırxıncı otağının
Açarları sən demə
ovcunun içindəymiş!

Qönçələyib açıldı
ürəyinin arzusu,
Öz yarına qovuşdun –
sevginin gücünə bax!
Əlinə həkk edilib
taleyinin yazısı,
Məni görmək istəsən,
ovcunun içinə bax...

04.02.2009

***

Nə köksündən
məndən başqa
gül dərən,
nə səni
mənim qədər ağladan,
nə səni
mənim qədər güldürən
olmayıb.
Gül dərənəm,
Güldürənəm.
Sevə-sevə can alanam,
öldürənəm...

06.02.2009

***

Bu sevgi
bütün sevgilərin axırına
daş atacaq.
Bu sevginin xatirəsi
ömrünün sonuna kimi
səni yaşadacaq...

07.02.2009

***

Özgəyə uyub gedirdin;
Ananın göz yaşlarına
qıyıb gedirdin;
Vətəni qoyub gedirdin, –



Məni qoyub,
gedə bilmədin...
İçindəki böyük
sevgini duyub,
gedə bilmədin...
Sənin çiçəyini
qopara bilməzdi
hər yoldan ötən! –
Gözün aydın, ana!
Gözün aydın, vətən!
Gözün aydın,
muradına yetən!...

07.02.2009

***

Sevdalı ürəyim sığmır qəfəsə,
Gərək həyatımı həsr edəm sənə.
Dursaq da göz-gözə, nəfəs-nəfəsə,
Həmişə həsrətəm, həsrətəm sənə...

11.02.2009

***

Nə qədər əzizdi
bu nəğmə bilsən? –
Sən mənim sevgimin
qu nəğməsisən...

13.02.2009

## SEVGİ SƏRHƏD TANIMASA DA

Ürəyim heç nəyi
vecinə almasa da,
fikirlər beynimdə
səfə düzülüb, səfə. –
Hardan çıxdı
bu qəfil səfər?!

Sən sevgililər gününü
babanın yanında keçirdin,
mən nəvəmin. –
Sevgi sərhəd tanımasa da,
böyükdü aramızdakı məsafə…

**14.02.2009**

***

Bizimki belə gəlib,
İş işdən keçib daha.
Qismətə ağız büzsək,
Ağır gedər Allaha!

***

Yol gedirəm gələcəyə
aram-aram,
Mən vəfasız gözəlləri
aramaram…

***

Hər bir şeyin öz vaxtı var,
İçimdə eşqin taxtı var.
Sən tək duyumlu yar tapıb,
Yusifoğlunun baxtı var…

**2008**

***

Öz sevgimə sadiqəm,
Yoxdu özgə niyyətim.
Başıma bəla olub,
Mənim səmimiyyətim…

Qısqanclığın şimşək tək
Hər an başımda çaxır.
Mənə inanmırdınsa,
Niyə sevirdin axı?!

**16.02.2008**



## HEÇ NƏ ƏBƏDİ DEYİL

Mənə gendən baxaraq
Çəkirdin ah, yanırdın.
Sevdalı ürəyimi
Ziyarətgah sanırdın.

O sehrli diyara
Düşdü bir gün güzarın,
Gördün orda uyuyur
Neçə sevgi məzarı…

Xəyalında əkdiyin
Eşq zəmisi biçildi.
Axır ki, gözlərində
Adiləşdim, kiçildim…

Sevgi dolu sözlərim
Qəlbinə yatmır daha.
Eşqinin o məbəddə
Havası çatmır daha..

Qınamıram, sevginin
Hökmdarı ürəkdi.
Sənin eşq çiçəyinə
Təzə hava gərəkdi…

Anladın ki, ürəyim
Sevgi məbədi deyil.
Hər şey axır, dəyişir,
Heç nə əbədi deyil…

**20.02.2009**

***

Qısqanclıq odu
içini yandırıb-yaxır,
Sevdalı bəbəklərində
şimşəklər çaxır…
Səni dəli eləyə bilər, əzizim,
Məni itirmək qorxusu…

Qaçıb ürəyinin rahatlığı,
gözlərinin şirin yuxusu...
Baxışlarında həsrət sazağı,
nəfəsində hicran qoxusu...
Qısqanclıq –
əyilməz vüqarımızı
əyə bilər, əzizim!
Qısqanclıq –
ürəyimizdəki sevgini
güvə kimi
yeyə bilər, əzizim...

21.02.2009

***

Mənim şipşirin
sevgi payıma
neçə milçək göz dikib...
Sonra deyəcəklər ki,
Rafiq Yusifoğlu dəlidi,
neçə göz töküb...

22.02.2009

## HƏZİN BİR QÜSSƏ

Sən təzə gedirsən
üzü bahara,
Mən isə quzeydə
bir əlçim qaram...

Qaynar nəfəsinlə
əriyəcəyəm,
Çiçək qamətini
bürüyəcəyəm...

Ürəyim qovrulur
güman içində,
Ətirli bənövşəm
duman içində...



Toy karvanı gəlir
yasıma doğru,
Çən-çisək sürünür
yazıma doğru...

İçimi göynədir
həzin bir qüssə,
Çətin ki, barışa
ürəyim küssə...

22.02.2009

## ÇOXALIR SƏNİ SEVƏNLƏR

Azalır saçımda
Dəni sevənlər,
Günbəgün çoxalır
Səni sevənlər...

Süzür qamətini
Həris baxışlar,
Yağır ürəyimə
Soyuq yağışlar...

Mən bu soyuqluqla
Barışım necə?
Qəlbindən keçəni
Soruşum necə?

Unutdunmu o xoş
Anları görən? –
Soyumalı idi
Onları görən...

Ümidim qalmayıb
Nurlu səhərə.
Necə rəqib olum
Mən bir şəhərə?!

Gedir son mənzilə
Ömür karvanım.
Bilmirəm qəlbimlə
Necə davaranım?!

Kimsənin önünü
Kəsən deyiləm,
Mən öz taleyimdən
Küsən deyiləm…

Köksümdə çağlayan
Qızıl qanım var,
İçimdə fırtına
Yaradanım var…

Tanrı məhəbbəti
Mənə bəs edər,
Üşüyən qəlbimi
O eşq isidər…

**22.02.2009**

## QÜSSƏ DUMANI

Cavanlar –
gözəllik hərisi,
Çoxalır dərdindən
ölənlər.
Çoxalır rəqibim
günbəgün,
Çoxalır sevgimə
gülənlər…

Bir özün fikirləş:
Qış hara, yaz hara?
Bu tale hökmüdür,
Toy hara, yas hara?!



Könlümün heç nəyə
Qalmayıb gümanı.
Məni məhv edəcək
Bu qüssə dumanı…

Qəlbini mənim tək
Duyacaq kim? – söylə!
Bölüşə bilmərəm
Sevgimi kimsəylə…

**22.02.2009**

***

Çətin ki,
üşüyən qəlbimi
isidə bilsin
kösövü bir yana,
közü bir yana
dağılan ocaq…
Sevgimə xəyanət
elədiyin andan
qəlbimin qırxıncı qapıları
üzünə bağlanacaq…

**25.02.2009**

***

Bəzən məni elə adamlara
qısqanırsan ki,
əlim üzümdə qalır…
Qısqanclığın aramıza
Keçilməz hicran dağları salır…
Ancaq nə yaxşı ki,
təbəssümün o dağları
əridə bilir hələ…
Nə yaxşı ki,
təmiz məhəbbətin
için-için hönkürən könlümü
kiridə bilir hələ…

**25.02.2009**

***

Səni yanımda görənlər
bizi qanlı-qanlı
süzürlər.
Həsrətimdən üzülənlər
əllərini məndən
üzürlər...

27.02.2009

***

Mənim məhəbbətlə göynədi içim,
Sənin məhəbbətlə göynədi için. –
Mən səni sevmədim təmənna üçün,
Sən məni sevmədin təmənna üçün...
Ürəyin istəyən kəsi sev, gülüm!
Sənə ər lazımdı, yoxsa sevgili?!

03.03.2009

## ÇİÇƏKLİ YOLLAR

Əl üzmə Tanrının verdiyi paydan, –
Xoşbəxtlik nə pulda, nə altundadı.
Sənin gələcəyin büllur sarayda,
Mənim gələcəyim yer altındadı...

Ah-uf eləyirsən niyə, əzizim? –
Gümanlar, şübhələr yeyir içimi...
Sən xoşbəxt olasan deyə, əzizim,
Çəkib getməliyəm mən öz köçümü...

Sevgim sənin üçün bir çələng hörüb,
Sevdalı qəlbimi nura bələyib.
Mənim məhəbbətim işini görüb, –
Səni fəlakətdən xilas eləyib...

Nəm çəkən gözlərin yollarda qalsa,
Könlüm özgələrə ov olacaqdır.
Mərhəmət xətrinə yanımda qalsan,
Qəlbim çilik-çilik ovulacaqdır...



Sən nələr etmədin sevda yolunda? –
Damardan süzülən qan dala dönməz...
Mənim məhəbbətim sənin qolunda
Heç zaman, heç zaman qandala dönməz...

Hər bağlı qapının öz açarı var,
Əsl məhəbbətin gözləyir səni.
Açılıb önündə çiçəkli yollar,
Öndə səadətin gözləyir səni...

04.03.2009

***

Daha sən tənha deyilsən,
Bunları yadında saxla!
Könlündən ağlamaq keçsə,
Köksümə baş qoyub, ağla!

Məni duymayan gözəlin
Ayağına döşənmərəm.
Bu da tale yazısıdı,
Qismətinə düşən mənəm...

Sənin üzün tutulanda
Ürəyimə yağış yağır...
Qismətə dal çevirənin
Xoşbəxtlik əlindən çıxır.

Demə bu necə sevgidi,
Heç vaxt danlama özünü.
Qara gözlərin dolmasın,
Bulud almasın üzünü...

Hər qocaya tay eləmə
Qəlbi bahar, yaz olanı.
Tanrı bəxşişi tək qoru
Taleyinə yazılanı...

04.03.2009

***

Aydan arı olan kəsə
Yaraşarmı ləkə sözü?
Mənim sevdalı qəlbimdə
Yaxalanır ləkə özü...

Mayası halal ilhamım
Nə deyirsə, təmiz deyir.
Mənim sevgim ləkə salmır,
Ləkələri təmizləyir...

04.03.2009

***

Bu sevginin
ucalığından ensən,
səni xırdalanmaq gözləyir;
Sevmədiyin insanın
köynəyini ütüləmək,
ömrün boyu mətbəxdə
qurdalanmaq gözləyir...

06.03.2009

***

Sən bəzən
özün də bilmədən
yaralarımın qaysağını
qoparırsan;
Sən özünü
qırxıncı otağın
sahibi kimi yox,
kirayənişin kimi
aparırsan...
Gözlərin kimisə arayır,
Elə bil heç sən
sevgi köhlənimin
tərkində deyilsən.
Deyəsən, hər gün məni
zərrə-zərrə itirməyinin
fərqində deyilsən...



Daha məni öpə bilmirsən
illər boyu yolunu gözlədiyim
bir mələk dodağı ilə...
Sevgini qorumaq mümkün deyil
zor ilə, qadağa ilə...
Sən ha de ki, belə deyil, –
Ürəyim mənə belə deyir...
Hamıya mehribansan,
Hamının işinə yarayırsan;
Məndə olmayanı
özgədə arayırsan...
Yavaş-yavaş özgə ürəyinə
nur saçırsan,
yavaş-yavaş məndən
qaçırsan;
Könül dünyanın qapılarını
özgənin üzünə açırsan...
Xəyalların qanadında
harasa, harasa uçursan...
Daha dilim də dönmür deyəm :
darıxıram, tez gəl!
Mənə başqa bir şey qalmır
sənə yaxşı yol
diləməkdən özgə...

06.03.2009

***

Mənim qəlbimdə ayazdı,
Sən zərrəcə üşümürsən.
Gözlərin gözümdən qaçır,
Görən kimi düşünürsən?!

Niyə bizim aramızda
Ayrılıq yelləri əsir?
Yenə də həsrət sazağı
İçimi doğrayır, kəsir...

Qəlbində eşq mürgüləyən
Qəflətdədi, ayıq deyil...
Axı belə soyuqluğa
Mənim qəlbim layiq deyil?!

Səndən sədəqə ummuram,
Ayrı bir diləyim yoxdu.
Görünür qəlbinə layiq
Sevdalı ürəyim yoxdu...

Bəlkə qırxıncı otaqdan
Baş götürüb qaçacaqsan?
Eşqinə layiq olana
Ürəyini açacaqsan?!

Üç günlükdü, beş günlükdü
Sevməyənin sədaqəti.
Zor ilə qorumaq olmaz
Öləziyən məhəbbəti...

**06.03.2009**

***

Əbəs yerə qısqanırsan,
Mən hər quşa dən deyiləm.
Bəlkə də dərk etmisən ki,
Axtardığın mən deyiləm?!

**06.03.2009**

***

Sənin "keçilərin"
heç zaman məni
rahat qoymayıb,
Sənin "keçilərin"
sevgi gülşənimdə
sağ istahat
qoymayıb...

**07.03.2009**



***

Mənə
ötən sevgilərə qənim olan
sevgili lazımdı;
Mənə
təpədən dırnağacan
mənim olan
sevgili lazımdı.
Sən ötən sevgilərə
qənim ola bilirsən,
ancaq təpədən dırnağa
mənim ola bilmirsən...

**07.03.2009**

***

Həyatdan zövq al,
kefindən qalma! –
Nə uğrunda qocalmaq,
qarımaq istəyirsən? –
Ya özünü kiminçünsə
qoruyursan,
ya məni əzablardan,
iztirablardan
qorumaq istəyirsən...

**07.03.2009**

***

Başında hansı sevgininsə
yaz havası qalıb,
tez-tez kirpiklərində
yaş tumurcuqlayır
puçur-puçur...
Əllərin əlimdə olanda belə
xəyalların harasa
uçur, uçur...
"Ötən sevgi ilə alışan ürəyimi
soyudacağam!" – deyirsən.
Məni öz dünyamla

baş-başa qoyun,
onsuz da əvvəl-axır
yanınıza qayıdacağam! – deyirsən...
Könlü kimisə arayan kəsə
Könül bağlaya bilərəmmi?
Başqasının nəfəsi dəyən çiçəyi
Təzədən öpüb-qoxlaya bilərəmmi?

07.03.2009

## YARALI QUŞCIĞAZ

*"Məni sərbəst buraxın, öz dünyama gedim. Onsuz da sonra yanınıza qayıdacağam!"*

*Bir məktubdan*

Yaralı quşcığaz!
Tale yelləri səni
mənə ürcah eləyib
qova-qova...
Hara uçub getsən belə
tapa bilməyəcəksən
ürəyimdən isti bir yuva...
Yaraların sağalıb deyə
qanadlanıb uçmaq istəyirsən.
Yolunu gözləyən əngin səmaları
qucmaq istəyirsən...
Bilirsən nə gəlir ağlıma:
Daldaya qısılıb ağlama,
Uçub yenidən qayıtmağa
o qədər də bel bağlama...
Görmürsənmi
şaxtalı havanı?
Sən qayıdınca
boş qoyarlarmı
elə isti yuvanı?

**07.03.2009**



***

Yenə də qu desən,
qulaq tutulur içimdə...
Hər şeyi təzədən başlamağa
vaxtım da yoxdu,
gücüm də...

**07.03.2009**

## ELƏ BİLİRSƏN Kİ...

Bəlkə də elə bilirsən ki,
yolunun üstünə
məndən daha duyumlu,
məndən daha sevimli
insan çıxacaq. –
Əngin, laciverd səmaları
qucur xəyalın...
Bəlkə də elə bilirsən ki,
bu əllər həmişə əlində olacaq,
bu gözlər həmişə
gözlərinə baxacaq; –
ona görə də o əli,
o gözləri unudub
harasa uçur xəyalın...
Bir gün ayılacaqsan ki,
məni uzaqlara aparıb
ömür köçüm;
Bir gün ayılacaqsan ki,
Ömür keçib...
O gün
həsrət burulğanına
düşəcək için.
Ağlayacaqsan
dərdli-dərdli,
için-için...
Ürəyin göyüm-göyüm
göynəyəcək

o əlləri bir də tutmaq,
o gözlərə bir də
baxmaq üçün…

**08.03.2009**

***

Mən bu sevgi dastanımı
belə tez bitirmək
istəmirəm.
Mən mənə məxsus olanın
dəyərini bildiyimdən
onu itirmək
istəmirəm…
Sən bunun
nə demək olduğunu
dərk eləyə bilməzsən; –
Həmişə sevgi dolu gözlərinə
son dəfə baxırmış kimi
baxıram…
Sən hərdən
tək qalmaq istədiyini
söyləyirsən,
mən isə tənhalıqdan
qorxuram…

**08.03.2009**

***

Məndən sonra
şeirlərimi oxuyub
əzizləsən,
onlar ürəyinə
nur ələyəcək…
Kiməsə xoş getsin deyə
əlyazmalarımı yandırsan,
tüstüsü o dünyada məni
kor eləyəcək…

**08.03.2009**



***

Sən söz vermisən ki,
Məni xoşbəxtliyin zirvəsinə
qaldıracaqsan;
Sən söz vermisən ki,
Mənə sevginin
bütün sevinclərini
daddıracaqsan…
Ancaq hələ ki
içimdə sevgi sevincləri az,
sevgi əzabları boldur.
Qəlbimdəki dərin boşluğu
öz ilahi sevginlə doldur…

**08.03.2009**

***

Elə bilmə ki,
qəlbimi incitməmək üçün
mənə yalan danışsan,
razı qalacam səndən…
Mən öz nifrətimlə yox,
öz sevgimlə
dəhşətli intiqam
alacam səndən…

**08.03.2009**

***

Sən öz soyuqluğunla
mənə çox mətləbi
qandırmısan. –
Bilmirəm nələr, nələr var
yaralı könlündə?
Köhnə nömrənin işıqlarını
yenə mayak kimi
yandırmısan
sənə doğru üzən
sevgi gəmisinin önündə…
Taleyim

dünyanın bütün qəmini
üstümə endərib.
Kiminsə yoluna
nur saçan o mayak
Mənim içimi
zülmətə döndərib...

08.03.2009

## GÖYDƏN ÜÇ ALMA DÜŞDÜ

Ürəyim çilik-çilik,
Ürəyim para-para...
Eşqin qarlı yolları
Məni gətirdi hara?!

Bu sevginin gücünə
Yamanca inanırdım.
Özümü bu dünyanın
Bəxtəvəri sanırdım.

Min arzuyla gedirdi
Könlüm üzü bahara. –
Bir gecəyə qar düşdü
Güvəndiyim dağlara...

Heç özüm də bilmirəm
Necə unudum onu? –
Göydən üç alma düşdü, –
Bu da nağılın sonu...

08.03.2009

## PƏRDƏ

Aramıza çəkdiyin
qara pərdə
Mənim ürəyimi
salıb dərdə...
Gözlərin yol çəkir,



Baxışların üzür
qəm dənizində.
Kim bilir nələr var
pərdənin o üzündə?!

09.03.2009

***

Gözlərinin işığı da azalıb,
gecələr səhərə kimi
kirpiklərinlə qor götürməkdən...
Ana balasını itirməkdən
qorxduğu kimi qorxursan
məni itirməkdən...
Gözlərindəki sevgini,
həsrəti görən
özgə gözlərə baxarmı?
Nəyə sahib olduğunu bilməyən
onu itirməkdən qorxarmı?

10.03.2009

## SƏN SOYUQ OLANDA

Sən soyuq olanda
aramıza həsrət qışı düşür...
Sən soyuq olanda
sevgi üzüyümün qaşı düşür...
Sən soyuq olanda
tükənir yaşamaq həvəsim.
Sən soyuq olanda
elə bil havam çatmır,
kəsilir nəfəsim.
Sən soyuq olanda
aramızda ucalır
hicran hasarı.
Yaraladığın ürəyi
sonradan ha sarı!
Sən soyuq olanda

Dünyanın üzünü su alır.
Sən soyuq olanda
mənə rahatlıq vermir
"Sevgi varmı?" sualı.

18.03.2009

***

Hər şeyi o saat duyur,
Ürək zərif, ürək incə...
Məndən küsmə,
bəxtindən küs
Deyiləmsə ürəyincə...

17.03.2009

***

Heç nə vəd etmirsə
Sənə bu sevgi,
Gərək yavaş-yavaş
Sönə bu sevgi...

16.01.2009

***

İnsanlar vəfasızdı,
Sev çiçəyi, sev gülü!
Olsun həyatın boyu
Sənə sadiq sevgili...

***

Dünən olsun,
bu gün olsun,
yarın olsun,
Təki səni
sevən, duyan
yarın olsun!

***

İnsaf elə, a gül yanaq,
Nə qədər oduna yanaq?



***

Əgər hesab edirsənsə
Mən bitmişəm, tükənmişəm,
Niyə eşq elan edirdin
Sən bitmişə, tükənmişə?

***

Yolları bağlamaq olmaz,
Gedəni saxlamaq olmaz.
Səni sevməyən insanın
Ardınca ağlamaq olmaz...

***

Sən həmişə dincliyimə,
rahatlığıma
qənim olacaqsan.
Özgə köksünə
baş qoysan belə,
mənim olacaqsan...

***

Sevdalı qəlb,
Olarmı qəlp?

***

Əgər atsan itə ət,
Edər sənə itaət...

***

Bütün laqeydlərə yadam –
Onlara ya saray, ya dam...

***

Qorxuram ki, düşəm çənə, çiskinə,
Gedənə düz istiqamət gərəkdi...
Ürəyimi hicran qoyub pis günə,
Mənim üçün isti qamət gərəkdi...

## TƏNHA QADININ HARAYI

Bədbəxtmi bir küncdə tənha ağlayan? –
Mənim səadətim əridi, itdi...
Sən idin dünyaya məni bağlayan,
Sən getdin, dünyanın ləzzəti getdi...

Neçə ki mən varam, ölməyəcəksən,
Qovacam üstündən dumanı, çəni...
Bilsəm də qayıdıb gəlməyəcəksən,
Gözlərim hər yerdə axtarır səni...

Köksümdə nə qədər ağrısın ürək? –
Başıma qoymusan qəm çələngini...
Sən getdin, sırsıra bağlayıb ürək,
Sən yoxsan, dəyişib dünya rəngini...

Tək özün getsəydin nə vardı axı? –
Apardın dünyanın şirin dadını.
Həsrətin sel olub gözümdən axır,
Çətin ki duyalar tənha qadını...

Köksümdə qəm yükü daşıyıram mən,
Ağladım qəlbimi boşaltmaq üçün...
İndi bu dünyada yaşayıram mən
Sənin xatirəni yaşatmaq üçün...

**19.12.2008**

## EPİTAFİYA

*Xatirənin baş daşı üçün*

Heç nəyə uya bilmədim,
Həyatan doya bilmədim.
Uşaqlardan arxayınam,
Səni tək qoya bilmədim...

2008



# ÖMÜRDƏN DÜŞƏN YARPAQLAR

## SALAM, İYİRMİ BİRİNCİ ƏSR

Nə qədər toxum əkilib
Ayın, günün şırımında.
Qəlbimiz yarpaq tək əsib
İllərin aşırımında.

Xalqımızı cəm eləyib
Üçrəngli bayraq altına,
Əsrimizin son ilini
Qoymuşuq ayaq altına.

Üzümüzə təzə əsrin
Sehrli nəfəsi dəyir.
Babanın demədiyini
Vaxt gəlir, nəvəsi deyir.

Zamanın il, ay şumunda
Təzə-təzə vər açılır.
Nə xoşbəxtik, qarşımızda
Təzə üfüqlər açılır.

Sanki hər şey təzələnib,
Hara baxdıq, yeni gördük.
Tanrım, necə bəxtəvərik,
Yaşayıb bu günü gördük.

Əsrin zirvəsindən baxdıq,
Gözümüzdən yaş açıldı.
Arzuların aynasını
Quduz illər daşa çaldı.

Gördüm qərib dərələrin,
Dağların gözü yol çəkir.
Xəzan vurmuş meşələrin,
Bağların gözü yol çəkir.

Neçə qönçə arzuları
İllərin sazağı vurub.
Kəndlər yetim quzu kimi
Küskündür, boynunu burub.

Qəlbimizdən qanlar axır,
Yaralı torpaq kimiyik.
Biz əsrin son budağında
Titrəyən yarpaq kimiyik.

Kaş yurdumu azad görəm,
Sevincdən köksüm qabara.
Zamanın yelləri bizi
Doğma yerlərə apara.

Ötən əsrin illərindən
Neçə dağlı sinə qalıb.
Salam, iyirmi birinci əsr,
Gümanımız sənə qalıb…

**02.01.2000**

## ƏLLİ YAŞIM

Sevənlərin dodağında
Yanan ahdı əlli yaşım.
Əsrin son il budağında
Bir yarpaqdı əlli yaşım.
Həsrətlə keçdiyi yola
Dönüb baxdı əlli yaşım.
Xatirə kəcavəsində
Bir çıraqdı əlli yaşım.
Əlli baharım, payızım,
Əlli yayım, əlli qışım,
Əlli yaşım.



Sevda dolu gözlərimin
Baxışından bəlli yaşım,
Əlli yaşım.
Ürəklərə sevgi səpən
Xeyirxah əməlli yaşım,
Əlli yaşım.
Qəlbimdə göynəyən həsrət,
Gözümdə bərq vuran yaşım,
Əlli yaşım.
Yollarımda gözü qalan
Həsrətli torpağım, daşım,
Əlli yaşım.
Sevda dolu ürəyimin
Tumurcuğu yaşıl-yaşıl,
Əlli yaşım.
Nəvəm yatır arzuların
Beşiyində mışıl-mışıl,
Əlli yaşım.
Ürəyimdən keçib gedən
Əlli ordu, əlli qoşun –
Əlli yaşım.
Sevdalı başıma qonan
Mələk donlu dövlət quşum,
Əlli yaşım.

## YAŞAMALI DÜNYADI

Elə bil ki, adamla
Danışır gül-çiçəklər.
Çəməndə ulduz kimi
Sayrışır gül-çiçəklər.
Uçan kəpənəklərə
Qoşulmalı dünyadı,
Qəlbimdən bir səs gəlir:
Yaşamalı dünyadı!

Dənizlərə, çaylara,
Ucalan dağlara bax.
Dodağında təbəssüm
Körpə uşaqlara bax.
Gül qoxulu saçları
Oxşamalı dünyadı.
Könlüm nəğmə oxuyur,
Yaşamalı dünyadı!

Göydə Ay gülümsəyir,
Qəlbimdə sevgi gülür.
Ürəyimin başında
Açılır sevgi gülü.
Göylər necə laciverd,
Quş olmalı dünyadı.
Kim nə deyir qoy desin:
Yaşamalı dünyadı!

Nə qədər qız var, Allah,
Heyran qoyur adamı.
Təzə-tər çiçəklərin
Bəbəyindən od damır.
Ürəkdə sevgi, həsrət
Daşımalı dünyadı.
Allahım, necə gözəl,
Yaşamalı dünyadı!

**1999**

## EY VƏTƏN

*Dostum Əvəz Hüseynquliyevə*

Aralı düşmüşəm dağından, düzündən,
Bulaqlar çağlayır həsrətli gözümdən.
Bu dərdə, ağrıya de, necə dözüm mən? –
Qəlbimdə sızlayan yaralı ney Vətən,
Ey vətən, ey Vətən!



Yuxumda görürəm dərəni, dağını,
Xəzana tuş gələn laləzar bağını.
Qalx əzək düşməni, qalx əzək yağını,
Əyninə sən əsgər paltarı gey, Vətən,
Ey vətən, ey Vətən!

Elimə, obama tuş olmaq istərəm,
Hönkürən gözündə yaş olmaq istərəm,
Çırpınır ürəyim, quş olmaq istərəm,
Qanadı olana yer vətən, göy vətən,
Ey vətən, ey Vətən!

## ULDUZLAR

*Qardaşım Razimə*

Hər ömrün qışı, yazı var,
Hər alında bir yazı var.
İnsan işıqdan yoğrulub,
Hər kəsin bir ulduzu var.

Bu dünyada hələ heç nə
Yaranmayıb özbaşına.
Cərgə-cərgə ulduza bax,
Bənzəyir öküz başına.

Ayaq yoxsa, diz nə gəzir?
Gedən yoxsa, iz nə gəzir?
Bizim ağ üzlü dünyanın
Göyündə öküz nə gəzir?!

Bəlkə "ox üz" bürcüdü bu?
Bəlkə "ağ üz" bürcüdü bu?
Biz onun övladlarıyıq,
Qardaş, Oğuz bürcüdü bu...

## QUSAR LÖVHƏLƏRİ

*Dostum Rəşid Babayevə*

Gəl-gəl deyən zirvələr ucalardan ucadı,
Xəbər də tutmaq olmur baharından, qışından.
Şahdağa bax, elə bil bir ixtiyar qocadı,
Ağ çalması heç zaman əskik olmur başından.

Zümrüd donlu meşələr bu torpağı bəzəyir,
Dağa çıxsan, ayağın yerdən, göydən üzülür.
Şahdağ bir topa nəhəng ağ buluda bənzəyir,
Qusarçay ətəyindən damcı-damcı süzülür.

Qayabulaq başına toplasa da bir eli,
Axan çaya qoşulub, qaçır, dənizə qaçır.
Gözəllər çimən zaman sanki Bənövşə gölü
Ətirlənir, dörd yana bənövşə ətri saçır.

Cərgə ilə düzülüb ağaclar çay boyunca,
Yarpaqların kölgəsi işıqlar kimi üzür.
Məhəbbətlə dörd yanı seyr edirəm doyunca,
Səmada qanad çalıb alıcı quşlar süzür.

Parkda göylərə meydan oxuyan ağacların
Uca budağına əl, belinə kəmər çatmaz.
Göz oxşayır dağların ətirli yamacları,
Doğrudan da, Qusara bir kənd, bir şəhər çatmaz...

## QAYABULAQ

Qayaların sinəsindən
Sızıb gəlir Qayabulaq.
Bir-birinə gör necə də
Doğmalaşıb qaya, bulaq?!



Baxır vüqarla Şah dağı,
Gözəllikdi solu, sağı.
Meşələrin danışdığı
Nağıl bulaq, röya bulaq,
Qayabulaq.

Suyundan iç, durul, durul,
Qanadlan, uç pırıl-pırıl.
Nazlı-nazlı, şırıl-şırıl
Axar Qusarçaya bulaq,
Qayabulaq.

Ağlayacaq gözü dolan,
Sevmirsənsə, uzaq dolan.
Gözəlliyə təşnə olan
Səndən çətin doya, bulaq! –
Qayabulaq.

Üzümdən, dilimdən öpər,
Ruhuma duruluq səpər.
Gözə nur, ürəyə təpər,
Sevdalara maya bulaq,
Qayabulaq...

**30.07.1998**

## GÖZLƏRİ YOLLARDA QALAN YARPAQLAR

*Qusar meşələrinə gəzməyə getməliydim, baş tutmadı...*

Salam, həsrətimdən
Solan yarpaqlar!
Gözləri yollarda
Qalan yarpaqlar.
Heyf, yanınıza
Gələ bilmədim.

Vida kədərini
Bölə bilmədim.
Sizi mən dərmədim,
Külək qopardı.
Elə bil köksümdən
Ürək qopardı.
Kəsdi aramızı
Yağmurlu hava,
Ovcum sizin üçün
Olmadı yuva.
Köynək olmadınız
Əynimdə mənim,
Ələ dönmədiniz
Çiynimdə mənim.
Göydə uçuşdunuz,
Titrədi ürək.
Siz məktub oldunuz,
Poçtalyon – külək.
Bu payız boş qaldı
Əlim, əlvida!
Yarpağım, əlvida,
Gülüm, əlvida!...

## QARLI NAĞIL VƏ YA QUSARDA İLK QAR

Mən meşədə quşlar üçün
Qalan sovqat barı gördüm.
Getmişdim ki, xəzəl görəm
Lopa-lopa qarı gördüm.
Həmərsinin muncuğunda
Donub ölən arı gördüm.
Zoğalın tumurcuğunda
Gizlənən baharı gördüm...



***

Xoşbəxtəm ki, bu meşəyə
Yağan nübar qarı gördüm.
Ürəyim bir dağa döndü,
Elə ki, dağları gördüm...

Qar ələndi yamaclara,
Sanki süd qazanı daşdı.
Meşədəki ağaclara
Buludlar nağıl danışdı.

Düşdüm bir ov sorağına,
Ay aman, meşədə azdım.
Düzlərin ağ varağına
Ayağımla şeir yazdım.

Nələr, nələr düşdü yada,
Gəzdim meşədə o ki var.
Uzanan qoşa misrada
Bir yığın həsrət yükü var.

Bəxti qara, yolları ağ,
Taleyinə qərib söyüb.
Yəqin indi ana torpaq
İzim üçün qəribsəyib.

Göynədi əski yaralar,
Qar ələndi, şair baxdı.
Payızda belə qar olar? –
Yeyin imiş şair baxtı...

## DANIŞAN OCAQ

Bu ocağın sönən közü
Gözümə ümidlə baxır.
Yadıma kəndimiz düşür,
Başımdan tüstülər qalxır.

Bu ocaq gözümə baxıb,
Məndən mərhəmət istədi.
Bu ocağın söylədiyi
Kəlmələr necə istidi?!

Köksümdə ürək çırpınır,
Gah dinləyir, gah danışır.
Çöplər çırthaçırtla yanır,
Dillənir, ocaq danışır.

Köksümdə yığılıb qalan
Xatirələr ağac imiş.
Bu ağacın sönən közü
Nəfəsimə möhtac imiş...

***

Demə ki, bu ocaq sönüb,
Kül altında közlər durur.
Kağız-qələm arasında
Yazılmamış sözlər durur.

Qələmim tumurcuqlayıb,
Ucunda söz puçur-puçur.
Kağız-qələm arasında
Sözlər kəpənək tək uçur...

Ömrümüz sözlə yoğrulub,
Bu dünyanın özü sözdü.
Fikir, ağıl ocağının
Cövhəri söz, közü sözdü...

## MEŞƏYƏ AÇILAN QAPI

Yanına gəldim, dil açdı
Meşəyə açılan qapı:
–Elə get gəz ki, olmayım
Əməyi puç olan qapı!



O qapını açıb girdim
Möcüzəli bir diyara.
Dırmandım üzü yuxarı
Pöhrəliyi yara-yara.

Yeridikcə cığır boyu
Özlərin "didib-yedilər",
Kollar tutub ayağımdan
"Bizi də apar!" – dedilər.

Çıxıb getdikcə, qarşımda
Neçə dik, dolama durdu.
Elə bil ki, sıralanıb,
Ağaclar salama durdu.

Çıxdım gözəl bir talaya,
Hər tərəf güldü, çiçəkdi.
Şəlalə məni çağırdı,
Uzaqdan şaqqanaq çəkdi.

Yel əsdi, uca budaqlar
Sanki mənə əl elədi.
Sıldırımda bitən çiçək
Göz-qaşla gəl-gəl elədi.

Dırmandım uca dağlara,
Yenə əməyim puç oldu.
Gözlərimin qarşısında
Təzə zirvələr açıldı.

Mən getdikcə, yumaq kimi
Cığırlar, yollar uzandı.
Gördüm bu iş mənlik deyil,
Dünyanın işi uzundu.

Düşdü axşam toranlığı,
Qayıtdım üzü aşağı.
Ürəyimdə həyat eşqi,
Gözlərimdə ay işığı.

Neçə çeşmədən su içdim,
Dolanıb neçə dağ gəldim.
Meşəyə açılan qapı,
Yanına üzü ağ gəldim...

**13.08.1999. Qusar.**

## YAĞIŞ YAĞIR QUSARA

Buludlar qəzəblənib,
Yağış yağır Qusara.
Sellənir küçə boyu,
Su dırmanır hasara.

Dağlardan gələn yağış
Hey bozara-bozara,
Hücum çəkir şəhərə,
Hücum çəkir bazara.

Hər yan su içindədi,
Dağlar, daşlar islanıb.
Sahilinə sığışmır,
Qusar çayı forslanıb.

Meşələr yuxu görür
Girib leysan altına.
Yol boyu çapır yağış
Minib bulud atına.

Şah dağı şax dayanıb,
Elə bil nəmər alıb.
Şimşəklər qurşağında
Qızılı kəmər olub...

Elə bil xəstəliyə,
Azara yağış yağır.
Qusara yağış yağır,
Qusara yağış yağır...

**1999**



## SON BAHAR

Dağları görəndə
Ürəyim quş oldu.
Yarpaqlar saralıb,
Çəmənlər yaşıldı.

Havada bir azca
Sazaq var, ayazdı.
Torpaqda bahardı,
Budaqda payızdı.

Tökülən xəzələ
Yer açıb ovcunu.
Qaytarır ağaclar
Torpağın borcunu.

Payızın seyrinə
Çıxıbdır gözəllər.
Ayaqlar altında
Məst olub xəzəllər...

## QORXUDAN BAR VERƏN AĞAC

*Dostum Rəşid üçün*

Bağda əkdiyim ağac
Bar vermədi keçən il.
Gec suvardığım üçün
O, küsmüşdü elə bil.

Keçdi fəsillər, illər
Dərdə olmadı əlac.
Yenə də bar vermədi
Göyə ucalan ağac.

Dedim: – Səni kəsəcəm,
Tez baltanı götürdüm.
Ağac yamanca qorxdu,
Elə bil köks ötürdü.

Ona bir balta çəkdim,
Yarasından axdı yaş.
Sonra qəlbim kövrəldi,
Qolumdan asıldı daş.

Ağac qorxdu:
–Sahibim
Deyəsən gerçəklədi.
Üzümüzə gələn yaz
Qorxudan çiçəklədi.

Budağına düzüldü
Əriklər qatar-qatar.
O qədər meyvə verdi,
Oğulsansa dər qurtar!

**1999. Qayabulaq.**

## ÖTƏN GÜNLƏR

Məni
ötən günlərə səsləmə,
xatirələrə salma meyil.
Keçmişdə gənclikdən başqa,
gənclikdə sevgidən başqa
heç nə maraqlı deyil.
Nə olsun ki,
yaş gəlib yaşın üstünə,
Nə olsun ki,
yaxındı qürub.
Hələ yolumun üstündə
nə qədər sevdalar durub...



## YAĞIŞ

Göy gurladı,
İldırım çaxdı.
Qırıldı göylərin
qızıl damarı,
damcı-damcı
qanı axdı.
Əridi, sozaldı,
can verdi buludlar.
Otlara, çiçəklərə
qan verdi buludlar...

## 20 YANVAR

Bu yara sağalan deyil,
bu yara dərindi.
Güllələrin açdığı deşikdən
üçrəngli azadlıq bayrağı
göründü...
Yolundan döndərə bilmədi səni
hər yoldan ötən.
Biz öldük, sən dirildin,
gözlərin aydın, Vətən!...

***

Siyasət yarışında
olduq ərəsən,
qarabağır.
Əldən verdik
cənnət guşəmiz
Qarabağı.
Xəzərdə neft yatağı kəşf edib,
adını Qarabağ qoyduq.
Təskinliyimiz bu oldu bizim.
Onu da verdik xaricilərə –
Qarabağı çox sevirik, əzizim...

## QARA YAYLIQ

*Qarabağı verməyə etiraz əlaməti olaraq qadınları qara yaylıq bağlamağa çağıran Leyla Yunusovaya*

Qadınları qara yaylıq
Bağlamağa çağırdın.
Qarabağı yada vermək
Ölümdən də ağırdı.

Kimə açaq qəlbimizi,
Kimə deyək bu dərdi?
Torpaq vermək əzizləri
İtirməkdən betərdi.

Qara yaylıq qələm çəkər
Qəlbimdəki umuda.
Tutar vətən göylərini
Dönüb qara buluda.

Dözə bilməz, bacım dönər,
Anam dönər şimşəyə.
İgidlərin qəlbindəki
İnam dönər şimşəyə.

Məni yamanca kövrəltdin,
Səni Allah saxlasın!
Qarabağı verənlər də
Gərək yaylıq bağlasın!...

**1999**

## QIRMIZI İŞIQLAR

Sağımda qırmızı işıq,
Solumda qırmızı işıq.
Baş alıb getmək istəyirəm,
Yolumda qırmızı işıq.



Nə inciyəcəyəm,
nə bezəcəyəm,
Bu yolda hər ağrıya,
hər əzaba dözəcəyəm.
Ürəyimin qanıyla yazdıqlarım
Əllərimdə qırmızı
bayrağa dönəcək.
O zaman qırmızı işıqlar
Öz-özünə sönəcək...

**1971**

## "BOŞ VAXTIMDA ŞEİR YAZIRAM" DEYƏNLƏRƏ

Boş vaxtda yazılan şeir
Zərif hisslərə toxunmaz.
Şeir sevgiylə yoğrulur,
Şeir ağrıyla yoğrulur,
Boş ürək nəğmə oxumaz.
Boş vaxtda yazılan şeiri
Ağlı olanlar oxumaz...

**1999**

## "ŞAİR SABİR" GƏMİSİ

*"Bənzərəm bir qocaman dağa ki, dəryada durur."*
*M.Ə.Sabir*

Elin kədərinə olmasa ortaq,
Adı gəzərdimi neçə ölkədə?
Dərya qoynundakı o qocaman dağ
Gəmiyə çevrilib üzür bəlkə də?!

Görüb yaxşını da, görüb pisi də,
El bu haqqı-sayı itirə bilməz.
Adını daşıyan yük gəmisi də
Onun qəm yükünü götürə bilməz.

Yandı, qövr elədi söz ürəyində,
Dözmədi bu dərdə, ucaldı səsi.
Sabir qəm daşıdı öz ürəyində,
Sevinc daşıyacaq "Sabir" gəmisi...

## ATAMA MƏKTUB

Ata məhəbbəti düzülüb səfə,
Söz olub varağa elədikcə köç,
Sənə şeir yazdım mən neçə dəfə,
Utandım, özünə oxumadım heç.

Əlləri qoynunda dayanmışam mən,
Bu itki xəyala dönə, ay ata!
Bilsəm də oxuya bilməyəcəksən,
Hey məktub yazıram sənə, ay ata.

Yatdığın torpağa qədəm basanda,
Göynədir qəlbimi bu nisgil, ağrı.
Özün bu məktubu oxumasan da,
Atalar oxusun deyirəm barı.

Hər zaman narahat görərdik səni,
Dincliyin elə bil düşmüşdü qaçaq.
Şəhərdən gələndə öpməzdin məni,
Əlimi sıxardın, əlimi ancaq.

Mizrab toxunardı elə bil simə,
Qara gözlərində şimşək çaxardı.
Güclü əllərinlə mənim qəlbimə
Hərarət axardı, işıq axardı.

Üzdən ciddi idin, bilirdim ancaq
Körpə uşaq kimi kövrəksən, ata.
Səni düşünürük hər zaman, hər vaxt,
Bizə hava kimi gərəksən, ata!

Yoxsan, bu itkidən sızlayır ürək,
Toxtaq görünürəm hamıya gendən.
Övlad sevgisini gizlədiyin tək,
Ata sevgisini gizlədim mən də.



Deyirəm ki, ruhun inciyər birdən,
Neyləyim, ürəyim tutulub oda.
Kişilər ağlamaz, çəkinirəm mən
Qəbrinin üstündə ağlamağa da.

Qəlbimin telləri dindi, ay ata,
Doğmadır həm eşqin, həm kinin mənə.
Özün olmasan da, indi, ay ata,
Atalıq eləyir təmkinin mənə...

## "YEKƏXANA" LƏQƏBİM

Pay diləmə öz xeyrini güdəndən,
Beləleri səadətə qovuşmaz.
Adamların gur yerinə gedəndən
Mən olmuşam adamlara yovuşmaz.

Böyüklər var, elə çəkir özünü,
İstəyir ki, təzim edim, baş əyim.
Böyüklərin ikibaşlı sözünü
Bacarmıram saqqız kimi gövşəyim.

Deyirlər ki, daha bəsdir, gəl yola,
Belə olmaz, götür-qoy et dərindən.
Belə getsə, işin getməz, a bala,
Qal oğlu qal olacaqsan yerində.

Mənliyimi düşünürəm mən hər gün,
Vaxt oldu ki, uman yerdən küsdüm də.
Yekələrə baş əymirəm, onunçün
Yekəxana ləqəbi var üstümdə...

**1977**

## DƏLİ VAQİF

Neçə çələng toxuyursan çiçəkdən,
Nə desələr, düşməyirsən həvəsdən.
Oynayırsan, oxuyursan ürəkdən,
Qısılmırsan, utanmırsan heç kəsdən.

Bir istəyin qalmayıbdır gözündə,
Hər arzunun qarşısında üzü ağsan.
Söz etmirlər söylədiyin sözü də,
Tənələrdən, təriflərdən uzaqsan.

Qoşularaq ağıllının birinə
Neçə arzu susdurmuşam keçən il.
Dəli Vaqif, kaş olaydım yerinə,
Eləyəydim ürəyimdən keçəni.

Ürəyimə salmayaydım bir daha
Ağıllının ağılkəsməz sözünü.
Həsrət qalıb bir işıqlı sabaha,
Qaranlığa dürtməyəydim özümü.

Çəkməyəydim bir gileyin yükünü,
Xahişləri cırıb verəydim yelə.
Ağsaqqalın nüfuzundan çəkinib,
Həqiqəti udmayaydım bir belə...

1978

## ÖZÜMƏ MƏKTUB

Ölçən varmı düşüncəni, ağlını? –
Bu həyatla razılaşdın çar-naçar.
Böyüklərin səndən kiçik oğlunun
Sənə civ-civ öyrətməyə haqqı var.

Baxan yoxdu düşüncənə, yaşına,
Görən yoxdu sızıldayan könlünü.
Yaxşılıqlar qaxınc olar başına,
Yaxşılıqlar gödək edib dilini.



Adətlərin pəncəsində inləsən
Gəlməz sənə bir kimsənin yazığı.
Bircə yol da ürəyini dinlə sən,
Dar deyilmi bu tələbin cızığı?

Dil tərpətsən, səni sözlə yeyərlər,
Bircə anda ötkəm dilin bağlanar.
Bu cızıqdan çıxsan, nankor deyərlər,
Bu cızıqda azadlığın dağlanar.

Həqiqəti deməyəsən niyə sən? –
Ürəyində gör nə qədər söz qalıb?
Böyüklərin sözləriylə işləyən
Bir cihaza dönməyinə az qalıb.

Varmı sənin dərdlərinin ortağı?
Səndən başqa kim göynəyər, kim yanar?
Arzuların pöhrələyən budağı
Ağsaqqalın tənəsiylə doğranar.

Geri dönər istəyimin axarı,
Bir iş görsən, tez yarıda saxlanar.
Tənələrin, gileylərin ovxarı
Sənin nazik əsəbində yoxlanar...

1978

## SÖZÜMÜZÜN, KƏLMƏMİZİN ÇOXDU ÇALARI

Bir nəfərə dedim ki, əhsən, yaman gözəl işlər görürsən. Cavab verdi ki, səndə heç şairlik "etikası" yoxdu. "Yaman" pis deməkdi, gərək yaxşı deyəydin...

İncimirəm, naşı duymaz incə xalları,
Nadan şeir əzbərləyər, anlamaz şeiri.
Sözümüzün, kəlməmizin çoxdu çaları,
"Yaman" sözü yaxşı olur gələndə yeri.

Hər bir rəngin, bilən bilir, öz çaları var,
Sənsə yalnız yapışmısan qaradan, ağdan.
"Hoha" var ki, heyvanları dağa qaldırar,
"Hoha" var ki, öküzləri endirər dağdan.

Nadanların qaydasıdır, dayazda üzür,
Danışanda gərək sözü dağ eləyəsən.
Bir var "üzə ağ olasan", bir var ki, üzü
Öz işinlə, əməlinlə ağ eləyəsən!

Sən bu fərqi duymursansa, başlama sözə,
Etikadan dəm vurursan nə haqla mənə?!
Doğru sözüm bıçaq olub yüz yaman gözə,
Yaman gözəl dərs olacaq bu şerim sənə!...

1984

## SƏNƏTİN YOLU

*Dağa dəydim, daşa dəydim,*
*Bir tramvay olaydım mən,*
*Hələ yola çıxmamışdan*
*Öz yolumu kaş biləydim.*

***Bəxtiyar Vahabzadə***

Özünü çox çətin dərk edir insan,
Hisslərin əlində acizəm hələ.
"Yaşamaq yanmaqdır" dedin bir zaman,
Axdın misralara sən gilə-gilə.

Fikirlər işıqlı, sözlər təzə-tər,
Sənət sarayında hər söz daş oldu.
Alışan qəlbindən qopan şeirlər
Elimə, obama vətəndaş oldu.

Özgə havaları çalmadın, şair,
Gözəl sənətkar tək çəkilir adın.
Yaxşı ki, tramvay olmadın, şair,
Əsrin sürətindən geri qalardın.



Qorxmadın həyatın hər yoxuşundan,
Səni bu yollarda döydü qar, dolu.
Tramvay qayıdır mənzil başından,
Geriyə dönərmi sənətin yolu?

Yenə dağ seli tək dağlarda yaşa,
Yenə gədiklərdən hay-harayla keç!
Əgər dəyməsəydin sən dağa-daşa,
Görəsən Bəxtiyar olardınmı heç?

1975

## DAĞLARA ŞAİRİN CAVAB SÖZÜ

*Sizdən ayrılanda, dağlar, cavandım,*
*İndi hüzuruna qoca gəlmişəm.*
*Qayğılar üstümə düşdü, talandım,*
*Üzümə üz tutub borca gəlmişəm.*

***Qasım Qasımzadə***

Bu yerlərdən ayrılmağın yadıma düşür,
Deməsən də, bilirəm ki, borca gəlmisən.
Nə olsun ki, şəvə saçın olub gümüşü,
Sevinirəm, hüzuruma uca gəlmisən!

Gəl bu düzlər gül döşəsin ayaqlarına,
Gümüş saçın Üçtəpənin yelinə həsrət.
Diş göynədən bulaqlarım dodaqlarına,
Boynubükük bənövşələr əlinə həsrət.

Azərbaycan torpağını gəzdin, doymadın,
El qeyrəti çəkənləri unutmaz vətən.
Namərdlərin körpüsünə qədəm qoymadın,
Mərdlər üçün körpü oldun öz qayğınla sən.

Babalardan yadigardır qəlbinin qanı,
Bu həyatın mənasını dərk edə bildin.
İlhamının gücü ilə Azərbaycanı
Bir bənövşə yarpağına həkk edə bildin.

Həsrət qalıb qədəminə doğma yamaclar,
Şair qəlbi bu yerlərdən ayrılar çətin.
Müqəddəsdir, əziz balam, gümüşü saçlar
İşığında ağarıbsa şeirin, sənətin.

Qoy gözündə qalmasın heç bir arzu, murad,
Kitablara köçür bizi hey sətir-sətir.
Sənə ömür borc verirəm, get yaşa, yarat,
Yüz yaşında qayıt mənə hesabat gətir...

## SƏNƏT DAĞI

*Mirzə İbrahimova*

Bir bulaqsan, neçə təşnə suyundan içib,
Ağlımız söz kəsən gündən doğmasan bizə.
"Gələcək gün" körpü olub, üstündən keçib,
Neçələri qonaq gedib doğma Təbrizə.

Bir qayıqsan, qeyrət yükü dönər yelkənə,
Harayından neçə dalğa diksinə bilər.
Bir ağacsan, yığılmışıq sənin kölgənə,
Bir ocaqsan, el oduna isinə bilər.

Yurdumuza mərd oğullar çox gərək imiş,
"Böyük dayaq" böyük bir dərs oldu bizə də.
Gördük xalqdan ayrı düşmək nə demək imiş,
Dədə-baba ətəyindən tutduq təzədən.

Şeirin, sözün neçə mənə andırmasaydı,
Oxuyanda bulud kimi dolardıqmı biz?
Ürəyini günəş kimi yandırmasaydın,
"Pərvanə"nin pərvanəsi olardıqmı biz?

Neçə-neçə diyar gəzdin, dindi el-oba,
Sən xalqının "Varam!" deyən gur səsi oldun.
Ömrümüzü bəzək etdin sözə, kitaba,
Elimizin, obamızın mirzəsi oldun.



Gözümüzdə ucalırsan sən ildən-ilə,
El qəlbindən çaylar axır sənət bağına.
Bir təpəydin, ürəyindən qopan zəlzələ
Döndəribdir bu gün səni sənət dağına.

Çox görübdür həyatında qarı, küləyi,
Məddahların tərifindən ucadır bu dağ.
Zirvəsiylə parçalayır çəni, çisəyi,
Yurdumuzun şöhrətini ucaldır bu dağ...

**1982**

## BU SÖZÜN ALTINDA

Yan-yana qoydunmu beş-on kəlməni,
Şair deyəcəklər sənin adına.
Dostum, lağa qoyma indi gəl məni,
Yaş da tüstülənir quru oduna.

Şair söylədilər mənə hər yanda,
Sevincdən ürəyim bir dağa döndü.
Şeirdən, sənətdən başım çıxanda
Bu sözün altında yumağa döndüm.

Verdiyim toxumlar barı safdımı?
Səpsəm, göyərəcək onlar harada?
Şair! – Bu kəlməni heç insafdımı
Mənə də desinlər, Şəhriyara da?

Gözlərim yol çəkir, ürək tələsir,
Zəif əllərimdə titrəyir qələm.
Bu sözün altında dizlərim əsir,
Bu sözün altında büdrəyir qələm...

**1977**

## AKADEMİYA

Gecə... Küçələrdə işıqlar yanır,
Durub bir binanı seyr edirəm mən.
Şəhər nur içində, akademiyanın
Pəncərə gözləri yumulub nədən?

Burda qu söyləsən tutular qulaq,
Büllur fəvvarə də çəkilib qına.
Nə məhzun görünür insandan uzaq,
Yatıb ayaq üstə dağ boyda bina.

Qıfılmı vurulub dil-dodağına,
Kitablar rəflərdə sakit əyləşib?!
Keçib alimlərin iş otağına
Qaranlıq əyləşib, sükut əyləşib.

Bakı çıraqbandır, seyr et dörd yanı,
İşıqlar rəngbərəng, işıqlar min-min.
Sönməyib ziyası akademiyanın
Yanır mənzilində neçə alimin...

**1980**

## BİR ŞAMA BƏNZƏYİR ŞAİR ÖMRÜ DƏ

*Rəsul Rzaya*

Məhəbbət qazandın məhəbbətinlə,
Ürəyin el üçün bir oda döndü.
"Çinar" göyə qalxdı öz zəhmətinlə,
"Qanadlar", doğrudan, qanada döndü.

Bu gündən sabaha uçdun inamla,
İnamsız ad dilə düşə bilərmi?
Dəryaya dönərmi kiçik bir damla,
Nərgiz də asfaltı deşə bilərmi?



Alışdın gözləri nəmli görəndə,
Özgənin yarası sənin yarandı.
Dözmədin insanı qəmli görəndə,
Çalışdın, vuruşdun "Dözüm" yarandı.

Əllərdə bayrağa dönər cəsarət,
Söz var itilikdə qılınc kimidir.
Mənə elə gəlir: hünər, cəsarət
Adının ən doğru sinonimidir.

İncilər həmişə olar dərində,
Bu elin, bu yurdun sədaqəti var.
Bir vaxt yazmışdın ki, şeirlərində
Əriyən bir şamın hərarəti var.

Arzular ürəkdə belə ömr edər,
Ürək darıxmazmı ilk bahar üçün?
Bir şama bənzəyir şair ömrü də,
Əriyər el üçün, insanlar üçün...

## REKVİYEM

*Rəsul Rzaya*

İlhamının qanadı qırıldı,
Qaranquşlar göydə qanad açanda.
Mavi gözlərin qapandı,
tumurcuqlar gözünü açanda.
Dilin nəğmədən,
əlin qələmdən üzüldü.
Göz yaşı yanaqlara
tumurcuq-tumurcuq düzüldü
aprelin birində.
"Ölüm" nə dəhşətli sözdü,
adını onunla yanaşı
gətirə bilmirəm dilimə.
Bu gün aldatma günüdü,
inana bilmirəm ölümə...

**1981**

## QƏLƏBƏ BAYRAĞI

Baxanda
Reyxstaqın üstündəki
yellənən al bayrağa
düşünürəm:
iki əsgər əlinin gücü çatmazdı
onu qaldırmağa.
Milyonların ürəyi kimi döyünür,
Milyonların qanından su içib.
İyirmi milyon məzar körpü olub,
Bu bayrağın yolu
o körpünün üstündən keçib...

**1983**

## VƏHŞİ QUŞLAR

İstəmirəm qanunların çəpərində
çiliklənə, arzu sına.
"Vəhşi quşlar!" –
Vəhşilik damğası vurmayın
onların azadlıq arzusuna...

## BİR DƏFƏ

İstəyirəm
qəlbimdəki arzularım
tez boy ata.
Qu quşu bir dəfə
nəğmə oxuyur,
Arı bir dəfə sancır,
İnsan bir dəfə
gəlir həyata...

**1981**



## PALID QOZASI

Palçığa qarışıb,
divara hörüldü
palıd qozası.
Cücərdi,
ancaq gücü çatmadı
ağır daşları qovzasın.
Hər daş – qollarının üstündə
bir qandal.
Daşların altında gərilən
igid qollarına nəzər sal.
Gərildi, gərildi
çatlatdı divarı.
Elə bil
şimşək paraladı buludu.
Şəfəqlər təbrik elədi
azadlığa can atan
palıdı...

**1978**

***

Düşmən havalanıb,
yenə də yallanıb,
yallıdı.
Ancaq onun belini qıran
igidlərimizin getdiyi
"Yallı"dı...
Qorxur ki, birdən
Qarabağın dağları da
qoşula onlara.
Arabir mərmilər
guruldayır.
"Yallı" gedənlərə baxıb,
Yallı köpəklər
mırıldayır...

**1992**

***

Yaşaya bilərmi
Ürək bədənsiz?
Vətən sahibsizdi,
Bizsə vətənsiz...

## OLDU

*Nizami Xudiyevə*

Doğmalar sevindi sən doğulanda,
Sizin evinizdə toy-büsat oldu.
Ruhuna gözəllik sığalı çəkən
Yaylaqlar yaylağı Batabat oldu.

Xoşbəxtdir həyatda axtaran, tapan,
Arzular dalınca atını çapan,
Ana südü ilə qanına hopan,
Qəlbini kökləyən muğamat oldu.

Oğullar gərəkdi bizim ölkəyə,
Şahbuzdan ayrılıb gəldin Bakıya,
Gördün ki, dostların safı, pakıyam,
Dil tapdıq, ürəkdə islahat oldu.

Bizi Mirzə Cavad nə qədər öydü,
Elə bil ruhumuz zərxara geydi,
Ulu Füzulinin ikicə beyti
Gözümüz önündə kainat oldu.

Köksünün altında ürəyin dindi,
Gördüm ki, məsləkin imandı, dindi,
Qələm əlimizdə qamçıya döndü,
Yazı stolumuz köhlən at oldu.

Döndü kitablara gözünün nuru,
İkinci bir ömrün gəldi baharı,
Halal zəhmətinin halalca barı
Səni sevənlərə mükafat oldu.



Dost dostun yanında olarmı qərib?
Şair misralardan bir çələng hörüb,
Səni pillə-pillə ucalan görüb,
Dostların sevindi, düşmən mat oldu...

**05.12.1995**

## "SONA BÜLBÜLLƏR"

*Qədir Rüstəmova*

Hamı sükut edir, dinləyir hələ,
Xanəndə oxuyur "Sona bülbüllər".
Bülbül də gül üçün oxumaz belə,
Az qalır heyrətdən dona bülbüllər,
"Sona bülbüllər"!

İncə zəngulələr könül dağlayır,
Nəğmə bulaq kimi coşur, çağlayır,
Yolçunu yolundan tutub saxlayır,
Döndərir bağrımı qana bülbüllər,
"Sona bülbüllər"!

Meyvəsiz budaqda bar həsrəti var,
Titrək barmaqlarda nar həsrəti var,
Sevən ürəyimdə yar həsrəti var,
Yetirin eşqimi ona, bülbüllər,
"Sona bülbüllər"!

İntizar gizlənib eh, bu səsdə də,
Oxu, ruha gəlsin ruhən xəstə də.
Deyirəm, deyirəm son nəfəsdə də
Uçub dodağıma qona bülbüllər,
"Sona bülbüllər"!...

## NƏĞMƏ DƏNİZİ

*Müğənni Flora Kərimovaya*

Axşamdır, "Çinar bulaq"
Şirin bir layla başlar.
Baharın arxasınca
Uçar köçəri quşlar.
Sevənlərin nəğməsi
Ah, necə həzin olar.
Yardan ayrı düşəndə,
Gecələr uzun olar.
Ürək quş tək çırpınar,
Gözlər baxar yollara,
Flora!

Dilə gəldi mahnılar
Qışda, payızda, yazda.
Sanki şirin arzular
Şirinləşdi bir az da.
Elə bildim talada
Kəkliklər qaqqıldayır,
Müğənnimi oxuyur,
Sularmı şaqqıldayır?
Hamı heyran qalıbdır
Bu səsdəki çalara,
Flora!

Radionu açıram,
Tüğyan edir, kükrəyir
Otağımda "Dalğalar".
Bir nəğmə dənizisən,
Dodağında dalğalar.
Mən də bir dalğıc kimi
Baş vurmuşam sulara,
Flora!



## SƏNİN GÖZ YAŞLARIN

*Olimpiya çempionu İrina Rodninaya*

Elə bil ki, dəniz idi
buz meydança.
Bir fırtına quşu kimi
uça-uça
sən süzürdün o dənizin
başı üstdə.
İnamınla, cürətinlə
daş qoymadın rəqiblərin
daşı üstdə.
Yurdumuzun himni dincək,
dünya qalxdı ayağa.
Qızıl bayraq vətən idi,
qalibiyyət zirvəsindən
göz dikmişdin o bayrağa.
Niyə dolub bulud kimi,
o gözlərin arzusu nə,
niyyəti nə?
O gözlərdən qopan yaşlar
yumruq idi
düşmənlərin arzusuna,
niyyətinə...

**1980**

## BAXIR DÖYƏN ƏLİN KƏRAMƏTİNƏ

*Tənqidçi Məsud Əlioğlunun xatirəsinə*

Palıd kölgəsində dincəlib bir az,
Getdim ot biçməyə biçinçilər tək.
–Belə kərəntiylə ot çalmaq olmaz,
Korşalıb, ay bala, döyülsün gərək. –
Deyindi bir kişi ot çala-çala,
Üzündən süzülən incimi, tərmi?!
Tələsik qocanı tutdum suala:

–Kərənti döyməklə itilənərmi?!
Bir anlıq dayandı açdığı vərdə,
Düşündüm: kişini saldım çətinə.
Dedi: –Kütləşər də, itilənər də,
Baxır döyən əlin kəramətinə!

## AKADEMİYANIN QARŞISINDAKI BAĞ

Bu gözəl bağın bir küncündə
əyləşmişəm.
Payız küləyi əsir
sərin-sərin…
Elə bil səhərin təmiz havası
ciyərlərinə,
quşların həzin nəğməsi
qulaqlarına
çatmır bu adamların. –
Necə saymazyana keçirlər
görün bir!
Sübh günəşinin şəfəqləri altında
bərq vuran fəvvarə,
budaqda titrəyən qızılı yarpaq,
gözləri şehli payız çiçəkləri
onların gözlərinə
görünmür.
İtirmək istəmirlər
saatları, dəqiqələri,
saniyələri, anları…
Bu bağdan saymazyana keçib,
iş otaqlarına qalxırlar,
neyləsinlər,
böyük-böyük işlər gözləyir
onları!…

**1985**



## TOP KİMİ

Mənə gərək olanı
Gərək tezcə tapam mən.
Fikirlərin əlində
Elə bil ki, topam mən;
O atır buna,
Bu atır ona.
Bilmirəm ki, bu oyun
Nə vaxt yetəcək sona?
Qurtarmaq istəmirəm
Fikirlərin əlindən.
Axı onlar tükənsə,
Yerə düşəcəyəm mən?!

**1974**

## YAZI MASAM

Mənim yazı masam
Mənim bağımdı,
bostanımdı;
Əkirəm, becərirəm,
alaq eləyirəm…
O sözü bu sözə,
bu sözü o sözə
calaq eləyirəm.
Ürəyimin qanını,
gözlərimin yaşını
körpə şitillərin
dibinə döndərirəm.
Becərdiyim meyvələri
"kağıza bükүb",
adamlara göndərirəm…

**1995**

## YAZI MASAMA UZANAN GÜL

Uzanıb mənim yazı masama
Sənin dibçəkdə əkdiyin gül.
Riqqətə gəlirəm,
birdən ürəyim açır dil:
–Mənim yazı otağıma
sevgilim özü gələ, – deyirəm.
Elə bilirəm mikrafondu,
Səni sevdiyimi gülə deyirəm...

1995

***

İnsanın ürəyi
şam kimi əriyir
əbədi ayrılıq
gecələrində.
Qəbristan –
ölülər şəhəridi,
ancaq dirilər gəzir
küçələrində...

1995

## QƏBİR

Elə bil
çarpayılardı qəbirlər,
ancaq onların üstündə yox,
altında yatırlar...

***

Ölüm – əbədiyyətdi,
İstəsəm də,
gücüm çatmaz
devirəm onu.
Bilirəm ki,
həyat müvəqqətidi,
ancaq dəlicəsinə
sevirəm onu...



## ÖTƏRİ SEVGİ

Ağrıtma ürəyimi,
Uçurtma
sevgi məbədimi.
Deyirsən ki,
bu sevgi ötəridi,
Bəs həyat necə,
əbədimi?...

## NƏSİLLƏRİN YARPAQ TÖKÜMÜ

Sabah oğlum təmsil edəcək
əslimi, kökümü.
Qorxum yoxdu həyatın
payızından, qışından.
Neçə-neçə nəsillərin
"yarpaq tökümü"
bir yarpaq da əskik etməyib,
bu dünyanın başından...

1985

## SƏN

Sən –
əlim çatmayan
dan ulduzu kimisən.
Təbəssümün işıq kimi
axır ömrümə.
Sən –
üzünü görmədiyim
ürəyim kimi
doğmasan mənə...

## SÜKUTUN DİLİ

*Əziz dayımın xatirəsinə*

Qəbrin –
ana torpağın qucağında
yaralı bir beşik.
Əbədiyyət evinin
qapısına gəlmişik.
Göz yaşımızla,
dərdiyimiz çiçəklərlə
döyürük qapını.
Dizlərim bükülür,
gözlərim qapanır.
Cüt balan
boynu bükülü,
cüt bənövşən yetim.
Nə səsimiz sənə çatır,
nə ünümüz sənə yetir.
Aramızda
keçilməz sərhəd –
daş, torpaq...
Qəbrinin üstündə
çiçəklər çıraq-çıraq...
Sükutun dilə gəlir sanki:
–Nə gəzirsiniz burda
veyil-veyil,
gedin daha
öz dərdinizi çəkin,
dünya daha mənim
vecimə deyil...

**1984**



## ASTARADA KEÇƏN GECƏM

*"Özbəkistanın xalq şairi Zülfiyyə bu qonaq evində qalıb, bu çarpayıda yatıb."*
***Astara rayon komsomol komitəsinin katibi Vaqif Qasımovun sözlərindən***

Bu dağlardan, bu düzlərdən kim doyub? –
Çisəyindən, yağışından küsmədim.
Şair nənə yastığına baş qoyub,
Şirin-şirin yuxu görmək – qismətim.

Yorğanımda ilham gülü açıldı,
Qələm götür, bircə-bircə üz indi.
Qulağımda bir sehrli pıçıltı,
Bu gecənin xatirəsi uzundu.

Yuxu getmir gözlərimə bəs niyə? –
Bu doğmalıq ürəyimə tanışdı.
Şairlərin ağbirçəyi Zülfiyyə
Səhərəcən mənə nağıl danışdı...

**1981**

***

Qaş-qabağı yer süpürür, dindirmir məni,
Hər intizar misra üçün ağrıyır başım.
Gözəllərə həsr etdiyim şeirin, nəğmənin
Ən birinci senzorudu ömür yoldaşım...

**1981**

## BƏNZƏYİŞ

Anamın ürəyi
ən zərif çiçəyə bənzəyir,
Anamın saçları
aydınlıq gecəyə bənzəyir...

## CƏRRAH

*Qulu həkimə*

Səndən söz açmağa tələssəm də mən,
Səndən ayrılmağa ürək tələsmir.
Deyirlər yamanca daş ürəklisən,
Kəsəndə, tikəndə əlin də əsmir.
Yanlışdır bu fikir axı nə qədər,
Gərəkdir bu sözü deməsin heç kim.
Deyirəm, kaş bütün daş ürəklilər
Elə sənin kimi olaydı, həkim.
Bilirəm yanırsan hey için-için,
Necə şərəflidir tutduğun bu yol!
Bir ömrü yarımçıq qoymamaq üçün
Axı neçə dəfə, axı neçə yol
Çayın qabağında yarımçıq qalıb,
Bir qismət çörəyi yeməmisən sən.
İşin səni evdən didərgin salıb,
Ancaq təngə gəldim deməmisən sən.
Ana ağlayanda bir uşaq üçün
Sənin "daş ürəyin" elə dolub ki...
Yuxusuz xəstəni yatırmaq üçün
Yuxusuz qalıbsan bəzən olub ki...
Ürəyin neçə yol tutulub oda,
Qara saçlarına nə tez düşüb dən?
Həkim, başqa bir şey bacarmasam da,
Səni alqışlamaq gələr əlimdən...

**1971**

## MEŞƏDƏ

*Müəllimim İmamqulu Şahmuradova*

Dedi: – Gəzmisənmi, oğul, meşədə?
Ötüb-keçənləri yadına sal bir.
Bu dilbər guşədə, canlı guşədə
Eyni cür yerimək mümkün deyildir.



Özünə maraqlı yol seçməlisən
Gəzmək istəyirsən meşədə əgər.
Ağac var altından şax keçməlisən,
Ağac var, düz getsən, başına dəyər.

Gedirsən, arxanca əl edir vələs,
Palıd vüqarını duyub keçirsən.
Elə ağac da var, istər-istəməz
Ayağın altında qoyub keçirsən.

**1974**

## DURNA

Dimdiyim sanki iynədi,
Gözüm iynə ulduzu.
Bəbəyimdən axan araz
Sap kimidi – upuzun...

O sahildə bir çəmən var,
Bu sahildə bir çəmən.
O sahili bu sahilə
Tikmək istəyirəm mən.

Özüm də çaşıb qalmışam
Bu görkəmə, bu hala.
Boynum göydə nida olur,
Yerdə dönür suala...

**1987**

## VİDA NƏĞMƏSİ

Meşələrin üzərində qara yel əsir,
Ağaca bax, qılınc kimi qından sıyrılır.
Bu nə işdi, yarpaqların böyük dəstəsi
Budaqlardan saralmamış qopur, ayrılır.

Bir yanıqlı söz titrəyir sanki dodaqda,
Balan gedir, yazıq ana, döz bu dərdə di!
Yarpaq var ki, sapsarıdı, qalıb budaqda,
Yarpaq var ki, yamyaşıldı, düşüb, yerdədi...

Yarpaq da var bir ünvansız küləyə qonaq,
Yarpaq var ki, göz yaşı tək üstümə axdı.
Budağından ayrı düşən hər sarı yarpaq
Elə bil ki, ağacların çəkdiyi ahdı...

**1984**

## ÖTƏN GÜNLƏR – DÜŞƏN SARI YARPAQDI

Hər baharın öz gülü,
Öz yarpağı var axı!
Düşən sarı yarpaqdı
Ömrün hər ötən çağı.

Yenə də payız gəlib,
Can əsir yel əsəndə.
Ömrün xoş günlərini
Vermisən yelə sən də...

**1984**

## SİM

Gərilib, çəkilib tarıma,
Bəndəlik eləmir Tanrıma
Əsəblərim kimi.
Bilmirəm yer nədir,
göy nədir,
Özü barmaqlarımı
göynədir,
Səsi qəlbimi...



## AĞACIN SÖZÜ

–Yarpaqlar, övladdan axı kim doyub? –
Sizin qopduğunuz budaqlar sızlar.
Hava soyudumu, məni lüt qoyub,
Hara qaçırsınız, etibarsızlar?

***

Bu nə isti nəfəsdi, bu nə isti küləkdi,
Xoşhallanır çəmənlər, xumarlanır yamaclar.
Hər yarpaq elə bil ki, budaqda bir ləlləkdi,
Sevincindən az qalır qanad aça ağaclar...

***

Zirvədən dərəyə boylanıram mən,
Elə bil bir parça göydü bu göy göl.
Hamıya pay verir gözəlliyindən,
Demə ki, xəsisdi, göydü bu Göygöl.

## HACIKƏNDİN ÇİÇƏKLƏRİ

Oğulsansa, bu havada titrəmə,
Qərq olmuşuq çiçəklərin ətrinə.
Dəyərsiniz bu güllərin xətrinə,
Çəmənlərə eynək ilə baxmayın!

Hər ləçəkdə bir ürəyin odu var,
Kim sevirsə, təbiəti o duyar.
Tapmazsınız bundan gözəl yadigar, –
Hər çəməndən bir gül dərib saxlayın!

Bir əbədi xatirədi hər tala,
Bax zirvədə qanad çalan qartala!
Qoymayın ki, bu çiçəklər qartala,
Vədəsində dərin onu, qoxlayın!

**1982**

## İKİ ZƏLZƏLƏ

Gözlərim hər yana həsrətlə baxır,
Yenə də ürəyim sözlə doludur.
Mənim seyr etdiyim gözəl Şamaxı
İki zəlzələyə şahid olubdur.

Qalxıb birnəfəsə çətin yolları,
Gör nələr qazanıb alın təriylə?!
Bir zaman zəlzələ olan diyarı
Sabir silkələyib şeirləriylə.

Əsrlər ötdükcə kamala çatıb,
Qanadlı zamandan güc alıb bu yer.
İki zəlzələnin birindən batıb,
Biriylə göylərə ucalıb bu yer...

1971

## QOCA DÜŞÜNÜR

Ağaclar, dağlar, daşlar cavan gəlir gözünə,
Bəs o gənclik illəri görən hara çəkildi?
Hey gəzişə-gəzişə deyir ki, öz-özünə,
Dünənin uşağının beli nə tez büküldü?

Dünyamız hey fırlanar, dayanmaz gərdişindən,
Bir xəyal köhləninin belinə minib qoca.
Elə bil baş açmayıb bu dünyanın işindən,
Öz ömrünün sonunda suala dönüb qoca...

1977

***

Dostlarının hörməti qəlbini şad elədi,
Süfrə üstdə tost dedi müfəttiş iti-iti.
Dadlı cüyür ətindən yeyə-yeyə söylədi,
Gərək ziyankarlardan qoruyaq təbiəti.

1977



***

Yağışın altında ağaclar çimir,
Çinar duruşunda bir əzəmət var.
Cərgəylə düzülmüş əsgərlər kimi
Komanda gözləyir sanki çinarlar...

## GECƏ DÜŞÜNCƏLƏRİ

Gecə balkona çıxıb,
Göylərə nəzər saldım.
Gecənin əllərində
Ay elə bil qavaldı.

Bir sehrkar müğənni
Elə bil gəlib dilə.
Səmada parıldayan
Hər ulduz – bir zəngulə...

1977

## NƏNƏMİN SÖZLƏRİNDƏN

–Nənə, dur gedək cıdıra,
Bax atların yarışına.
–İndi elə at nə gəzir,
Ay oğul, dönüm başına!
O zaman atlar var idi,
Əskik idi qanadlara...
Minib getdilər, ay oğul,
İgidlər yaxşı atları...

## OĞLUM

İlhamım gələn zaman
O da bağçadan gəlir.
Qapıdan qaytaranda
Gedib bacadan gəlir.

Girib başqa otağa,
Deyirəm ki, yoxam mən.
Taqqıldadır qapını,
Əl çəkməyir yaxamdan.

Öpürəm dönə-dönə
Dodağının balından.
O gələndə ilhamım
Qalır qapı dalında.

Sual verir, oğulsan
Cavabını ver indi.
İlhamımdan duzludur,
İlhamımdan şirindir...

1977

## EŞQİMİZDƏN İŞIQ ALAN ÜÇ ULDUZ

Ağac əkmək hələ azdır, əzizim,
Kamil bağban, gərək bağı qoruya.
Qış olsaq da, üç balamız var bizim:
Biri bahar, biri payız, biri yay.

Külək nədir, meh toxunsa beşiyə,
Dözə bilməz, ana qəlbi üşüyər.
Bir bulaq ki, arxalanır meşəyə,
İnanmıram onun suyu quruya.

Gursel bala çağlayan yaz selidi,
Gündüzüm yay günəşinin telidi,
Nə olsun ki, Gülzar payız gülüdü,
Ürəyində ilk baharın qoru var.

Balalarım od götürüb közümdən,
Onları çox istəyirəm özümdən,
Hər birinin ürəyində, gözündə
Bizim təmiz eşqimizin nuru var.



Mümkün deyil bu dünyacan yaşamaq,
İllər ötür, arzuya bax, yaşa bax.
Yerimizdə üç ulduz nur saçacaq,
Əvvəl-axır biz ensək də qüruba...

## DAĞ ÇAYININ SAHİLLƏRİ

Ata bir sahildi, ana bir sahil,
Övlad dağ çayı tək axar, hey axar.
Ana məhəbbəti tükənən deyil,
Ata övladına vüqarla baxar.

Sahil qayğısına fikir ver barı, –
Çayı necə gəldi axmağa qoymaz.
Arabir kükrəyib daşan çayları
Sahillər düz yoldan çıxmağa qoymaz...

1977

## BAR AĞACI

Kənddən ayrıla bilməyən
Ata kimi, ana kimi,
Torpaqdan ayrıla bilmir
Əzəl gündən sona kimi.

Gözü qalır bu yollarda
Axşam-axşam, səhər-səhər.
Özü qalır, meyvələri
Gəzir kənd-kənd, şəhər-şəhər...

## DOST

Öz dostunun köməyini dost umur,
Səp torpağa, çiçək açsın dost tumu!
Olmayıbsa dərdlərinin ortağı,
Ellər desin – Heç beləsi dostdumu?!

## UCALDIQCA

Baş qoyarlar el daş qoyan hər işə,
Ucaldıqca uca düşmə eldən sən.
İnsan gərək ibrət ala həmişə
Ucaldıqca nuru artan günəşdən…

## ARZU

Bir bulağam, gözüm arzu,
Bir ocağam, közüm arzu.
Həmişə ona möhtacam,
Arzu köklü bir ağacam…

***

Bu taleyin oyununa nə deyim? –
Neçə ildir baş açmıram özümdən.
Daha toyda dingildəmir sümüyüm,
Daha yasda yaş da çıxmır gözümdən.

Adi yoldu uca-uca yoxuşlar,
Yamacları seyr edirəm gözaltı.
Ürəyimi çala bilmir baxışlar,
Həsrətimin sarı simi pas atıb.

Sızqa sular bir də çətin bollana,
Köntöy sözlər daha dönmür gileyə.
İdrakımın budağından sallanan
"Nə olsun"lar qələm çəkir hər şeyə…

**1984**

***

Nə yaxşı ki, soyuq olur üzü torpağın,
Əcəl neçə açılmamış qönçəni dərdi.
Ölüm gündə bir qapının olur qonağı,
Bugunkü dərd unutdurur dünənki dərdi.



Özgələrin kədəri də yad gəlir bizə,
Eh, hərənin bir mayadan yoğrulub xəmri.
Baş sağlığı verə-verə bir-birimizə,
Bir də baxıb görürük ki, sonudur ömrün…

**1984**

***

Yarpaqlar yamyaşıl idi,
Yurdumda baharı gördüm.
Gözlərimi yumub açdım,
Budaqları sarı gördüm.

Ömür ötdü varaq-varaq,
Dostlarımdan tutdum soraq.
Neçə gənci saqqalı ağ,
Neçə qızı qarı gördüm…

**1982**

***

Şimşəklər göylərdə xalı toxuyur,
Ağaclar meşənin sarı simidi.
Elə bil meşələr nəğmə oxuyur,
Yağışlar sehrli mizrab kimidi.

Qəlbimdə bir azca qorxu, əndişə,
Mənim yatağıma sanki qor dolub
Nəhəng orkestrə çevrilib meşə,
At çapan küləklər dirijor olub.

**Qusar, 1999**

## "ANA" KƏLMƏSİNDƏN BAŞLAYACAQDIR

Gələr sentyabr, gələr uşaqlar,
Sevincdən ürəyim yarpağa dönər.
Taybatay açılan qapılar ki, var,
Ana qollarımı açılıb yenə?!

Bu gün ürəklərdə bir həyəcan var,
Sənin də ürəyin əsirmi, söylə?
Birinci sinifə gedir atalar
Körpə balaların qədəmləriylə.

Göyə iynə atsan düşərmi yerə? –
Çiçək balalardı, baxırsan hara.
Bir sevinc gətirib qəlbində hərə,
Sevinc dənizinə dönübdür bura.

Arzular, istəklər tükənən deyil,
Arzular ömrümə sevinc çilədi.
Nəhəng bir gəmidir məktəb elə bil,
Sanki müllimlər dənizçilərdi.

Zəngin sədasımı titrətdi yeri? –
Məktəb gəl-gəl dedi, hamı sevindi.
Alacaq qoynuna sərnişinləri,
Gəmimiz səfərə çıxacaq indi.

Üzəcək illərin sahillərinə,
Keçəcək zamanın tufanlarından.
Bəzən də olacaq sevinc yerinə,
Həyat acısını dadacaq insan.

Körpə balaların əsməsin qolu,
Lövhə necə qara, tabaşir ağdır.
Təzə şagirdlərin müqəddəs yolu
"Ana" kəlməsindən başlayacaqdır.

Yaratmaq eşqiylə çırpınır ürək,
Arzular yellənir al bayraq kimi.
Bizim gəmimizə yol göstərəcək
Dahilər, ulular bir mayak kimi...

1975



## LÖVHƏ QABAĞINDA

Şirin xatirədir o günlər axı,
Məktəb illərinə acı kim deyər?!
Vuruş meydanıydı lövhə qabağı,
Ora can atardıq "mən gəlim!" – deyə.

İllər nə tez gedir, çaşıb qalıram,
Ömür gənclik adlı sərhəddi aşır.
Elə ki əlimə qələm alıram,
Elə ki ilhamım kükrəyir, daşır,

Məktəb illərini anıram yenə,
Üstümə bir sinif doğmalıq axır.
Lövhə önündəyəm sanıram yenə,
Titrək əllərimə neçə göz baxır.

## BEŞ

Qızım, yenə beş almısan,
Sevincindən quş olmusan.
Öyünməyə haqqın da var,
Savadsızlıq dünyasına
nişanlanmış
Beşaçılan tüfəng olur
aldığın "5".
Sənin ömür yollarına
işıq saçan
Fişəng olur
aldığın "5".

***

Bu sərasər şeriyyətin seyrinə gəl,
Partalar da cərgə-cərgə, sıra-sıra.
Şagirdlərin biri güclü, biri tənbəl,
Müəllim şair, sinif şeir, şagird misra.

# MƏKTƏBDƏ

Məktəbə birinci gəlişim deyil,
Bəs niyə qəlbimdə bir çırpıntı var?
Böyük bir pətəkdir bura elə bil,
Veriblər səs-səsə arı balalar.

Kəsilir o səs-küy vurulanda zəng,
Elə bil tənəffüs çəkilir dara.
Siniflər çəmənzar, müəllim çiçək,
Şagirdlər çevrilir ac arılara...

***

Kirsin zirvəsinə qalxmışam
tövşüyə-tövşüyə.
Bu dağların barmağında
nənəmuç böcəyi kimi
bir şeyəm...

**Şuşa, 1986**

***

**Qədim qəbələnin ərazisində saysız-hesabsız saxsı qırıntısı görüb kövrəldim.**

Qızıl tapmaq arzusuyla yer eşmisən,
Öz izini arsız-arsız süpürmüsən.
Yazı görcək, naxış görcək ilişmisən,
Sən tarixin gözünə kül üfürmüsən.

Var-dövlətçün bu hərislik yaxşı deyil,
Bu torpağa ağrı, nisgil səpələnib.
Sındırdığın adicə bir saxsı deyil,
Bir tarixdi, neçə yerə qəlpələnib...

**1988**



# SU

Vaxt olub bir içim sərin su üçün
Göylərə yalvarıb ellər, obalar.
Bəlkə də çirkabı yuduğu üçün
Müqəddəs sayıblar suyu babalar.

Bu arzu, bu istək deyilmiş hədər,
Babalar dedilər: – Su aydınlıqdır.
Çayların önünü kəsdi nəvələr,
Su işığa dönüb evlərə axdı...

# YARPAQLAR

Külək budaqları çalır tar kimi,
Payızın gözünə dikilib gözüm.
Tökülür kağıza yarpaqlar kimi
Söhbətim, sözüm.

Dolur xəzəl ilə hər tərəf, hər yan,
Payız asta-asta sözə başlayır.
Birisi tökülüb gedir dünyadan,
Birisi həyata təzə başlayır...

***

Payızda qocalar,
bükülər yarpaqlar.
Ömrünün qızılı çağında
tökülər yarpaqlar...

# 22 SENTYABR

*"Ömrün bir günü" silsiləsindən*

Dağ aşağı yol gedəndə sevincək,
Maşınımız köhlən kimi büdrədi.
Həyatımız bir saralmış yarpaq tək
Ömrümüzün budağında titrədi...

Sərgərdanıq bir gümanın içində,
Bu tufanda hansı kəsdi üşümür?!
Taleyə bax, bircə anın içində
Göz önündən gəlib keçdi beş ömür.

Rəngi qaçdı yarpağın da, otun da,
"Əyləci bas!" – sinəmizdən qopdu ah.
Sürücünün ayağının altında
Ürəyimiz titrəyirdi, ay Allah!

Bu xatadan sovuşaydıq dedim kaş,
Maşın durdu... Dünya necə gözəldi!
Cibiklidə gözümüzdən axdı yaş,
Çayzəmidə əhvalımız düzəldi.

Ağacların yarpağında təzə dən,
Bulaqlardan təşnə kimi içirdik.
Bu dünyaya göz açmışdıq təzədən,
Vəl düzündə ad günü də keçirdik...

1984

## BAHAR DUYĞULARI

Ulduzlar əridi, açıldı səhər,
Şəfəqlər səpildi yerə zər kimi.
Qızardı üfüqlər, yandı üfüqlər
Həyadan qızaran gəlinlər kimi.

Göylərə nur saçan mehriban gözəl
Süzgün baxışıyla hər yana baxdı.
Təbiət dirçəldi sanki əlbəhəl,
Torpağın canına hərarət axdı.

Günəş boy göstərdi, qalxdı yuxarı,
Gəzdirdi dünyaya xumar gözünü.
Qayadan sallanan buz salxımları
Dartınıb, qayadan atdı özünü.



Qışdan təhvil aldı dünyanı bahar,
Əriyib töküldü qar muncuq-muncuq.
Uçdu budaqlardan ağ libaslı qar,
Qondu budaqlara yaşıl tumurcuq...

***

Şimşəklər parladı göydə zər kimi,
Dolmuş gözlərini sıxdı buludlar.
Səngərdə gizlənən igidlər kimi
Torpaqdan qalxdılar çiçəklər, otlar.

Dərələr, təpələr üzü güləndə
Küləklər sinəmdən qovdu dərdimi.
Alovlu şimşəklər gəlin gələndə
Şadlıqdan atılan güllələrdimi?!

Donmuş şəlalənin açıldı dili,
Onun nəğməsini hamı xoşladı.
Bahar yeli əsdi, xoş bahar yeli,
Ağaclar hamısı rəqsə başladı.

Çəmənin yerində mən olaydım kaş,
Mehriban əl gəzdi onun saçında.
Yarpaq manatlardan verildi şabaş,
Əli boş qalmadı bir ağacın da...

***

Duyğular kükrədi yenə könüldə,
Hər tərəf gül-çiçək, tər bənövşədi.
Səxavət göstərib bahar bu il də
Çöllərə rəngbərəng xalı döşədi.

Xoş ətir gətirdi sərin küləklər,
Sevən bir qız kimi təbiət titrək.
Şaqqanaq çəkərək gülən şimşəklər
Uğundu gözləri yaşaranadək.

Dağlara yaşıl don gətirən bahar,
Alça budağına gümüş gətirdi.
Sevincdən yaranan narın yağışlar
Torpağa səadət, sevinc gətirdi...

***

Yenə də baharın oğlan çağıdır,
Yaşıl don geyinib indi bağça, bağ.
Bahar təbiətin cavanlığıdır,
Ağacların başı ağarıb ancaq.

Çiçəklər solacaq, çox tez solacaq,
Nədənsə onların ömrü bir andır.
Payızda hər çiçək meyvə olacaq,
Bahar cavansa da, müdrik cavandır...

***

Qarışıb bir yerə burda gül-çiçək,
Arılar dodağı ballı gedirlər.
Dağların başından əsdikcə külək,
Ağaclar elə bil yallı gedirlər.

Heyrətdən yolunu azıb Laçın da,
Təbiət bir şeytan qız uşağı tək.
Kövrəlmiş göylərin bulud saçında
Qızıl lentə dönür arabir şimşək.

Şeh düşür çəmənin güllü donuna,
Çöllərdən təravət duyulur bu gun.
Göyün yağış nitqi yerin canına
Ərimiş yağ kimi yayılır bu gün...

**1973**

***

Sanki cavanlaşır qoca qarı da,
Xəyalən çevrilir cavan gəlinə.
Qışın şaxtası da, qışın qarı da
Əriyib qarışır bahar selinə.



Yerdən baş qaldırır nərgiz, bənövşə,
Dünyanın bu əziz, qaynar çağında.
Nənəm söyləmişkən, qovuşur meşə
Bahar gecəsinin qaranlığında.

Şirin nəğməsi var yazda selin də,
Əriyə həsrətim, intizarım da.
Dirçəliş görəndə çəməndə, çöldə,
Elə bil dirçəlir duyğularım da.

**1976**

## BAHARIN AD GÜNÜNDƏ

Nəğməkar bulaqlar kəsib səsini,
Suların dilində donuq bir "qarğış".
Sərib dünyamıza ağ süfrəsini,
Ziyafət verirdi sanki qarlı qış.

Şaxta bu məclisin tamadasıydı,
Yağan qar dediyi soyuq sağlıqlar.
Birdən sərxoş günəş gözünü qıydı,
Düşdü ağ süfrəyə əlindən "siqar".

Sığallı süfrəsi deşildi qışın,
Dəyişdi görkəmi, yer xal-xal oldu.
Çiçəklər səngərdən qalxan bir qoşun,
Qışın qonaqlığı bir xəyal oldu.

Yaşıl süfrə açdı düzlərə bahar,
Şəlalə səsini zilə gətirdi.
Günəşin dediyi isti sağlıqlar
Nəğməkar suları dilə gətirdi.

Günəş ağ günlərə səslədi bizi,
Qaranlıq guşələr işığa həris.
Şəfəqdən doldurub qədəhimizi,
Çəkdik başımıza, qızışdı məclis.

Şəfəq badələri dağıldığından,
Elə bil saraldı yaşıl süfrəmiz.
Doğrusu, bilmədik gəldi yay haçan,
Payız yaxınlaşır ayıldıq ki, biz.

Vüsaldan məst olub hər oğlan, hər qız,
Tamada onlara şadlıq dilədi.
Məclisin sonunda bəhərli payız
Hamını meyvəyə qonaq elədi...

1974

## BACISI FİRUZƏ SEYİDƏLİ QIZINA QƏBİR YOLDAŞI OLAN MEHDİ ƏMİMİN XATİRƏSİNƏ

Ömür sürdük arzuların düşüb izinə,
Qəbir olub səpələndik bu yer üzünə.
Dönüb baba diyarına gedə bilmədim,
Ata, qardaş torpağına yetə bilmədim.
Uyut məni, ovut məni, bacı torpağı,
Gözümə səp başımızın tacı torpağı...

2 avqust 1996

***

Bu vurhavur təsir etmir
çoxlarının halına,
Bircə oğul tapılmır ki,
barmağını dişləsin.
Məmləkətim başdan-başa
dönüb iclas zalına,
Yığıncaqlar qurtarmır ki,
millət gedib işləsin...

1996

***

Yastığım quş tükündəndi,
Bəlkə elə ona görə yuxuda uçuram?



## NƏ XEYRİ

Sözün qədrini bilməyən
Sənə söz versə, nə xeyri? –
Qəlbini kor yaradıbsa,
Tanrı göz versə, nə xeyri?

Qəlbdə arzu sayrışmırsa,
Eşq dil açıb danışmırsa,
Öz ocağın alışmırsa,
Özgə köz versə, nə xeyri?

Sevgin təzə-tərsə əgər,
İş düşübsə tərsə əgər,
Allah üz döndərsə əgər,
Bəndə yüz versə, nə xeyri?

1996

## HƏLƏ

Yaddaşımda qoruyuram,
Bir müqəddəs adı hələ.
Saça baxma, soyumayıb
Ürəyimin odu hələ.

Andı saxta, əhdi yalan,
Söndü məni oda salan.
Ürəyimə hakim olan
Özgə deyil, odur hələ.

Yaş elə də ötməyibdir,
Qəlbimi qar örtməyibdir,
Damağımdan getməyibdir
Öpüşünün dadı hələ.

Neçə qəlbi dindirəcəm,
Sənə də pay göndərəcəm,
Mən doğmaya döndərəcəm
Neçə-neçə yadı hələ...

## MƏNİM BİR GÜNÜM

Elə ki, qızarır geniş üfüqlər,
Qalxıram, bir belə yatmaqmı olar?
İşə yollanıram mən səhər-səhər,
Yolumu gözləyir məktəb, uşaqlar.

Bəzən iftixarla qabarır sinə,
Bəzən ürəyimə al qanlar axır.
Niyə hazır gəlmir şagird dərsinə?
Nə üçün bu yazı sönükdür axı?

Gəzirəm sinifdə mən qədəm-qədəm,
Yoruldum, bu qədər danışmaq olmaz.
Axşam, sonuncu zəng səslənir bu dəm,
Evə yollanıram olmasa iclas.

Kəsir qabağımı qapıda Gülzar
Deyir ki, gəzməyə gedək, ay ata!
Mənim gəzmək üçün öz maşınım var,
Ancaq sən gedəsən gərək piyada.

Xoşdur bu gəzinti mənə qızımla,
Arabir küssək də bir-birimizdən.
"Savaşa-savaşa" yenə qızımla
Yoxlayıb qurtardım dəftərləri mən.

Gecədir, düşmüşəm söz arxasına,
Atanı şairdən gəl ayır indi?
Sakitcə keçirəm miz arxasına,
Mənim şair ömrüm başlayır indi.

Varlığım elə bil oda qalanır,
Dönüb özgə adam oluram bu vaxt.
Müəllim şagirdi, ata balanı,
Şairsə hamını düşünür ancaq.

İlham dilə gəlir: – Mənim əmrimi
Necə olur-olsun yetir yerinə!
Yuxumdan kəsirəm şair ömrümü,
Bəlkə buna görə doğmadır mənə?!



## NƏNƏLƏR KÖÇÜNÜ ÇƏKDİ

Körpə uşaq idim vallah, o zaman
Nənəmin dərdini duymamışam mən.
Pərişan görkəmi çıxmır yadımdan,
Mehriban gözləri dolardı hərdən.

Davada öləndə cüt ömür-günü
Nə şivən, nə haray qoparıb nənəm.
Torpağın üstündə olan dərdini,
Torpağın altına aparıb nənəm.

Şirin söhbətini anıram hərdən,
Arabir gedirəm dərin xəyala.
Nağıl vağzalıydı sanki, qəlbindən
Nağıl qatarları düşərdi yola.

Bu gün ata oldu cavan bir oğlan,
Körpələr böyüyüb yaşa doldular.
Nənələr köçünü çəkdi dünyadan,
Analar çevrilib nənə oldular.

**1975**

## TORPAĞIN YORĞANI

Payızın küləyi çıxıb yürüşə,
Göydə buludların gözü dolubdur.
Deyirəm özümə: – İşə bax, işə,
Torpağın yorğanı yarpaq olubdur.

Səmalar qaralıb, günəş batıbdır,
Bəs torpağın layla çalanı hanı?
Ay külək, yavaş əs, torpaq yatıbdır,
Üşüyər üstündən düşsə yorğanı...

**1966**

## ŞEH

Hər gün səhər-səhər görürəm ki, mən
Şehlidir çiçəyin, gülün yarpağı.
Yaş olur bilmirəm hansı səbəbdən
Nazlı təbiətin çəmən dodağı?!

Həyadan qızarır geniş üfüqlər,
Şəbnəm parıldayır bir mirvari tək.
Gecə dodağını çəkir çəməndən,
Onunçün şehlidir yəqin gül-çiçək.

Gör necə bərq vurur çəmənin şehi,
Yuyub üz-gözünü yenə dağ-dərə.
Qırılıb göylərin yağış təsbehi,
Damcılar hamısı səpilib yerə...

**1966**

## PAYIZ

Meşəyə getdimmi, ürəyim dinər,
Köklənər könlümün kamanı, sazı.
Meşələr bir nəhəng aynaya dönər,
Özündə əks edər payızı, yazı.

Yarpaq əllərini çiynimə qoyub,
Elə bil sinəmə yeriyir payız.
Soyuq küləklərin səsinə uyub,
Yenə yarpaq-yarpaq əriyir payız.

Qızırğalanmaz da o öz varına,
Meyvəsi, yarpağı sel kimi axar.
Acgöz dələlərin yuxularına
Gecələr sübhəcən qoz-fındıq yağar.

Həzin görkəm alar yenə dağ, dərə,
Torpaq həsrət qalar isti günəşə.
Tazanə küləklər budaq simlərə
Toxunar, kövrəlib oxuyar meşə...



***

Yenə Kərəm soraqladı Əslini,
Nəfəsindən alovlandı yamaclar.
Xatırlayıb ömrün bahar fəslini
Yarpaq-yarpaq ağlayırdı ağaclar...

**1977**

## PAYIZIN SƏXAVƏTİ

Dedin – Əsirgəmir payız varını,
Onun nemətiylə dolub dağ-dərə.
Bəs necə mən buna səxavət deyim? –
Baharın əzabla yığdıqlarını
Səpir düzənlərə, səpir çöllərə...

## PAYIZDA

Hər il yurdumuza qədəm basanda
Taparam bir yeni çalar payızda.
Sarı yarpaqları sarı sim kimi
Külək dilləndirər, çalar payızda.

Dağların başında sərin yel əsər,
Uçuşan yarpaqlar hara tələsər?
Yaylaqlar inciyər, yaylaqlar küsər,
Onlar da kimsəsiz qalar payızda.

Durnaların səsi necə xoş olar,
Kükrəyən duyğular hara baş alar?
Bir yandan çəmənlər, bağlar boşalar,
Bir yandan ürəyim dolar payızda.

...Yorulsan, qocaman palıda söykən,
O kimdir gözündən qanlı yaş tökən?
Təbiət vurulub iztirab çəkən
Əhdi düz bir oğlan olar payızda.

**1971**

***

Yellər əsir, payız gəlib,
Yarpağın beşiyi yoxdu.
Nə ağacın, nə budağın
Evi yox, eşiyi yoxdu.

Yel tərpədir, elə bilmə
Budaq döyür sinəsinə.
Qar ələnir lopa-lopa,
Ağaclar çətin isinə.

Gözləyir, bilir ki, bir gün
Sevimli bahar gələcək.
Günəş onu güldürəcək,
Uğunacaq, qar güləcək.

Əriyəcək,
Göz yaşları
Otların yemi olacaq.
Gözəlliklər dənizində
Lalələr gəmi olacaq...

***

Gah bu, gah o
salır özünü gücə,
Elə hey güləşir
gündüzlə gecə.
Heç zaman görünmür
bu cəngin sonu,
Gah o bunu yıxır,
gah da bu onu.
Onlar həftələri, həftələr ayı,
Aylar fəsilləri dartıb gətirir.
Salıb qocaları əbədiyyətə,
Yeni nəsilləri dartıb gətirir...

**1994**



## SKRİPKA

Nəğməli tellərdə
titrək barmaqlar gəzər.
Başını bir cavanın
çiyninə qoyub,
hönkürür bir gözəl! –
Yanğı, həsrət, intizar
oxunur gözündə.
O səsi dinləyəndə,
Hönkürmək tutur
bizi də...

***

Sözün, səsin özününsə, qopar alqışlar,
Müğənni dost, sənə doğma pərdələrdə gəz.
Başqa quşun nəğməsini oxumaz quşlar,
Başqa gülün rənginə də güllər göz dikməz.

Ömrün boyu sən unutma bu həqiqəti,
Hissimizə, duyğumuza yağış kimi yağ.
Vüqarlı ol, qurban vermə pula sənəti,
Hər şey gedir, sənət qalır dünyada ancaq...

**1985**

## SAXLAYIB

Əl mərd olar, gözsə namərd,
Bizi işdən göz saxlayıb.
Kül özünü qalxan edib,
Ağuşunda köz saxlayıb.

Yağıdan yox, pulgirdən qorx,
Söylədiyim hər kəlmə ox.
Tariximi pul-para yox,
Tariximi söz saxlayıb...

## NAKAM BİR GÖZƏLƏ

Qəbrinin üstünə gəldim,
Xatirələr qoşun-qoşun.
Mənim yazı masam oldu
Sənin qara sinə daşın.

Soyuq mərmər saca döndü,
İlan kimi qıvrıldı söz.
Kağız qar kimi əridi,
Qovurğa tək qovruldu söz.

Elə bil ki, bahar gəldi,
Ürəyimdə gül açıldı.
Əridi qəlbimin buzu,
Gözlərimdən sel açıldı...

1992

## ƏHƏNG

Eyninə almazmış alovu, odu,
Alovlar önündə daş dayanarmış!
Əhəng quyusuna heyrətlə baxdım,
Daş da közərərmiş, daş da yanarmış!

Alovdan süzülən bu bəmbəyaz rəng
Divarın bəzəyi, gülü deyilmi?
Deyirsən daş yanmaz, söylə, bu əhəng
Alışan daşların külü deyilmi?!

## HAQQ

Təmizlərin üzünə
Bütün qapı bağlıdı.
Haqq verməsən, haqsızsan,
Kim haqq versə, haqlıdı.



Dillərdə əzbərsə də
Bu haqq, ədalət sözü,
Təpiklər altındadır
Haqq-ədalətin özü...

***

Gülməz fağırın üzünə,
Həyat işbaza yar olar.
Oğru elə bağırar ki,
Doğrunun bağrı yarılar.

Nahaq ilə işi yoxdu,
Tutar haqqın yaxasından.
Kəsib verər dadanmışa
Tamarzının boğazından...

1992

## SUDAN QORXURSANSA

Ürəyim – sevinclər, dərdlər məkanı,
Doğma adamlardan um-küsü olur.
Səfanın cəfası, gülün tikanı,
İstinin həmişə tüstüsü olur.

Batmaq istəyirsən çiçək ətrinə,
Çıxıb çəmənlərdə gəzəsən gərək.
Ömrünə nur saçan gülün xətrinə,
Tikan ağrısına dözəsən gərək.

Unutma, quzqulaq deyil əvəlik,
Şomunu biryolluq huşundan çıxart.
Sudan qorxursansa, sən bir dəfəlik
Balıq sevdasını başından çıxart...

## ÇAXANDAN-ÇAXANA

Onun bir kimsədən qorxusu yoxdu,
Səmada yaşayan qoçudu şimşək.
Göylərin əlində qılıncdı, oxdu,
Buludu doğrayan qayçıdı şimşək.

Dərələr titrəyər o gəlsə dilə,
Nur saçar, göylərdə olar bir fişəng.
Əzəldən alnına yazılıb belə:
Çaxandan-çaxana yaşayar şimşək...

1991

## QAR YAĞIR

Qar yağır, sanki noğuldur ələnir,
Dağ-dərə körpə uşaq tək bələnir.
Oxşayır könlümüzü qış havası,
Geyinib dünya gəlinlik libası.
Boylanıb pəncərədən bax küçəyə,
Elə bil dünya dönüb ağ çiçəyə.
Kəpənəkdir qaçışan gül balalar,
Uyuyur qar donun altında bahar.
Qar yağır, evdə oturma, çölə çıx,
Doldurur qəlbimizi ağ bir işıq.
Qar yağır, dünya dönür ağ kağıza,
Onun üstündə gərək şeir yazaq...

1991

## QIŞ

Ovutmusan hamımızı,
Bizə şadlıq diləmisən.
Allah, göydən başımıza
Elə bil un ələmisən.

Qayıdanda evimizə
Uşaqlar heyrətlə baxdı.
Dönmüşəm dəyirmançıya,
Üstüm-başım ağappaqdı...

***

Pozmaq mümkün deyil yazılan əmri,
Əbəsdir dünyaya könül bağlamaq.
Bələkdən qəbrəcən olan bir ömrün
Əvvəli ağlamaq, sonu ağlamaq.



Bir yanda doğulan, bir yanda ölən...
Karvanlar dolanıb keçir dünyadan.
Ağlaya-ağlaya dünyaya gələn
Ağrıya-ağrıya köçür dünyadan...

1990

## ÜZDƏDİ

Öl, bir şey yoxsa cibində,
Təmizlik, paklıq sözdədi.
Bənövşə kolun dibində,
Çayır çəməndə, düzdədi.

Kasıb, keçin də koladı,
Varlılar bizi taladı,
Bal tutan barmaq yaladı,
Süd sağan südü üzlədi.

Günbəgün haqsızlıq artır,
Dərd bizi odlara atır,
Mirvari dəryada batır,
Saman həmişə üzdədi...

1990

## BAZAR

İnlər gecə-gündüz,
Könlüm havalı ney.
Səslənsə də, kimsə
Verməz ona bir hey...

Başdan-başa dünya
Döndü bazar oldu.
Haldan-hala düşdük,
Şahiddi bu yer, göy.

Qiymətlərə baxdım,
Getdi huşum əldən.
Yoxdur bu bazarda
İnsandan ucuz şey...

1991

***

Bir şey yaza bilmirəm
Üstümü qayğı alıb.
O qədər sıxılmışam,
Təkcə cəciyim qalıb.

***

Dərddən mənə elə çələng hörmüsən ki,
Onu nadan adamlara görk etmişəm.
Allah, mənə elə ağıl vermisən ki,
Bu dünyanın puçluğunu dərk etmişəm.

***

Desələr də bir əlacsız xəstəsən,
Məni heç vaxt qorxutmayıb bu hədə.
Ürək qıran söz nə qədər istəsən,
Ürək açan kəlmə çıxıb qəhətə.
Ömrüm boyu narazıyam özümdən,
Qəzəbimin barıtı var bir atım.
Bir pis sözlə tamam düşür gözümdən,
Bir xoş sözlə gözəlləşən həyatım...

1991

## BİR AĞAC VAR İDİ...

Böyüyüb ərsəyə çatanlara da
Əyri baxdığını demirəm hələ.
Qıymadı balaca fidanlara da
Günəşin tükənməz nurunu belə.
Neçə bahar oldu, neçə qış oldu,
Dəyişdi fəsillər, dəyişdi illər.
Onun kölgəsində saraldı, soldu
Böyük qayğısına möhtac şitillər.
Beləcə yaşadı ömrü uzunu,
Olmadı bir dəyib-dolaşan ona.
Nəhayət, ömrünün yetişdi sonu,
Axır ki, dözməyib güclü tufana
Yıxıldı, hər yanı götürdü səsi.
Elə bilməyin ki, qada sovuşdu.



İndi də, indi də nəhəng gövdəsi
Körpə ağacların üstünə düşdü.
Təbiət nə qədər hüznlü, həzin...
Göydə buludların gözləri doldu.
Sağlığı fəlakət törədən kəsin
Elə ölümü də fəlakət oldu...

## SEL KİMİ

Yenə dağ seli tək kükrəyim, daşım,
Ölsəm, buludların gözləri dolsun.
Dərələr məzarım,. dağlar başdaşım,
Günəşin telləri kəfənim olsun...

1976

## LÖVHƏ

Bu yerdə gül-çiçək tükənən deyil,
Düzləri görənlər heyran qalıblar.
Nəhəng gəmilərdir dağlar elə bil,
Yaşıl bir dənizdə lövbər salıblar.

Bulaqlar yaşmaqla bizdən yaşınar,
Otlar dizə çıxıb, güllər təzə-tər.
Cığırlar dolanıb dağın başına,
Sanki bir igidi kəndirləyiblər.

Bu məğrur duruşda bir əzəmət var,
Nə qədər özünü sıxacaq dağlar?
Güc versə, qopacaq sanki cığırlar,
Yaşıl okeana çıxacaq dağlar.

## BƏNÖVŞƏ

Bahar dostu, çiçək dostu olanlar,
Gəlmişəm ki, təbrik edim sizi mən.
Nə olsun ki, beş-on günlük ömrüm var,
Baharın ilk sözü mənəm, sözü mən.
Tapdanaram, necə çıxım yola mən?
Səngərimdi, sığınmışam kola mən.

Bahar məni bir əsgərə döndərib,
Əbəs yerə hədələyir qış onu.
Bahar məni kəşfiyyatçı göndərib,
Marıqdadır onun çiçək qoşunu...

## KƏKLİYİN

Çoxdan görüşmürük, deyirəm yəqin,
Dikilib yoluma gözü kəkliyin.
Çoxdan eşitmirəm onun səsini,
Yoxsa tükənibdir sözü kəkliyin?!

O daşdan - bu daşa nə qəşəng səkir,
Onsuz darıxmışam, gözüm yol çəkir,
Rahat buraxmayır məni heç fikir,
Vurğunu olmuşam düzü kəkliyin.

Yolda quşlar çıxır rastıma bir-bir,
Soruram, kəkliyim hara köçübdür?
–Yəqin, bir az əvvəl burdan keçibdir,
Qalıb qar üstündə izi kəkliyin.

Kim ləpir üstünə ləpir salıbdır?
Onu hansı namərd nişan alıbdır?
Tökülüb, qanıyla tükü qalıbdır,
Bəs özü hardadır, özü kəkliyin?

## BAĞDA DÜŞÜNCƏ

Bu gün bağda gəzməyim bir az könlümü açdı,
Gəldi gözüm önünə axın-axın qohumlar.
Mənə elə gəldi ki, hər insan bir ağacdır,
Onun budaqlarıdır uzaq-yaxın qohumlar.

Toy olsa, o, sevincə, yas olsa, yasa batar,
İnsandan uzaq deyil bu dünyada xeyir, şər.
Ağacın qol-budağı kəsildikcə boy atar,
İnsanın qol-budağı kəsildikcə büzüşər.

**31.07.1971**



## ÇİLİNGAĞAC

Kolxoz idarəsinin
pəncərəsinə dəydi
uzaqdan vurduğumuz çilik.
Şüşəmi dözərdi bu zərbəyə? –
Oldu çilik-çilik,
səpələndi dörd yana.
Qulağımız ələ keçməsin deyə
tüpürdük dabana,
qaç ki, qaçasan...
Bir azdan
xəbər göndərdilər bizə:
montyorlar gəlib kəndimizə.
İnanmadıq çoxumuz,
dedik bəs tutmaq istəyirlər bizi.
Bir qulaqburması gözləyirdi
hərəmizi.
Qorxa-qorxa gəldik
idarənin qapısına.
Məftil daşımağa çağırdılar
hamımızı.
Mantyorlar arasına girdilər
qanımızın, –
Onlara verdilər
şüşəsini sındırdığımız otağı.
Beş cavan oğlan idilər,
bələd deyildilər hələ
dağ kəndinin torpağına, daşına.
Pərvanə kimi fırlanırdı kənd uşaqları
işıq çəkənlərin başına.
Dirəklər ucaldıqca,
ürəklər çırpınırdı,
sevinirdi cavan, qoca...
Tofiq adlı bir oğlan var idi,
pişik kimi dırmanırdı ağaca;
heyrətə salırdı böyüyü, uşağı.

Dərədən, dağdan,
meşədən, çaydan keçirə-keçirə
kəndimizə gətirirdilər işığı...
Çilingağac oynayırdıq montyorlarla,
yaman bərk vurardılar,
göyə millənərdi çilik.
Birdən möcüzə oldu,
ulduzlar olub çilik-çilik
töküldü kəndimizə.
İşıqlar bərq vurub
gülürdü üzə.
Gileyləndi Əbil əmi
başını tərpədə-tərpədə:
–A bala, cücü qalmadı
dərədə-təpədə...
Nurlanmışdı həyət-baca,
Gündüzə dönmüşdü gecələr.
Elə bil kəndimizin sevincinə
şərik olmağa gəlmişdi cücülər...

**1976**

## ƏBİL ƏMİ

Əbil əminin bir ulağı var idi,
Hər şeydən çox gərəyi idi bu ulaq.
Əbil əminin özü demişkən:
yıxılı evin dirəyi idi bu ulaq.
O idi Əbil əminin
ayağını yerdən götürən.
O idi dana-buzova ot,
arvad-uşağa odun, taxıl gətirən.
Bir sözlə, Əbil əminin
ən yaxın dostu ulağı idi.
Dilsiz-ağızsız heyvan da olsa,
zəhmətinin ortağı idi.
Meşədən ancaq
yarmaça gətirərdi Əbil əmi,



deyərdi tez yanır qırma.
Sözünü qaytaran adam da olsa,
deyərdi:
–Anqırma!
Əbil əmi elə danışırdı,
deyərdin bəs hamı borcludur ona.
–Ə, orda zayıl-zayıl danışınca,
aparıb bu heyvanı suvarsana!
Oğulsuzluq Əbil əmini yandırmışdı;
Üç qızı var idi,
üçü də yad çırağı yandırmışdı.
Demişdi: –Bir oğlum olaydı
Allahın altında!
Ancaq Allah eşitməzliyə vurmuşdu
Əbil əminin sözünü, –
Əbil əmi Şamayıl xala ilə tək qalmışdı
köhnə damın altında.
Əbil əmi ot çalırdı,
Əbil əmi odun qırırdı,
Əbil əmi taya vururdu,
Əbil əmi taxıl səpirdi,
Əbil əmi dərz bağlayırdı...
Əzrayıl bunları da
çox gördü Əbil əmiyə,
kişini işindən, gücündən ayırdı.
Dedi: – A kişi, bir belə işləmək olmaz,
Torpağın üstündə çox əlləşmisən,
Torpağın altında dincəl bir az!

**1976**

## FƏRZALI DAYI

Bu dağlarda saç ağartmışdı,
tanıyırdı ən xəlvət çeşməni də,
ən gödək cığırı da.
Məzəli bir kişi idi,
kəlməsinin başı da "demək" idi,

axırı da.
"Demək, bizimkilər səngərdə
uzanmışdılar,
Demək, bir lemis gördüm,
gözümə balaca gəldi boyu da.
Gözüm yedi zalım oğlunu,
qışqırdım üstünə qəflətən,
"həndi xox!" deyən kimi mən
tökdü yar-yarağını.
Sözümə baxmasaydı,
qəltan eləyərdim qanına.
Qatıb qabağıma onu,
gətirdim komandirin yanına.
Çox gərəkli idi gətirdiyim ov.
Demək, üz-gözümdən öpə-öpə
deyirdi komandir:
–Molodes, Quseynov!
Molodes, Quseynov!
Bir dəfə Balış xala
yeriyib ərinin sinəsinə demişdi:
–A kişi, az "demək" de,
camaat gülür sənə!
Fərzalı dayı saxlaya
bilməmişdi özünü,
söyüb demişdi:
–Demək, sənin deməyinlə
mən tərgidim "demək" sözünü?!
...Çəpniyə getmişdik,
ordakı İsti su
deyirdilər xeyirdi yelə.
Girib suyun yığıldığı çalaya
uzanırdıq növbə ilə.
Fərzalı dayı da
suya salmışdı sağrısını,
gəlmişdi Ermənistanın dərəsində
qoyub-qayıtsın ağrısını...
Çürük alma kimi



su qaldırdıqca onu
gülürdü camaat.
Onun qarnının üstünə
üç-dörd daş yığmışdı
yeznəsi Barat.
Dişləri bir-birinə dəyə-dəyə
gileylənirdi öz-özünə.
Daşlar sürüşən kimi
yenidən pırtlayıb çıxırdı
suyun üzünə...
Cələ qurardı qış gələndə
evlərinin qənşərindəki yamacda.
Kolxoz tövləsinin qabağında durub,
fit çalardı yavaşdan.
Kim quşa güllə atsa,
acığı tutardı, acığı.
Deyərdi: –Mənim cələmə
qonmalı idi,
niyə hürkütdünüz
qaratoyuğu, cığ-cığı?
Bədəni elə bil əriyirdi,
qalan bircə nəfəsi idi.
Ən yaxın həmsöhbəti
nəvəsi idi.
Nağıl danışardı ona
nəfəsi tıncıxa-tıncıxa.
Özü yal verərdi
qapı-bacasının keşikçisi
qoca qancığa.
Gözləri doymamış həyatdan
Əzrayıl batırdı səsini.
Deyirlər son sözü də "demək" olub,
Nəfəsi çatmayıb tamamlaya
axırıncı cümləsini...

**1976**

## ƏHƏD HAQQINDA NƏĞMƏ

Kəndimizdə bir Əhəd var idi,
Dəyişdirə bilmədilər təbiətini.
Kəndimizdə bir Əhəd var idi,
Tənələr kəsmişdi əhədini.
Ancaq Əhəd də bir Əhəd idi,
incimezdi heç zaman.
Araz aşığından idi,
Kür topuğundan.
Onu qoymasalar da adam yerinə,
Dananın, öküzün dilindən
məktub yazardı
kolxozun "aktivləri"nə.
Elə hey gümüldənərdi,
nəsə danışardı
dodağının altında.
Ətrafda heç nə görünməzdi
gözünə.
Bir də görərdin şaqqanaq çəkib
güldü özü-özünə.
Naxırı örüşə ötürüb,
sərhədçi kimi dayanardı
zəminin qırağında.
Çomağını saz kimi sinəsinə basıb,
oxuyardı öküzlərin qabağında:
"Yem yemirsiz axurdan,
Geri qalırsız naxırdan.
Kolxozun aktivləri
Doymur araq-çaxırdan!"
Naxır gəlib çatardı onun yanına,
Oxuduğu mahnını dinləmək üçünmü,
ya zəmidən yemək üçünmü? –
Ayırd eləmək çətin idi çətin.
Birdən sazı çomağa dönərdi
Əhədin, –
çırpılardı danaya, öküzə.



Geri dönmək istəməzdi ancaq,
öküzlər yaman inadlı idi.
Çomaq da ağrıdırdı,
Zəmi də dadlı idi...
Orduya çağırdılar Əhədi...
Dedilər ölünün biridi,
Baş çıxara bilməz oralarda, –
Danışmadı, kiridi.
Xidmətini də bitirdi Əhəd.
Kəndə təzə-təzə sözlər gətirdi Əhəd.
Naxırı görəndə gülürdü balaca gözləri,
Əsgər komandir oldu,
qabağına qatdı öküzləri...
Əhəd belə Əhəd idi,
yaşıdları ev-eşik sahibi olmuşdu,
ona qız qəhət idi.
Köçüb başqa rayona
ev-eşik sahibi oldu Əhəd.
Öküzlərin gözü yollarda qalıb.
Kənddə hamı təəccüblənirdi, –
Əhəd də adam olub!...

**1976**

## ATA MƏHƏBBƏTİ

"Əlisi dəli,
Vəlisi dəli,
Bu qırılmışın
hamısı dəli!" –
O biriləri deyə bilmərəm,
Vəlisi dəli deyildi.
Halal zəhmətə öyrətmişdi əlini,
Elə bil cəfakeşlik
boyuna biçilmişdi Vəlinin.
Hər şeyə qadir idi Vəli,
Kənddə briqadir idi Vəli.

Ot-pencər vaxtı işi çoxalardı,
Üstəlik inciyən,
küsən də çox olardı.
Zarafata salardı,
Deyərdi:
–Ot sovulana qədərdi çətini!
Həm kəndi dolandırardı,
həm külfətini.
Heç kimin xətrinə dəyməzdi,
hərəyə öz dilində
verərdi cavab.
Çalışardı nə şiş yansın,
nə kabab.
Olacağa çarə yoxdu,
Vəlinin qızı təndirə düşüb yandı.
Arvadı saçını yoldu, üzünü cırdı...
Vəli səssiz-səmirsiz dayandı.
Dedilər ürəyi daşdı!
Arvadı yana-yana ağı deyirdi:
"Mənim balam alagözdü,
çatmaqaşdı..."
Torpağın üzü soyuq olur;
göz yaşları qurudu,
üz yarası sağaldı
tamam olcaq
rəhmətliyin ili.
Ancaq xəstəxanaya düşdü
dava-dərman görməyən Vəli.
Çarə tapılmadı dərdinə,
Dedilər: "Xərçəng"di. –
Həkimlərin diaqnozu qəti idi.
Ancaq Vəlinin xərçəngi
Ata məhəbbəti idi...

**1977**



## YURDUMUZUN SƏRVƏTİ

Mən neft deyiləm,
torpağın üzərinə
gilə-gilə süzülən
göz yaşıyam.
Dindirsən, qanlı-qadalı
tariximdən danışaram.
Mən qaz deyiləm,
torpaqda uyuyan babaların
nəfəsiyəm,
kibrit çəksən, alışaram...

**1977**

## BAKIDAN AYRILARKƏN

Yenə dəftər-qələm əlimdə durdum,
Ayrıldıq, yazmağa əlim gəlmədi.
Səndən ayrılsaq da, a doğma yurdum,
Əlvida deməyə dilim gəlmədi.

Şirin xatirələr deyil solası,
Səni unudanlar axı kim ola?
Qəribə deyilmi, cənub balası
Qışın oğlan çağı gedir şimala?!

Həsrət nəğmələri elə qırıq ki,
Gizlicə bir haray qoparıram mən.
Bakı, həmişəlik ayrılmırıq ki,
Səni də özümlə aparıram mən...

## İKİ ÇAY

Şaxta qılınc kimi kəsir adamı,
Gör necə, gör necə vurub don çayı?
Deyirdim kükrəyir yəqin Kür kimi,
Yox, axmır, yerində durub Don çayı.

Ötən xatirələr çatır dadıma,
Yenə də könlümdə təzə bir fikir.
İki roman düşür bü dəm yadıma,
Birisi "Sakit Don", biri "Dəli Kür"...

## UKRAYNA TORPAĞINDA

Gəncə laləsi kimi
Yanağı qıpqırmızı.
Gülümsədi üzümə
Bu elin gözəl qızı
Ukrayna torpağında.
Ukrayna torpağında.

O baxdı işvə ilə,
Baxışımız öpüşdü.
Ürəyim gəldi dilə,
Bakı yadıma düşdü,
Ukrayna torpağında.

Gülürdü üzə hər yan,
Şütüyürdü hey qatar.
Sanki durub məzardan
Xoş gördük! – dedi Kobzar
Ukrayna torpağında.

Gördüm ki, burda bizə
Xüsusi ehtiram var.
Ayrılanda bu yerdən
Əl elədi ağaclar
Ukrayna torpağında.

***

Düzü, darıxırdım bu görüş üçün,
Görüşdük, qəlbimdən sellər ötüşdü.
Göy göyərçin gördüm Kiyevdə bu gün,
Xəzərin ləpəsi yadıma düşdü...



## PİSQARYOVDA

Gözümdəki tufanları qova-qova,
Bir çovğunlu gündə gəldim Pisqaryova.
Qəmgin idi, hüznlüydü burda hər yan,
Bircə anda yaddan çıxdı şaxta, boran.
Şimşək çaxdı gözlərimin qarasında,
Nələr olub, nələr olub,
41-45 arasında?
Ağ gün üçün döyüşlərdə
Neçə həyat sona çatıb.
Burda neçə arzu yatıb,
Burda neçə həsrət yatıb.
Burda neçə insan yatıb,
Məgər sayı yüzdü, mindi
Pisqaryovda yatanların?
Yaralanmış sənədləri
Muzeylərdə yaşar indi
Pisqaryovda yatanların...

## PİSQARYOVDA BİR HEYKƏL VAR

Pisqaryovda bir heykəl var,
Heykəl oldum önündə mən.
Göz yaşlarım yanağıma
Axdı dən-dən.
Başında bir yaylığı yox,
Tufan isə vermir ara.
Elə bil ki, keşik çəkir
O, əbədi yatanlara.
Şaxta kəsir qılınc kimi,
Səpələnir üstünə qar.
Nə əynində paltosu var,
Nə əlində əlcəyi var.
Yenə qışın sərt nəfəsi
Üzə dəyir, gözə dəyir.

Bu şaxtada, bu çovğunda
Ana niyə üşüməyir,
Heykəl niyə üşüməyir?!
Az qalır ki, adam dona.
Bu qəbristan yarananda
Ana elə üşüyüb ki,
Əsər etmir şaxta ona…

## VOLQA

Yəqin ki, yəqin ki, tanıdın məni,
Salam, a doğma çay, salam, a Volqa!
Gəlmişəm buraya seyr edib səni,
Şirin xəyallara dalam, a Volqa!

Şaxta şiddət edir yel əsən kimi,
Qələmin rəngi də az qalır dona.
Sən doğma Xəzərə tələsən kimi,
Mən də tələsirəm Azərbaycana.

## GÖYƏRÇİNLƏR

Rusiyada göyərçin var,
Bizdən qorxub qaçmayır heç.
Kim istəsə tuta bilər,
Onlar uzaq qaçmayır heç.
Adamların ətrafına
Gəlib dolur göyərçinlər,
Niyə onlar deyil ürkək?
Azərbaycan torpağında
Ürkək olur göyərçinlər
Azərbaycan qızları tək.

## ZARAFAT

Məni də sənin tək don vurub, a çay,
İlk baharın ətri nə vaxt saçılar?
Can Volqa, can Volqa, sənin Xəzərdə,
Mənimsə Bakıda donum açılar…



## BİR BİNA GÖRMÜŞƏM

Bir bina görmüşəm Volqoqradda,
Elə bil yoğrulub alovdan, oddan.
Yaşayır dəhşətli bir xatirə tək,
Onun sinəsini toplar deşibdir.
Alıbdır dövrəyə onu gül-çiçək,
Sanki müharibə əsir düşübdür.
Baxıram, köksünün yarası dərin,
Hardasa sürünür bir qara kölgə.
Döyüşdən zəfərlə çıxan şəhərin
Sinəsində qalan qəlpədi bəlkə?
Yıxılmır, sinəsi olsa da şan-şan,
Divarlara hopan əsgər qanıdır.
Elə bil bu bina döyüşdən çıxan
İgid müharibə veteranıdır…

## QATARDA

Bircə arzum var ürəkdə, dolanım dünyanı mən,
Vaqonun pəncərəsindən görürəm hər yanı mən.
Ürəyim nəşəlidir, yaddır ona indi kədər,
Düzülüb yan-yana ağ şam ağacı gör nə qədər?!
Qaməti şuxdu necə, heç bələsi düşməz ələ,
Bənzəyir hər birisi ağ sinəli bir gözələ.
Şütüyür hey qatarım, bəs duracaq söylə, haçan?!
Bilmirəm mən qaçıram, yoxsa o şamlardı qaçan?!
Pəncərəmdən açılır gör nə qədər mənzərələr,
Çıxarır ağ donunu indi bu dağlar, dərələr.
Şütüyür hey qatarım, istəmirəm yol qurtara,
Fikrimin karvanı da indi düzülmüş qatara…

**1976**

## TƏLƏBƏLİK XATİRƏLƏRİNDƏN

Xatirələr dünyasından
varlığıma səda düşər,
nə zaman ki, tələbəlik yada düşər…
O zamanlar qəlbimizdə

gələcəyə böyük inam bəslər idik.
O zamanlar
imtahanı, məhəbbəti kənar qoysaq,
dərdsiz, qəmsiz kəslər idik.
Bizə ölgün dərs deyəni
fürsət düşcək pislər idik.
Ona görə çoxlarının gözlərində
yaxşı ikən, pislər idik...
Tən bölərdik yeməyi də,
Qardaş malı bölən kimi.
Birimizə bir bağlama gələn kimi
Tez hamını səslər idik.
Bircə onu bilirəm ki,
Təmənnasız dostlar idik.
O zamanlar
bir qız ilə bağlı olan gündəliyi
yandırmışam.
Sorma niyə?
Məni sevən bir gözəlin
Ürəyini sındırmışam,
Dost xətrinə dəyər deyə!
Mənim üçün göz yaşı da
tökmüşdü o,
Karandaşla bir varağa
şəklimi də çəkmişdi o.
İndiyədək yazıq elə düşünüb ki,
bircə dəfə dolmamışam onun üçün.
Heç olmasa bu şerimi oxuyanda
bilsin bunu,
Mən biganə olmamışam onun üçün!
...Söylədim ki, gələcəyə
böyük inam bəslər idik.
İmtahanı, məhəbbəti kənar qoysaq,
Doğrudan da, dərdsiz, qəmsiz
kəslər idik...
Yenə şer gecəsidir,
Kürsüdəyəm.



Ürəyimdən keçənləri
gərək deyəm.
Oxuyanda mən şeirimi
Dostlar qulaq asardılar.
Evdə tənqid atəşinə tutulanı,
Gül selinə basardılar.
Neçə-neçə imtahanı keçib gəldik,
Nizamini, Nəsimini
Biz su kimi içib gəldik.
Eh, o zaman addımbaşı gərək olub,
Füzulinin şeiri bizə.
Ac olanda çörək olub
Füzulinin şeiri bizə.
İlk oxumuz daşa dəyib,
Gecə-gündüz zarımışıq.
Qəlbimizin göz görməyən yarasını
Şeir ilə sarımışıq.
Bəzən aclıq qorxusu da
Kəsəmməyib yolumuzu.
Kitablara, kinolara
Sərf etmişik pulumuzu.
İmtahanlar çatan zaman
döşənərək çarpayıya,
gecə-gündüz oxumuşuq...
Yenə həmin ali məktəb,
Yenə həmin yataqxana,
Elə bil heç yoxumuşuq...
Hanı Kamran, hanı Zahir?
Bəs Nizami harda qaldı?
Təyinatlar hərəni bir yerə saldı.
Qulağımda səsi qalıb Əbülfəzin,
Xatirələr necə kövrək,
Necə həzin?!
Sözlərimin sonuna bir nida düşər,
Nə zaman ki, tələbəlik yada düşər...

## DƏNİZ NƏĞMƏLƏRİ

### LƏPƏDÖYƏN

Günəş düşüb göy sulara,
Baxışların süzülübdür
necə qəşəng.
Ağ köynəkli dalğalarsa
Muncuq kimi düzülübdür
Sahilədək.
Kimdir onu sapa düyən,
Ləpədöyən?!

Bir vaxt narın qumlar üstdə
O qızla mən ayaqyalın
dolaşmışam,
səhər-axşam.
Sevgilimin ayağını
Sinən üstə gəlib gedən
Dalğalara qısqanmışam,
Ləpədöyən!

Anan dəniz üzərinə
Dalğa yorğan örtür hər an,
Üşümə sən.
Sənsə şıltaq uşaq kimi
O yorğanı tullayırsan
üzərindən
Ləpədöyən!

Sulara bax, halay vurub,
Alçalar da, ucalar da
Bölük-bölük.
Sənə qonaq olar hər gün
ləpə kimi



Cavanlar da, qocalar da,
Böyük, kiçik.
Məməyeyən, pəpə deyən,
Ləpədöyən...

**1968**

### DƏNİZİM

Şad olursan sevən qəlbim güləndə,
Öz dilində mənə nəğmə qoşursan.
Xoşbəxtəm ki, hər yanına gələndə
Sevinirsən, dalğalanıb coşursan.

Ömrüm boyu hüzuruna gələcəm,
Ayrılığın ürəyimi açmayıb.
Hələ heç kəs mənə sarı beləcə
Qanad açıb sənin kimi uçmayıb.

Hələ heç kəs ayağıma baş qoyub,
Sənin kimi şad olmayıb bu qədər.
Ürəyimdən keçənləri sən duyub,
Oxuyursan həsrət dolu nəğmələr.

Nə yazıqdı vüsalını dadmayan,
Bir ləpənə əvəz deyil min sözüm.
Dalğa qollar arasında yatmayan
Səni necə sevə bilər, dənizim?

Məhəbbətin gün tək yanır içimdə,
Billur kimi təmiz olur ürəyim.
Dəniz eşqi dalğalanır içimdə,
Sevincdən bir dəniz olur ürəyim...

**1998**

### BU DƏNİZ

Bilsə ki, eşqimə xəyanət etdim,
Olan haqq-salamı kəsər bu dəniz.
Vaxtında getməsəm görüşə əgər,
İnciyər bu dəniz, küsər bu dəniz.

Bilsə ki, qəlbimdən sevda perikib,
Sevdalı kəlmələr sözümə baxmaz.
Bilsə ki, qəlbimdə məhəbbət ölüb,
Kükrəyən dalğalar üzümə baxmaz.

Sevdasız könlümdən inciyən dəniz
Ayağım altına incilər səpməz.
Dolamaz boynuma dalğa qolunu,
Ləpə dodağıyla alnımdan öpməz.

Kükrəyən dalğalar mizraba dönər,
Qəlbimdə gərilmiş simlə oynayar.
Sevda dalğaları uyusa əgər,
Onun dalğaları kimlə oynayar?

Məndən üz döndərər, baxmaz üzümə,
Özünə ayrı dost seçər bu dəniz.
Çəkib ürəyimdən dalğalarını
Sevdalı qəlblərə köçər bu dəniz...

***

Həmişə dənizin sahilindəyəm,
İstərəm ömrümü həsr edəm ona.
Baş vura bilmirəm dərinliyinə,
Onunçün həmişə həsrətəm ona.

**1998**

## DƏNİZ

Heç vaxt heç kəsdən
Küsən deyilsən.
Haqqı, salamı
Kəsən deyilsən.

Dalğalanırsan,
Ləpələnirsən,
Nur olub qəlbə
Səpələnirsən.



Qışın gözəldi,
Yazın gözəldi.
Ərköyünlüyün,
Nazın gözəldi.

Günəş sevinclə
Səpər zər sənə.
Pənah gətirər
Sevənlər sənə.

İncə qəlbini
Duymaq çətindi.
Öpüşlərindən
Doymaq çətindi.

Yay gəlsin, sənə
Biz gələk qonaq.
Qağayı kimi
Sulara qonaq.

Hər vaxt hamını
Duyan olmusan.
Tənha qalana
Həyan olmusan.

Gözəl görəndə
Sən də yanmısan.
Gözüm önündə
Sən dayanmısan.

Həsrət gözlərdən
İnci dərmisən.
Heç sevənləri
İncidərmisən?

Sən uşaqlarla
Uşaq olmusan.
Yolumuz üstə
İşıq olmusan.

Müdrikləşmisən
Qoca görəndə,
Ruhumu hər an
Uca görəndə.

İlahi, gör kim
Olub yar sənə?!
Dalğa qolların
Açılar mənə.

Ürəyi isti
Dodağı buzsan.
Sanki sübh çağı
Bakirə qızsan.

Qərq eləyirsən
Qəlbimdə kini,
Sanki bilirsən
Qəlbimdəkini.

Bir qüvvə varmı
Önümü kəsə?
Qısqanmır səni
Heç kəs heç kəsə.

Kiminə sirdaş,
Kiminə yarsan.
Dəniz kükrəyər
Köksümü yarsan!

Necə doğmasan,
Necə əzizsən!
Özü dənizsən,
Qəlbi dənizsən!

Məhəbbətimi
Duymursan bəs sən?
Elə böyüksən,
Hamıya bəssən!...

**1999**



## GÜLÜM, SƏN DƏ DƏNİZ KİMİ MƏNƏ DOĞMASAN

–Gəl, daşı tök ətəyindən, gedək dənizə,
Dalğaların qucağında baş-başa duraq.
–İstəsəm də sevgi hər an yar olsun bizə,
İstəmirəm bu sevdanı tez başa vuraq.

Səni məftun eləsə də saçımın ətri,
Bilərsən ki, mələk deyil, adi bəşərəm.
Qəlbim hər an can àtsa da vüsaldan ötrü,
Qorxuram ki, sənin üçün adiləşərəm.

–Hər an gümüş dalğalarda gəzib nəzərim,
Bəxtiyarlıq qönçələyib gülər üzümdə.
Hər gün məni ağuşuna alan Xəzərim
Gündən-günə gözəlləşir mənim gözümdə.

Sevməsəydim, dalğalara qoşulardımmı?
Gülüm, sən də dəniz kimi mənə doğmasan.
Sənin kimi bir gözələ tuş olardımmı
Qismətimə, taleyimə günəş doğmasa?!

Ömrüm boyu mən sözümün oldum ağası,
Ömrün boyu izləyəcək ilk bahar səni.
Ürəyində kükrədikcə sevgi dalğası,
Arxayın ol, ürəyimdə yerin var sənin...

**1998**

***

Sahildə yanaşı dayansaq da biz,
Düşdü aramıza görünməz barı.
İçində fırtına kükrəyən dəniz
Öpməkdən doymurdu sərt qayaları.

Məni silkələdi gecikmiş vüsal,
Köksümdən bir dəli fırtına keçdi.
Özüm də bilmirəm, necə oldusa,
Mən də dalğaların gününə düşdüm.

Əlim sinəsindən çiçək dərirdi,
Əsirdi əhvalı pozulan gözəl.
Nə daşlar öpüşə cavab verirdi,
Nə də dodaqları buz olan gözəl...

***

Mən belə bilirdim, belə deyilmiş,
O qızın məktubu gör nələr deyir?
Əlvida söyləyib ötən eşqinə,
Təzə bir sevdaya nəğmələr deyir.

Sən demə bir anın bəxtiyarlığı
Titrək kirpiyində yaşa dönübmüş.
Demə xoşbəxtliyin böyüklüyündən
Onun dodaqları daşa dönübmüş.

Bir ovuc göz yaşı olmaq istəyi,
Əlimlə dənizə səpilsin deyə.
Sahildə daş olmaq keçib qəlbindən,
Hər səhər, hər axşam öpülsün deyə.

Bilmirəm heç bizə nə deyəcəklər?
Özünü məhv etmə, insafa gəl bir.
Bilmirəm bu eşqin böyüklüyünə
Layiq olacaqmı viranə qəlbim?

**07.10.1998**

## DALĞALARA BAŞ VURAN QIZ

Dalğalara baş vuran qız,
Yaman özünü öyürsən.
Mənə yandıq verə-verə
"Dəniz anamdı" – deyirsən.

Söylə, sevgi çiçəkləri
Xəzan yeliylə solarmı?
Sənə ana olan dəniz
Mənə qaynana olarmı?



## DƏNİZ MƏNİM İÇİMDƏDİ

İçimdə həsrət dalğası
Tələsirəm mən dənizə.
Tanrım, bu necə sevdadı
Vermisiniz bəndənizə?!

Qəlbimdəki eşq Xəzərlə
Bir boyda, bir biçimdədi.
Mən dənizin sahilində,
Dəniz mənim içimdədi...

***

–Ürəyim çevrilib dəniz daşına,
Hirsindən az qalır dəniz daşına.
Neyləyim, körpəyəm sevda yolunda,
Hələ çatmamışam dəniz yaşına...

## BU DƏNİZ

Elə bilirəm ki, dünya mənimdi,
Onun qucağında sərinləyəndə.
Bu dəniz nə yaman yaxşı dənizdi,
Gizli xəzinə var dərinliyində.

Sənin gəlişinlə kükrəyib, daşıb,
Gəlibdir ilhamı dalğaların da.
Bu dəniz nə yaman yaxşı dənizdi,
Ürəyim çırpınır dalğalarında.

Həftələr uzunu, aylar uzunu
Xəyalım sahildə dolandı, gəzdi.
Gözlərin gülümsər maviliyində, –
Bu dəniz nə yaman yaxşı dənizdi!

Ümidli kəlmələr qatar dilinə,
Mən qumlu sahildə naçar qalınca.
Dalğa ətəyini yığıb əlinə,
Bu dəniz elə hey qaçar dalımca, –
Bu dəniz nə yaman yaxşı dənizdi ...

**1979**

***

Dənizi seyr edirdik ikimiz,
Külək əsdi,
Ləpə-ləpə yarpaqladı dəniz.
"Sevirəm!" – dedim qəflətən...
Çiçəklədi yanaqların.
Təbəssümə bükübv,
atdın üstümə
o çiçəkləri...

**1978**

***

Bu qum necə narındı,
Bu su necə sərindi.
Bu günəş necə isti,
Bu dəniz nə dərindi.

Bu ləpələr nə coşqun,
Bu körpələr nə şəndi.
Bu dalğalar yüyürüb,
Ayağıma döşəndi.

Coşur, gəlib ilhamı,
Qınamayın Xəzəri.
Gözəllərin bədəni
Gün altında közərib. –

Günəş deyir mən qucum,
Dəniz deyir mən qucum.
Gözüm görür, bədənim
Uçunur uçum-uçum.

Dalğa ilə oynayır
Böyük də uşaq olub.
Gözəllərin belində
Dalğalar qurşaq olub...

**1978**



## AYAQ İZLƏRİ

Təmiz eşqimizi bir vaxt danmadıq,
Baxdı bir-birinə həsrət gözümüz.
Dəniz sahilində az dolanmadıq,
Qaldı sahillərdə ayaq izimiz.

Bilirdim, sahildən qorxunc dalğalar
Ayaq izimizi qoparmalıydı.
Yenidən geriyə qayıdan sular
Bizim eşqimizin nişanəsini
Dənizin qoynuna aparmalıydı.

Yenə sahildəyəm, bəs hardasan sən?...
Ürəyim bu dərdi götürəcəkmi?
Ayaq izlərimi axtarıram mən,
Onu sahillərdən dənizə çəkən
Dalğalar yenidən gətirəcəkmi?

## DƏNİZDƏ SƏHƏR

Əsir səhərin ılıq küləyi,
Döyünür dənizin ürəyi.
Ləpələr salır işə
Şirin dilini.
Günəş tutur isti əlləriylə
Dənizin gecə soyuğundan
üşüyən
soyuq əlini...

## YOX, MƏN QOCALMIRAM

Şəfəqli gözlərdə həyat qaynayır,
Daha büllurdan da təmiz olmuşam.
Körpə balalarım qaçır, oynayır,
Sevincdən kükrəyən dəniz olmuşam.

Sinəmdə çağlayan sonsuz məhəbbət,
Mənim dövlətimdir, mənim varımdır.
Coşqun bir dənizəm, dənizəm, fəqət
Mənim dalğalarım balalarımdır.

Zaman üz-gözümə salıb naxışlar,
Qaynar cavanlığım demə ki, itir.
Dənizin üzünə düşən qırışlar,
Əzizim, cavanlıq əlamətidir.

## BU SƏHƏR

Körpələr oynardı ləpədöyəndə,
Qaçışan balaca ləpələr kimi.
Gözümə sevimli gözün dəyəndə
Mən də sevinərdim körpələr kimi.

Biz tanış olmuşduq axı dənizdə,
Hərdən o günləri salıram yada.
Dənizə bağlanan xatirəmiz də
Balığa çevrilib yaşayar suda.

Həmişə gəldiyin qumlu yolları
Bürüyər dağların dumanı, çəni
Dalğalar – dənizin həsrət qolları,
Dolanıb boynuma kövrəldər məni.

Sular dodağıma toxunar hərdən,
Məni ovundurmaz duzlu busələr.
Deyirəm: qoşulub dalğalara sən
Bəlkə də yanıma gəldin bu səhər?!

## ÇİMƏRLİK NƏĞMƏLƏRİ

1

Hər gözəl bir od oldu,
Gizli alışdıq, yandıq,
Duyğuların əlində.
Əvvəl çimdik dənizdə,



Bir azdan durulandıq
Şəfəqlərin selində.

2

Gəlmişdi çimərliyə
Yansın bir zərif çiçək.
Günəş onu yandırmadı,
O, məni yandıran tək.

3

Axır çimərliyə gəlinlər, qızlar,
Sahili nə əlvan çiçəklər bəzər!
Gecə də deyil ki, deyəm ulduzlar
Soyunub hamısı girib dənizə.

O kimdir qıy vurdu bir qağayı tək,
O kimdir qumların üstüylə qaçan?!
Bir su sonasıdır sanki hər çiçək,
Çimir gün çıxandan gün batanacan.

Dənizə məhəbbət tükənən deyil,
Nazlı gözəllərin sevən çağıdır.
Bunlar qız deyillər, vallah elə bil
Hərəsi günəşin bir saçağıdır.

## MƏN SAHİLƏM, SƏN DƏNİZ

Mən sahil, sən dəniz – coşdun sevincək,
Üstümə atıldın, gülüm, axırda.
Axşamkı tufanın xatirəsi tək
Ləpələr qalıbdır çala-çuxurda...

**1974**

***

Yel əsir, dalğalar olur ağ çiçək,
Dəniz nərə çəkir, kükrəyir, daşır.
Gümüşü dalğalar qəfil sevinc tək
Haray sala-sala başımdan aşır.

Sularda dinclikdən yoxdur nişan da,
Sülh deyil, sülh rəmzi desək də ağa.
Dəniz kükrəyəndə, dəniz coşanda
Dalğalar əlində dönər bayrağa.

Sağlamıq. Səbəbmi? – Unutma onda,
Dənizdə çimirik hər səhər tezdən.
Uzaq üfüqlərdən günəş çıxanda,
İşə yollanırıq çıxıb dənizdən.

## DƏNİZ VƏ SAHİL

İki aləm dayanıb üz-üzə,
Dəniz sahilə hücum edir,
Sahil dənizə.
Xəzərin dalğası
geriyə dönər,
Bakının "dalğası"
dənizdə qalar.
Geriyə dönməyən dalğalardır
estakadalar.
Bu vuruş pis deyil,
Bu yarış pis deyil.
Dənizi külək qızışdırır,
Sahili insan istəyi...

## XƏZƏRİN SAHİLİNDƏ

Dalğalandı, yenə də dindi Xəzər,
Dənizi seyr elədim, coşdu ürək.
Mavi bir don geyinib indi Xəzər,
Dalğalarsa o donun qırçını tək.

Suya gircək o gözəl gəldi dilə,
Kükrədi, mavi sular döndü qara.
İstədim mən də qoşam həsrət ilə
Qəlbimin dalğasını dalğalara.



Bu qədər ayrılığa qəlbmi dözər?
Dənizin qoynuna cumdum yenidən.
İltifat eyləyərək mavi Xəzər
Donunun altına aldı məni də...

1976

## PAYIZIN SONUYDU

Payızın sonuydu, endim sahilə,
Məni göynədirdi uğursuz eşqim.
Qəmgin görməmişdim dənizi belə,
Sahildə gözümə dəymədi heç kim.

Dənizi, sahili qınamıram mən,
Sanki adamları gözləyir onlar.
Oğulu, uşağı çəkilib gedən
Ataya, anaya bənzəyir onlar.

1976

## YENİDƏN QOYNUNDA GÖRÜŞƏNƏDƏK

Ürək bir dəqiqə olmayır aram,
Unuda bilmirəm onu bir an da.
Hər gecə yuxuma haram qatıram,
Qalxıram yerimdən alatoranda.

Görüşə gedəni de, kim qorxudar? –
Qorxum yox küləkdən, qardan, yağışdan.
Arvadı, uşağı qoyub yuxuda,
Yanına qaçıram onun obaşdan.

O, mənim könlümün sevimli yarı,
Ürək sevərdimi de, hər yetəni?
Dolanır boynuma soyuq qolları,
Duzlu öpüşlərə qərq edir məni.

Bu soyuq təmasdan alovlanıram,
Bu duzlu öpüşü az deyil uman.
Özümü hamıdan xoşbəxt sanıram,
Onun ağuşunda olduğum zaman.

Gün çıxar, şəfəqlər qoynunu bəzər,
Ayrılmaq istəmir səndən heç ürək.
Hələlik, hələlik, sevimli Xəzər,
Yenidən qoynunda görüşənədək...

## GƏL

Sevinc də, kədər də itib elə bil,
Sahildə dayanan yorğun gəmiyəm.
Belə ömür sürmək yaşamaq deyil,
Dalğasız, tufansız dəniz kimiyəm.

Gəl, gətir özünlə kədəri, qəmi,
Yatmış duyğularım haray qoparsın.
Məhəbbət tufanı bir qayıq kimi
Məni ağuşuna alıb aparsın...

## PƏNCƏRƏM DƏNİZƏ BAXIR

Pəncərəm dənizə baxır,
Onu aydınca görürəm.
Mən yuxudan duran kimi
Dənizə salam verirəm.

Mavi sular gülümsəyir,
Ləpələr keçir hücuma.
Açıb dalğa qollarını
Dəniz deyir:
–Gəl qucuma!



## GƏLİRƏM, DƏNİZ, GƏLİRƏM

Gen aç dalğa qollarını,
Gəlirəm, dəniz, gəlirəm.
İçimdə bir fırtına var,
Mən səndən ötrü ölürəm.

Dalğalar diş tək ağarır,
Dəniz, gülürsən deyəsən?!
Məni balıq etmək üçün
Sən də ölürsən deyəsən...

***

Əyləşib ləpədöyəndə,
Oğlum kəsibdir səsini.
Heyran-heyran dinləyirik
Biz dənizin nəğməsini.

Ağ dalğalar elə bil ki,
Pianonun dilləridi.
Onları çalan küləyin
Görünməyən əlləridi...

## DƏNİZİN NƏBZİ

Gün çıxır, ləpələr
Qızıl don geyinir.
Dalğalar dənizin
Nəbzi tək döyünür...

## GÜNDƏN - GÜNƏ

Atam dənizdə olur
İlin bütün yayını.
Gah dalğalar qoynunda,
Gah da evdə yuyunur.
Dənizə getməyəndə,
Hövsələsi daralır.
Hey çimsə də, ağarmır,
Gündən-günə qaralır...

***

Qızıl şəfəqlər altında
Qızılı qumlar saralır.
Günün fırçası sarıdı,
Niyə dərimiz qaralır?

## DALĞA QOVUR DALĞANI

Dalğa qovur dalğanı,
Dalğa dalğaya çatmır.
Dənizdə tufan yatır,
Qəlbimdə tufan yatmır.

Sənsiz keçən gecələr
Alov dolur yerimə.
O qaçan dalğaların
Biri sənsən, biri mən...

## SAHİLDƏ DÜŞÜNCƏLƏR

Yenə sahilə doğru
Cumur, cumur dalğalar.
Sanki ləpədöyəndən
Bir şey umur dalğalar.

Bu coşqunluq hədərdi,
Bu umacaq hədərdi.
Dalğaların da ömrü
Sahillərə qədərdi...

Qulağımda səslənən
Suların harayıdır,
Gözlərim dənizdədir,
ah çəkirəm dərindən.

Dalğa sahilə çatıb,
Yenə geri qayıdır,
İnsan qayıda bilmir
Ömrün sahillərindən.



Günəş qan rəngi alır
Üfüqdə bathabatda.
Dalğalarsa güclənir
Sahilə çathaçatda...

**1969**

***

Elə bil ki, bu gün gəlib dənizin təbi,
Yazacaqdır, ürəyində hər nəyi varsa.
Dəniz daşqın, dəniz coşqun, dəniz əsəbi,
Sahillərdə sakit duran sərt qayalarsa,
Biganədir onu duz tək yalayan suya, –
Qaya ki, qaya...

Dəniz coşur, dəniz əsir həyəcanından,
Dəniz ləpə çiçəklərdən çələng toxuyur.
Yorulmadan qayaların ötür yanından,
Necə həzin, necə gözəl nəğmə oxuyur,
Qayalarsa elə bil ki, gedib yuxuya,
Qaya ki, qaya...

***

Əsəblərim gərilmişdi, endim sahilə,
Mənim kimi əsəbiydi bu gün dəniz də.
Dalğalar hey qaçışırdı belədən-belə,
Küləklər at oynadırdı bu gün dənizdə.

Belə coşub hay salmağın söylə, yerimi? –
Hardan aldın de, bir belə qəzəbi, dəniz?
Bircə anda sakit etdi əsəblərimi
Əsəbi dəniz...

**1969**

## MƏN BİR BALIQ İDİM

Arabir dənizin sahilinə çıx,
Balıqqulağıyla sahil dolubdur.
Mən balıq olmuşam, adi bir balıq,
Həyatım əzəldən dəniz olubdur.

Mənim ən müqəddəs arzularım da
Dənizdə alışıb, sahildə sönüb.
Yadımdan çıxarmı, könül tarımda
Hər ləpə bir titrək mizraba dönüb.

Dayazı sevmədim, üzdüm dərində,
Şirin xatirələr könül oxşayır.
İşıqlı dünyadan köçənlərin də
İşıqlı dünyada ruhu yaşayır.

Qırılıb simləri könül tarımın,
Vətən həsrətini duyub getmişəm.
Dənizdən gedəndə qulaqlarımı
Dəniz sahilində qoyub getmişəm.

O dadlı nəğməyə həsrətəm axı?! –
Ləpələr oxusun qoy xısın-xısın.
Balıq həsrətdirsə, balıqqulağı
Dəniz nəğməsinə həsrət qalmasın.

***

Nəğmələrin hər çaları
ürəkləri oda salır,
Nəğmələrin xoş ahəngi
ruhumuza nur səpələr.
Mən sahildə dayanmışam,
dəniz sanki kaman çalır,
Ləpədöyən kamanıdır,
kəmanəsi ağ ləpələr...



## SƏN ÇIXDIN DƏNİZDƏN

Sən girdin dənizə, coşdu sular da,
Gözlərim yanınca bələdçi gəldi.
Sən çıxdın dənizdən, dönəsən deyə
Dalğalar dalınca minnətçi gəldi.

## SU PƏRİSİ

Dəniz sahilində
kövrəldim,
Hönkur-hönkür
ağlamaq istədim.
Üstümə atılan
su pərisini tutub,
yanımda saxlamaq istədim.
Ancaq çırpınıb çıxdı
qollarımın arasından,
dalğaya dönüb,
qayıtdı dənizə.
Qəlbimdə təzə bir sevda
oyatdı dənizə.
Üzümdə bir əsim nəfəsi,
qulağımda gileyli
sözü qaldı.
Dodağımda
öpüşünün duzu qaldı. –
Nədənsə tanış gəldi mənə
bu dad.
Su pərisi məni ovsunlayıb,
ürəyimi də özüylə apardı,
ay dadi-bidad...

**24.02.2000**

# YAXŞI Kİ, DÜNYANIN SEVƏNLƏRİ VAR

## MƏNİM SEVDİYİM VƏ MƏNİ SEVƏN BÜTÜN QIZLARA

Qəlbimdə nur olar xoş ülfətiniz,
Sevin, xoşbəxt olun, qızlar, həmişə.
Sizin pak, müqəddəs məhəbbətiniz
Qoymaz ki, ilhamım ovxardan düşə.

Sevgiylə baxsanız, quru yamaclar
Gül açar, sevinər gülü, laləsi.
Gözümə dəyəndə şəlalə saçlar
Qəlbimdə çağlayar nur şəlaləsi.

Bir ocaq qalayın, közləri bizdən,
Hələ ürəyimdə min arzu qalıb.
Gözlərim nur alır gözlərinizdən,
Əlim saçınıza tamarzı qalıb.

Sönmüş ocağımı alışdıranda
Alovlu baxışlar bəxtə vər olub.
Siz məni sevgiylə danışdıranda
Ürəyim sevinib, bəxtəvər olub.

Qərib məhəbbətlər sığıb qəlbimə,
Gülməyin gözümdə bərq vuran şehə.
Sevgi yağışları yağıb qəlbimə,
Taleyim çevrilib qövsi-qüzehə.

Gecikmiş sevginin qədəmi nizə, –
Yenə at oynadır köksümdə mənim.
Səpdim inci kimi qədəminizə,
Yaş da qoymadınız gözümdə mənim.



Həsrət alovuyla ürəyim sızlar,
Nələr çəkdiyimi göz yaşı bilməz.
Elə gözəlsiniz, vallah, a qızlar,
Sizin qədrinizi hər naşı bilməz.

Qəlbi pərvanədi bir nurlu üzə,
Həmişə oynayır şair köz ilə.
Ancaq bədbəxtsiniz, siz özünüzə
Baxa bilmirsiniz şair gözüylə...

1999

***

***"Sizi sevən də, sevməyən də bədbəxtdi..."***
***Bir qızın sözlərindən***

Sizə rast gələndən dincliyim itib,
Sirdaşım olubdur yağışlar mənim.
Yolumun üstündə tikanlar bitib,
Yaxır kinayəli baxışlar məni.

Şam tək əriyirəm hey için-için,
Kükrəyir qəlbimdə nifrət dənizi.
Qəlbimi odlara qalamaq üçün
Tale ürcahıma çıxarıb Sizi.

Sevda yollarında mən naşı oldum,
Büründü dumana, çənə bu sevgi.
Sevdim, mükafatım göz yaşı oldu,
Səadət vermədi mənə bu sevgi.

Canımda sehrli bir alov gəzir,
Çiçəyə vuruldum, quşa vuruldum.
Dənizi görəndə ürəyim əsir,
Gözümdən çağlayan yaşa vuruldum.

Yolumun üstündə at çapır külək,
Titrəyən ürəyim payız nanəsi.
Sənin həsrətinlə döyünən ürək
Çevrilib olubdur qəm viranəsi.

Şairi sevənlər, sözü sevənlər
Gülüb öyünməsin öz bəxti ilə.
Yazıqdı, bədbəxtdi Sizi sevənlər,
Sizi sevməyən də bədbəxtdi elə...

1998

## BƏLKƏ

Bəlkə əbəs imiş zillət çəkdiyim,
Bəlkə özgə üçün gözlərin dolub?
Bəlkə ürəyində mənim əkdiyim
O sirli, sehrli çiçəklər solub?

Sevdalı qəlbinin nədir istəyi? –
Axı məhəbbətin olmaz şəriki?!
Bəlkə yanağına yad nəfəs dəyib,
Bəlkə ürəyindən sevda perikib?

Bəlkə də düşmüsən dəmir qəfəsə,
Bəlkə də həyatın zülmətə dönüb.
Bəlkə də dözməyib o yad nəfəsə
Sevdalı qəlbində yanan şam sönüb?

Bəlkə deyilənlər yalandır, yalan,
Eşqini hər şeydən uca tutmusan?!
Bəlkə gözlərinin rəngini alan
Mavi dənizi də sən unutmusan?

Dikilib yollara qəmli gözlərin,
Ürəyin can atır Xəzərə bəlkə?
Qəlbində uyuyan həsrət közləri
Mənim nəfəsimlə közərə bəlkə?

Niyə yolumuzu ayırdı fələk?
Kim şərik olacaq həyəcanıma?
Hər gün qara-qara qarışqalar tək
Bəlkələr darışır şirin canıma...

1998



## MƏNİ LAYİQ ELƏ BU EŞQƏ, TANRIM

***"Harda olursan ol, kiminlə olursan ol, həmişə mənimləsən."***

***Bir məktubdan***

Bir zaman başına dünya dar olub,
Dalıb xəyallara əlində qələm.
O, məni sevəndən bəxtiyar olub,
Gözündə dəyişib bu dünya, aləm.

Qəlbimdə bir ağır həsrət yükü var,
Köksümdə inləyən neyimi sevib?
Bəlkə də üzümdə şeytan tükü var,
Bilmirəm o mənim nəyimi sevib?

Elə vurulub ki, çətin unuda,
Gizli bir sevdayla yanır bu gözəl.
İlan gözündəki parıltını da
Bəxtinin ulduzu sanır bu gözəl.

Dərdini danışır aya, günəşə,
Eşqiylə xəyali bir ocaq çatır.
Köksümə can atan körpə bənövşə
Bilmir ki, qəlbimdə boranlar yatır?

Təzə bir mahnıya həsrətdir tarım,
Sevdalı nəğmələr çalmaqdır peşəm.
Məni layiq elə bu eşqə, Tanrım,
Qoyma ki, o qızın gözündən düşəm.

Qoy gəlsin yanıma desə ürəyi,
İlan tək qıvrılsın hörük sinəmdə.
Kim bilir, bəlkə də kösöv ürəyin
Ocaq taleyi var körük sinəmdə?

1998

## SƏNƏ KİM DEDİ Kİ, SEVGİ GÜNAHDI

Zərif duyğularım üsyana qalxdı,
Həqiqət ucuzmuş, yalanlar baha.
Sənə kim dedi ki, sevgi günahdı? –
Qəlbimə toxunub batma günaha.

Eşidə bilmədin könül səsimi,
Niyə qara gördün sən üzü ağı?
Təzə qönçə tutan zərif hissimi
Açmağa qoymadı hikkə sazağın.

Könlün istəyirsə, harayla, gəlim,
Ətirli çəmənlər olsun döşəyim.
Yersiz tələblərin qoymur ki, gülüm,
Sevginin önündə hər gün baş əyim.

Çək-çevir etməyi xoşlamıram mən,
Sözümü deyirəm üç nöqtə ilə.
Qəlbində azadlıq eşqi kükrəyən
Yaşaya bilərmi heç diqtə ilə?

Atalar cücəni payızda saydı,
Könlün istəyəni özün ara, seç.
Qəlbin qəliblərə sığan olsaydı,
Sən mənə qəlbini verərdinmi heç?

Dəli sevdalardan çətin ki, doyum,
Eşqim bir obaya, ölkəyə sığmaz.
Heç özünü yorma, onsuz da boyum
Sənin xoşladığın ülgüyə sığmaz.

Zərif duyğularım üsyana qalxdı,
Həqiqət ucuzmuş, yalanlar baha.
Sənə kim dedi ki, sevgi günahdı? –
Qəlbimə toxunub batma günaha...



## MƏN BELƏ DEYİLƏM, MƏNİ BAĞIŞLA

Məni qısqanırsan yamanca, gülüm,
Saçına saldığım dəni bağışla.
Deyirsən ki, adam birini sevər,
Mən belə deyiləm, məni bağışla.

Gecələr başımın üstündə yanan
Ulduzu sevirəm, ayı sevirəm.
Kür, Araz çağlayır damarlarımda,
Dənizi sevirəm, çayı sevirəm.

Əllərim titrəyir güllərdən ötrü,
Qəlbimə sığışmır arzum, diləyim.
Nərgizi, Laləni, Bənövşəni də
Dəli bir sevdayla sevir ürəyim.

Qışı da sevirəm, isti yayı da,
Payızı sevəndə, bahar incimir.
Qoşqarı sevirəm, qısqanmır Kəpəz,
Kəpəzi sevirəm, Qoşqar incimir.

Eh, mən də beləyəm, qınama məni,
Sevirəm qəlbimi saran qəmi də.
Bəndədən nə gizlin, Allah bilirsə, –
Səni də sevirəm, rəfiqəni də.

Köksümə sevdalı bir ürək düşüb,
Hərəyə taledən qismətdi bir pay.
Bu meşə, bu dəniz tək mənim deyil,
Gülüm, hamınındı bu dəniz, bu çay.

Qəlbimin başında cücərən, bitən
Sevdaya mən qənim ola bilmərəm.
Hər şey təkcə mənim deyil, bilirsən,
Mən də təkcə sənin ola bilmərəm...

**1998**

## GÜLÜM, MƏHƏBBƏTLƏ ZARAFAT OLMAZ

Asanmı sanırdın mehri, ülfəti? –
Heç vaxt incimirdin sözümdən mənim.
Əyləncə bilirdin sən məhəbbəti? –
Qorxmadan öpürdün üzümdən mənim.

Hisslərin əlində oldun əsir sən,
Körpə bir məhəbbət düşdü sazağa.
İndi titrəyirsən, indi əsirsən,
Qaçmaq istəyirsən məndən uzağa.

Geriyə yol varmı ancaq sevgidə? –
Ürəyim titrəyir, yol çəkir gözüm.
Alın yazısıdı elə sevgi də,
Qaçmaq mümkün deyil ondan, əzizim!

Mənə nifrətlə də baxa bilərsən,
Ancaq bilirəm ki, qəlbi yuxasan.
Sən mənim sözümdən çıxa bilərsən,
Qəlbinin sözündən çətin çıxasan.

Gözündən ovcuma bir damla düşdü,
Sevda yollarında şair mat olmaz.
Sevgi ömür kimi ciddi bir işdi,
Gülüm, məhəbbətlə zarafat olmaz...

**07.03.2000**

## KÜSKÜN BƏNÖVŞƏM

***Zəng edib məni yubileyim münasibəti ilə təbrik edən, ancaq adını deməyən bir qıza.***

Soruşdum: – Kimdi ki, mənə zəng edən?
Dedin: – Sizi sevən adi oxucu.
Nədənsə adını söyləmədin sən,
Nisgilli sözlərin oldu ox ucu.



Artdı ürəyimdə yazmaq həvəsi,
Şairi sevgiylə dindirdin, gülüm.
Axdı varlığıma mehriban səsin,
Məni bəxtəvərə döndərdin, gülüm.

O səs necə doğma, necə tanışdı...
Hardasan, hardasan, küskün bənövşəm?
O səsdən od alıb qəlbim alışdı,
O səsçün nə qədər qəribsəmişəm?!

Közərdi könlümdə dəli bir istək,
Bilmirəm heç necə unudum səni?
Son sözü söylədin, asıldı dəstək,
Əlvida deyəndə tanıdım səni.

Qopdu ürəyimdən yanıqlı bir ah,
Gəlmişəm imana, dinə bu axşam.
O qızın qəlbinə insaf sal, Allah,
Bir də zəng eləsin mənə bu axşam...

**31.01.2000**

***

Haqqım yox kimsədən küsəm, inciyəm,
Neçə yetim sevda sızlar içimdə.
Dedin: – Düz söyləyin, mən neçənciyəm
Sizin sevdiyiniz qızlar içində?

Bilmirəm nə deyim, tükənib sözüm,
Gözümü bağlayan çən olacaqsan.
Birinci deyilsən, ancaq, əzizim,
Deyəsən sonuncu sən olacaqsan...

**24.02.2000**

***

–Məhəbbətlə dolu ürəyinizi
Qəlbimin simsarı bilmişəm, – dedin.
İçimdə kükrəyir sevgi dənizi,
Sizi görmək üçün gəlmişəm, – dedin.

Yarpağa döndərdi sözün xəzəli,
Etiraf etməsəm, xəyanət olar.
Məni görmək üçün gələn gözəlin
Gözündən öpməsəm qəbahət olar...

**07.03.2000**

## DEDİN SADİQ OLUR DOSTLUĞA QIZLAR

*Aynurə üçün*

Dedim: –Tənhalıqdan ürəyim sızlar. –
Titrək əllərimə uzandı əlin.
Dedin: –Sadiq olur dostluğa qızlar,
Bu fani dünyada dost olaq gəlin.

–Rahatlıq tapmadım mən bu həyatda,
Sənin də dincliyin itə, qorxuram.
Gülüm, aramızda olan dostluğun,
Sonu "Vağzalı"yla bitə, qorxuram...

**08.03.2000**

## MƏNİM QANADLI ÇİÇƏYİM

Mənim qanadlı çiçəyim,
Uçub gəldin otağıma.
Dodaqların kəpənək tək
Qondu mənim dodağıma.

Şeytan gözlərin könlümün
Sehrli açarı idi.
Dodaqların gül ləçəyi,
Ürəyim ac arı idi.

Uçum-uçum uçunurdu,
Qəlbim də qanadlı idi.
Sənin ləçək dodaqların
Bilirsən nə dadlı idi?



Taleyim üzümə güldü,
Daddım bu eşqin barından.
Beçə balı hazırladım
Öpüşünün nübarından...

## AĞ AT

Mənə ağ at düzəltmisən,
Hədiyyə almaq nə xoşdu?
Sevdalı gözü yol çəkir,
Ağ atın yəhəri boşdu.

Niyə rəngin avazıyıb,
Damarında qanın ollam.
Ağ atın belinə qalxıb,
Ağ atlı oğlanın ollam...

**14.02.2000**

## İLXIÇI OĞLU

- Atam atı çox sevirdi...
-Atanız ilxıçı idi? –
Güldüm sənin sözlərinə,
Baxışların qayçı idi.

Dedim ki, ovçuya dönsəm,
Şikarım sən olmalısan.
Mən ilxıçı oğlu olsam,
Nigarım sən olmalısan...

***

Zamanın qara saçıma
Saldığı ağ vər çoxalır.
Qorxuram ki, arzularım
Nə vaxtsa, dönə xəzələ.
Gülüb dedin: –Gündən-günə
Sizi sevənlər çoxalır...
-Bir yazıq şair neyləsin
Axı bu qədr gözələ?

**14.02.2000**

## ETİRAF

### Könül üçün

Gözlərindəki həsrəti
Elə bilmə duymamışam.
Zərif qəlbə xal salmağa
Çəkinmişəm, qıymamışam.

Nə gizlədim, ürəyimi
Bir gizlicə həsrət yeyib.
İlham pərim həyatını
Bu gözələ həsr et, – deyib.

Xəyalən kəpənək olub,
Uçub qonsam da yaxana,
Qorxmuşam ki, sevgi gəmim
Sualtı daşa toxuna.

Bu vaxtadək bir kimsənin
Hisslərinə gülməmişəm.
Ancaq ki, məni bir belə
Sevməyini bilməmişəm.

Vüsalına can atsam da,
Nəsibimiz hicran olub.
Qəlbimin dərin qatında
Sənin də öz hücrən olub...

**26.03.2000**

## PULLU YERDƏ İŞƏ GİRDİYİM ÜÇÜN MƏNİ QINAYAN GÖZƏLƏ

Kimsəyə atından düş deməmişəm,
Dözmüşəm həyatın soyuğuna da.
Bil ki, ömrüm boyu kiş deməmişəm
Hələ bir qonşunun toyuğuna da.



O boş eyhamları duyar fərsiz də,
Sataşma, ürəyim kövrəkdi, yavrum.
Pulsuz da yaşamaq olar, ərsiz də –
Mənə pul, sənə ər gərəkdi, yavrum.

Sevsəydin, qəlbində sökülərdi dan,
Məhəbbət ürəyi bəzəyir, gülüm.
Mənim "pul" sevdamla, sənin "ər" sevdan
Elə bir-birinə bənzəyir, gülüm...

**1997**

***

Qalmamışam bu dünyadan tamarzı,
Hər nemәti şəkər olub, bal olub.
Taleyimdən necə qalım narazı? –
Neçə cığır qabağımda yol olub.

Dostum vardı, sanardım ki, qalamdı,
Ürəyimdə nisgil qalam-qalamdı.
Aylar keçdi, illər ötdü, dolandı, –
Məsləksizə könül verib, qul olub.

Xosunlaşdı mələk donlu ilanlar,
Sünbülləri alaf kimi yolanlar...
Aman Allah, ayaq tutdu yalanlar, –
Həqiqətin doğanağı pul olub...

**8 avqust 1997**

## EŞQ ŞİMŞƏYİ VURAN AĞAC

Bir ılıq nəfəsə təşnəyəm, acam,
Göz dağı olmuşam bir şux gəlinə.
Mən eşq ildırımı vuran ağacam,
Quruyub dönmüşəm qəm heykəlinə.

Necə yola verdin mənsiz ayları?
Könlü qırılmışa könül bağlama.
Dibimə gözündən sevgi çayları
Axsa da bitmərəm, daha ağlama...

## DƏNİZDƏN UTANAN GÖZƏL

*"Dənizə baxmaq istəyirəm, ancaq ondan utanıram. Ona görə ki, məni Sizinlə qoşa görüb, sirrimi bilir dəniz."*

Taleyin payına deyiləm asi,
Ömrümdə qəribə bir oyun olub.
Qəlbimdə kükrəyən nifrət dalğası
Sevgi sevinciylə qolboyun olub.

Yanğımı söndürməz buz kimi su da,
Gizli bir sevdayla hey yanıram mən.
İçimdə dalğalar haray salsa da,
Dənizə baxmağa utanıram mən...

***

Ürəyim bu işdə çox naşı imiş,
Kədər sevənlərin sirdaşı imiş.
Mən elə bilirdim sevgi sevincdi,
Sən demə məhəbbət göz yaşı imiş...

## BU GÖZƏL MƏNDƏN PAY UMSA

Onu görcək həsrətimin
Çiçəkləri qönçələyib.
Bu gözəlin gözlərində
Qərib sevgi gecələyib

Nəfəsiylə məst eləyib
Yar dəlisov küləkləri.
Qəlbimin xəritəsidi
Bu gözəlin bəbəkləri.

Bu gözəldən gözünü çək,
Bu gözəl mənim payımsa.
Ürəyimi verməliyəm
Bu gözəl məndən pay umsa...



## TUFAN QORXUSU

Kənd yolları qəribsəyib yamanca,
Həsrət gözüm inci səpir yamaca.
Ayağımı tənha cığırlar öpür,
Yollarıma göylər göz yaşı səpir.
Körpə quşlar yuxusundan oyanır,
Hər yamacdan bir xatirə boylanır.
Gözlərimdə həsrət odu çağlayır,
Ürəyimdə xatirələr ağlayır.
Buludlardan gəlir tufan qoxusu,
İslanmışın yağışdan nə qorxusu?...

***

Sən dəniz istəyirdin
Mən səni dağa apardım.
Qəlbimizdə dalğalar
haray qopardı.
Başını sinəmə söykəyib,
ağladın acı-acı.
Qəlbində sellər çağlayanın
Dənizə nə ehtiyacı?

***

Əyləşmişdik
bir cüt ağacın dibində.
Qəlbimizdə
sellər-sular çağlayırdı.
Başımızın üstündə
bir cüt ağac ağlayırdı.
Ovuda bilmirdi özünü,
ağac da sən gündə idi.
Üstümüzə ələnən yarpaqlar
həsrətimin rəngində idi...

## BÜLLUR GÜLDAN

Ürəyim –
Bir gözəlin əlindəki
büllur güldana bənzəyir.
İçini sevdalı çiçəklər
bəzəyir.
Məhəbbətlə baxanda
o çiçəklər ətir saçır.
Bir gözəl
ürəyimi sinəsinə sıxıb
qaçır, qaçır…
Ürəyim –
Bir sehrli gül qabı kimi
təzə-təzə çiçəklərlə
dolacaq.
Ancaq nə vaxtsa,
bir gözəlin əlindən düşüb,
çilik-çilik olacaq,
yerə səpiləcək
yaralı sevda çiçəkləri…

## SÖZ ÇƏMƏNİ

Yazılı vərəqlər
söz çəmənidi elə bil.
Ürək ləzzət çəkir
Sözlə göz öpüşəndə.
Söz çiçək kimi açılır,
ətir saçır
yerinə düşəndə…



## ADI NUR, ÖZÜ NUR OLAN GÖZƏLƏ

İçimdə qaynadı gənclik həvəsi,
Məni zirvələrə qaldırdın bu gün.
Axdı ürəyimə səsin, nəfəsin,
Qəlbimi nur ilə doldurdun bu gün.

Məni məftun etdi söhbətin, sözün,
Elə bil təzədən gördüm səni mən.
Bahar buludu tək dolmuşdu gözün,
Öpdüm saçlarına düşən dəni mən.

Sevdalı ürəyin gör nələr çəkib? –
Dadmısan nə qədər dərdi, zilləti.
Qara gözlərini gözümə dikib,
Əritdin qəlbimdən qara zülməti.

Axır ürəyinə odlu göz yaşı,
Gözümdə şimşəklər çaxır, əzizim.
Dedin: qara rəngdən gəlməyir xoşun,
Rəngin nə günahı, axı, əzizim?!

Qəlbinin başında dərd qoşun-qoşun,
Onu yumaq olmaz qarla, yağışla.
Əgər qara rəngdən gəlmirsə xoşun,
Qara xallarını mənə bağışla.

Sevgi yarpaqları dönməz xəzələ
Kimin ki qəlbində həyat eşqi var.
Adı nur, qəlbi nur olan gözələ
Neyləyə biləcək qara buludlar?

Hərdən bir bizi də salarsan yada,
Qoru, saf, müqəddəs hissləri qoru.
Heç nə istəməzdim qoca dünyadan
Düşsə taleyinə adımın nuru…

**1988**

## PİS GÜL

Sarı gülü göstərib,
Dedin mənə: – Pis güldü.
Saralmış düzə baxdım,
Ürək güldü, göz güldü.

Bir xoş nəfəsə bənddi,
Kül altında köz durur.
Gözəlliyə baxanda
Həyəcandan göz dolur.

Saralmış ləçəklərdə
Həsrət dolu nisgil var.
Gülüm, insafın olsun,
Heç dünyada pis gül var?!

1998

## PAYIZ OTU

Payız otu, yaşıllığın
Gözlərimə xoş gəlir ha!
Dəli könlümlə oynama,
Bahar eşqi daş dəlir ha!

Söndürərmi payız odu?
Ömrün üzü payızadı.
Payız otu, payız otu,
Xumar gözdən yaş gəlir ha!

Bahar libası geyinmə,
Soyuq düşəndə deyinmə,
Yaşıllığınla öyünmə,
Öndən qarlı qış gəlir ha!...



## RUHUM, BƏDƏNİM

"Heyif o ruha ki, bu bədəndədi" –
Sözlərin qəlbimə sancılan bir ox.
Etiraf elədin sən bunu bir gün:
Ruhumu sevirsən, bədənimi yox.

Mənim qələmimdən çıxan göz yaşı
Çevrilib kağızda dürrə, inciyə.
Ürəyim nə qədər zillət çəksə də,
Qoymayıb ruhumun ruhu inciyə.

Qəlbimdən boylanan işıq eşqinə
Pərvanə özünü odlara yaxıb.
Sevdalar ruhuma gəl-gəl deyəndə
Dəli bəbəyimdə şimşəklər çaxıb.

Nankor övladları üz döndərəndə
Heç nə söyləməyib, bu vətən dözüb.
O ruhun bu qələr şıltaqlığına
Kimsə dözəmməzdi, bu bədən dözüb.

Mənim məhəbbətlə vuran qəlbimin
İçindən nə qədər sevda keçibdir.
Bu bədən o ruha elçi düşməyib,
O ruh bu bədəni özü seçibdir...

1998

## MƏNƏ GÜL GƏTİRƏN GÖZƏL

Olmamışam, otağıma
Sən üç gül qoyub getmisən.
Ürəyim riqqətə gəlib,
Məni bəxtəvər etmisən.

Güllər yaralı könlümə
Sığal çəkir mələk kimi.
Güllər güldandan boylanır
Sevdalı bir ürək kimi.

Sənin tək bir qız tapmışam,
Taleyim üzümə gülüb.
O gülləri hey öpürəm
Sevdalı gözlərin bilib.

Mənə gül gətirən gözəl,
Sevgi haqdı, yalan deyil.
O güllər gözümdə bitib,
Daha heç vaxt solan deyil...

## SƏN MƏNİ TANISAN

*"Əvvələr Sizi bir o qədər də tanımırdım. Ona görə də sərbəst halda söhbət edirdim. Son vaxtlar isə Sizi daha yaxından tanımağa başlamışam. Onun üçün də söhbət edə bilmirəm. Yəni ürəyim sözlə dolu olduğu halda, nitqim tutulur. Yəqin ki, indən belə Sizinlə söhbət etmək mənim üçün daha çətin olacaq".*

***Bir məktubdan***

Eh, mən də beləyəm, qınama məni,
Sən Allah, yaxından tanıma məni!

Sən məni tanısan, dincliyin itər,
Dənizi sevərsən, çayı sevərsən.
Gecələr sübhədək nağıl danışan
Ulduzu sevərsən, ayı sevərsən.

Sən məni tanısan, bəbəklərindən
Sevdalı qəlbimə inci səpərsən.
Sən məni tanısan, gedib çəmənə
Çiçəyin gözündə şehi öpərsən.

Sən məni tanısan, bədbəxt olarsan,
Başından tüstülər, dumanlar qalxar.
Sən məni tanısan, şəhla gözündən
Bərgüşad süzülər, Həkəri axar.



Sən məni tanısan, dincliyin itər,
Ruhlar ulu yurda çağırar səni.
Sən məni tanısan, ürəyimdəki
Şeytanlar yolundan çıxarar səni.

Gözləri oyulmuş mərd qardaş kimi
Gözünə sürtərsən qanadlarımı.
Səni tərk eləyib getməyim deyə
Eşqinlə ütərsən qanadlarımı.

Sən məni tanısan, gecələr gəlib,
Pəncərəm önündə bir ay olarsan.
Sən məni tanısan, dilə düşərsən,
El-aləm içində rüsvay olarsan.

Sən məni tanısan sevən qəlbimin
Nələr çəkdiyini bilərsən, gülüm.
Sən məni tanısan, səadətindən
Ürəyin partlayar, ölərsən, gülüm.

Neyləyim, beləyəm, qınama məni,
Sən Allah, yaxından tanıma məni!

**1998**

## ƏLLİ BİRİNCİ ULDUZ

Qoşa gəzdik, sevindi bu birliyə göylər də,
Məhəbbətlə vuranda ürək göyərçin olur.
Söylədin ki, qəlbində niyyət tutub, göylərdə
Əlli ulduz sayanın arzuları çin olur.

Ciyərlərim məst oldu saçının qoxusundan,
Ulduzları saydıqca özümüz də nur saçdıq.
Biz ulduz düymələri gecənin yaxasından
Həsrətlə parıldayan gözlərimizlə açdıq.

Bilmədim ki, nə edim sənin üçün hədiyyə,
Qəlbimi ulduz edib başının üstdən asdım.
Mən əlli ulduz saydım arzum çin olsun deyə,
Əlli birinci ulduz dodaqlarımı qarsdı.

Ulduz kimi bərq vurub gözümün qarasında
Təbəssümün zülməti doğrayırdı, kəsirdi.
Əlli birinci ulduz qollarım arasında
Bir qızıl balıq kimi həyəcandan əsirdi...

***

*"Dünya mənə dedi ki, Gözəl, Rafiq müəllimi ki bu qədər sevirik, görəsən o bizim nəyimizdi: atamız, yoxsa sevgilimiz?"*

Sevir təbiəti, sevir dənizi,
Odur başa salan sevgini bizə.
Bir az atamıza bənzəyir bizim,
Bir az da bənzəyir sevgilimizə.

Başımız üstündə ay kimi gəzir,
Ömrümüz, günümüz işıqlı olur.
Onu görən kimi qəlbimiz əsir,
Küskün ürəyimiz işıqla dolur.

Baxır adamlara məhəbbət ilə,
Elə bil üzündə haqqın nuru var.
Dünyanın ən alçaq adamı belə
Onun gözlərinə baxsa, durular.

Ürəyi genişdi, qəlbi təmizdi,
Ah, onu sevənlər nə bəxtiyardı!
Bizimçün nə qədər doğma, əzizdi,
Heyf, nə atadı, nə də ki yardı...

1998

## MƏHƏBBƏT DÖYÜR QAPIMI

Məhəbbət döyür qapımı,
Bilmirəm açım, açmayım?
Sevgi mənə qanad verib,
Neyləyim, uçum, uçmayım?



Bu məhəbbət ürəyimə
Şirin əzab gətirəcək.
Bu sevginin ocağından
Kirpiyin od götürəcək.

Sakitliyim, rahatlığım
Cəhənnəmə itiləcək.
Pərvanə tək eşq oduna
Qanadlarım ütüləcək.

Mənim titrəyən əllərim
Sənin üçün gül dərəcək.
Bu gecikmiş məhəbbətim
Eli mənə güldürəcək.

## EH, SƏN BELƏSƏNSƏ...

Sevirsən, qəlbindən dincliyin itib,
Sanki darlıq edir göy ulduzlara.
Könlündə məhəbbət toxumu bitib,
Meydan oxuyursan bütün qızlara.

Gözündən qoymursan məni bir an da,
Qəlbinə qısqanclıq buludu çöküb.
Eh, sən beləsənsə, əzizim, onda
Ömür-gün yoldaşım gör nələr çəkir?...

## MƏNDƏN SEVGİ UMAN GÖZƏLLƏRƏ

Bilirəm ki, dünyada çoxunuza gərəyəm.
Mən ümidlə baxsam da, gələcəyə, sabaha,
O qədər əkilib ki, şumlanıb ki, ürəyim,
Sevda toxumlarını cücərdə bilmir daha.

Sözə baxmasa əgər, yaxın gəlib ərk ilə,
Nadinc uşaqlar kimi siz məni küncə qoyun.
Hisslərimin arısı qona bilmir hər gülə,
Bir az səbriniz olsun, qəlbimi dincə qoyun...

## DƏLİ KÖNLÜM AĞILLANIB

Çəkdiyim arxlar dağılıb,
Əkdiyim ağac quruyub.
Dəli könlüm ağıllanıb,
Gözlərimdə yaş quruyub
Yaşamağa dəyərmi heç
Sevdalardan baş qoruyub?!

## QƏLBİ YARALI BÜLBÜLÜM

–Qəlbi yaralı bülbülüm,
Məhəbbətlə dinərsənmi?
Mənim sevdalı könlümün
Gülzarına enərsənmi?

Dadmasan da nübarımı,
Tuta bildin damarımı.
Əzizim, ilham arımın
Çiçəyinə dönərsənmi?

Qəlb uduzar yaşa baxsa,
Sevmək – xoşbəxt yaşamaqsa,
Köksünə göz yaşı axsa,
Öləziyib sönərsənmi?

–Dənizdən günəş boylanır, –
Mat qalmışam: eşq odumu?
Gözündən sellər axsa da,
Söndürəmməz eşq odumu...

## MƏN ŞEİR OXUYANDA

Qara gözlərini görüb,
Misralarım baş apardı.
Mən şeirimi oxuduqca
Gözlərini yaş apardı.



Sözüm sənə çatdı, gülüm?
Ürəyim çat-çatdı, gülüm.
Səni şeirim ağlatmadı,
Səni dərd ağlatdı, gülüm...

1998

***

Qəlbimizdən keçənləri
duya bilməz qəlbi buzlar,
Məhəbbət tale payıdı,
gərək qəlbə göydən düşə.
Hərəniz bir çiçəksiniz,
sizə minnətdaram, qızlar,
Mənim könül tellərimi
qoymursunuz kökdən düşə...

***

Damarımda axan qandı,
Gözlərimdə nurdu sevgi.
Sevda dolu ürəyimdə
Gəlib yuva qurdu sevgi.

Səni sevmirlər, neyləyim,
Ay bostanıma daş atan?
Ruhum sevdayla yoğrulub,
Sevgidir məni yaşadan...

***

–Məni sevirsənmi, söylə, əzizim? –
Soruşdum bir qızdan zarafatla mən.
Dedi: –Çox sevirəm, hətta çox sözü
Kiçikdir bu eşqin böyüklüyündən...

## RƏQS

Həsrət gözlərində yaş çiçək-çiçək,
Mələk qanadına döndü əllərin.
Yuvası dağılan yaralı quş tək
Uçub əllərimə qondu əllərin.

Ürəyim titrədi, tutuldu dilim,
Daha nə təmənnam ulu varlıqdan?
Əllərin nə yaman titrəyir, gülüm,
Əllərim məst olub bəxtiyarlıqdan.

Bu dəli sevdadan demə ki, əl çək,
Onsuz da dünyanın axırı puçdu.
Qanadım qırıldı rəqs qurtaran tək,
Əllərin çırpınıb əlimdən uçdu...

## MƏNİMLƏ RƏQS EDƏN GÖZƏL

Əlimdən tutub apardın,
Əlin əsdi nədən, gözəl?
Sevdalı könlün qabardı,
Arzusuna yetən gözəl.

Halımı soruşdu dilin,
Üzümə toxundu telin,
Əllərimə incə belin
Dönüb oldu vətən, gözəl.

Alışarmı sönən ocaq?
Saçlarımın qarına bax.
Heyf, mənim olmayacaq
Bu qamət, bu bədən, gözəl.

Əllərin əlimə yetdi,
Qəlbin bülbül kimi ötdü,
Nişanlın bilsə, iş bitdi,
Mənimlə rəqs edən gözəl...



## MƏNDƏN ŞEİR UMAN QIZLAR

Qəlbimdə sevgi perikib,
Halım olub yaman, qızlar.
Necə eşq nəğməsi çalsın
Simi qırıq kaman, qızlar?

Qızınan yoxdu istimə,
Boğuluram öz tüstümə.
Yenə də çöküb üstümə
Bir dilbilməz duman, qızlar.

Üzə düşüb kölgə yenə,
Çəkin məni bərkə yenə,
Sevə bildim bəlkə yenə,
Məndən şeir uman qızlar.

Üzümə sevgiylə baxın,
Şimşəyə çevrilib çaxın,
Qəlbimi odlara yaxın,
Sizə qalıb güman, qızlar.

## ÇİÇƏKLƏYİR

Sevəndə üz çiçəkləyir,
Ocaqda köz çiçəkləyir.
Qələm kağızla öpüşür,
Yerində söz çiçəkləyir.

## SƏNİN ALDIĞIN QƏLƏM

***Kəmalə üçün***

Mənə qələm alan qız,
Canımı da alsana!
Titrək baxışlarınla
Ruhuma od salsana.

Sən verdiyin qələmi
Qoymaram qələmdana.
Ürəyimin sözünü
Qorxuram qələm dana.

Xəyallara dalmışam,
Gözümdən yuxu qaçıb.
Sənin verdiyin qələm
Əlimdə çiçək açıb.

Tanrı xoşbəxt eləsin
Arzusuna çatanı.
Sənə gizli sözüm var,
Qələm yazmır, utanır.

Sehrdi, möcüzədi,
Bu adi qələm deyil.
Əllərimdə titrəyən
Barmağındı elə bil...

## DURNALAR İŞIĞA UÇUR

Gözəllər –
Canımı üzərlər,
Ömrümü, günümü
Bəzərlər...
Gözəllər – hərəsi bir çiçək,
Yüz ətir hopubdur canıma.
Qatara düzülüb durna tək
Sevinclə uçurlar yanıma.
Mənə də səadət yar olub,
Səni də sevənlər var axı?
Durnalar saldığı ləleklə
Yazılıb qəlbimin varağı.
Deyəsən onlara çatıbdır
Şeirimin, sözümün sorağı. –
Durnalar işığa uçurlar,
Ürəyim – bir durna çırağı...



***

Ağ paltarlı bir gözəlin
Başına noğul elədim.
Gizli sevgi dastanımı
Hamıya nağıl elədim.
Sözü qələmdən keçirib,
Özümə oğul elədim...

1999

## HƏR ŞEYİ SÖZLƏ DEMİRƏM

Kəpənək qanadlı gözəl,
Niyə ağır bir söz dedin?
Gözəllərə baxdığımı
Görüb, mənə şorgöz dedin.

Üz-gözünü bulud aldı,
Baxışın şimşək tək çaxdı.
Gileylərin, tənələrin
Qəlbimə yağış tək yağdı.

Daha uf da eləmərəm,
Başına çevirsən məni.
Bu qədər ki, qısqanırsan,
Deməli, sevirsən məni...

## ALBOM ÜÇÜN

Odlu baxışın qəlbimi
Döndərəcəkdir kömürə.
Ancaq səni sevdiyimi
Salma ha, səsə, səmirə,
Samirə.

Ahənrüba ağuşuna
Can atan titrək dəmirəm.
Özün başa düşən qızsan,
Hər şeyi sözlə demirəm,
Samirə...

## ETİRAF

Ürəyim hıçqıran qırıq kamança,
Bu dünya gözümdən düşüb yamanca.
Qəlbimdə qəm yükü daşıyıram mən,
Səni sevmək üçün yaşayıram mən…

## HƏSRƏT YAĞIŞI

*"Sizin şeirlərinizdən qopan həsrət mənim qəlbimə hopdu, ömründə ağlamağı bacarmayan bir qızın göz yaşlarına çevrildi. Sizin şeirləriniz mənim qəlbimə ülvi məhəbbət, sevgi bəxş elədi."*

*Aynur*

Aynurum, bir aylı gündə
Birgə dönəydik Laçına.
Yamaclardan çiçək dərib
Çələng hörəydim saçına.

Yurdumuzun başı üstdən
Qada-bala sovuşaydı.
Bir-birinə həsrət əllər
Gül dərəndə qovuşaydı.

Ulu dağın hüzurunda
Əhdi-peyman bağlayaydıq.
Qəlbimizə qopan həsrət
Gözümüzdən çağlayaydı.

O göz yaşı selə dönüb,
Məni məndən qoparacaq.
Qəlbimdəki sevdaları
Bir gün yuyub aparacaq…



## GÖZLƏRİ YAŞLI BƏNÖVŞƏM

**Fatma üçün**

Ciyərim sənə həsrətdi,
Xoş ətirli bir çiçəksən.
Gözləri yaşlı bənövşəm,
Kol dibində niyə təksən?

Qəlbimdə həsrət köçü var,
Sanma ki, səni duymuram.
Gözləri yaşlı bənövşəm,
Səni dərməyə qıymıram.

Məhəbbətdən məst olmusan,
Elə bil ki, mürgülüsən.
Mən o payızın xəzəli,
Sən bu baharın gülüsən.

Gözləri yaşlı bənövşəm,
Sarı yarpağa ərk elə.
Mənim xəzəl ürəyimi
Götür əyninə kürk elə…

## KƏPƏNƏK QANADLI GÖZƏL

Kəpənək qanadlı gözəl,
Sanki uçmağa hazırsan.
Sevdiyin gülün xətrinə
Qanad çalmağa hazırsan.

Kəpənək qanadlı gözəl,
Sevgim ömrünü bəzərmi?
Qanadların məhəbbətin
Ağırlığına dözərmi?

## SAÇLARI PAYIZ GÖZƏLİM

Titrəyən əllərin boşdu,
Qəlbin sevdayla doludu.
Saçların payız yarpağı,
Gözlərin bahar buludu.

Ötən sevdaların seli
Köksümdə çətin durula.
Göz yaşlarınla yu məni,
Yarpaq saçınla qurula...

## NƏZİR

Bu gözəlin qulağına
Bir səs gəlib ilahidən.
Tanrım, mənim nəzirimi
Qəbul eylə İlahədən.

***

Məni yuxunda görmüsən,
Ayılanda qəm yemisən.
Sağ-salamat qalım deyə
Mənimçün nəzir demisən.

Bu qədər ki, narahatsan,
Kaş qəbul olsun nəzirin.
Sənə doğmayam, aç mənə
Olsa qəlbində nə sirrin.

Səndə ki belə ürək var,
Qoy şair yesirin olsun.
Mənə nəzir deyən gözəl,
Ürəyim nəzirin olsun...

**1999**



## SƏNİN RƏSMİN

*İlahə üçün*

Bir rəsmimi çəkmisən;
Dənizdən boylanıram.
Məni sevən qəlbinlə,
Günəşlə bir yanıram.

Xoşbəxtsən bir sözümlə, –
Mum edər sevgi daşı.
Bacarmıram özümlə,
Qəlbimdən sevgi daşır.

Mən dənizin qoynundan
Günəş kimi doğuram.
Nə sənin ürəyinə,
Nə dənizə sığıram.

Başımın üstündə ay,
Dövrəsində ulduzlar.
Dayanıb bir tərəfdə
Oğlaq bürcüm yol gözlər.

Dünya necə gözəldi,
Ürəyimdən qopdu ah.
Tanrım, keç günahımdan,
La ilahə illəllah!...

**20.01.2000**

## SƏNİN ƏLLƏRİN

Qorxdum ki, xəbislər düşələr duyuq,
Əlini tutanda halım dəyişdi.
Hələ əllərimə bu qədər soyuq,
Bu qədər sevimli əl dəyməmişdi.

Həsrətli dünyama qar yağdı yenə,
Xəyalım yaxını, uzağı gəzdi.
Eşqimin yolları dümağdı yenə,
İçimdə illərin sazağı gəzdi.

Ömrümə bir təzə sevda gətirən
Bir sirli, sehrli ağ atdı bu qış.
Ötən sevdaların üstünə yağıb,
Bəlkə də qəlbimi ağartdı bu qış.

Gözümə dikilib xumar baxışın,
Qəlbimə eşqinmi dolur, əzizim?
Əzəldən belədi, şaxtalı qışın
Yazı gül-çiçəkli olur, əzizim.

Qorxdum ki, xəbislər düşələr duyuq,
Əlini tutanda halım dəyişdi.
Hələ əllərimə bu qədər soyuq,
Bu qədər sevimli əl dəyməmişdi.

## DAN ULDUZU

Gözlərimdən yuxu qaçdı,
Səni andım bütün gecə.
Başımda əziz xəyalın
Göylərə baxdım gizlicə.

Yel əsdi, elə bildim ki,
Nəfəsindir səhər mehi.
Şehli çəmənləri gəzdim
Gözlərimdə həsrət şehi.

Məni bəxtiyar elədi
Saçlarından gələn ətir.
Dan ulduzu, dan ulduzu,
Taleyimə səhər gətir.

Dan ulduzu, dan ulduzu,
Dərdindən olmuşam dəli.
De, ulduza yetişərmi
Heç bəni-insanın əli?...



***

Yanağın kibrit qarası,
Dodaqlarım sanki çöpdü.
Dilim, dodağım alışdı
Elə ki, üzündən öpdüm...

***

Kamana çevrilsən yayın olaram,
Taleydən umduğum payın olaram.
Qoymaram göylərdə tək darıxasan,
Əgər ulduzsansa, ayın olaram.

Quzuya çevrilib şeirin aslanı,
Sevgisiz olanda ürək paslanır.
Sənin xiffətini çəkirəm, gülüm,
Qələmim ağlayır, kağız islanır...

1998

## YAŞ O YAŞ DEYİL DAHA

Yaş o yaş deyil daha
Ömür su kimi axır.
Ardımca xatirələr
Baxır, həsrətlə baxır.

Boylanıram geriyə
Dodağımda təbəssüm.
Çağırıram, gəncliyə
Heyf ki, çatmır səsim.

Ömrümün karvanından
Düşüb, o günlər itib.
Keçdiyim yollar boyu
Çiçəklər, güllər bitib.

Sel tək axa bilmirəm,
Su tək yerə hopuram.
Çiçəklərə baxanda
Mən təsəlli tapıram.

## BUZ ALTINDA

–Bu nə işdi, sevdiyin qız
Sənə soyuq-soyuq baxır?
–Xəbərin yoxdu xəbərdən,
Buz altından sular axır...

## OLUM

Qəlbin ki, qəm aşiqidi,
Sənin dərdi-sərin olum.
Tellərinə sığal çəkən
Külək kimi sərin olum.

Qoxlanmamış çiçəyin var,
Sevdalı bir ürəyin var.
Qəvvas olmaq diləyin var, –
Dərya kimi dərin olum.

Qəlbini boğmasın qəhər,
Qaç yanıma səhər-səhər.
Özgələrə zəqqum, zəhər,
Sənə bal tək şirin olum.

Kaş sinəndən inci dərəm,
Heç mən səni incidərəm?
Küsürsən küs, incimərəm,
Təki uman yerin olum.

İçimdə çalxanır nehrə,
Arzularım pöhrə-pöhrə.
Qəlbimə od salan Zöhrə,
İzn ver Tahirin olum...

***

Yenə havalandı könlümün quşu
Əlim əsə-əsə çiçək dərdim mən.
Sənin gözlərindən yağan yağışın
Buludu nəm çəkir mənim dərdimdən.



Yoluma dikilən həsrət baxışlar
Məni göyüm-göyüm yaxdı, göynətdi.
Sənin gözlərindən yağan yağışlar
Sevdalı qəlbimdə həsrət göyərtdi...

1998

## SƏNİNLƏ SÖHBƏT

–Alışıb yanıram odlar içində,
Ürəyim istidi, əlim soyuqdu.
Bu boyda qohumlar, yadlar içində
Məndən qərib, tənha bir kimsə yoxdu.

–Gah elə əsirsən, gah da ki, belə,
Etibarım yoxdu, bilmirəm kimsən.
Döysəydin qapımı məhəbbət ilə
Bəlkə də olardım mən sənin kimsən?!

***

Bir ixtiyar kənarda dayanıb köks ötürür,
Yaralı ürəyindən xatirələr boylanır.
Sel gələndə özüylə əvvəl çör-çöp gətirir,
Ocaq alışan zaman birinci çırpı yanır...

***

Dənizlə işim yoxdu,
Mən nəğməni ləpələrə oxuyuram.
Böyüklərlə işim yoxdu,
Mən nəğməmi körpələrə oxuyuram...

***

Sevdalı qəlbimdə əyləşən kəsi
Gərək öz taxtından devirəm, gülüm.
Sən mənə nə qədər əzab verirsən,
Mən səni o qədər sevirəm, gülüm.

***

Sənin ayrılığında gözüm qanlı yaş tökər,
Ürəklərə od salar ürəyimin harayı.
Palçığı göz yaşıyla yoğrulmayıbsa əgər,
Tufana tab gətirməz bu məhəbbət sarayı...

## ZİREH

Bəbəklərində bərq vuran
Bəlkə də həsrət şehidi.
Göz yaşların çevrilməsin
Şəfəq saçan ulduzlara.
Sənin məhəbbətin mənim
Ürəyimin zirehidi,
Qorxma həris baxışlardan,
Məni qısqanma qızlara...

***

*"Sizin nömrənizi yığmaqdan barmağım qabar olub."*

***Bir qızın sözlərindən***

Ürəyim bəxtiyar oldu
Ürəyinin qübarından.
Dadmaq qismət olmasa da,
Dodağının nübarından,
Gəl gözümə təpim səni,
Qəlbinə nur səpim sənin.
Neynək, gətir öpüm sənin
Barmağının qabarından...

**1998**

## ÜŞÜYƏN ÇİÇƏK

*"Hər günəş çıxanda, yağış yağanda Sizi xatırlayıram."*

***Bir qızın sözlərindən***

Gizli bir sevdayla alovlanıram,
Ötən xatirələr könül dağlayır.
Hər günəş çıxanda Sizi anıram,
Bir gözüm güləndə, biri ağlayır.



Tale qismətimdi bu çən, bu çisək,
Siz şəvə saçlarda zeh öpənsiniz.
Mən yağış altında üşüyən çiçək,
Siz çiçək gözündə şeh öpənsiniz.

Özümü bir anlıq xoşbəxt sanıram,
Üstümdən ayrılıq yelləri əsmir.
Hər yağış yağanda Sizi anıram,
Mənim gözlərimin yağışı kəsmir...

***

–O gün yaman möhtac idi
ürəyim bir ılıq sözə,
Nəmli gözlərim yol çəkdi,
qəlbim həsrətlə döyündü.
Bağışlayın ki, bayramda
zəng edə bilmədim Sizə,
–Sən nə zaman zəng eləsən,
mənim bayramım o gündü...

***

Ocağın məni yandırıb,
Sönən közünə baxmaram.
Bu sevdalı ürəyimin
Daha sözünə baxmaram.

Vurdun qəlbimə yüz ilmə,
Üzülmə, yavrum, üzülmə.
Belə ki, durdun üzümə
Daha üzünə baxmaram...

## İŞIQDI

Taleyim mənə yol açıb,
Lal məhəbbətim dil açıb,
Köksümdə eşqin gül açıb,
Qəlbimdə həvəs – işıqdı.

Göylərdən bir sevda enir,
Qəlbim gülüstana dönür.
Zülmətdi kəsilən hənir,
Alınan nəfəs – işıqdı.

Gecənin qoynundan çıxır,
Gözlərimə gələn cığır.
Təki adımı sən çağır,
Qaranlıqda səs – işıqdı…

## ŞEYTAN

*"Sizin qəlbinizdə şeytan ola bilməz. Olsa da o şeytan fərqli olacaq. Yəni yaxşı."*
***Bir qızın məktubundan***

Sevda dolu ürəyimdə
Əzizdi şeytanın xətri.
Dizlərimə təpər verib
Sıldırım gülünün ətri.

Desə ki, bu gülü qoxla,
Necə sözündən çıxaram.
O gül mənim olsa belə,
Yenə köksümə sıxaram.

Sənə doğru gedən yoldu
Bu şeirimin hər sətri.
Gülüm, içimdəki şeytan
Ölür sən şeytandan ötrü.

**1998**

## MƏHƏBBƏT DƏYİRMANI

Nə dedim xətrinə dəydi,
Gözündə şimşəklər çaxdı.
Birdən hönkürüb ağladın,
Yanağından sellər axdı.



Nəmli gözlərini görüb,
Göynədi qəlbimin başı.
Məhəbbət dəyirmanımı
İşlətdi gözünün yaşı…

***

İnsan ürəyini sevgi bəzəyir,
Bilirəm dadını şirin həsrətin.
Deyirlər məhəbbət hərbə bənzəyir,
Başlamaq asandı, qurtarmaq çətin.

Bilmirəm heç hardan yada düşmüsən,
Salıbdır üstümə kölgə bu sevda.
Ömrün bu çağında oda düşmüşəm,
Mənim xərçəngimdi bəlkə bu sevda?…

***

Mənə yazdığın sözləri
Gözlərimə təpim gərək.
Ulduzları göydən dərib,
Ayağına səpim gərək.

Sən mənim bəxtimə düşən
Bir incisən, dürdanəsən.
Göylərdə ulduzlar çoxdu,
Dan ulduzum, bir dənəsən…

**1998**

## ZARAFAT

Kim bilir nə keçir titrək qəlbimdən
Gizli bir sevdayla bəlkə yanmısan?
Səni təzə-təzə sevirdim ki, mən,
Vəfasız, eşitdim nişanlanmısan.

***

*"Hamıya şeir yazmısınız, mənə yox" – deyən bir qıza*

Həzin, kövrək bir sevdayla
çırpınır, titrəyir könlüm,
İçimi göynədən sözlər
dildən, ağızdan utanır.
Sənə deyəcəyim sözü
yazmaq istəyəndə, gülüm,
Ürəyim yarpaq tək əsir,
qələm kağızdan utanır…

***

Odlu gözlər ürəyimi
Tutubdur gülləyə, gülüm.
Ömrün ötən çağlarını
Vermişəm küləyə, gülüm.
Soruşdun ki, bir ürəkdə
Neçə sevgi ola bilər?
Ürəyimdə gülüb dedim:
- O baxır ürəyə, gülüm…

## AXIR Kİ ÜZ-ÜZƏ QALDIQ

**Cəlalə üçün**

Təzə-təzə qaysaqlayan
Könül yaramı qanatdın.
Mənim sevgi bostanıma
Bu il ilk daşı sən atdın.

Dərib apara bilmədim,
Gül-çiçəklər düzə qaldı.
Vüsal özgəyə yar oldu,
Hicran yükü bizə qaldı.



Əlin quzey qarı kimi,
Sən gül, qəlbim arı kimi.
Dindi qəlbin sarı simi
Axır ki, üz-üzə qaldıq.

Gəl sırıma qəlpi bizə,
Məhəbbətlə qəlbi bəzə.
Ağrı çəkmək qəlbimizə,
Ləzzət çəkmək gözə qaldı.

**1999**

## AY MƏNİM XALSIZ GÖZƏLİM

***Vəfa üçün***

Gördüm gileyli üzünü,
Dilim qurudu, lal qaldı.
Süzdüm gözəl qamətini,
Həsrət qəlbimə xal saldı.

Xallı gözəl sevdiyimi
Mən demədim, qəlbim dedi.
Ay mənim xalsız gözəlim,
Sənin xalın qəlbimdədi…

## QAR QIZ

Qar qız, Qar qız, nə qəşəngsən,
Pərvanə qəlbim ovdadı.
Qar qız, sən bir ağ ləçəksən,
Meyvən – bir dəli sevdadı.

Məhəbbətlə baxdım gendən,
Sevincdən köksün qabardı.
Qar qız, icazə ver səndən
Bircə əlçim qar qopardım.

Əlini çiynimə qoyub,
Qışımı bahar elədin.
Belində titrədi qolum,
Məni bəxtiyar elədin.

Ürəyin dilə gəlibsə,
Özün çətin kiriyəsən.
Həsrət dolu nəfəsimlə
Qorxuram ki, əriyəsən.

Məndən ayrılıb gedəndə,
Ürəyim fəğan qopardı.
Əlimdən üzüldü əlin,
Səni çovğunmu apardı?...

Başqa rəng seçə bilmirəm,
Eşqimin yolu dümağdı.
Qar qız, gecə səhərəcən
Yuxularıma qar yağdı...

**30-31 dekabr 1999**

## HANSINI SEÇİM

Qayaların zirvəsində
Bulud gördüm əlçim-əlçim.
Gözəlliyin arxasınca,
Tanrım, nə qədər yol ölçüm?

Bəxt məni salıb oyuna,
Çiçəklərlə qolboyunam.
Ay qız, sən də gəl, boyuna
Lalələrdən bir don biçim.

Ah çəkmisən, hava yanıb,
Yaramdakı hav oyanıb,
Dəli könlüm havalanıb,
Dalğalanır yenə içim.



Od aldım sevda qorundan,
Yandım gözlərin nurundan.
Bu dəli eşqin torundan
Çıxmağa çatarmı gücüm?

Poza bilən yox yazını,
Ocaq çatmısan qızınım.
Bu bir cüt xalaqızının,
Allahım, hansını seçim?

Ənbər saçılır telindən,
Şəkər süzülür dilindən,
Bu yanmışların əlindən
Bilmirəm heç hara köçüm?!

**31.12.1999**

## İLHAM PƏRİM

Mənimlə rəqs eləyəndə
Əllər əsir, tel əsirdi
Heç bilirsən vüsalına
Qəlbim necə tələsirdi?!

Başını əydin sinəmə,
Təzə dərdi-sərim oldun.
Gözəl qızlar arasında
Mənim uman yerim oldun.

Həmişə sakit, lal idin,
Əlçatmaz bir xəyal idin,
Sən bir ürkək maral idin,
Qəlbim ovçu Pirim oldu.

Həsrət köksümdə at çapar,
Tut əlimdən, məni apar.
Üzündə mələk nuru var,
Müqəddəsim, pirim oldun.

Tənha idin, yalqız idin,
Sən bir qərib ulduz idin,
Qəlbi kövrək bir qız idin,
Dönüb ilham pərim oldun...

## BU İLİN SON GECƏSİNDƏ

**Kəmalə üçün**

Hər mənə küskün baxanda
Qəlbim olur çilik-çilik.
Əllərini qoy çiynimə,
Gözlərini gözümə dik.

Könlündən keçir sevdalı
Ömrümü sənə həsr edim.
Tələsmədən oxu, gülüm,
Bəbəyindəki həsrəti.

Özüm var ikən halımı
Niyə yaddan soruşursan?
Məndən tez-tez küsən gözəl,
Neyləyim ki, barışasan?!

Sənin kimi bir gözələ
Necə könül bağlamayım?
Qoy mən bu ilin şeirini
Gələn ilə saxlamayım.

İlin bu son gecəsində
Sən olaydın kaş yanımda!
Ulduz kimi bərq vuraydın
Məhəbbət kəhkəşanımda...

**31.12.1999**

***

Qara gün gələndə bəndə birləşir,
Dumanda birləşir, çəndə birləşir.
Ağlımla qəlbimin yolu ayrıdı,
Ancaq ikisi də səndə birləşir...



## MƏN SƏNİ BELƏ BİLMƏZDİM

**Səbinə üçün**

Bircə ılıq kəlmə ilə
Qəlbimdə sevgi oyatdın.
Nəmli gözlərini gördüm,
İçimdə həsrət boy atdı.

Qəlbimdən boylanan eşqi
İkiyə bölə bilməzdim.
Nə duyumlu qız imişsən, –
Mən səni belə bilməzdim!

Sözündə intizar yatır,
Gözündə yaş muncuq-muncuq.
Bahar yelinə həsrətdi –
Eşqin bir körpə tumurcuq.

**1998**

## MANANA

Qara gözlər dolmazmı?
Gül yağışsız solmazmı?
Tanrı qənim olmazmı
Məhəbbəti danana? –
Manana.

Qəlb sevmək həvəsində,
Möcüzə var səsində.
Həyat ver nəfəsinlə
Heyrətindən donana,
Manana.

Gör el nə söyləyəcək?
Ürəyim göynəyəcək...
Dənizlər neyləyəcək
Eşq oduna yanana? –
Manana.

Əsəcək qara yellər,
Coşub daşacaq sellər,
Nə söyləyəcək ellər
Yad budağa qonana? –
Manana.

Eşq yolu deyil hamar,
Eh, qəlbim nələr umar?
Əgər sən olsan Xumar,
Dönərdim Şeyx Sənana,
Manana...

## QAYTARA BİLMƏZSƏN

Közərir qəlbimin sönən közləri,
Arzular dönməsin barı xəzələ.
Üzümə dikilən çiçək gözlərin
Neyləyə biləcək quru xəzələ?

Dinərmi qəlbimin pas tutan simi?
Titrəyən mizrab da gəlməz eynimə.
Əllərin sevdalı göyərçin kimi
Hansı dilək ilə qonub çiynimə?

Gözlərin gizlicə sorur halımı,
Çiçəkdən sıyrılan ilk nar kimisən.
Sən qarla örtülən ömür yolumun
Üstündə bir yaşıl küknar kimisən.

Sevdayla yoğurub tale xəmrimi,
Dikilib qəlbimin gözü bahara.
Sən üzü payıza gedən ömrümü
Qaytara bilməzsən üzü bahara...



## BİR MƏKTUBDAN

Yarpağı xəzələ dönmüş
Qəlbimlə tənha qalmışdım.
Gözlərin gözümə dəydi,
Tale üzümə qımışdı.

Yollarıma nur çilədi
Uzaqda çaxan ildırım.
Üzünə baxa bilmirəm,
Başımı necə qaldırım?

Yolumun üstə gecikmiş
Sevgi yağışı ələndi.
Həsrət gözlərinə baxdım,
Ürəyim nura bələndi...

**1999**

## KÜÇÜYÜM

***Zarafat***

Səsini unutmaram,
Sözünü unutmaram.
Məni əsir eləyən
Gözünü unutmaram.

Külək kimi əsirsən,
De, hara tələsirsən?
Səni sevən şairdən
Axı niyə küsürsən?

Gülüm, məhək daşı var,
Qara gözün yaşı var.
Ay küçüyüm, incimə,
Məndə it yaddaşı var...

**1996**

***

Yenə kövrək ürəyində
Hiddət təbili çalındı.
Niyə ondan inciyirsən,
Görmürsən gönü qalındı?

Gözündə nifrət sayrışır,
Qəlbində vulkan alışır.
Nadan elmdən danışır, –
Gəl yana-yana qal indi.

Yenə salıb dara-bara,
Yal üstə şivən qoparan.
İtdən çox çarıq aparan
Yoxdu, ayağı yalındı...

1996

## YALQUZAQ

Məhəbbətin göylərindən
Bir eşqin ulduzu axdı.
Göz yaşıyla gözlərimdən
Həyatımın duzu axdı.

Hirsimizi çaxaq yerə,
Nə vaxtacan baxaq yerə?
Gileylənmə nahaq yerə,
Ürək yaxın, yol uzaqdı.

Varlığımı viran etdin,
Axır ki, murada yetdin.
Ay insafsız, çıxıb getdin,
Yusifoğlu yalquzaqdı...

***

Yalquzaq tək görsə səni didəcək,
Dişindən qurtara bilməyəcəksən.
Qəlbimi bu hala salan fələyin
İşindən qurtara bilməyəcəksən.



Cənginə keçmişik duyumsuz şərin,
Vüsalın əlçatmaz, əzabın şirin.
Quzu yuxusunda uyuyan şirin
Döşündən qurtara bilməyəcəksən...

***

Həsrət baxışımla ötürdüm səni,
Niyə gen qaçırsan səni sevəndən?
Neçə ki, sevmirdim, öpürdüm səni,
Utancaq olmuşam səni sevəndən...

1996

## NEYLƏYİM

Bir topa ulduz olub,
Önümdə sayrışasan.
Həyatıma, ömrümə
Qaynayıb qarışasan.

Yaşayam həvəsinlə,
İsinəm nəfəsinlə.
O mehriban səsinlə
Halımı soruşasan.

Arzum olmamış xəzəl,
Nə olar, insafa gəl.
Ay məndən küsən gözəl,
Neyləyim, barışasan?!

## OLUB

Qəlbimi saf görən xəbis,
Ürəyinə sancı dolub?
Mənim zərif misralarım
Kürəyində qamçı olub.

Çox döymə döşünə barı,
Olarmı xəbisin arı?
Yekə-yekə qayaları
Oyan zərif damcı olub.

Özünə kəfən hörmüsən,
Ötən karvana hürmüsən.
Üstümü unlu görmüsən,
Adım dəyirmançı olub?!

***

Məhəbbət gülşənimə quraqlıq hücum çəkib,
Gözlərimin önündə saralır, solur gülüm.
Qəlbim yağış gözləyən bir səhraya dönübdür,
Nə vaxtdır yazdığıma cavab vermir sevgilim.

Sanki poçt qutusuna həsrət dolu məktub yox,
Suyu çoxdan quruyan quyuya daş atıram.
Həsrətindən soluxan sevgi çiçəklərimi
Gözlərimin yaşıyla bir təhər quruduram.

***

Məni xoşbəxt eləyər bircə kəlmə, bircə söz,
Heç bilmirəm nə qədər alovlara qalanım?
Halımı soyuq-soyuq xəbər alır:
–Necəsiz?
–Halı necə olar ki, yarı zalım olanın?

1995

***

Allahdan izn diləyib
Şeir yazdım mən o bütə.
Sözlərimi ürəklərə
Səpdim, harda bitə, bitə...

***

Ağsaqqal, saqqalın ağdı,
Ağbirçək, birçəyin ağdı.
Ancaq insafla söyləyin
Ömrün bu ixtiyar vaxtı:
Hər tükün ağarmağının
Qədrini bilmisinizmi?
Ömrün müdriklik çağına
Üzüağ gəlmisinizmi?



***

Ay əzrayıl, xoş gəlmisən,
Səni Allah buyurdumu?
Ancaq bir azca möhlət ver,
Azad görüm bu yurdumu...

***

Könlüm vüsal təşnəsidir, görmürsənmi gözlərimi?
Fikrim sənin yanındadır, bilmirəm nə danışıram.
Nə gizləyim, sənə qarşı olan kövrək hisslərimi
Kobud sözlər arasında gizləməyə çalışıram...

***

Qanunlar olsa da qolumda qandal
Azadlıq istəyi çağlayır qanda...

***

Əziz dostum, hərdən məni salarsan yada,
Sevimlisən güləndə də, ağlayanda da.
Tale izn verməsəydi rastlaşardıqmı?
Əgər səni ağlatmasam, dostlaşardıqmı?
Üstümüzü bürüsə də hicran buludu,
Söylədiyin bayatını necə unudum?
Məhəbbətin göylərində parlaq ulduz ol,
Xoşbəxt yaşa, öz adına layiq bir qız ol.

***

Titrədim, incə səslə adımı çağıranda,
Elə bil ki, təzədən dərk elədim həyatı.
Sən mənim kitabımı qoynundan çıxaranda,
Səsləndi qulağımda söylədiyin bayatı:

Bu gələn yar olaydı,
Əlində nar olaydı.
İkimiz bir köynəkdə,
Yaxası dar olaydı...

İsitdi ürəyimi təbəssümün, ey nigar,
Həsrət çəkən də oldu bu şirin əzabıma.
Dedin: – Avtoqraf yazın, Sizdən qalsın yadigar, –
Vüsalın mənə deyil, qismətmiş kitabıma...

***

Sənin sakit durmağına deyiləm əmin,
Rəqibinlə pələng kimi döyüşəcəksən.
Belə getsə, mənim sevgi şeirlərimin
Ünvanını əvvəl-axır dəyişəcəksən...

1995

## TƏZƏ SEVDALARA DOĞRU

Qəlbimdəki dəli sevda
Yarı yalan, yarı doğru.
Vaxt hanı geri dönməyə,
Şığıyıram yara doğru.

Oduma yadlar qızınıb,
Şair könlüm nə qazanıb?
Həsrət əllərim uzanıb
Budaqda nübara doğru.

Çiçəkdi quşun bəzəyi,
Qanaddı quşun bəzəyi,
Saçımda qışın bəzəyi
Gedirəm bahara doğru.

Gözümdə həsrət çiçəyi,
Üzümdə həsrət küləyi.
Yenə can atır ürəyim
Təzə sevdalara doğru...

01.01.2000



## BƏLKƏ QƏLBİMƏ YAZ GƏLDİ

Mən sənə nə verəcəyəm
Payız vaxtı bahar umsan?
Könlüm bir saralmış yarpaq,
Sən mənim son baharımsan.

Kül altında mürgüləyən
Sevgimin üzü bəridi.
Gözlərimə elə baxdın,
Qəlbimin buzu əridi.

Sən olmasan, qəlbimdəki
Kövrək hisslər qarıyardı.
Eşqin novruzgülü kimi
Sinəmdəki qarı yardı.

Elə baxsan, beş-on günə
Od götürərsən közümdən.
Bəlkə qəlbimə yaz gəldi,
Gözünü çəkmə gözümdən...

## SƏN BİR SEVDA AĞACISAN

Sən bir sevda ağacısan,
Dibin susuzdan çat-çatdı.
Həsrətlə boyunu süzdüm,
Göz yaşım dadına çatdı.

Sən bir sevda ağacısan,
Bəzəyin həya, ismətdi.
Təzəcə çiçəkləmisən,
Nübarın kimə qismətdi?

Mənim həsrət baxışımla
Budaqların əzizlənib.
Yarpaq köksünün altında
Bir qərib yuva gizlənib.

Sən bir sevda ağacısan,
Bir sehrli iş olacaq.
Belə getsə, o yuvada
Ürəyim bir quş olacaq...

## NƏĞMƏ

Nə zaman ki, təklənirsən,
Gözlərindən yuxu qaçır.
Nə zaman ki, təklənirsən,
Dərd sən dərdini açır.

İçin-için ağlayırsan,
İçin-için inləyirsən.
Ürəyin nəğmə oxuyur,
Həyəcanla dinləyirsən.

Nəğmə həyat sevgisidi,
Nəğmə ilahi nəfəsdi.
Sənə həyan olmaq üçün
İçindən boylanan səsdi...

## VAR

Çiçəklər açıbdır,
Xoş ətir saçıbdır,
Arılar uçubdur, –
Bir balsız yeşik var.

Xoşbəxtdir bal çəkən,
Kim səndən əl çəkər?
Gözləri yol çəkən
Bir həsrət beşik var.

Tikanlar görübsən,
Qızılgül dəribsən,
Orda sən qəribsən,
Burda ev-eşik var.



Baxırsan göyə sən,
Əsirsən niyə sən?
Əzizim, deyəsən
Torbada pişik var...

## NƏ SƏN GÜNAHKARSAN, NƏ MƏN GÜNAHKAR

Yağışa dönübdür göz yaşlarımız,
Bu eşqin üstünə ildırım düşüb.
Gizlicə görüşüb baxışlarımız,
Araya keçilməz sıldırım düşüb.

Bütün sevənlərin çatıb dadına,
Eşqin əzabına olduq şərik biz.
Gizlicə yanırıq sevgi oduna,
Hicran günündə də bəxtəvərik biz.

Əsla ola bilməz, gülüm, bilirsən
Məhəbbət nurunda çimən günahkar.
İlahi sevgimiz yetim qalsa da,
Nə mən günahkaram, nə sən günahkar...

## QƏDƏMİN MÜBARƏK

*İlham pərisinə*

Bu gecə röyamda mən səni gördüm,
Qəvvasa çevrilib üzdüm dərinə.
Sevginin müqəddəs barını dərdim,
Döndüm bəxtəvərlər bəxtəvərinə.

Qəlbimin sirrini faş elədim mən,
Ölmədim, gördüm bu mübarək günü.
Səni məhəbbətlə qarşıladım mən,
Yuxuma qədəmin mübarək, gülüm...

## MƏNİ XOŞBƏXT ELƏMƏYƏ NƏ VAR Kİ...

–Heç bilmirəm sənin titrək əllərin
Əllərimə çatacaqmı, sevgilim?
Qəlbimizdə gecə-gündüz kükrəyən
Eşq tufanı yatacaqmı, sevgilim?

–Tanrı bizə kömək olsun, əzizim,
Gecə-gündüz dua elə sən göyə.
Dalğalanır yenə sevgi dənizi,
Eşq tufanı çox çətin ki, səngiyə.

–Ovundurur mənim həsrət qəlbimi,
Baxışların od-ocaqmı, sevgilim?
Bilmirəm ki, səni xoşbəxt etməyə
Mənim gücüm çatacaqmı, sevgilim?

–Ürəyimi əsir etdin, gülüm, sən,
Ömrümə nur ələməyə nə var ki?!
Bircə dəfə məhəbbətlə gülümsə,
Məni xoşbəxt eləməyə nə var ki?!

20.01.2000

## YUXUN ÇİN OLSUN, GÖZƏLİM

İçində sevgi közərir,
Üfürürəm, alışmırsan.
Yuxunda məni görmüsən,
Yalvarıram, danışmırsan.

Qəlbi sevdalı şairlə
Buraxalar Aynuru tək.
Mənim təşnə ürəyimə
Süzülləsən ay nuru tək.



Titrək əllərin çiynimdə
Göyərçin ola, gözəlim.
Danışmırsan, heç danışma,
Yuxun çin olsun, gözəlim...

2000

***

Sevdasız bir ürək nəyimə gərək,
Dalğasız dənizdi sevgisiz ürək...

## İLAHİ BİR EŞQİN İTAƏTİNDƏ

Çətin dilə gələ qəlbimin simi,
Sevdalı günlərim sona yetibdir.
Başımın üstündən durnalar kimi
Eh, bilsən nə qədər sevgi ötübdür?

Qəlbim üzülübdür həsrət köçündən,
Uyusun, bir qədər dincəlsin gərək.
Sevda qoşunları keçib içindən,
Dirçələ bilərmi viranə ürək?

Səni uğuruma tale çıxardıb,
Könül hisslərimin ithaitində.
Dura biləcəkmi viranə könlüm
İlahi bir eşqin itaətində?

## BU GÖZƏL GÜLÜ BƏYƏNMƏZ

Qələmi qoymuşam yerə, –
Sirrimi elə bildirər.
Vaxtsız gələn dəli sevda
Eli üstümə güldürər.

Qəlbim olub dilim-dilim,
Kilidlənib sanki dilim.
Bir vaxt qələm tutan əlim
İndi həsrətlə gül dərər.

Bənd çəkən seli bəyənməz,
Kösövlər külü bəyənməz.
Bu gözəl gülü bəyənməz,
Əl uzadıb könül dərər...

## ELƏMƏSİN

Eşqimizin yollarına
Buludlar qar eləməsin.
Üstümüzə ayrılığın
Göz yaşını çiləməsin.

Saçımda illərin qarı,
Qəlbimdə eşqin nübarı.
Ay sevgilim, ulu Tanrı
Məni sənsiz eləməsin.

Sevdalı qəlb gülə dönər,
Gizli yanan külə dönər.
Məhəbbəti selə dönən
Özgədən pay diləməsin.

Qoşa gəzək dağı, düzü,
Bəxtimizin gülsün üzü.
Tale sevən qəlbimizi
Ağrılara bələməsin...

Saçımda illərin qarı,
Qəlbimdə eşqin nübarı.
Ay sevgilim, ulu Tanrı
Məni sənsiz eləməsin...

## MƏHƏBBƏT YAŞAYACAQ

Arzular əlçim-əlçim,
Ömür qısa, yol uzaq.
Adamlar arasında
Yalquzağam, yalquzaq.



Nəqərat

Baxışların ömrümə
Sevdalar daşıyacaq.
Neçə ki, bu dünya var,
Məhəbbət yaşayacaq.

Çiçəklər qüvvət alıb
Məhəbbət yağışından.
Bu dənizlər yaranıb
Gözümüzün yaşından.

Nəqərat

Baxışınla qəlbimdə
Bir sevgi yaranacaq.
Ürəyimin başında
Məhəbbət – yanar ocaq.

Nəqərat

Müqəddəs sevdalardan
Qəlbimiz göynəyəcək.
Məhəbbət təşnəsinə
Bulaqlar neyləyəcək?

Nəqərat

## TƏZƏ GƏLİN

Bir ömrün tacısan indi,
Qaynına bacısan indi.
Sanki təzə çiçəkləyən
Badam ağacısan indi.

Nəqərat

Özün qızların göyçəyi,
Paltarın zanbaq ləçəyi.
Gün o gün olsun olasan
Evimizin ağbirçəyi.

Yolun baharın yoludu,
Gözlərin nurla doludu.
Sən günəşsən, təzə donun
Səmaların ağ buludu.

Nəqərat

Ömrümü, günümü bəzə,
Həyət-baca gülsün üzə.
Hər gülüşün bir ağ ləpə
Səpələnsin evimizə...

Nəqərat

## SƏNDƏN BAŞQA KİMİM VAR

Eşqimin göylərində
Ulduz tək nur saçırsan.
Bilmirəm neyləmişəm,
Niyə məndən qaçırsan?

Bir cüt sarı simim var,
Bir nazəndə qəmim var.
Kimə açım könlümü,
Səndən başqa kimim var?

Gözəllikdə çiçəklə,
Gül ilə yarışırsan.
Məndən qaçıb, halımı
Özgədən soruşursan.

Könlümün çiçəyini
Baxışların dəribdi
Qəlbində yuva gəzən
Məhəbbətim qəribdi.

Bir cüt sarı simim var,
Bir nazəndə qəmim var.
Kimə açım könlümü,
Səndən başqa kimim var?



## QƏLBİMİ QURBAN DEMİŞƏM

Saçlarının qoxusundan
Könlüm çiçəkli yaz olub.
Ürəyimə sevgi sözü
Baxışlarımla yazılıb.

Eşq oduna yan demişəm,
Hər sözünə can demişəm.
Canımı qurban demişəm,
Bu da səninçün az olub?!

Gələ bilmirəm özümə,
Həsrətin çöküb gözümə,
Tellərin dəyib üzümə,
Ürəyim telli saz olub.

Pərvanə ol, yara şığı,
Əsirgəməz yar işığı.
Gözəllərin yaraşığı
Həmişə işvə, naz olub.

Daşlara çalma eşqimi,
Sevə bilmərəm heç kimi.
Qəlbim bir qətrə yaş kimi
Kirpiklərindən asılıb.

Eşq oduna yan demişəm,
Hər sözünə can demişəm.
Canımı qurban demişəm,
Bu da səninçün az olub?!

## EH, BU HƏLƏ HARASIDI

Qəlbinə ilk sevgi düşüb,
Göynəyirsən göyüm-göyüm.
Məndən kömək istəyirsən,
Bilmirəm sənə nə deyim?

Sevən qəlbin ilk dəfədir
Dil açır, sözə başlayır.
Eh, bu hələ harasıdı? –
Sevgilər təzə başlayır.

Məhəbbətin yollarında
Qəlbini həsrət yaxacaq.
Sənin sevgi göylərində
Nə qədər şimşək çaxacaq.

Gəzəcəksən gözlərindən
Yerə inci səpə-səpə.
Əriyib eşq atəşində
Dönəcək qamətin çöpə.

Yaralı bir kaman kimi
İnləyəcək, dinəcəksən.
Çimib həsrət yağışında
Bir mələyə dönəcəksən.

Sevən qəlbin ilk dəfədir
Dil açır, sözə başlayır.
Eh, bu hələ harasıdı? –
Sevgilər təzə başlayır.

## GÜLÜM MƏNİM

*Musiqisi Nailə Mirməmmədlinindir*

Ay insafsız, sevən qəlbim
Olub dilim-dilim mənim.
Sənin adını çəkəndə
Çiçək açır dilim mənim,
Gülüm mənim.

Quru çöllər bostan olub,
Məhəbbətim dastan olub.
Eşqinlə gülüstan olub,
Ayım mənim, ilim mənim,
Gülüm mənim.



Su gözünü qaya tutub,
Qəlb üzünü aya tutub.
Həsrətindən maya tutub
Bəmim mənim, zilim mənim,
Gülüm mənim.

Aylar-illər ötüşəcək,
Çox yaralar bitişəcək.
Söylə nə vaxt yetişəcək
Əllərinə əlim mənim,
Gülüm mənim?

Anıram incə səsini,
Varmı verən əvəzini?
Yaz ətirli nəfəsini
Arzulayır könlüm mənim,
Gülüm mənim.

## BU GECƏ

*Musiqisi Nailə Mirməmmədlinindir*

Yanar bir ocağam,
Ulduzlar közümdü.
Yoluna nur saçan
Həsrətli gözümdü
Bu gecə.

Alışan ocaqlar
Soyuyub, sönübdür.
Gözlərin gözümdə
Ulduza dönübdür
Bu gecə.

Ürəyim titrəyir,
Bulud tək dolmuşam.
Sənin xəyalınla
Bəxtəvər olmuşam
Bu gecə.

Daha mən heç nəyi
Almıram eynimə.
Əllərin quş kimi
Qonubdur çiynimə
Bu gecə.

Elə bil ulduzlar
Qəlbimdə sayrışır.
Sevdalı gözlərin
Eh, nələr danışır
Bu gecə...

## GÜLÜM, KEÇ GÜNAHIMDAN

Niyə halın pozulub,
Üzündə nur azalıb?
Ürəyim yaşa dönüb,
Kirpiyindən asılıb.

Gül mənim, çiçək sənin,
Bal mənim, pətək sənin.
Gülüm, keç günahımdan,
Əl mənim, ətək sənin.

Bulud örtüb üzünü,
Yaş göynədir gözünü.
Qəlbimi üzdün, yetər,
Yavrum, üzmə özünü.

Dağıtma incimi sən,
Dürrmüsən, incimisən?
Üzünü çən bürüyüb,
Nə dedim incimisən?

Gül mənim, çiçək sənin,
Bal mənim, pətək sənin.
Gülüm, keç günahımdan,
Əl mənim, ətək sənin.



## AĞAR, SAÇIM

Arzu sonsuz, ömür yarı,
Sınağa çək dostu, yarı.
İllərin əriməz qarı
Taleyinə yağar, saçım,
Ağar, saçım, ağar, saçım.

Sevgi dildə, dodaqdadı,
Çiçək ətri yanaqdadı,
Ağ günlərim qabaqdadı,
Bəxt ülkərim doğar, saçım,
Ağar, saçım, ağar, saçım.

Məhəbbətlə vurur ürək,
Arzularım çiçək-çiçək,
Gözəlləri pərvanə tək
İşığına yığar saçım.
Ağar, saçım, ağar, saçım.

Gülər nəvə gülüşündən,
Sonaların yerişindən.
Gözəllərin görüşündən
Məni evə yığar saçım.
Nə eybi var, ağar, saçım.

Sevgi dildə, dodaqdadı,
Çiçək ətri yanaqdadı.
Ağ günlərim qabaqdadı,
Bəxt ülkərim doğar, saçım,
Ağar, saçım, ağar, saçım...

## QAYTAR

Bu sevda məni azdırıb,
Sən məni izimə qaytar.
Qayğısız gülüşlərimi
Yenidən üzümə qaytar.

Doğma varkən, uyma yada,
Səni sevəni sal yada.
Ya mənə könül ver, ya da
Könlümü özümə qaytar...

Gəldi xəzan, əsdi külək,
Yandı bağrım, döndü külə.
Eşqin yolunda tökülən
Yaşları gözümə qaytar.

Sənsiz dünyanı neylərəm?
Eşqin oduyla göynərəm.
Günəşi mavi göylərə,
Atəşi gözümə qaytar...

Doğma varkən, uyma yada,
Səni sevəni sal yada.
Ya mənə könül ver, ya da
Könlümü özümə qaytar...

## NAZINA QURBAN OLUM

Mənə nə bəla gəlsə,
Yerdən yox, göylərdəndi.
Sən mənə naz satırsan,
Qəlbim naz göyərdəndi.

Nəqərat

Baharına, qışına,
Yazına qurban olum.
Sən mənə naz satırsan,
Nazına qurban olum.

O qəddin, o qamətin
Önündə əriyərəm.
Günəş nurlu təbəssüm
Olmasa, çürüyərəm.

Nəqərat



Bu yaşımda elləri
Üstümə güldürənsən.
Sən gözəl deyilsən ha,
Sən şair öldürənsən...

Nəqərat

## ELƏ BAXMA

Payız kəsibdir qapımı,
Ömrümün yazı deyilsən.
Mənə meydan oxuyursan,
Az aşın duzu deyilsən.

Nəqərat

Elə baxma, təbəssümün
Qəlbimə rişə salacaq.
Sənin şeytan baxışların,
Qız, məni işə salacaq...

Ala gözlərin yaranıb
Süzülüb axmaqdan ötrü.
Elə bil ki, tamarzısan
Yandırıb yaxmaqdan ötrü.

Nəqərat

Şax tutursan qamətini,
Bilirsən, gəlir xoşuma.
Hara gedirəm, elə bil
Qəsdən çıxırsan qarşıma.

Nəqərat

## BƏS BU GİLEY NƏDİ

Ala gözlü, qələm qaşlı,
Bir gör neylədi, neylədi?!
Elə baxdı, ağlım çaşdı,
Bilməm yer nədi, göy nədi!

Nəqərat

İnaddan əl üzməmisən,
Taleyindən küsməmisən,
Subaylıqdan bezməmisən,
Onda bəs bu giley nədi?

Ürəyimə səda düşdü,
Kösöv idim, oda düşdüm.
Ötən çağlar yada düşdü,
Yaram göynədi, göynədi...

Nəqərat

Qoşa gəzək sizin bağı,
Almanı neynirəm axı?
Abşeronun yaraşığı
Yarım, meynədi, meynədi.

Nəqərat

Qıvrım tellər dəstə-dəstə,
Üzü göyçək, boyu bəstə.
Gül dodaqdan gülab istə,
Yarım, mey nədi, mey nədi?

Nəqərat

## UMACAĞIM VAR

Gizləmək əbəsdir, açım "boğca"nı,
Gül üçün bülbülün çıxır bax, canı.
Axı nə gizləyim, sizin bağcanın
Qızıl güllərindən umacağım var.

Nəqərat

Demə ki, körpəyik, bircə qarışıq,
Baxma ki, soyuqdur, verir qar işıq.
Nəfəsin qarışıq, səsin qarışıq
Səhər yellərindən umacağım var.



Bu tutqun qəlbimi yalnız gül açar,
Dilim yox, dərdimə olub gül açar.
Toxunsa əlimə, əlim gül açar,
Titrək əllərindən umacağım var.

Nəqərat

## SEVGİ FƏSLİ

Dünya yaranışdan xeyirdi, şərdi,
Sevib əzab çəkən əhli-bəşərdi.
Bu həyat necə də adiləşərdi,
Ürək olmasaydı əsir sevgiyə?

Nəqərat

O necə ömürdü, yoxuşu yoxdu?
O necə bahardı, yağışı yoxdu?
Sevginin nə yazı, nə qışı yoxdu,
Ürəyin özüdü fəsil sevgiyə.

Sevgi yolumuzda yanır çıraq tək,
Hədəyə, qorxuya baxmır ki, ürək,
Sevdin, ilanboğan vaxtındı demək,
Yaş sərhədmi çəkir əsl sevgiyə?!

Nəqərat

## AĞLAYAN GÜLLƏR

Əlinə çatmaqçün əsirdi əlim,
Özümü bəxtəvər bilmişdim o gün.
Köksümü ötürə-ötürə, gülüm,
Səni ötürməyə gəlmişdim o gün.

Nəqərat

Ayrılıq gətirdi bizə bu bahar,
Yenə küçələrə çisəkləmişdi.
Güllər əllərimdə ağlayırdılar,
Qəlbimdə həsrətin çiçəkləmişdi.

Ürəyimdə həsrət, dilimdə giley,
Pərişan saçımı külək dağıdar
Mənimçün nədənsə çox gördü tale
Səninlə görüşüb ayrılmağı da.

Nəqərat

Üzümdən ayrılıq buludu keçdi,
Yağışda islandı qızılı tellər.
Sənin əllərinçün qəribsəmişdi,
Mənim əllərimdə ağlayan güllər.

Nəqərat

## O AYLI AXŞAMDA

Araz topuğumdan, Kür aşığımdan,
Titrəyən ürəyim müğənni idi.
Sanki çarpayımız ay işığından
Asılmış sehrli bir nənni idi.

Nəqərat

Mənim həsrətimə sən qənim idin,
Köksümün altında əsirdi ürək.
O aylı axşamda sən mənim idin,
Dolmuşdun qəlbimə ay işığı tək...

Bizi yelləyirdi külək astaca,
İlahi, nə xoşbəxt, bəxtəvər idik!
Kəlmə kəsməyə də tapmadıq macal,
Biz eşqin oduna şam tək əridik.

Nəqərat



## SƏNİN PƏNCƏRƏN

İncimi parlayır gözündə dən-dən?
Bir gün qəh-qəh çəkib güləsisən sən.
Sənsiz kor qalardı sənin pəncərən,
Pəncərən gözdüsə, giləsi sənsən.

Nəqərat

Yenə pəncərənə göz dikmişəm mən,
Həsrətə köklənib qəlbimin simi.
Axır ki, açıldı sənin pəncərən,
Açıldı həsrətli qolların kimi...

Ürək intizarda, gecə uzundu,
Yatarmı yoluna göz dikən aşiq?
Mənə elə gəlir bəxt ulduzumdu
Sənin pəncərəndən süzülən işıq.

Nəqərat

## KİŞİ ÜRƏYİ

Gümüşə döndərdi saçımı illər,
Məni qınamasın qoy bizim ellər.
Toxundu əlimə kəmanə tellər,
Hönkürüb ağladı kaman ürəyim.

Nəqərat

Sevgi nə yaxşı ki, baxmayır yaşa,
Qəlbində ilk bahar get üzü qışa,
Kişi ürəyində kişi tək yaşa,
Kimsədən istəmə aman, ürəyim.

Pay verdin hamıya duyğudan, hissdən,
Yoxdur bir qorxumuz dumandan, sisdən.
Ələyib seçəcək yaxşını pisdən,
Ən gözəl sərrafdı zaman, ürəyim.

Nəqərat

## UNUDULMARAM

Taleyin hökmünə inanıram mən,
Bizim bu dünyada öz payımız var.
Xoşbəxtəm, şərikli bir dənizimiz,
Xoşbəxtəm, şərikli bir ayımız var.

Nəqərat

Özün bilirsən ki, dəymədüşərəm,
Qəlbimi hər kəsə umud olmaram.
Dənizi görəndə məni anırsan,
Necə ki dəniz var, unudulmaram.

De, necə özümü xoşbəxt sanmayım,
Gözlərin gözümə baxırsa əgər?
Mənim nəğmələrim qanına hopub,
Sənin damarında axırsa əgər?!

Nəqərat

## DAĞLARDAN GƏLƏN ÇİÇƏK

Doldu otağıma bənövşə ətri,
Gül açmaq istədi quru ağaclar.
Əllər yol gəlirmiş əlimdən ötrü,
Sinəmdə saz oldu şəlalə saçlar.

Nəqərat

Qəlb gərək təzədən vurulmaq üçün,
Başımın üstündə tufanlar əsmiş.
Eşqin kor gözündə nur olmaq üçün
Bir zərif çiçəyin işığı bəsmiş.

Yaxın gəl, təzədən bitim, göyərim,
Çiçəklər başıma bir tacmış demə.
Mənim para-para olan ürəyim
Çiçək qoxusuna möhtacmış demə...

Nəqərat



## TALE QİSMƏTİMƏ SƏNİ GÖNDƏRİB

Ayrılıq vədəsi gəlib yetişdi,
Kövrəldi dumanlı, çiskinli dağlar.
Yurdumdan, yuvamdan aralı düşdüm,
Hönkürdü dalımca şır-şır bulaqlar.

Nəqərat

Titrəyir qəlbimin qırılmış simi,
Gözlərin ömrümü nura döndərib.
Ovundurmaq üçün mənim qəlbimi,
Tale qismətimə səni göndərib.

Elə bilirdim ki, bir də gülmərəm,
Qayıda bilməsəm doğma diyara.
Dedim: bu həsrətə dözə bilmərəm,
Sağalmahz qəlbimə vurulan yara.

Nəqərat

## QIZ ƏLLƏRİ

Ürəyim titrədi, dağıldı huşum,
Heç nəyi almadım daha eynimə.
Hardan uçub gəldi bu dövlət quşu,
Başıma fırlanıb qondu çiynimə?...

Nəqərat

Didir, parçalayır söz ürəyimi,
Gözə sığal çəkən gözəllər imiş.
Sən demə, sən demə qız ürəyinin
Tilsimli açarı qız əlləriymiş...

Ruhumu oxşayır gül də, çiçək də,
Mənim də ömrümə tale gülərmiş.
Coşub çağlayanda sevgi ürəkdə
İnsan qanadsız da uça bilərmiş.

Nəqərat

## YAXŞI Kİ DÜNYANIN SEVƏNLƏRİ VAR

Dünya neçə dəfə ağ bələnsə də,
Qəlbimin başında bir işıq yanar.
Bu eşqin önünə qar ələnsə də,
O qarın altından qəlbim boylanar.

Nəqərat

Gözümü gözündən etdilər sürgün,
Vətən nisgilini qərib görəcək.
Qar altdan boylanan qəlbimi bir gün
Bir gənc öz yarına dərib verəcək.

Üstümə yağacaq dümağ ləçəklər,
Ala gözlərinə olum sadağa.
Yaxşı ki, dünyada sevən ürəklər
Nə qoruq tanıyır, nə də qadağa...

Nəqərat

## QIRMIZI ÇİÇƏK YAĞIŞI

Görməmişdim hələ belə möcüzə,
Oyatdınız qəlbimdəki arzunu.
Bircə dəfə duran kimi göz-gözə,
Sındırdınız ürəyimin buzunu.

Nəqərat

Gözləriniz gözümə nur gətirdi,
Nə yaxşı ki, Siz çıxdınız qarşıma.
Bomboz dünya bozluğunu itirdi,
Qıpqırmızı çiçək yağdı başıma.

Yandırdınız düz qəlbimin başında
Kösövləri buza dönən ocağı.
Dünya güldü gözlərimin yaşında,
Xatırladım yaddan çıxan o çağı.

Nəqərat



Mənim qəlbim ün yetməyən bir ada,
Sanmayın ki, məhəbbətə yadam, yox!
Doğmalarla dolu olan dünyada,
Mənim üçün Sizdən doğma adam yox...

Nəqərat

## SEVGİNİ SEVGİYLƏ UNUTDURARLAR

Məni sevən gündən üzün gülmədi,
Sevdalı başına dünya dar oldu.
Mən sənə səadət verə bilmədim,
Sevdim, mükafatım əzablar oldu.

Nəqərat

Məhv edə bilsəydin bu həyəcanı,
Ömrünə yenidən dönərdi bahar.
Sev bir başqasını, qurtar canını,
Sevgini sevgiylə unutdurarlar...

Üzdü ürəyini sevgi təlaşı,
Çətin ki, yetişə əlinə əlim.
Mənim məhəbbətim sənə göz yaşı,
Həyəcan, iztirab gətirdi, gülüm.

Nəqərat

## GÖRDÜM

Məndən ayrılıb getdin,
Özün de, nə qazandın?
Əllərimə hicranın
Soyuq əli uzandı.

Nəqərat

Müqəddəs sevginin
Adını bildim.

Mən acı həsrətin
Dadını bildim.
Alnıma yazılan
Yazını gördüm,
Ömrün payızını,
Yazını gördüm...

Elə bilmə ki, getdin,
Ürəyim buza döndü.
Həsrət dolu gözlərim
Bir cüt ulduza döndə...

Nəqərat

***

***"Siz heç kəsi sevmirsiniz" deyən bir qıza***

Dünyanın sevgi yükünü
Ürəyimdə daşıyırdım.
Yalançı sevgi dünyası
Qurub, orda yaşayırdım.

Sevgi gülşənim üstündə
Bir kəpənək tək uçurdun.
Mənim bəxtiyar dünyamı
Nə üçün vurub uçurdun?!

## GÖZMUNCUĞU

Düşünürsən: böyüyüb kişi olub bu çağa,
Qorxursan söndürələr kül altda qalan közü.
Başıma duz hərləyib sən atırsan ocağa,
Narahatsan, balana dəyər bədnəzər gözü.

Daha tab edə bilmir tumurcuğa qabıqlar,
Güman var ki, qəlbimdə təzə sevda oyana.
Elə gözmuncuğudu alnımdakı çapıqlar,
Kimsənin gözü dəyməz övladına, ay ana!...



***

Qamətini görən kimi
Baxışlarım nəşələndi.
Pıçıldadım, xəbərçinin
Qulaqları şeşələndi.

Alışdı közərib sönən,
Sinəmə söykənib sinən,
Ürəyimin çiliklənən
Aynaları şüşələndi.

Vecə almayıb qınağı,
Bir axşam oldum qonağın.
Köz imiş sənin yanağın,
Dodaqlarım pörşələndi...

***

Öz xoşuma salmadım mən bu işlərə meyil,
Bircə duyanım olsa, dünya necə gözəldi!
Məni tərbiyə etmək, vallah, mümkün iş deyil,
Mənə təbəssümlə bax, bəlkə dünya düzəldi...

Bəlkə mənim üzümə acı taleyim güldü,
Dünyanın düzəlməsi nə vaxta qaldı, Allah?
Nə dünya bu şairi tərbiyə edə bildi,
Nə şair bu dünyanı sahmana saldı, Allah...

***

Əl götürmə sevdadan,
Gözəlləri sev, dadan...

***

Yalandan deyirlər ki,
Filan xanım evdardı.
O, evdarlıq edəndə
Görürsən ki, ev dardı...

***

Edib məni yarımcan,
İndi deyir: – Yarım, can!

***

Arzuların qönçəsi
Veribdir boy yaxandan.
Yamacsansa, hazıram,
Gül dərim qoy yaxandan...

***

Nə zirvəyik, nə yamac, adicə insanlarıq,
Ürəyimiz can atır bəxtiyar gün görməyə.
Sən mənə gəl-gəl deyən sıldırım çiçəyisən,
Dizin-dizin gedirəm, əlim çatmır dərməyə...

## BƏHANƏ

Bir bəhanə axtarıb yanaşıram yarıma,
Sevdiyim o dilbərə, mənim ilk baharıma.
Bir bəhanə axtarıb o gözlərə baxıram,
Sevincdən şimşək kimi gurlayıram, çaxıram.

Deyirəm işə salsın o qız şirin dilini,
Bəhanə axtarıram tutum onun əlini.
El də, aləm də bilir düz iş deyil bəhanə,
Mənim bəhanəm isə qol-qanad verir mənə...

1966

## VİDA

Onunla, onunla görüş üçün mən
Hazırdım ən uca dağlar aşmağa.
Necə söz açım ki, o ilk görüşdən,
Görüşdük, ömürlük vidalaşmağa.

Dolmuş gözlərimi dikdim yerə mən,
Gördüm gülümsəyir o için-için.
Ayrıldıq, ayrıldıq bir-birimizdən,
Gəlmişdik həmişə bir olmaq üçün...

Hansı söz qəlbimə ox tək dəyibdir,
Ayrılıq sözünün sədası kimi?
Heç nə ürəyimi göynətməyibdir
İlk eşqin ömürlük vidası kimi...

1968



## ƏBƏDİ HİCRAN

Dikilib gözümə bir cüt göz yenə,
Nə yaman soyuqdur, soyuq – bu kimi.
Nədənsə o gözlər görünür mənə
Uzaqda parlayan cüt ulduz kimi.

O gözlər istiydi bir vaxt qor kimi,
Onlarla qəlbimə od ələnibdir.
Axı nə gizləyim, sənin hicranın
Torpağa səpilən təzə qar kimi
İndi ürəyimə səpələnibdir.

Gündə bir arzuyla gəlirdin dilə,
Mənim həsrətimi duyaydın barı.
İsti torpaq kimi əridir hələ
Ürək öz üstünə səpilən qarı...

1968

## VÜQAR

Eşqini gizlədin bilmirəm nədən
Qürur xatirinə qışda, baharda.
Məhəbbət önündə baş əymədin sən,
Bir heçə bənzəyir yersiz vüqar da.

Bu yol yaxşı deyil, gülüm, dön geri,
Ulu Nizamiyə, Füzuliyə bax!
Məhəbbət önündə baş əyənləri
Uca zirvələrdə görmüşəm ancaq...

1969

## HÜQUQÇU QIZ

Deyirəm: – Vaxt keçir, belə iş olmaz,
–Əzizim, tələsmə hələ, –deyirsən.
Nə üçün, nə üçün, ay hüquqçu qız,
Toyumuz haqqında düşünməyirsən?

Nurlu cəmalınla alovsan sən də,
Yanıb külmü olum sənin odundan?
Bütün qanunları əzbərləsən də,
Həyatın qanununu çıxıb yadından...

1968

## YAZIRSAN

Sözlərin qəlbimə hər gün edir köç,
Fikirlər qəlbimdə düzülür səfə.
Yazırsan: –Yadına düşürəmmi heç
Həftədə bir dəfə, ayda bir dəfə?

Belə sual verməк elə asan ki...
De, nəyə lazımdı bu tənə oxu?
İnsafsız, yadımdan çıxırmısan ki,
Yenidən yadıma düşəsən axı?

1969

## SƏNƏ OXŞAYIR

Düşünürəm baxdıqca üstü güllü donuna,
Sinəsi gül-çiçəkli çöllər sənə oxşayır.
Bilirəm necə safsan, desəm heç yalan olmaz,
Suyu dupduru, təmiz göllər sənə oxşayır.

Boylanıram qabağa öz arzumun səsiylə,
Ürəyim cuşa gəlir sevilmək həvəsiylə.
Desəm heç yalan olmaz, ətirli nəfəsiylə
Ürəyimi oxşayan yellər sənə oxşayır.

Gözəl gül seçim deyə gəzdim çəməni, dağı,
Güllər necə qəşəngdir, qızarıbdır yanağı.
Səni gülə, çiçəyə necə oxşadım axı,
Sən gülə bənzəmirsən, güllər sənə oxşayır...

1969



## ÇİÇƏKLƏR

Güllərin arasında
Bir qız var, bir də oğlan.
Onların hər ikisi
Pıçıldayır astadan.
Şirin söhbət edirlər,
Ürəklər gəlib dilə.
Qız unudub özünü,
Titrəyən əlləriylə
Qırıb tökür güllərin
Nazik budaqlarını.
Bir qızartı tutubdur
Onun yanaqlarını.
Qırılıbdır çiçəklər,
Buna dözməyir ürək.
Məhəbbət sındırmasın,
Məhəbbət qursun gərək.
Nə şeydir bilmirəm ki,
İnsanlarda bu adət?
Düşündüm öz-özümə:
Ülvidirsə məhəbbət,
Bu güllər ona qurban,
Mən razıyam ürəkdən.
Əgər belə deyilsə,
Heyif o gül-çiçəkdən...

1969

## QATARDA

Qatarda görüşdük biz təsadüfən,
Çaşdıq ikimiz də, bu necə işdi?
Məktəb illərini xatırladım mən,
O çağlar sənin də yadına düşdü.

Qatar nə tez gedir, nə qaldı vaxta?
O gözləri görən yuxumu yatar?!
Biz həsrət adlanan dayanacaqda
Sərgərdan qalmışıq, şütüyür qatar...

## SƏN GETSƏN

Sən getsən, uyub bir yeni sevdaya,
Mənə dağ çəkərsən dağlar dalınca.
Sən getsən, sən getsən nələr söyləməz
Səninlə olduğum çağlar dalınca.

Görüş yerlərimiz danışar, dinər,
Ötən xatirələr alışar, sönər,
Sən getsən, bir ömür zülmətə dönər,
Bir şair ürəyi ağlar dalınca...

Bütün varlığımı bürüyər qəhər,
Axar ürəyimdən qəmli nəğmələr
Sən getsən, gözləri nəmli nəğmələr
Qayıt, qayıt deyə çağlar dalınca...

## TOXUNMA SİRRİMİN DÜYMƏLƏRİNƏ

Bəsdir, ürəyini daha aç dedin,
Kövrəltdin qəlbimi yenə bu axşam.
Mənim bir sirrim var, ürəyimdədi,
Ağzına bir yekə "qıfıl" vurmuşam.

Bilirəm, ürəyin qana dönübdür,
Cavab gözləyirsən məndən, eləmi?!
Sirrim bir sehrli don geyinibdir
Kərəmin sevimli Əslisi kimi.

Gecələr qor dolur sənin yerinə,
Bir giley görürəm nəmli gözündə.
Toxunma sirrimin düymələrinə,
Yandırıb kül edər ikimizi də...



## LAZIMSIZ MƏHƏBBƏT

Sevsəm də sevmədin, məni sevmədin,
Gəzdin başqasının sorağında sən.
Nə çoxdur dünyada oğlanlar dedin,
Uğursuz eşqimə yas saxladım mən.

Məhəl də qoymadın heç məhəbbətə,
Başqa birisini tapaydın gərək.
Mən layiq olmadım əsas heyətə
Formada olmayan futbolçular tək.

Kim səni ayıltdı tutub yaxandan,
Salıb yazıq hala yoxsa qəm səni?!
Gizli niyyətlərin boşa çıxandan
Deyirsən: bağışla, sevirəm səni.

Görürəm, itirib gözəlliyini,
Payız çiçəyi tək indi solmusan.
Bir zaman odlara qaladın məni,
İndimi halıma yanan olmusan?!

Çəkil qabağımdan, di çəkil, yetər,
Bir vaxt saf eşqimə kəsildin qənim.
Başqa birisinə uyub, a dilbər,
Döndərdin zülmətə ömrümü mənim.

İndi məni sevir məsum bir çiçək,
Mən də o dilbərə könül vermişəm.
Elə ki, bu eşqə tutulub ürək
Qaranlıq ömrümü işıq görmüşəm.

Sənin camalına vurulsam da mən,
Məhəbbət haqq vermir bu adətinə.
Nə üçün yenidən göz dikmisən sən
Başqa birisinin məhəbbətinə?

Yox, yox, gərəksizdir sənin bu eşqin,
Həyata keçməyən maraq kimidir.
Sənin məhəbbətin, sənin istəyin
Gündüz yandırılan çıraq kimidir...

***

Titrək dodağında sevirəm sözü,
Sevincdən neyləyim bəs indi, gülüm?
Sevgi dənizimi dalğalandıran
Sənin o mehriban səsindi, gülüm.

Bənövşə boynunu sinəmə əycək,
Özüm də titrədim bir bənövşə tək.
O soyuq əllərin əlimə dəycək,
Ürəyim isindi, isindi, gülüm.

## ÖPÜŞLƏR

Öpüşlər ən şəffaf sudan təmizdir,
O, təmiz içindən təmiz aranıb.
Öpüş müqəddəsdir, öpüş əzizdir,
Öpüş məhəbbətlə ekiz yaranıb.

Şirin laylasını gül-çiçək kimi
Bizim üstümüzə səpib anamız.
Milyon nəvazişlə bizi neçə yol
Basaraq bağrına öpüb anamız.

Bizim dərdimizdir dostun dərdləri,
Onun kədərinə olluq şərik biz.
Ən yaxın adamla əzəldən bəri
Öpüşlə ayrılıb birləşərik biz.

Sevimli insandan de, ayrı qalcaq,
Öpüş həsrətində qalmamışıq biz?!
Çox şeyə tələfxərc olmuşuq, ancaq
Öpüşə tələfxərc olmamışıq biz.

Dildə də, gözdə də vardır qəzəb, kin,
Düşmənlə danışıb, barışmayıbdır.
Dodaqlar öpüşlə danışdığıyçün
Heç zaman düşmənlə danışmayıbdır.



Öpüş sirdaş olub əzəldən bizə,
Onun sevincini gec-tez duymuşuq.
Çox zaman ən böyük həsrətimizə
Kiçik bir öpüşlə nöqtə qoymuşuq.

Öpüşlər ən şəffaf sudan təmizdir,
O, təmiz içindən təmiz aranıb.
Öpüş müqəddəsdir, öpüş əzizdir,
Öpüş məhəbbətlə ekiz yaranıb.

## YAĞAN YAĞIŞ DEYİL

Məni düşündürən çiçəklər deyil,
Bu adla çıxsam da yaşıl çəmənə.
Saçlarımda gəzən küləklər deyil,
Sənin əllərindir, toxunur mənə.

Dənizin qoynuna girdim bu səhər,
Sandım ki, boynuma qollar sarındı.
Dəydi dodağıma duzlu ləpələr,
Mən elə bildim ki, dodaqlarındır.

Bu ani vüsaldan elə yandım ki,
Dondun gözlərimin qarasında sən.
Ürəyim döyündü, elə sandım ki,
Çırpındın qollarım arasında sən.

Qəmli gözlərini heç unutmaram,
Bu sənin gileyli baxışlarındır.
Göydən yağış yağsa, çətir tutmaram,
Yağan yağış deyil, göz yaşlarındır.

Leysanın altında gəzişərəm mən,
O əziz günlərim qayıdar geri.
Sənin göz yaşların mənim ömrümdən
Yuyar o kədərli xatirələri...

**1971**

***

İçin-için yanıram,
Səni xoşbəxt sanıram.
Gözlərini anıram
Söykənib bir palıda.

Yağış süzülür dən-dən,
Unuda bilmərəm mən
Üzünə bəzək verən
O xırdaca xalı da.

Seyr edirəm çəməni,
Sevirsənmi de, məni?
Gözləyəcəyəm səni
Döysə məni yağış da,
Döysə məni dolu da.

Xəzan yeli əsibdir,
Sona göldən küsübdür.
Yaş fərqimiz kəsibdir
Aradakı yolu da.

Getdi vüsallı günlər,
Ayrılığa sinə gər.
Sevməsəydin sən əgər,
Vida vaxtı gözlərin
Dönərdimi buluda?!

## HƏR ÜRƏK BİR DÜNYA DEYİLMİ

Çırpına-çırpına yaşayar,
Hər ürək bir dünya deyilmi?
Bir ömrün yükünü daşıyar,
Hər ürək bir dünya deyilmi?

Onun da yası var, toyu var,
Onun da çeşməsi, çayı var,
Onun da qışı var, yayı var,
Hər ürək bir dünya deyilmi?



Neçə hiss qaldırar başını,
Çarpışar duyğular qoşunu,
Bilsək də biz onun yaşını, –
Hər ürək bir dünya deyilmi?

Orda da gedən var, gələn var,
Orda da ağlayan, gülən var,
Orda da doğulan, ölən var –
Hər ürək bir dünya deyilmi?

Çəməni, meşəsi, bağı var,
Düzəni, dərəsi, dağı var,
Dayansa, bir dünya dağılar –
Hər ürək bir dünya deyilmi?

## QƏRİBƏM

*Vətənimdə qəribəm,*
*Bir şirin dilə bəndəm.*

*Bayatıdan*

Nəyimə gərəkmiş daş-qaşlı saraylar?!
Könlümün başında neçə min saray var!
Vətəni iki səs, iki sim haraylar:
Biri zil, biri bəm,
Qəribəm, qəribəm...

Sevincim kükrəyir qarşımdan ötəndə,
Bəxtiyar oluram əl ələ yetəndə.
İnan ki, olmasan bu geniş vətəndə,
Ey mənim əzizim, ey mənim qəribəm,
Qəribəm, qəribəm...

**19.12.1971.**
**Yerevan**

## ELƏ SUSURSAN Kİ...

*"Unudulmaq böyük dərddir."*
***N.Hikmət***

Görəsən yadına düşürəmmi heç,
Məni düşünməyə vaxtın olurmu?!
Həsrətim qəlbinə eləyəndə köç
Vurğunu olduğum gözlər dolurmu?!

Dərddən yanırsanmı sən için-için,
Eşqimin gülşəni solub, solmayıb?
...Elə susursan ki, guya səninçün
Dünyada mən adlı adam olmayıb...

**1972**

## 31 DEKABR

Bayırda sazaqdır, şaxtadır bu gün,
Çöllərə, düzlərə dümağ qar gəlib
Ən əziz bir gündür ancaq mənimçün,
Evimə ağ donda ilk bahar gəlib.

Xəyalım quş kimi millənir göyə,
Ardınca yelləyim qoy yaylığımı.
Xatirə dünyamı qorusun deyə,
Əsgər göndərirəm subaylığımı.

## QADIN BƏDƏNİ

*Doğrudan şeirdir qadın bədəni,*
*Şeirlər şeiridir, misli tapılmaz.*
***H.Hayne***

Yandırdın ürəyimi,
Şair, atəş kimi sən.
Şeirlər şeiri haqda
Daha mən nə deyim ki,
Hamısını demisən.
Bu şeirlər şeirinin
Elə deyilmi, şair, –
Tək bircə misrasına,



Odlu gözlərə dair
Nə qədər şeirimiz var,
Nə qədər olacaqdır.
Of, bu odlu misralar
Neçəsinin qəlbini
Odlara salacaqdır.
Dünyada heç bir şeir
Bu qədər gəlməz xoşa.
O şeiri oxuyanda
Ürəklər gəlir coşa.
Həsrətli qəlbimizə
Biz də qulaq asırıq.
Allahın yaratdığı
Bu şeirlər şeirinə
Əsrlərdən bəridir
Nəzirələr yazırıq...

**1969**

## KÜÇƏMİZDƏN KEÇƏN QIZ

Varlığa nə darlıq –
Gülüşlərini üstümüzə
ələndərirsən.
Hamının səndən
umacağı var,
Hamıya təbəssüm payı
göndərirsən.
Hər təbəssümünlə
özünə bağlayırsan hamını.
Hər oğul çıxa bilməz
belə düyündən.
Keçirsən
gülümsəyə-gülümsəyə,
Elə bil xəbərin yoxdur
Hamını bəxtəvər
elədiyindən...

**1977**

## SƏNİN TƏBƏSSÜMÜN, MƏNİM QƏLBİM VƏ BAXIŞLARIM

Gözlərim gözlərinə
    həmişə həsrət olub.
Ona görə belə baxıram
    bəbəklərinə.
Sən allah, bəs demə!
Gözlərin qara
bulud kimi dolub,
Təbəssümün
bahar yağışı kimi
Yağır üstümə.
Yağış gözləyən səhra kimi
Çoxdan gözləyirdim bu günü.
Baxışlarım havada qapır
təbəssümünü...

1975

***

Eşqim bilirəm ki, qəlbinə dolub,
Sənin ürəyində yaşayıram mən.
Qorxuram axırda göz yaşı olub,
Süzüləm müqəddəs kirpiklərindən.

1975

## TƏSƏLLİ

Ürək isinməyir hicran oduyla,
Neyləyim vüsala tuş olmaq üçün?
Bu şeiri yazmıram şeir adıyla,
Yazıram ürəyim boşalmaq üçün.

Həsrətin qəlbimi elə didir ki,
İnsanıq, hər dərdi götürürük biz.
Üz-üzə gələndə səbəb nədir ki,
Yerişimizi də itiririk biz?



Ürəklərdə həsrət, gözdə qəm izi,
Məhəbbət gizlənir dumanda, çəndə.
Guya ki, görmürük bir-birimizi,
Mənim fikrim səndə, səninki məndə.

Axı kim deyir ki, darda, çətində
Sən məndən, mən səndən soyuyasıyıq?
Yoxsa xatirələr səltənətində
Keçmişə çevrilib uyuyasıyıq?!

Bəzən düşünürəm, bəlkə sınaqdı
Bunların hamısı? – Şirin bir xəyal...
Gülüm, bəlkə hicran bizə qonaqdı,
Yenə öz evinə dönəcək vüsal?

Çox da ürəyimdə hələ ümid var,
Dəyib qayalara eşqimin ilki.
Bizim bu ayrılıq, nə etmək olar
Dünyada birinci hicran deyil ki?...

## KƏND CIĞIRINDA

Qonaq gəldim doğma kəndə,
Könlüm, gözüm təzələndi.
Coşdu ürək, daşdı ilham,
Varaqlara söz ələndi.

Bu o yoldur, bu o cığır,
Çeşmə üstdən dağa çıxır.
Yeridikcə fağır-fağır
Xatirələr çözələndi.

Sanki məni vurdu şimşək,
Qabağımda bir şux çiçək.
Nazı dedi, məndən əl çək,
Gözü dedi, düzələndi.

Könlümü o baxış tutdu,
Xatirələr naxış tutdu,
Birdən bizi yağış tutdu,
Nur damcılar süzələndi.

Həyadan od tutub yandı,
Gülümsədim, xumarlandı,
Baxışımla tumarlandı,
Baxışımla busələndi.

Nə olsun ki, yağış yağır,
Yeriyirik ağır-ağır,
Bir vaxt məni yoran cığır
Eh, nə yaman kəsələndi?!

Mənə baxdı o gizlicə,
Ayrılanda əsdik necə?!
Göz yummadım həmin gecə
Yatağıma köz ələndi...

## SƏNİN SÜKUTUN

Sən mənim ömrümə silinməz bir iz
Qoyandan gözümə getmir yuxu da.
Dünyada bircə yol görüşmüşük biz
O da ki yuxuda, şirin yuxuda.

...Mehriban dost kimi gəzdik o gecə,
Sonra bir qayığa mindik səninlə.
Baxıb köks ötürdü çoxu gizlicə,
Qibtə hədəfinə döndük səninlə.

Sən susdun, danışdım mən kəsik-kəsik,
Qara gözlərinə dikildi gözüm.
Sənin sükutunu tələm-tələsik
Xatirə lentinə köçürdüm özüm.

Nə vaxt ki, yetəcək vüsalın sonu,
Nə vaxt ki, hicrandan inləyəcəyəm,
Dinəcək xatirə maqnitafonu,
Sənin sükutunu dinləyəcəyəm...



## DİNDİ O ŞİRİN SÖZLÜM

Dindi o şirin sözlüm
Dillərmi xəbər tutdu?
Güldü o ala gözlüm,
Güllərmi xəbər tutdu?

Günləri aya qatdım,
Axır murada çatdım.
Layla selinə batdım,
Yellərmi xəbər tutdu?!

Toppuş yanağı aldı,
Ölmüş elə bil baldı.
Birdən o çapan çaldı,
Əllərmi xəbər tutdu?!

Bir gün qız ayaq açdı,
Evdən həyətə qaçdı.
Mən bir quş olub uçdum,
Çöllərmi xəbər tutdu?!

Gur saçlar olub dən-dən,
Yoxsa qoca oldum mən?!
Ah, dalğalı ömrümdən
İllərmi xəbər tutdu?!

Xoşbəxt yaranıb insan,
Ağ gün diləyir hər an,
Ümman qədər arzumdan
Sellərmi xəbər tutdu?!

**1976**

***

Daşda kəklik çolpaları fərə-fərə,
Ov gəzirəm tala-tala, bərə-bərə.

Başqa ceyran ləpirinə düşərəmmi,
Ala gözlüm, gözlərini görə-görə?!

Sənin üçün təzə nəğmə oxuyaram,
Bulaqların səsinə səs verə-verə.

Səssiz-küysüz bir talada görüşərik,
Sevincimiz sığışarmı göyə, yerə?!

Ucalarıq, unudulmaz görüşləri
Ömrümüzün binasına hörə-hörə.

Dolanarıq meşələri qarış-qarış,
Xoş ətirli çiçəkləri dərə-dərə.

Bu vüsalın tükənməyən şərbətini
Paylayarıq sevənlərə dərə-dərə...

1971

***

–Yenə buludların tutqundur üzü,
Yəqin ki, səmanın sözü var, – dedin.
Daha bu qayğılar bezdirib bizi,
Ölsəydik, canımız qurtarar, – dedin.

Mənim ürəyimi budur ağrıdan,
Azalır, sozalır, quruyur ömrüm.
Qurtula bilmərəm dərddən, ağrıdan,
Qayğılar içində əriyir ömrüm.

Elə bulanığıq, durulmuruq ki...
Hey söhbət edirik ürəyimizlə.
Biz öz arzumuzla doğulmuruq ki,
Ölə də bilmərik diləyimizlə...

1991

## SƏN DEMƏ

Köksümün altında çırpınır ürək,
Qorxuram bir azdan ömür qurtara.
Qatardan ayrılan qərib durna tək
Uyuşa bilmirəm özgə qatara.



Əzabla gəlmişəm bu qədər yolu,
Arabir köksümdən qopub qərib ah.
Gedirəm, avtobus adamla dolu,
Uyuşa bilmirəm kimsəyə, Allah?

Ürəyim alışır gizli ocaqda,
Hissləri ovutmaq nə adət imiş?
Sən demə, bir qərib dayanacaqda
Yolumu gözləyən Səadət imiş...

1991

## HƏSRƏT ÇİÇƏKLƏRİ

Təşnəyəm, gəl paralanmış
Köksümə yağış kimi yağ.
Bircə yol bulud gözünlə
Qan çəkən gözlərimə bax.

İllər boyu sənin əksin
Ürəyimdə gecələyib
Bəbəyimdə həsrətinin
Çiçəkləri qönçələyib...

## CƏZA

Körpədi, quzuya bənzər,
Gözləri güzgüyə bənzər.
Beli elə incədi ki,
Kəməri üzüyə bənzər.

Qarşısında nəfəs dərdim,
Təzələndi köhnə dərdim.
O gözlərin aynasında
Saçlarımı dümağ gördüm.

Təravəti yaza verib,
Saflığı bu qıza verib.
Gözüm görür, əlim çatmır,
Tanrı mənə cəza verib...

## İŞ PLANI

İdarədə Çaqqalın
İşi yağ tək gedirdi.
Şirin iş planını
Tülkü təsdiq edirdi.

***

Payız gedir, başı qarlı
Dağlardan xoşumuz gəlir.
Qış bizi elə bezdirir,
Bahardan xoşumuz gəlir.

İllər ona qanad verib,
Hər insan yaşa borcludu.
Qış bahara borclu deyil,
Baharsa qışa borcludu...

## GÖZƏLLİK DƏ ƏMANƏTDİ

Elə arxayın gəzirlər
Bu dünyanın gözəlləri,
Görmürlərmi xiyabanda
Xışıldayan xəzəlləri?

Bilmirlərmi gün gələcək,
Çiçək kimi solacaqlar.
Yada salıb ötən günü
Bulud kimi dolacaqlar.

Payız sarı yarpaqları
Budaqlardan qoparacaq.
Ömrün yeli xəzəl kimi
Onları da aparacaq.

Elə arxayın gəzirlər,
Unudurlar bunu ancaq:
Gözəllik də əmanətdi,
Borc verilib, alınacaq...

**1991**



***

Sinəmə söykədin titrək sinəni,
Od saçan gözünə həsrətlə baxdım.
Öpmək istəyirdim təzəcə səni,
Telefon zəng çaldı, yuxudan qalxdım.

Gülüm, sən imişsən zəng edən elə,
Titrəyir əllərim, nə deyim sənə?
Ay insafsız gözəl, yuxuda belə
Üzündən öpməyi çox gördün mənə...

***

Səni ellər qınayar,
Qılıncı sal qına, yar...

***

Vaxtında deyilmədi,
Sözlər sinədə qaldı.
Bu günün dərdini çək,
Dünən dünəndə qaldı.

Arif səssiz iş görər,
Hərif döşünə döyər.
Ömrün bir xoş gecəsi
Min uzun günə dəyər...

**1986**

## ƏLİM YUXU GÖRƏR

Qəlbimi doldurub nurla hər səhər
Önümdən keçirsən vüqarlı, məğrur.
Süzülüb axanda ilahi gözlər
Doğrayır içimi bir şirin ağrı.

Baxışın közərdir yanıb-sönəni,
Verirsən hamıya dadlı işgəncə.
Qabarda-qabarda meydan sinəni
Meydan oxuyursan qocaya, gəncə.

Mələk qarşısında neyləsin bəndə? –
Yanında gödəkdi dilim, bilirəm.
Gözlərim gözündə düşsə də bəndə,
Çatmaz əllərinə əlim, bilirəm.

Sinənə tökmüsən xoşbəxt telləri,
Hər biri qəlbimdə dərdi-sər olar.
Gecə yuxu görər həsrət əllərim,
Sənin əllərində bəxtəvər olar...

## BU GÜN HEÇ KİM İLƏ GÖRÜŞMƏYƏCƏM

Həsrətin buz dağı çevrildi selə,
Əlinə toxuncaq od tutdu əlim.
Sən mənə əl verib görüşmək ilə,
Bir dünya səadət bəxş etdin, gülüm.

Mən səndən razıyam yerdən göyəcən,
Sən mənə bəxş etdin göyü, dənizi.
Bu gün heç kim ilə görüşməyəcəm,
Əlimdən pozular əlinin izi...

**1986**

## DÖRDLÜKLƏR

***

Ud bu dağın havasından,
Əl çək qarın davasından.
İşə sal şirin dilini,
İlan çıxsın yuvasından.

***

Qənd umdum, soğan çəkdilər,
Arzuma sığal çəkdilər.
Ürəyimi solda görüb,
Yolumu sağa çəkdilər.



***

Qismətin qarşına gələr,
Çirkin də xoşuna gələr.
Darıxma, dünya belədi,
İş adam başına gələr.

***

Zər axtarır zərgər əli,
Gözü gülür zər görəli.
Elə bir inci tapıb ki,
Toxunmayıb zərgər əli.

***

Səni görüb odlanmışam,
Alovlardan atlanmışam.
Yel nə bilir gül qədrini,
Dadmışam ki, dadanmışam.

***

Ocaq yanır, köz doğulur,
Ürək yanır, söz doğulur.
Qələmlə kağız öpüşür,
İncə-incə söz doğulur.

***

Adam var ölüb, yaşayır,
Odun köz olub yaşayır.
Xanəndə səsə çevrilir,
Şair söz olub yaşayır.

***

Güllü biçənək biçilib,
Gözəl çiçəklər seçilib.
Dörd misralıq bayatının
Boyuna həsrət biçilib...

***

O ağacda bir çiçəkli budaq olaydım,
Bu çəməndə sərin sulu bulaq olaydım.
Uşaq vaxtı böyüməyi arzulayırdım,
İndi isə deyirəm: – Kaş uşaq olaydım!

***

Çiçəklər içində ürəyim itib,
Mən necə onlara könül verməyim?
Yolumun üstündə bir lalə bitib,
Bilmirəm neyləyim: dərim, dərməyim?

***

Makinam xarab olanda,
Barmaqlarım gizildəyir.
Maşınım xarab olanda
Ayaqlarım gizildəyir.

***

Zırlamalar ucbatından
Yenə qaldı iş başına.
Əlindən iş gəlməyənlər
Niyə gəldi iş başına?

***

El-obadan ayrı düşən
Dağların gözü yol çəkir.
Külün altında uyuyan
Ocağın közü yol çəkir...

***

İndi kəndimizdə işıqlar sönüb,
Ürəyim köksümdə yanar bir ocaq.
Əgər biz olmasaq, geriyə dönüb,
Sönən tonqalları kim yandıracaq?

***

Bu sevgiyə, bu ülfətə
Hamı heyran qaldı, qaldı.
Çiçək ana, arı ata,
Balalarsa baldı, baldı...

***

Tarı ustaya çaldır,
Yad əldə sim inciyər.
"Dız"ı olmasa, baldı,
Baldızdan kim inciyər?



***

Qolunda belim yandı,
Əlində əlim yandı.
Sənin adını çəkdim,
Ağzımda dilim yandı.

***

Ərə bir söz deyəcək,
Uyma yada, düşmənə.
Göz üstündə yerin var,
Gəlib qonaq düş mənə.

***

Zarafata, mazağa
Özünün də xoşun var.
Yoxsa kim deyə bilər
Gözün üstə qaşın var?

***

Bu qız necə cavandı,
Bu qız necə sütüldü.
Bir həsrətli baxışla
Ütüm-ütüm ütüldü...

***

Yaxalayıb mərdi azar,
Tələ qurub mərdiməzar.
Dönməz,
Ölər kişi kimi,
Namərd etməz mərdi məzar.

***

Ət alırsan, yağ qurtarır,
Ərəsən oldum, ərəsən.
Xırda qayğılar qoyur ki,
Böyük dünyanı görəsən?

***

Avtobusda tünlükdü,
"Volqa"lar bomboş gedər.
Sən kef çək, mən dərd çəkim,
Heç Allaha xoş gedər?

***

Sənin yerin "bron"du,
Mənim yerim yox yatam.
Qardaşlıq, bərabərlik
Belə olurmuş, atam?

1985

***

Torpaq səxavətlidi,
Alqış belə ustada.
Bir qəbirlik yer verir
Düşmənə də, dosta da...

1986

***

Doğma olammarıq hər görüş ilə,
Gərək ürəyimə rişə salasan.
Süzüb gözlərini sən baxma elə,
Məni bu yaşımda işə salarsan.

***

Yalvarmışıq, xahişimiz yerə düşüb,
Özümüzə özümüz yol açmalıyıq.
İki dağıq, aramıza dərə düşüb,
Qovuşmaqçın bircə yol var: uçmalıyıq...

***

Çox əsəbi olmuşam, məndə qalmayıb səbir,
Düşmənin yalan sözü qorxuram ola gerçək.
İşvələrin şumlayır, təbəssümün dən səpir,
Deyəsən ürəyimdə məhəbbət göyərəcək...

***

Hər adam tapa bilmir məclisdə öz yerini,
Qara ağa çevrilir, ağ dönüb olur qara.
Yüz yaxşı söz deyəsən, eşitməzlər birini,
Bir pis sözündən ötrü səni çəkərlər dara...

1987



## ADİLƏRİN ORBİTİNDƏ

Ay böyüklər, danlamayın siz bizi hər an,
Üzə durar, istedadın bir üzü sərtdi.
Böyüklərin sözü ilə oturub-duran
Böyük adam ola bilməz, bu həqiqətdi.

Yeri gəlsə, şimşək kimi çaxmağı yoxsa,
Bircə anın içindəcə gözdən düşər o.
İstedadın cızığından çıxmağı yoxsa,
Adilərin orbitində adiləşər o.

## MƏDƏNİYYƏT ARXASINDA GİZLƏNƏN KİŞİ

İncik salmaq istəmirsən, dostum, heç kimi,
Fərq qoymursan, düşmən durub, ya dost qarşında.
Əzilirsən, büzülürsən xanımlar kimi,
Sığallıdı söhbətin də, davranışın da.

Sitatlarla danışanda atlanır döşün,
Baxan deyir: bu zalımda yaxşı bilik var.
Mədəniyyət arxasında gizlənən kişi,
Kobudluqda heç olmasa, təbiilik var...

1985

## BİZİM ARAMIZDA ON İLLİK YOL VAR

Dənizə qaçırdım mən səhər-səhər,
Yolun yarısında sən məni keçdin.
Ha qaçdım, çatmadım sənə, ey Ülkər,
Qəlbimdən bir həzin gizilti keçdi...

Dənizin üstündən uzanır qollar,
Ala gözlərində cilvələnir naz.
Bizim aramızda on illik yol var,
Sənin yerişinlə bizimki tutmaz...

1985

## BU DA BİR DƏRD

Ayım, ulduzum, danış, din,
Sonu yox gileylərimin.
Mənim sevgi göylərimin
Ayı batmaya, batmaya.

Səni gördüm mən bu səhər,
Niyə oldum bəs bir təhər?
Mən ki uyan deyildim hər
Qaşı çatmaya, çatmaya?

Elə baxdın, çaşdım özüm,
Ah çəkdin, közərdi közüm.
Yoxsa yuxu görür gözüm,
Gülüm, yatmaya-yatmaya?

Gözmü dözər bu tüstüyə?
Həsrət qalmışıq istiyə.
Göz görə, könül istəyə,
Əlin çatmaya, çatmaya...

1980

***

–Nə xoşdu bir yerdə olmaq
O ay üz ilə, üz ilə.
Nə ağırdır, sevgilindən
Əlin üzülə, üzülə.

–Ay gözündən bəlli igid,
Var hər işin həlli, igid.
Bacarmazmı əlli igid
Qorxaq yüz ilə, yüz ilə?

–Fürsət varkən arzuna çat,
Qoy üzünə gülsün həyat,
Dostla keçən bircə saat
Dəyər yüz ilə, yüz ilə.



–Sənsiz işim müşkül olub,
Çox arzum yanıb, kül olub.
Sən gələn yola gül olub
Qəlbim düzülə, düzülə...

1978

## QİBTƏ

Sellər, sular bir anda durulaydı,
Bu arzunu necə deyim sənə mən?
Deyirəm kaş gəzdiyin yer olaydım,
Ayaqların dağ basaydı sinəmə.

Qızıl üzük barmağını boğubdur,
Mənə baxdın, qarsdı üzümü atəş.
Dedim: kimin taleyinə doğubdur
Bu gözəllik, bu zəriflik, bu günəş?

1977

## HƏR SƏHƏR QARŞIMDAN BİR GÖZƏL KEÇƏR

Onu görən kimi ürəyim dinər,
Baxışım gəzdiyi yolları ölçər.
Dönüb oğrun-oğrun baxanda mənə,
Gözlərim gözündən təbəssüm içər,
Hər səhər qarşımdan bir gözəl keçər...

Yanından biganə necə keçim mən?
Gözlərim deyir ki, olum elçin mən.
Baxışlar içindən, gözlər içindən
Gözləri gözümü arayar, seçər,
Hər səhər qarşımdan bir gözəl keçər...

Unuda bilmirəm onu bircə an,
Könlüm nurla dolur söküləndə dan,
Sıyrılıb gecənin qaranlığından
Ömrümə, günümə bir səhər köçər,
Hər səhər qarşımdan bir gözəl keçər...

1980

## QIZ OLARMI BU QIZ KİMİ

Gör gözlərin nələr deyir? –
Qız olarmı bu qız kimi?
–Səninkiyəm, ürəyini
Saxla buz kimi, buz kimi.

Gəlişi dönər bayrama,
Bir az zülmkardır amma...
"Yox" sözünü o, yarama
Səpər duz kimi, duz kimi.

Oğrun-oğrun məni süzdü,
Saçlarında əlim gəzdi,
Dodaqlar elə bil közdü,
Əllər buz kimi, buz kimi.

Ayağımdan asılıb daş,
Ayrılıq olmayaydı kaş.
Hər gözündən bir damla yaş
Axdı bir cüt ulduz kimi...

**1977**

## EŞQİMİN DAN ULDUZU

Ayağım qopmayır yerdən,
Sanma ki, çıxıb getmişəm.
Pəncərənin qarşısında
Sanki ağacam, bitmişəm.

Nura həsrət bəbəyimə
Yuxusuzluq güc eləyib.
Ulduzlar sabaha qədər
Gözlərimdə gecələyib.

Birdən açıldı pəncərən
Səni sevənin üzünə.
Xoş sabahdan xəbər verdi,
Vuruldum ülkər gözünə...

**1980**



## BU TORPAĞIN ÖVLADI

Qurban olum o yetirən gözələ,
Mənim üçün müqəddəsdir el adı.
Evdarlıqda, sədaqətdə öz yarım,
Gözəllikdə, zəriflikdə Eladı...

Üstümüzə nur yağırdı gözündən,
Od götürdüm yanağının közündən.
Məsumluğu sevgilimin üzündən
Xəbisliyi, qısqanclığı qovladı.

Belə çiçək görməmişdim çəməndə,
Gözəlliyi saldı bizi kəməndə.
Ala gözlər canmı qoydu de, məndə? –
Bir baxışla ürəyimi ovladı.

Can sadağa şəkərinə, şəhdinə,
O gözlərin istəyi nə, əhdi nə?
Bilirəm ki, peymanına, əhdinə
Dönük çıxmaz bu torpağın övladı...

**1981**

## ELƏ BAXMA

Bir himə bənd imiş ürəyim, bağışla,
Bilməzdim qarşında bükülə bilərəm.
Mən dağam, sən dərə, bir oğrun baxışla,
Uçulub qoynuna tökülə bilərəm...

**1977**

## GÖZLƏYƏ-GÖZLƏYƏ

Döyər dolu, qar ömrünü,
Unutma bahar ömrünü.
Bağban uzadar ömrünü
Barı gözləyə-gözləyə.

Dolandım düzü-dünyanı,
Ömür keçdi, o yar hanı?
Ac toyuğun çıxar canı
Darı gözləyə-gözləyə.

Dilə gəldi könül tarı,
Gözlərimin kökü sarı.
Ömür keçib oldu yarı,
Yarı gözləyə-gözləyə...

**1980**

## BARLI BUDAQLAR

Bir ağac var, arzuları kökūdü,
Gündən-günə artır eşqi, həvəsi.
Bir ağac var, budaqları ikidi,
Bir dünyaya bəs eləyər meyvəsi.

O budaqlar ürəyimin yarıdı,
O budaqlar qol götürüb toyumda.
O ağacın budağının barıdı
Paltarım da, çörəyim də, suyum da.

O budaqlar nur gətirib gözümə,
Gözəl günlər görəsiyəm, görəsi.
Bax o ağac elə mənim özüməm,
Bir əlimdi budağının hərəsi...

**1980**

## XALLI QIZ

Sinəni süfrə tək
açmışdın qabağıma,
Boynuma dolamışdın
qollarını.
Yuxuda bir ac xoruza dönüb,
dənləyirdim xallarını...



## GÖZLƏR

Bəbəklərin –
ağ dənizdə
qonur ada.
Kirpiklərin –
qara çəpər.
Göz yaşları
dalğasıdır bu dənizin,
kükrəyəndə
sahillərə inci səpər...

**1981**

## ARXA

Xor – səs dənizidi, hər səs bir dalğa.
Solist ürəklənib, keçib qabağa.
Nəğmələr düzülüb hey qatar-qatar,
uçar eldən-elə əsən küləklə...
Arxada səsinə səs verənlər var,
Onunçün oxuyur solist ürəklə...

## KƏHƏR

Birincilik arzusuyla
Dincliyinə qəsd elədi.
Sicim kimi uzun yolu
Kəhər atım dəstələdi.
Yolda qoydu yolçuları,
Köhlənləri üstələdi.
Ayaqları dəyən yerdə
Torpaq yandı, tüstülədi.
Keçilməmiş yoxuşlarda
Təzə cığır bəstələdi...

**1977**

## KAŞ BİR DAĞ ÇAYI OLAM

Kaş bir dağ çayı olam,
Sularım təşnələrin
Hər an dadına yetə.
Ömrüm dağda başlayıb,
Ömrüm dənizdə bitə...

1977

***

Hünərin var atını çap,
Hünərin var, çat, al narı.
Sənin üçün saxlamışam
Sinəmdəki çatal narı....

## LƏÇƏYƏ YAZILAN ŞEİR

Vurulmuşam bu dağların
Gözəlinə, göyçəyinə.
Ürəyimi tapşırmışam
Hər otuna, çiçəyinə.

Düzənlərdə izim qalıb,
Ocağımda közüm qalıb,
Bu güllərdə gözüm qalıb,
Könül açdım bircəyinə.

Quşlar ötdü, qulaq asdım,
Mən gələndə güllü yazdı...
Göz yaşımla şeir yazdım
Qızıl gülün ləçəyinə...

Qəlbinə toxundum bəlkə?
Bu nədi, yuxudu bəlkə?
Ləçəyə yazdığım şeiri
Arılar oxudu bəlkə?

1983



## MƏNİM ÇİÇƏKLƏRİM AÇILDI YENƏ

Bu doğma yerlərin gülləri üstdə
Kəpənək ürəyim uçurdu yenə.
Yamacdan düzənə endim ahəstə,
Mənim çiçəklərim açıldı yenə.

Qaranlıq düşdümü, nur saçır güllər,
Gözlərim elə bil bir ac arıdı.
Günəş batan kimi göz açan güllər
Elə bil çəmənin ulduzlarıdır.

Sanki əl uzadıb isinir dağlar,
Hər çiçək bənzəyir sehrli közə.
Günəş işığında açmağa nə var,
İş odu gecələr dəyəsən gözə...

1984

## ÇƏTİR

Qaralan buludlar hönkürdü bərkdən,
Sel oldu göylərin gözünün nuru.
Bir gözəl boylanır bir aynabənddən,
Pəncərə önündə bir oğlan durub.

Hiss etmir üstünə yağan yağışı,
Onun gözü yolda, ürəyi səsdə.
Elə bil çətirdi qızın baxışı
O xoşbəxt cavanın başının üstdə...

## BİR ANIN SEVİNCİ

Onun ala gözlərindən
Çay axır, üzümə baxmır.
İstəyirəm çıxıb gedim,
Ayağım sözümə baxmır.

Az qalıram dərəm onu,
Bu çiçək qorxudur məni.
Gözlərinin içindəki
O istək qorxudur məni.

Gülümsəyir: – Sevməyənin
Kədəri nə, sevinci nə?
Bir ömrü qurban verirəm
Bircə anın sevincinə...

## SEVGİ GÖYDƏN GƏLƏN İLAHİ PAYDI

Gizli bir sevdayla göynəyir için,
Qanadsız bir quşdu sevgisiz ürək.
Sağ ol bu ilahi məhəbbət üçün,
Bu eşqin önündə baş əyim gərək.

Günahsız könlünü az did-parçala,
Özünü danlamaq nə gərək, gülüm?
Sevgi göylərində qoşa açılan
Kövrək qanadların mübarək, gülüm!

Sevənin sirdaşı ulduzdu, aydı,
Sevmisən, ürəyin qərq olub zərə.
Sevgi göydən gələn ilahi paydı,
Niyə utanırsan bu paya görə?!

## İKİ BAŞ

**Zarafat**

Gedib o dünyanı görüb gəlmişik,
Qəlbimiz sevginin odunu görüb.
Ay quzum, sənin də, mənim də başım
Cərrah bıçağının dadını görüb.

Məhəbbət nə başa baxır, nə yaşa,
Qəlbdə sevgi varsa, dünya gözəldi.
Gəl, başı xarab yar, verək baş-başa,
Bəlkə iki başdan bir baş düzəldi...



***

*Xəyalə xanıma gələcək sevgilisinin dilindən*

Əgər çiçəkləməsəm,
Çətin ki, barım olsun.
Xəyalıma gəlməzdi
Xəyalə yarım olsun...

Könlüm bu gözəl qızın
Qadasını al, – deyir.
Xəyaləyə məhəbbət
Realdı, xəyal deyil...

Qəlbimə sevgi düşüb –
Dünya necə gözəldi!
Təbəssümü içimdə
Sönən közü közərdir...

Könlüm olsa əlində
Sevgi dolu piyalə,
Onu daşlara çalıb,
Qırmazsan ki, Xəyalə?!

## AYRILIĞI İLLƏR SALIB

Can atsam da günəşə mən,
Elə bilmə möhtəşəməm.
Sən qönçəsən, mən həşəməm,
Qəlbimdəki güllər solub.

Ah çəkmək gəlir arıma,
Əzizim, məni arama!
Səninlə mənim arama
Ayrılığı illər salıb.

Qorxma fələyin işindən,
Gül dər dağların döşündən.
Məcnun tək eşqə düşəndən
Pənahımız çöllər olub.

Baş açmıram sözlərindən,
Sanki gəlir söz dərindən.
Müjdəm – həsrət gözlərindən
Axan dəli sellər olub...

***

Ürəyin göynəmir həsrət közünə,
İçimdəki ağrıları duymursan.
Mən qəlbimin qırxıncı qapılarını
taybatay açmışam üzünə. –
Sən məni
otuz doqquzuncu qapıya da
yaxın qoymursan...

**29.03.2009**

***

Kiməsə uyub getmək olar,
Aləmi qatıb getmək olar.
Hər şeyi qoyub getmək olar,
Hər şeyi atıb getmək olar –
Dərdi necə qoyub gedim,
Dərdi necə atıb gedim? –
Məni yoldan saxlamayın,
Daha vaxtım çatıb, gedim...
Sözüm tikan, oxdu mənim,
Ağrılarım çoxdu mənim.
Dərdim, dur baş alıb gedək,
Səndən doğmam yoxdu mənim...

**29.03.2009**

***

Mən sevgimdə də,
nifrətimdə də
nadirəm,
İçimdəki böyük
sevgini belə
öldürməyə qadirəm...

**31.03.2009**



***

Mən elə bilirdim ki,
sevgi günəşim əridib,
İçimdəki qarı aparır.
Ancaq duyuram ki, zamanın selləri
əlimdən alıb yarı aparır.
Sənin soyuqluğun, içindəki gizli dünya
Bizi "salam"dan
"sağ" ola sarı aparır...

***

Havada tutmusan
gəlinin atdığı gülü;
İçin gülür, gülür...
Ürəyin istəyən varsa,
Kimə görəsə, nəyə görəsə
evdə oturub qarımaq olmaz.
Onsuz da məhəbbəti
hədə-hərbə ilə qorumaq olmaz...

***

Mənim üzümə bağlanan
gizli bir dünya var
sənin içində.
Bunu vaxtında etiraf etmək
yaxşı olmazdımı
mənim üçün də,
sənin üçün də?!...

**31.03.2009**

***

Üzünü üzüm bilirəm,
Gözünü gözüm bilirəm.
Biz qaynayıb-qarışmışıq,
Mən səni özüm bilirəm...
Ömür karvanı yoldadır,
Biz üzü qışa gedirik...
Bu dünya şəkər, bal dadır,
Çox şükür, qoşa gedirik!

**2009**

# KİTABIN İÇİNDƏKİLƏR

**Nağıl dünyası**


Ey ulu yaradanım.....3
Bağışla, Allahım.....5
Həyatımı sevgi nuru bəzəyir.....6
Tanrıya da xoş gedər.....6
"Qəlbi təmiz olanları".....7
Ana torpaq.....7
İçərişəhər.....7
Bakı.....9
Kimin bəxtinə.....9
Yağış altında düşüncələr.....10
"İşıq arzulayan toxum".....10
"Bu necə dünyadı".....11
Mənim vəfalı yarım.....11
Bəyaz nağıl.....12


**Sevgi duyğuları**


Dəniz, sən və mən.....13
Dəniz sahilində.....13
Niyə mənə könül verdin.....14
Heç nə bağışlaya bilmədim sənə.....15
Təzə duyğular.....16
Gözlərin gözümü əsir eyləyib.....17
Məni gözləyirsən yuxularında.....18
"Gözlərin qərq olub".....18
Elə-belə yaşamadım dünyada.....19
"Məni qoruyardın imkanın olsa".....20
Yenə göz-gözəyik.....21
Dönmə yolundan.....22
Sonu ayrılıqdı bu məhəbbətin.....23
"Səni yolundan". Dodaqlarım çətin yalan söyləyə.....24
Hardan gəldin.....25
Sənli xatirələr.....26
Sarı kəpənəyim. Sənsizlik.....27
"Deyəsən heç əzab vermir ayrılıq ona". "Bəlkə titrək əllərin".....28
Sən dağa çıxıb gəzirsən. Öyrəş mənsiz yaşamağa.....30
"Çarə varmı gün əyilsə batmağa".....31
"İçimdə buludlar gəldi baş-başa".....31
"Sən aldığın nəfəs...".....32
"Sönməyə məhkumdur ən gur çıraq da".....32
"Mənim qəlbim qan ağlayır".....33





"Tək adam neylər qoşuna".....33
"Füzuli babam dərd əlindən".....33
"Sən məni hər ay ara".....34
"Gözlərini görəndə".....34
"Təpəmdən tüstü qalxır". "Duman tək üstümə çökmə, əzizim.....35
Şeh və çiçək. "Bir gecikən məhəbbətin".....36
"Hər gözün bir topa bulud". "Ömrün boyu dağ seli tək".....37
"Niyə özünü yorursan". "Zarafat".....39
İlk sevgi çiçəyi. "Daha gecənin yarısı'".....40
"Gəl çəkim sığal".....41
"Nəfəsim – saçlarında", "Aldatmasın səni", "Ömür karvanı".....42
"Ay bahar yarpağı". Nə tez bu sevginin xəzanı gəldi.....43
"Mən sevdiyim məndən qaçır". "Sən ürəyimin".....44
"Həsrət dağ çəkir". "Mənə ruhum deyirdin".....45
Niyə çıxdın qarşıma. Hər gün gözləyəcəm yolunu sənin.....46
"Heyf, taleyində altun qəfəs var".....47
"Şiltik-şiltik olub daha". "Qəlbimdəki həsrət çiçəklərini".....48
"Gözü şehlə siləlenib". Mən bir quru budaq idim.....48
"Eşq əzabı dərman imiş". "Qınaq yeri olmamaqçün".....49
"Ürəyim tutulub dərdə, azara".....49
"Onsuz da ömrüm boyu". Hara baxıramsa səni görürəm.....50
"Danlamağa haqqım yoxdu".....51
"Həyadan qızaran üzün". Dördlüklər.....52
"Sənin səsin". "Sevgidə lazımmı sınaq". "Neçə əsrlərdi ki".....53
Elə bilirsən ki.....54
"Mənə qovuşmaqdan ötrü". Xilasedici.....55
Tufandan qabaq. "Həmişə mənim ömrümü".....56
"Bilmədim sən niyə xəta eyləyib". "Arxanca boylanaraq sənə".....57
"Gözüm tora düşüb qara xalında".....58
"İsindin köksümün qaynar oduna". "Yazırsan ki".....58
"Sənə Nabrandan". "Bəlkə qismətimizi".....59
"Xəbərin yox bu dastanı bitirməyindən".....59
"Bizim sevgimiz". "Bu sevginin sonu yoxdu".....60
"Səninlə görüşməyin". Bu payızın ilk yağışı.....61
"Elə tələsirəm ki". "Sarı donlu gözəlim".....62
"Dayanıb intizarla". "Kim bilir". "Bir ürək göynədən həsrət".....63
"Əgər kimdəsə". "Əgər deyilsə". "Əzizim, qəlbimi sanma oyuncaq".....64
"Sevgilisi üçün çiçək dərənin". İndən belə.....65
Göylərin yeddinci qatındayam mən.....65
"Arzular içində boğulub sənin".....66
"Çıxıb getdi uzaqlara sevgilin".....67
"Arzuların alt-üst oldu".....68
"Deyirdim: -Bu eşqin gəldi sonumu?" "Qara bulud kimi".....69
Tufanlar önündə.....70
"Bilmirsən yer nədir".....71

"Axı kim sənin"...72
"Bu sevgi". "Gecələr məni anmadan". "Şeirlərimi oxuyanda"...73
"Gözlərinin yaşı". "Sevmək günah deyil"...74
"İndi ürəyin". "Sənin sevgi dünyanda". "Səni bir nəfər alıb"...75
"Sən adi bir qız olsaydın". "Ömür boyu özünə". "Gözümüzün önündə"...76
"Sevdalı gözlərin"...77
"Mənim eşqim"...78
Həsrət gülləri – sevgi xəzanı...78
"Həsrətin elə bil ki". Yenəmi...79
"Bu gecə"...80
"Könül hər gözələ uymasın gərək"...81
"Dodağım həsrətdi şeh qurutmağa"...81
"Aramıza aylardan"...81
"Bizi görüşdürdü". "Qıyma ki, ürəyim sına"...82
Sevdalı ömür...83
Sənin pıçıltın...84
Damlalar...85
Sən məndən ayrılanda. "Qorxuram ki"...86
"Bu məhəbbət". "Dəvəçiylə dost olanın". "Sənin sevdiyin insan"...87
"Bu da sənin taleyindi". "Ürək heç kəsin"...88
"Yenə qəm buluduna". "Həsrət dilimə kilid vurub"...89
"Mənə sevgi müharibəsi". "İçinə dinclik, rahatlıq"...89
"Yuxudaydım". "Həsrətindən qəlbim yara-yaradı"...90
"Dalıb dərin düşüncələrə"...90
"Onsuz da sözümə baxmır". "Niyə yoxdu bir səs-soraq"...91
"Təbəssümün". "Bu məhəbbətin sonu kaş hicranla bitməyə"...91
"Səndən bir xəbər yoxdu"...91
"Sənə doğru getmişəm". "Ürəyimdən keçənləri bilməsən"...92
"Sevgilim yanımda yoxsa". "Üstümüzdən əsir həsrət yelləri"...93
"Ağrıların, əzabların"...93
"Öləzisə bu sevginin közləri". "Başımı söykəyərək"...94
"Qarşıda bizi". Ürəyimin sahibi...95
"Ömrüm-günüm, dünyada". "Beş-altı ildən sonra söhbəti"...96
"Sən xoşbəxtliyə"...97
"Mənim içimdə". "Yenə cilvələndi sevgi dənizi"...98
"İztirab – qəlbimi yeyən xəfif qəm"...99
Darıxmalı günlər. "Həsrət alovunda göynəsə için"...100
"Ah çəkirsən, gülmür üzün, nədəndir"...100
"Əgər ürəyində". Qırxıncı otağın sakini...101
"Sən mənim qəlbimin"...102
"İçimdən qəm karvanı". "Kim nə deyir desin". "Sənin qəlbinə dəyən"...104
"Necə dözüm, əzizim". "Soyuqluğun"...105
"Kiminin bəxtinə". "Sahilində dinclik tapır yalqızlar"...106
"Bəbəklərin silələnib yağışla...106
"Gözün havadan nəm çəkir". "Qəlbindəki sevgi çiçəkləri"...107



"Mən səni görmək üçün"...107
"Köksün yaralıdı sevgi dağından". "Ciyərimdə nəfəsinin"...108
"Biz bir-birimizə". "Qızına bilmədin eşqin közünə"...109
"Ən bəxtəvər anımızda"...110
"Tanrı sevgi işığını"...111
Qəm kölgəsi. "Yad mizrab dəyməyib"...111
"Tez-tez". "Hər sözünə can deyərdim"...112
"Qoruya bilməsəm mən öz sevgimi". "Mənim həssaslığım"...112
"Deyəsən qorxudubdur". "Mən elə bilirdim ki"...113
"Dünyanın sirlərlə"...114
"İstərdim səsindən". "Hər an qəlbimizdə qorxu, səksəkə"...115
"Qəlbin bu qədər"...115
"Yorulmuşdum". "Tanrı səni göndərib". Ən gözəl mahnı...116
"Söz vermisən ki"...117
"Bu dünyanı çox dolandım". Qəm buludu...118
"Onun qamətini". "Sevgidə uduzan bir insan". "Qəlbimə damıb ki"...119
"Ürəyimi boş qoyanda". "Bu eşqin önündə"...119
"Uzanıb havada qaldı əllərim". "Şam tək əriyirsən sən için-için"...120
Elə qısqancsan ki...121
Dənizin üstündən yollar görünür...122
"Gözlərimdən ayırmırdın gözünü". İçində gizlənən adam...123
Məhəbbət Tanrı nurudu...125
"Niyə qəfil üzün döndü". "Öləzidi sevgimizin közləri"...126
Sevgimin son nöqtələri...126
"Bu da qəlbimin". "Sahibi gəlib çıxdı"...127
"Nə köksündən". "Bu sevgi". "Özgəyə uyub gedirdin"...128
"Sevdalı ürəyim sığmır qəfəsə". "Nə qədər əzizdi"...129
Sevgi sərhəd tanımasa da...129
"Bizimki belə gətirib". "Yol gedirəm gələcəyə"...130
"Hər şeyin öz vaxtı var". "Öz sevgimə sadiqəm"...130
Heç nə əbədi deyil. "Qısqanclıq odu"...131
"Mənim şipşirin". Bir həzin qüssə...132
Çoxalır səni sevənlər...133
Qüssə dumanı...134
"Çətin ki". "Bəzən məni elə adamlara"...135
"Səni yanımda görənlər". "Mənim məhəbbətlə göynədi içim"...136
Çiçəkli yollar...136
"Daha sən tənha deyilsən"...137
"Aydan arı olan kəsə". "Bu sevginin". "Sən bəzən"...138
"Mənim qəlbimdə ayazdı"...139
"Əbəs yerə qısqanırsan". "Sənin keçilərin"...140
"Mənə". "Həyatdan zövq al". "Başımda hansı sevginінsə"...141
Yaralı quşcığaz...142
"Yenə də qu desən". Elə bilirsən ki...143
"Mən bu sevgi dastanımı". "Məndən sonra"...144

"Sən söz vermisən ki". Elə bilmə ki. "Sən öz soyuqluğunla....................145
Göydən üç alma düşdü. Pərdə....................146
"Gözlərinin işığı da azalıb". Sən soyuq olanda....................147
"Hər şeyi o saat duyur". "Heç nə vəd etmirsə". "İnsanlar vəfasızdı"....................148
"Dünən olsun". "İnsaf elə, a gülyanaq"....................148
"Əgər hesab edirsənsə". "Yolları bağlamaq olmaz"....................149
"Sevdalı qəlb". "Əgər atsan". "Bütün sevgilərə yadam"....................149
"Yol gedirəm gələcəyə aram-aram"....................149
Tənha qadının harayı. Epitafiya....................150

**Ömürdən düşən yarpaqlar**

Salam, iyirmi birinci əsr....................151
Əlli yaşım....................152
Yaşamalı dünyadı....................153
Ey vətən....................154
Ulduzlar....................155
Qusar lövhələri. Qayabulaq....................156
Gözləri yollarda qalan yarpaqlar....................157
Qarlı nağıl və ya Qusarda ilk qar....................158
Danışan ocaq....................159
Meşəyə açılan qapı....................160
Yağış yağır Qusara....................162
Son bahar. Qorxudan bar verən ağac....................163
Ötən günlər....................164
Yağış. 20 Yanvar. "Siyasət yarışında"....................165
Qara yaylıq. Qırmızı işıqlar....................166
"Boş vaxtımda şeir yazıram" deyənlərə....................167
"Şair Sabir" gəmisi....................167
Atama məktub....................168
"Yekəxana" ləqəbim....................169
Dəli Vaqif. Özümə məktub....................170
Sözümüzün, kəlməmizin çoxdu çaları....................171
Sənətin yolu....................172
Dağların şairə cavab sözü....................173
Sənət dağı....................174
Bu sözün altında....................175
Akademiya....................176
Bir şama bənzəyir şair ömrü də....................176
Rekviyem....................177
Qələbə bayrağı. Vəhşi quşlar. Bir dəfə....................178
Palıd qozası. "Düşmən havalanıb"....................179
"Yaşaya bilərmi". Oldu....................180
"Sona bülbüllər"....................181
"Nəğmə dənizi"....................182
Sənin göz yaşların....................183



Baxır döyən əlin kəramətinə....................183
Akademiyanın qarşısındakı bağ....................184
Top kimi. Yazı masam....................185
Yazı masama uzanan gül. "İnsan ürəyi"....................186
Qəbir. "Ölüm – əbədiyyətdi"....................186
Nəsillərin yarpaq tökümü. Sən....................187
Sükutun dili....................188
Astarada keçən gecəm. "Qaş-qabağı"... Bənzəyiş....................189
Cərrah. Meşədə....................190
Durna. Vida nəğməsi....................191
Ötən günlər düşən sarı yarpaqdı. Sim....................192
Ağacın sözü. "Bu nə isti nəfəsdi..."....................193
"Zirvədən dərəyə"... Hacıkəndin çiçəkləri....................193
İki zəlzələ. Qoca düşünür. "Dostlarının hörməti..."....................194
"Yağışın altında"... Gecə düşüncələri....................195
Nənəmin sözlərindən. Oğlum....................195
Eşqimizdən işıq alan üç ulduz....................196
Dağ çayının sahilləri. Bar ağacı. Dost....................197
Ucaldıqca. Arzu. "Bu taleyin oyununa nə deyim?"....................198
"Nə yaxşı ki, soyuq olur üzü torpağın"....................198
"Yarpaqlar yamyaşıl idi". "Şimşəklər göylərdə xalı toxuyur"....................199
"Ana" kəlməsindən başlayacaqdır....................199
Lövhə qabağında. Beş. "Bu sərsəri şeiriyyətin seyrinə gəl"....................201
Məktəbdə. "Kirsin zirvəsinə qalxmışam"....................202
"Qızıl tapmaq arzusuyla yer eşmisən"....................202
Su. Yarpaqlar. "Payızda qocalır..." 22 sentyabr....................203
Bahar duyğuları....................204
Baharın ad günündə....................207
Mehdi əmimin xatirəsinə....................208
"Bu vurhavur təsir etmir..." "Yastığım quş tükündəndi"....................208
Nə xeyri. Hələ....................209
Mənim bir günüm....................210
Nənələr köçünü çəkdi. Torpağın yorğanı....................211
Şeh. Payız....................212
"Yenə Kərəm soraqladı Əslini"....................213
Payızın səxavəti. Payızda....................213
"Yellər əsir, payız gəlib". "Gah bu, gah o..."....................214
Skripka. "Sözün, səsin özününsə...". Saxlayıb....................215
Nakam bir gözələ. Əhəng. Haqq....................216
"Gülməz fağırın üzünə". Sudan qorxursansa....................217
Çaxandan-çaxana....................217
Qar yağır. Qış. "Pozmaq mümkün deyil..."....................218
Üzdədi. Bazar....................219
"Bir şey yaza bilmirəm". "Dərddən mənə..."....................220
"Desələr də..."....................220

Bir ağac var idi....220
Sel kimi. Lövhə. Bənövşə....221
Kəkliyin. Bağda düşüncə....222
Çilingağac....223
Əbil əmi....224
Fərzalı dayı....225
Əhəd haqqında nəğmə....228
Ata məhəbbəti....229
Yurdumun sərvəti. Bakıdan ayrılarkən. İki çay....231
Ukrayna torpağında. "Düzü darıxırdım..."....232
Pisqaryovda. Pisqaryovda bir heykəl var....233
Volqa. Göyərçinlər. Zarafat....234
Bir bina görmüşəm. Qatarda. Tələbəlik xatirələrindən....235


**Dəniz nəğmələri**


Ləpədöyən....238
Dənizim. Bu dəniz....239
"Həmişə dənizin sahilindəyəm". Dəniz....240
Gülüm, sən də dəniz kimi mənə doğmasan....243
"Sahildə yanaşı dayansaq da biz"....243
"Mən belə bilirdim, belə deyilmiş". Dalğalara baş vuran qız....244
Dəniz mənim içimdədi. "Ürəyim çevrilib dəniz daşına". Bu dəniz....245
"Dənizi seyr edirdik ikimiz". "Bu qum necə narındı"....246
Ayaq izləri. Dənizdə səhər....247
Yox, mən qocalmıram....247
Bu səhər. Çimərlik nəğmələri....248
Mən sahiləm, sən dəniz. "Yel əsir, dalğalar olur ağ çiçək"....249
Dəniz və sahil. Xəzərin sahilində....250
Payızın sonuydu. Yenidən qoynunda görüşənədək....251
Gəl. Pəncərəm dənizə baxır....252
Gəlirəm, dəniz, gəlirəm. "Əyləşib ləpədöyəndə"....253
Dənizin nəbzi. Gündən günə....253
"Qızıl şəfəqlər altında". Dalğa qovur dalğanı. Sahildə düşüncələr....254
"Elə bil ki, bu gün gəlib dənizin təbi". "Əsəblərim gərilmişdi..."....255
Mən bir balıq idim....256
"Nəğmələrin hər çaları". Sən çıxdın dənizdən. Su pərisi....257


**Yaxşı ki, dünyanın sevənləri var**


Mənim sevdiyim və məni sevən bütün qızlara....258
"Sizə rast gələndən dincliyim itib"....259
Bəlkə....260
Məni layiq elə bu eşqə, Tanrım....261
Sənə kim dedi ki, sevgi günahdı....262
Mən belə deyiləm, məni bağışla....263
Gülüm, məhəbbətlə zarafat olmaz. Küskün bənövşəm....264





"Haqqım yox kimsədən küsəm, inciym". "Məhəbbətlə dolu ürəyimizi"....265
Dedin sadiq olur dostluğa qızlar. Mənim qanadlı çiçəyim....266
Ağ at. İlxıçı oğlu. "Zamanın qara saçıma"....267
Etiraf. Məni qınayan gözələ....268
"Qalmamışam bu dünyadan tamarzı". Eşq şimşəyi vuran ağac....269
Dənizdən utanan gözəl. "Ürəyim bu işdə çox naşı imiş"....270
Bu gözəl məndən pay umsa....270
Tufan qoxusu. "Sən dəniz istəyirdin". "Əyləşmişdik"....271
Büllur güldan. Söz çəməni....272
Adı nur, özü nur olan gözələ....273
Pis gül. Payız otu....274
Ruhum, bədənim. Mənə gül gətirən gözəl....275
Sən məni tanısan....276
Əlli birinci ulduz....277
"Sevir təbiəti, sevir dənizi". Məhəbbət döyür qapımı....278
Eh, sən beləsənsə. Məndən sevgi uman gözəllərə....279
Dəli könlüm ağıllanıb. Qəlbi yaralı bülbülüm. Mən şeir oxuyanda....280
"Qəlbimizdən keçənləri". "Damarımda axan qandı"....281
"Məni sevirsənmi söylə, əzizim". Rəqs....281
Mənimlə rəqs edən gözəl....282
Məndən şeir uman qızlar....283
Çiçəkləyir. Sənin aldığın qələm....283
Durnalar işığa uçur....284
"Ağ paltarlı bir gözəlin". Hər şeyi sözlə demirəm. Albom üçün....285
Etiraf. Həsrət yağışı....286
Gözləri yaşlı bənövşəm. Kəpənək qanadlı gözəl....287
Saçları payız gözəlim. Nəzir....288
Sənin rəsmin. Sənin əllərin....289
Dan ulduzu....290
"Yanağın kibrit qarası". "Kamana çevrilsən". Yaş o yaş deyil daha....291
Buz altında. Olum. "Yenə havalandı könlümün quşu"....292
Səninlə söhbət. "Bir ixtiyar kənarda dayanıb köks ötürür"....293
"Dənizlərlə işim yoxdu". "Sevdalı qəlbində". "Sənin ayrılığında"....293
Zireh. "Ürəyim bəxtiyar oldu". Üşüyən çiçək....294
"O gün yaman möhtac idi". "Ocağın məni yandırıb"....295
İşıqdı....295
Şeytan. Məhəbbət dəyirmanı....296
"İnsan ürəyini sevgi bəzəyir"....297
"Mənə yazdığın sözləri". Zarafat....297
"Həzin, kövrək bir sevdayla". "Odlu gözlər ürəyimi"....298
Axır ki üz-üzə qaldıq....298
Ay mənim xalsız gözəlim. Qar qız....299
Hansını seçim....300
İlham pərim....301
Bu ilin son gecəsində....302

"Qara gün gələndə bəndə birləşir"....302
Mən səni belə bilməzdim....303
Manana....303
Qaytara bilməzsən....304
Bir məktubdan. Küçüyüm....305
"Yenə kövrək ürəyində". Yalquzaq....306
"Yalquzaq tək görsə"....306
"Həsrət baxışımla ötürdüm səni"....307
Neyləyim. Olub....307
"Məhəbbət gülşənimə...". "Məni xoşbəxt eləyər..."....308
"Allahdan izn diləyib". "Ağsaqqal, saqqalın ağdı"....308
"Ay Əzrayıl...". "Könlüm vüsal təşnəsidir..."....309
"Qanunlar olsa da..."....309
"Əziz dostum, hərdən məni...". "Titrədim, incə səslə..."....309
"Sənin sakit durmağına..."....310
Təzə sevdalara doğru....310
Bəlkə qəlbimə yaz gəldi....311
Sən bir sevda ağacısan....311
Nəğmə. Var....312
Nə sən günahkarsan, nə mən günahkar....313
Qədəmin mübarək....313
Məni xoşbəxt eləməyə nə var ki....314
Yuxun çin olsun, gözəlim....314
"Sevdasız bir ömür..."....315
İlahi bir eşqin itaətində....315
Bu gözəl gülü bəyənməz....315
Eləməsin. Məhəbbət yaşayacaq....316
Təzə gəlin....317
Səndən başqa kimim var....318
Qəlbimi qurban demişəm. Eh, bu hələ harasıdı....319
Gülüm mənim....320
Bu gecə....321
Gülüm, keç günahımdan....322
Ağar, saçım. Qaytar....323
Nazına qurban olum....324
Elə baxma. Bəs bu giley nədi....325
Umacağım var....326
Sevgi fəsli. Ağlayan güllər....327
O aylı axşamda....328
Sənin pəncərən. Kişi ürəyi....329
Unudulmaram. Dağlardan gələn çiçək....330
Tale qismətimə səni göndərib. Qız əlləri....331
Yaxşı ki, dünyanın sevənləri var. Qırmızı çiçək yağışı....333
Sevgini sevgiylə unutdurarlar. Gördüm....333
"Dünyanın sevgi yükünü". Gözmuncuğu....334



"Qamətini görən kimi". "Öz xoşuma...". Kiçik şeirlər....335
"Nə zirvəyik, nə yamac". Bəhanə. Vida....336
Əbədi hicran. Vüqar. Hüquqçu qız....337
Yazırsan. Sənə oxşayır....338
Çiçəklər. Qatarda....339
Sən getsən. Toxunma sirrimin düymələrinə....340
Lazımsız məhəbbət....341
"Titrək dodağında sevirəm sözü". Öpüşlər....342
Yağan yağış deyil....343
"İçin-için yanıram". "Hər ürək bir dünya deyilmi....344
Qəribəm....345
Elə susursan ki. 31 dekabr. Qadın bədəni....346
Küçəmizdən keçən qız....347
Sənin təbəssümün... "Eşqim bilirəm ki..." Təsəlli....348
Kənd cığırında....349
Sənin sükutun....350
Dindi o şirin sözlüm. "Daşda kəklik çolpaları..."....351
"Yenə buludların..." Sən demə....352
Həsrət çiçəkləri. Cəza....353
İş planı. "Payız gedir, başı qarlı"... Gözəllik əmanətdi....354
"Sinəmə söykədin"... "Səni ellər qınayar"....355
"Vaxtında deyilmədi"....355
Əlim yuxu görər....355
Bu gün heç kim ilə görüşməyəcəm. Dördlüklər....356
Adilərin orbitində....361
Mədəniyyət arxasında gizlənən kişi....361
Bizim aramızda on illik yol var....361
Bu da bir dərd. "Nə xoşdur bir yerdə olmaq"....362
Qibtə. Hər səhər qarşımdan bir gözəl keçər....363
Qız olarmı bu qız kimi. Eşqimin dan ulduzu....364
Bu torpağın övladı. Elə baxma....365
Gözləyə-gözləyə....365
Barlı budaqlar. Xallı qız....366
Gözlər. Arxa. Kəhər....367
Kaş bir dağ çayı olam. "Hünərin var"....368
Ləçəyə yazılan şeir....368
Mənim çiçəklərim açıldı yenə. Çətir....369
Bir anın sevinci....369
Sevgi göydən gələn ilahi paydı. İki baş....370
"Əgər çiçəkləməsəm". Ayrılığı illər salıb....371
"Ürəyim göynəmir"... "Kiməsə uyub"... "Mən sevgimdə də"....372
"Mən elə bililirdim ki". "Havada tutmusan"....373
"Mənim üzümə bağlanan". "Üzünü üzüm bilirəm"....373

Bu kitabın nəşrində mənə yardımçı olan dostlarıma dərin təşəkkürümü bildirirəm.

Müəllif

**Rafiq Yusifoğlu**
**( Rafiq Yusif oğlu Əliyev)**

# Dəniz, sən və mən
(şeirlər)

Rəssam: İlqar Tofiqoğlu
Kübra Salamova
Korrektor: Günel Almaz

Çapa imzalanmış 29. 04. 2009-cu il
Kağız formatı 60x84 1/16, çap vərəqi 24
Sifariş 94, sayı 500

ADPU-nun mətbəəsi
Bakı, Ü.Hacıbəyov küçəsi, 34
Tel: 493-74-10

